YUSİF ƏHMƏDOV

# ƏLƏKEÇMƏZLƏR-3

BAKI-2013

**Azərbaycanın azadlığı, torpaqlarımızın bütövlüyü və demokratik dəyişikliklər uğrunda mübarizə aparmış jurnalistlərin və MTN, DİN-in rəşadətli əməkdaşlarının xoş xatirəsinə ithaf edirəm.**

**Müəllif**

Redaktor: **Aydın Xan (Əbilov)**

**Yusif Əhmədov. "Əlәkeçməzlər-3",** - roman.
"Şərq-Qərb", Bakı, 2013, ... səh.

*Tanınmış nasir Yusif Əhmədov ötən əsrin 60-cı illərində ədəbiyyata gələn yazıçılardandır. İlk kitabı "Əfqan hekayələri" adı ilə 1965-ci ildə Tacikistanın Düşənbə şəhərində çap olunub. "Ələkeçməzlər-1" müəllifin sayca 20-ci kitabıdır. Kitabdakı eyniadlı roman öz janrına görə müəllifin başqa əsərlərindən fərqlənir. Azərbaycanın ilk milli detektiv romanı olan "Ələkeçməzlər-1" kitabındakı hadisələr 1992-2006-cı illər ərzində Bakı şəhərində və əyalətlərdə baş verən müxtəlif kriminal hadisələrdən bəhs edir.*

*Adam oğurluqları, qətllər, sifarişlə qətlə yetirilənlər və onlarca insanı heyrətə salan ölüm hadisələri, eləcə də ağır, zəhmətli, uzun vaxt aparan cinayət işləri. Hadisələrin mərkəzində DİN-in polkovniki Hacı Məmmədov və onun quldur dəstəsi dayanır.*

**İSBN**

**© Yusif Əhmədov, 2013**
**© "Şərq-Qərb", 2013**

## Kriminal zamanın bədii tənqidçisi

Tanınmış yazıçı-publisist, şair, ziyalı Yusif Əhmədovun üç il bundan əvvəl - 2007-ci ildə oxucu marağına səbəb olmuş "Ələkeçməzlər" detektiv kitabındakı eyniadlı romanın davamını adi vətəndaş kimi oxumaq istəməsəm də, həyatımızın kriminal nəbzini tutmaq, ona müəllifin özünəməxsüs baxış bucağından nəzər salmaq, baş verən mürəkkəb hadisələrin arxasındakı böyüklü-kiçikli, milli, yaxud qlobal motivləri, problemləri görmək, onların mahiyyətini, səbəblərini öyrənmək baxımından, üstəlik də əsərin bədii redaktoru kimi peşə vərdişindən irəli gələn həssaslıq diqqətimi daha da artırdı. Yaradıcı insanın dəqiq-intiutiv proqnozlarının hətta reallıqda da - kriminal proseslərin əsərdən başqa, yaşadığımız günlərdə də inkişafi baxımından (Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik və Daxili İşlər Nazirlikləri tərəfindən ifşa olunan müxtəlif silahlı dəstələr barədə ölkə mətbuatında gedən məlumatları xatırlayaq) "Ələkeçməzlər" detektiv romanının ikinci hissəsi şəxsən oxucu kimi mənə çox maraqlı gəldi.

Ədəbi zövq, mütaliə səviyyəsi, kulturoloji baxış mənasında seçim imkanlarına malik olan intellektual oxucu kimi özüm detektiv əsərlərin həvəskarı olmasam da, Yusif Əhmədovun artıq üçüncü kitabı yazılan "Ələkeçməzlər" romanının hər iki cildində baş verən hadisələrin virtual iştirakçısına çevrilən şəxs kimi inanıram ki, oxucular da eyni hissləri bölüşəcək. Ən azı ona görə ki, bu

olaylar yaşadığımız mürəkkəb, qarmaqarışıq, ictimai-sosial proseslərin sürətlə dəyişdiyi bir dövrün "məhsul"udur, istər-istəməz biz də onun ya aktiv, ya passiv, çox zaman kənardan müşahidə edərək heyrətlənən müşahidəçiləri, bəzi hallarda isə iştirakçılarına çevrilirik.

"Ələkeçməzlər" romanının hər iki hissəsi klassik detektiv ədəbiyyatın tələblərinə uyğun yazılıb: əsərdə dramatik süjet xətti, kriminal faktların çoxluğu, şər və xeyir qüvvələrin qarşılıqlı mübarizəsi, cəmiyyət ilə ayrı-ayrı fərdin münaqişəsi, intiriqalar, real həyatdan götürülmüş hadisələrə müəllifin özünəxas baxışları, müxtəlif dolğun surətlər, eləcə də köməkçi obrazların çoxluğu, cani dünyasının incəlikləri, mütəşəkkil cinayətkar dəstələrin iş pirinsipləri, hüquq-mühafizə qurumlarının, digər əlaqədar dövlət təşkilatlarının apardığı mübarizə metodları, cinayətkarların psixoloji xarakterik xüsusiyyətləri kimi ənənəvi cəhətlərlə yanaşı, yazıçı tərəfindən tamam real sübutlar, dəlillər, faktlar, həmçinin sənədli məhkəmə-istintaq materialları ilə zəngindir. Üstəlik də ictimai təhlükəli qüvvələrə, mənfi ünsürlərə qarşı amansız mübarizəyə başlamış müstəqil Azərbaycan dövlətinin hüquq-mühafizə strukturlarında çalışan peşəkarların adamda həmişə güclü maraq oyadan gizli metodlarını da bura əlavə etsək, oxucunu kifayət qədər maraqlandıran bir detektiv əsərlə qarşılaşırıq...

Oxucu əsərə diqqətlə baş vurduqda, bəzi səhifələrdə istintaqçı - müstəntiq, bəzənsə polis əməkdaşı, dövlət təhlükəsizlik orqanlarının nümayəndəsi, prokurorluq və

məhkəmə, eləcə də peşəkar hərbiçi kimi, hətta müstəqil araşdırıcı dedektiv kimi də özünü hiss edə bilər. Əsərin ikinci hissəsində - hadisələr Dağlıq Qarabağda baş verən zaman isə oxucu hətta özünü əsl döyüşçü, erməni qəsbkarları tərəfindən zəbt edilmiş iyirmi faizi Vətən torpaqları uğrunda həyatından keçməyə hazır olan igid partizan kimi də hiss edir.

Başqa bir tərəfdən isə dünyanın çox üzünü görmüş, vaxtilə ötən əsrin səksəninci illərində Əfqanıstanda baş verən məlum hadisələr zamanı, eləcə də Ermənistan - Azərbaycan müharibəsi, Dağlıq Qarabağ münaqişəsinin iştirakçısı olmuş, həyatının müdriklik zirvəsinə qalxmış peşəkar yazıçı-publisist kimi Yusif Əhmədov digər əsərlərindəki özünəməxsus dəst-xətti, yaradıcı stixiyasını qoruyaraq, sırf detektiv janrında qələmə aldığı "Ələkeçməzlər" romanının hər iki hissəsində real cizgilərlə həyatın sərt tərəflərinə ədəbi işıq salmağı məharətlə bacarmışdı. Ədib müxtəlif psixoloji situasiyalar, fərqli mənzərələr təsvir etməklə, biri digərindən hansısa cəhətinə görə seçilən maraqlı surətlər qalereyasını yaratmaqla, cəmiyyət problemlərinə aydın, açıq baxış sərgiləyib ki, bu da romanın daha da oxunaqlı edir. Maraqlı tərəflərdən biri də odur ki, yazıçı sanki zamanın tənqidçisi qismində uğurla özünü göstərir: eləcə də ictimai-sosial, bəzi hallarda isə siyasi-iqtisadi sahələrdəki çatışmamazlıqları qətiyyətlə tənqid edən ədəbiyyat - düşüncə adamı kimi çıxış edir. Bu zaman isə müəllif sadəcə, kəskin, pafoslu cümlələrdən yox, müdrik məsləhətlər

verən intellektual, sosioloji araşdırmaçı və cəmiyyətşünas kimi çıxış etməyi bacarır.

Peşəkar ədəbiyyatçılar yaxşı bilirlər ki, son illlərin bədii əsərlərində ictimai-sosial mahiyyətli, cəmiyyəti düşündürən problemlər, ciddi məsələlərlə bağlı cəhətlər olduqca çox zəifləyib. İlk baxışdan çağdaş milli Azərbaycan romanlarında, eləcə də ortahəcmli bədii nəsr əsərlərində - povest və hekayələrdə ictimai məsələlər, sosial-mənəvi problemlər qabardılır. Lakin bu cəhət təəssüflər olsun, yalnız publisitlik üslubda qələmə alınmış əsərlərdə görürük, çox hallarda isə pafosdan o yana inkişaf edə bilmir. Ən uğurlu əsərlərimizdə isə hadisələr sanki Azərbaycanda - zəmanəmizdə deyil, xarici ölkələrdə, tarixdə baş verir. Azərbaycan detektiv ədəbiyyatındakı bu zəif cəhət - axsıyan tərəf XX əsr bədii söz sənəti tarixində özünü qabarıq göstərir, günü bugün də xüsusi olaraq öz aktuallığını saxlamaqdadır. Bəlkə də buna görədir ki, Azərbaycan oxucusunun milli detektiv əsərlərə marağı zəif, meyli az, diqqəti isə həmişə sönük olub.

Yusif Əhmədovun haqqında danışdığımız "Ələkeçməz" milli-detektiv romanının hər iki kitabında isə oxucu tamam fərqli mənzərə ilə rastlaşır. Yazıçının həyat reallıqlarına, zəmanənin ağrı-acılarına bu qədər diqqətlə yanaşması, bəlkə də onun uzun müddət naşir, baş redaktor və publisist kimi mətbuatda apardığı ictimai-mədəni missiyasından, peşəkar jurnalist vərdişlərindən irəli gəlir.

Hər hansı bir əsrin ədəbiyyatı mərhələ olaraq araşdır-

maya cəlb ediləndə onun estetik tərəfləri ilə yanaşı ictimai-mədəni mahiyyətinə də qiymət verilməyə səy göstərilir. Nizami Gəncəvi, Məhəmməd Füzuli, Mirzə Fətəli Axundov, Cəlil Məmmədquluzadə, yaxud Hüseyn Cavid yaradıcılığının bədii-estetik cəhətləri intellektual-fəlsəfi mahiyyəti ilə bərabər, həm də ictimi məsələlərə, zəmanəsinin ən aktual problemlərinə münasibətdəki roluna görə böyük maraq kəsb edir, bir sıra hallarda isə müqayisəli-tarixi əhəmiyyətə malikdir. Misal kimi göstərə bilərik: dahi Məhəmməd Füzulinin ana dilimizin - Azərbaycan türkcəsinin ədəbi-poetik, estetik-fəlsəfi cəhətdən formalaşması ilə bağlı gördüyü nəhəng kulturoloji fəaliyyətin əhəmiyyəti heç də üç - türkcəmizdə, ərəb və fars dilində yaratdığı "Divan"larındakı qəzəllərində az deyildir. Yaxud da kim daha dəqiq qiymətləndirməyi bacarar ki, Azərbaycan tarixində Şah İsmayıl Xətainin əsərləri daha önəmli yer tutur, yoxsa onun milli poeziya ilə Şərq, ərəb və fars poetik-ədəbi texnologiyalarını qovuşdurması və ya ana türkcəmizi dövlət dili səviyyəsinə qaldırması?..

Bu mənada zaman və məkan, sənətkarlıq imkanlarını da nəzərdən qaçırmadan, dövrümüzün bir sıra tanınmış bədii söz ustalarından heç də geri qalmayan Y.Əhmədovun milli detektiv janrımıza gətirdiyi yeni çalarların əhəmiyyətini vurğulamaq yerinə düşər, üstəlik də yuxarıda göstərdiyimiz kimi, bir çox cəhətlərinə görə, yazıçının kəskin vətəndaş mövqeyi alqışlanmalı, xüsusi dəyərləndirilməlidir.

Kitabın ilk hissəsinə yazdığımız ön sözdə də göstərmişdik ki, bu roman özünəməxsus bir ədəbi-ictimai fakta çevriləcək. Budur, cəmiyyətimizdə baş verən kriminal hadisələrin hələ bitmədiyi bir zamanda müəllif "Ələkeçməzlər" romanının ikinci, hətta üçüncü hissələrini yazaraq bir sıra cəsarətli işlərə qol qoyur, görücülərə xas olan bir fəhmlə hadisələrin başvermə səbəbləri, inkişaf istiqamətləri, nəticələri və cəmiyyətin inkişafındakı mənfi təsirləri barədə geniş mülahizələrlə çıxış edir. Nə qədər qəribə görünsə də, yazıçının gəldiyi qənaətlərin, irəli sürdüyü mülahizələrin, çıxardığı nəticələrin əksəriyyəti həyatda öz təsdiqini tapır...

Romanın ikinci hissəsinin əsas obrazları bizə hələ ilk kitabdan yaxşı tanışdır: Polkovnik Kazımov, Əli, Susən, Nəcəf, Rizvan, Xumar və başqaları. Hadisələr yenə də artıq dünya paytaxtları arasında sayılan-seçilən meqapolisə çevrilmiş Bakıda baş verir. Müstəqil Azərbaycanın paytaxtı olmaqla yanaşı, dünyanın müxtəlif güc mərkəzlərinin maraq dairəsində düşmüş Bakının mürəkkəb şəhər həyatında demək olar ki, hər gün baş verən kriminal hadisələrin qabağını iki dövlət qurumu - DİN və DTN-nin əməkdaşları almaqdadırlar. Zəmanənin kriminallaşmaqda olan nəbzini tutmaqla yanaşı, bu dövlət qurumlarının igid əməkdaşları, eyni zamanda, həm də Dağlıq Qarabağda at oynadan erməni faşizminin qarşısını almalıdırlar. Hələ üstəlik, onlar müxtəlif istiqamətlərdə quldur dəstələrinin həmlələrindən dövləti, vətəndaşları qorumaq üçün də bütün imkanlarını səfərbər etməlidirlər.

Azərbaycan ədəbiyyatında model təklif edən müəlliflərə çox az rast gəlinir: Mirzə Fətəli Axundov, Hüseyn Cavid kimi sənətkarların yaradıcılıqlarının əksər hissəsi məhz əsər-model sayılmalıdır. Fikri yalnız M.F.Axundovun "Aldanmış kəvakib" povesti üzərində cəmləmək bəs edir ki, əsər-modelin, yaxud yazıçının zəmanədaşları və gələcək nəsillər üçün təklif etdiyi formatın mahiyətini anlayaq. Ömürlük hökmranlıq edən Şah Abbas və üçgünlük demokratik islahatları ilə məşhurlaşan Yusif Sərrac timsalında - aqibətində böyük Axundov hələ ondoqquzuncu yüzillikdə Avropanın XX əsrdə əldə etdiyi siyasi formatı, cəmiyyətin, millətin və dövlətin inkişaf konsepsiyasını ortaya qoymuşdu.

Məlum Dağlıq Qarabağ müharibəsi zamanı zəif də olsa gedən partizan hərəkatının bir modelini də Yusif Əhmədov özünün yeni əsərində - "Ələkeçməzlər" romanının davamında təklif edir. Düşmənin öz məkrli siyasətini erməni qəsbkarlarına yönəldilmiş silaha çevirməyi təklif edən müəllif vaxtilə dünyanın münaqişəli yerlərində vuruşmuş, daha sonralar kriminal aləmin "qəhrəmanı"na çevrilmiş "Ələkeçməz"i bir şəxsiyyət kimi inkişaf mənəvi təkamül vasitəsilə az qala milli qəhrəmana çevirir.

Eyni vaxtda istər Xankəndində, istərsə də Laçın dəhlizində, o cümlədən qədim Azərbaycan torpaqlarında - Dağlıq Qarabağa silah-sursat daşınılan Ermənistan hərbi birləşmələrinin ərazisində böyük partlayışlar törədən partizan qrupunun igid üzvləri canları, qanları hesabına,

sözün əsl mənasında, qalib erməni ordusu mifini bir andaca məhv edir, qonşu dövlətlərin hərbi yardımı nəticəsində “xoruzlanan” başıpozuq quldur dəstələrini darmadağın edir.

Əsərdə iki cəbhədə gərgin mübarizənin şahidi oluruq: ön sırada Dağlıq Qarabağda gedən səssiz vuruş, arxada - Bakı və bölgələrdə isə kriminal ünsürlərə qarşı aparılan savaş. Müəllif hər iki cəbhədə xeyrin şər üzərində qələbəsini uğurlu ədəbi priyomlarla, bədii tapıntılarla, dolğun surətlərlə verməklə müvəffəqiyyət qazana bilir və əslində bununla da Azərbaycan ədəbiyyatının yaşı əsrlərlə ölçülən tarixinin ən yaxşı ənənələrini davam etdirmiş olur - xalqın harmonik yaşayışı üçün qara qüvvələrə qarşı əsl şəxsiyyətlər birləşməli və gərgin mübarizə aparmalıdırlar...

22 kitabın müəllifi, müxtəlif ədəbi mükafatların laureatı Yusif Əhmədov, yaradıcılığında daha çox Qarabağ probleminin, həmçinin Ermənitan və Azərbaycan arasındakı məlum münaqişənin insanların taleyinə vurduğu ağır mənəvi-psıxologi, sosial-mədəni bəlaları ədəbiyyata gətirməyə meyilli olduğundan, hətta bu növbəti detektiv əsərində də ənənəsinə sadiq qalır, qəhrəmanlarını Qarabağı qarış-qarış gəzdirməklə, bir növ ata-baba torpaqlarının ədəbi-bədii xəritəsini çəkməyə, portretini cızmağa çalışır.

Birnəfəsə oxunan romanın bu hissəsində də son illərin ən qalmaqallı ölüm səhnələri, qətllər, terror hadisələri, mütəşəkkil cinayətkar dəstələrin ifşa olunması,

"Qara kəmər" əməliyyatı, Hacı Məmmədov olayları, "Əl-Qaidə" beynəlxalq terror şəbəkəsi barədə sənədli detallarla geniş məlumatlar var. Bakı, Dağlıq Qarabağ, Azərbaycanımızın şimal bölgələri, Çeçenistan, London, Gürcüstan, Avropanın müxtəlif ölkələri kimi coğrafi ərazilərdə baş verən kriminal, həm də real olaylar, əlbəttə, oxucuda maraq oyadır. Burala satqın polis zabitinin surəti də var, "Qarabağ" sindromundan əziyyət çəkən cavanlar da, prinsipial hüquq-mühafizə orqanlarının əməkdaşının prototipi də yaradılıb, eyni zamanda, artıq cəmiyyətimiz üçün adiləşmiş əxlaqsız qadınların obrazı da. Üstəlik son zamanlar, az qala, dəbə minmiş manyaklar barədə incə məqamlara qədər psixoloji açıqlamaları oxumaq əsəbləri tarıma çəkir.

Budur, romanın bu kitabında da tükürpədici kriminal olaylar, səs-küylü qətllər, dəhşətli cinayət hadisələri geniş təsvir olunur, lirik sevgi dramı, dostluq, yoldaşlıq, ailə həyatının romantikası kimi gözəllikləri də öz yerində. Polis əməkdaşlarının, Milli Təhlükəsizlik Nazirliyinin nümayəndələrinin igidcəsinə yerinə yetirdikləri vəzifə borcları haqqında hərarətli epizodlar yenə də romanın əsas üstün cəhətlərindən sayıla bilər. Yazıçı əsərin ardında bir daha vurğulamaq istəyir ki, fəaliyyətlərindəki bütün kəm-kəsirlərə baxmayaraq, dövlətimizin güc strukturları cəmiyyətin dinc yaşayışı üçün əllərindən gələnləri edir, lazım olanda hüquq-mühafizə orqanlarının rəşadətli əməkdaşları canlarından belə keçməyə hazırdırlar.

“Ələkeçməzlər” romanının üçüncü hissəsi - yazıçı-publisist Yusif Əhmədovun bu yeni yaradıcılıq uğuru - əsərin daha maraqlı davamı ilə tanışlıq oxucularda ayrı təəssüratlar oyadır: hadisələr isə daha qlobal masştabda - Avropadan tutmuş, ta uzaq Liviyaya qədər uzanan məkanlarda baş verir...

**Aydın Xan (Əbilov),**
**Yeni Yazarlar və Sənətçilər Qurumunun sədri, yazıçı-kulturoloq**

## I fəsil

...Vaxt daraldıqca, həyəcanı artırdı. On ildən artıq idi ki, Xumarı görməmişdi. Bu illər ərzində nələr yaşadığını təkcə özü bilirdi.

...Əli yoxa çıxan günlərdə Süsən Londondakı kiçik kafenin küçə eyvanında oturaraq tez-tez xəyala dalırdı. Doğulub boya-başa çatdığı Bakı şəhərini, "Malakan" bağını, bağın arxasından keçən darısqal, qaranlıq küçəni, ikimərtəbəli həyət evini xatırladıqca, elə hey həyəcanlanır, bu həyəcandan doğan duyğular gözyaşına çevrilərək yanaqlarından axırdı. Atalı-analı günlərini unuda bilmirdi. Atası ona çox böyük ümidlər bəsləyərdi. Əli ilə tanışlığı qızın həyatını alt-üst etdi. O, müdhiş qaranlıq küçədə Əlinin onu "pəzəvəng"lərin əlindən qurtardığı günü yadına salanda, o günə də, özünə də lənətlər yağdırırdı. Əliyə olan sevgisi Süsənin gözlərini pərdələmişdi. Bu pərdənin arxasında nələrin olacağını o hələ yaxşı bilmirdi.

Onlar vətəni tərk etdikdən sonra bu pərdə yavaş-yavaş açılmağa başladı. İllərlə susan, öz həyatından bir söz belə danışmayan Əli, bir səhər Çesterdəki evlərində olarkən, öz həyatını Süsənə danışdı. Bu kədərli hekayə

Süsəni məyus etsə də, özünü sındırmadı. Sakitcə, göz-yaşlarını içə-risinə tökə-tökə Əlini axıra kimi dinlədi.

O, çoxdan danışıb qurtarsa da, Süsən heç qımıldanmadı da. Çarpayının qırağında oturaraq sakitcə gözlərini pəncərəyə zilləmişdi. "Yaxşı ki, söylənməmiş söz qalmadı aramızda", - deyə Süsən fikirləşirdi: "Söylənməmiş söz insana ağır yük olur". Əlinin bu ağır yükdən azad olmasına sevinirdi.

Süsən sevdiyi insanın əlindən tutaraq onu oxşadı:

- Artıq çox şeylər arxada qalıb. Lakin sən heç vaxt arxaya çevrilib onlara baxmamısan. Yəni doğrudan da olanlar səni heç incitmirdi?

- Əlbəttə, incidirdi. Osman mənə deyirdi ki, keçmişi xatırlamaq cəhənnəmdən keçmək kimi bir şeydir. Sən düz deyirsən, həmişə keçmişlə yaşamaq olmaz axı! Mən fikirləşirəm ki, bizim heç birimiz bunu etməməliyik. Öz uşaqlığımı xəzinə hesab etmirəm və heç vaxt da onu xəzinə kimi gizlətməmişəm. Məsələ ondadır ki, nə vaxtsa bunu bitirmək lazım idi.

- Anan səni atıb gedəndə doqquz yaşın var idi?

- Hə, ona yaxın bir rəqəm idi. Bunun bizim söhbətimizə nə dəxli var?

- Məsələ ondadır ki, tezliklə bunu bitirmək lazım idi. Sən bunu etdin. Artıq həyatımızın qaranlıq hissəsini kəsib atmaq, özümüzün həqiqi həyatımızı yaşamaq lazımdır.

Süsən əlləri ilə başını tutdu. Çiyinləri titrəyirdi. O, için-için ağladıqca, Əli də kövrəlirdi. Lakin O, Süsəni

sakitləşdirmək niyyətində deyildi. "Gözyaşları qadını sakitləşdirən yeganə dərmandır", - deyə fikirləşdi.

Süsən ağlayıb sakitləşəndən sonra Əlidən soruşdu:

- Bu çox ağrılı idi?

- Heç də yox! Anamın məni atıb getməsi içimdə heç bir ağrı yaratmadı. O heç ana da deyildi. Bütün bunlar sənə qəribə görünə bilər. Mən hiss edirəm ki, səni inandıra bilmədim.

- Mənim sənə inanmamağa əsasım yoxdur.

- Bəlkə yalan danışım ki, qəddar olmadığıma inanasan?! Düzünü deyim ki, özgə toru ilə balıq tutan çox uzağa gedə bilməz. Uzun illərdən sonra mən anamı tapdım. Lakin onu bağışlaya bilmədim. Anam özü-özünü partlatdı. Partladıcı qurğu ona bağışladığım saatın içərisində idi. Heç kim onun üçün ağlamadı, elə mən özüm də. Axı niyə də ağlamalı idim? Anam yaşadığı həyatın qurbanı oldu.

- Nə üçün? Axı niyə belə olur? O vaxt ki, ölümdən qorxursan, onda həyatın dəyəri bilinir. Kimsə, nə vaxtsa bizi tərk edirsə, biz buna kədərlənirikmi? Onlar sağdır, elə bizim kimi. Fərq ondadır ki, biz onları görmürük. Onlar isə bizim ətrafımızda, fikir və düşüncələrimizdə yaşayırlar.

- Mən belə fikirləşmirəm. Niyəsini bilmək istəyirsən?

- Yox! Əlbəttə, yox! - Süsən gözlərini qapadı. - Mən sənə kömək etmək istədim. Sən başqa cür ola bilsəydin, mən səni sevə bilməzdim...

***

...Tbilisi hava limanından göyə qalxmış “Boinq-720” sərnişin təyyarəsi London hava limanında yerə endi. Sərnişinləri qarşılayan adamların hərəkətə gəlməsi Süsəni özünə qaytardı. Nigar bacısının əlindən tutaraq Süsəni səslədi:

- Ana, tez ol gedək, indicə atamı görəcəyik!..

Sərnişinlər yavaş-yavaş çıxış qapısında görünməyə başladılar. Süsənin həyəcanı artmışdı, ürəyi şiddətlə döyünürdü. «İlahi, sən mənə güc ver!» - deyə düşündü. Uzun ayların ayrılığından sonra Əli sağ-salamat geri qayıdırdı. Bəs Xumar? Onu bir dəfə görmək üçün Süsən nələrdən keçməz idi?!.

Qatmaqarışıqlıq içərisində Süsənin gözləri yol çəkirdi. Bu yol onu bir neçə il geriyə, Xu-marla Londonda ilk dəfə görüşdüyü yerə çəkib aparırdı...

- Siz məni kiminləsə səhv salırsız...

- Sənə nə olub, Süsən? Doğma bacını tanımadın? Yoxsa aramızda olan incikliyi hələ də unutmamısan?

- Mən Süsən deyiləm, biz türksoylu Böyük Britaniya vətəndaşlarıyıq.

- Ola bilər, bu dünyada hər şey mümkündür...

- Ana, bir ora bax, atamgil gəlir! - uşaqlar irəli yüyürdülər. Süsən yerindən tərpənmədi. Elə bil gözəgörünməz qüvvətli bir əl onu tutub saxlayırdı.

- Sənə nə olub, Süsən? Cavab versənə, niyə məni tanımaq istəmirsən?

- Adama neçə dəfə deyərlər, mən Süsən deyiləm!

- Yaxşı, qoy sən deyən olsun. Ancaq xahiş edirəm məni dinlə!

- Nə demək istəyirsiz? Axı sizə nə lazımdır?

- Nə demək istədiyimi çox gözəl bilirsən. Mənə sən lazımsan. Mən sənin bacınam. İnan mənə, səni çox sevirəm...

- Ana, sən kiminlə danışırsan? Gəl gedək, odur ey, atam da gəlir. Nigar onun əlindən tutaraq onu çıxış qapısına doğru dartsa da, Süsən yerindən tərpənmək istəmirdi...

***

Polkovnik Kazımov gözlərini yumaraq hərəkətsiz oturmuşdu. Tanınmış iş adamı Vəli Qurban oğlunu öz villasında qətlə yetirmişdilər. Elə həmin gecə Hərbi Sənaye Nazirliyinin baş mühəndisi Validə xanımı da öz yataq otağında öldürmüşdülər. Vəli Qurban oğlunun cəsədini əncir ağacından asılmış vəziyyətdə tapmışdılar. Bu qətllər arasında hansı əlaqələr ola bilərdi? Bu iki sual Söhrabın qarşısında həlli çətin olan məsələ kimi dururdu.

Kim öldürüb? Niyə öldürüblər? Söhrab əlavə məlumat toplamaq üçün hadisə yerinə getmişdi. Şübhəli məqamlardan biri də hadisə baş verən yerdən - əncir ağacından 10-15 metr kənarda qan ləkələrinin olması idi. Bağ evinin ətrafında - qonşuluqda yaşayan sakinlər həmin gecə güllə səsi eşitmədiklərini demişdilər. Hadisə

yerində aparılan müşahidələr və ekspert həkimin gəldiyi qənaətə görə, mərhumun intihar etməsi versiyası inandırıcı deyil. İlk müayinə zamanı Vəli Qurban oğlunun əvvəlcə qətlə yetirilib, sonra ağacdan asılması ehtimalı daha inandırıcı görünürdü. Bunu həyətin sağ tərəfindəki qarajın qapısı ağzında yerə tökülən qan izləri də təsdiqləyirdi. Mərhumla bağlı bütün detallar araşdırılmalı idi. Araşdırmanın sonunda Vəli Qurban oğlunun intihar etməsi, yaxud qətlə yetirilməsi müəyyən olunacaqdı. Hələlik isə Söhrab yarımçıq suallara cavab axtarırdı. Vəli Qurban oğlunun ölümü onun biznesi ilə əlaqədar ola bilərdimi? O axır vaxtlar İrana tez-tez gedib-gəlirdi. İranda kiminlə görüşürdü? Məsələ getdikcə qəlizləşirdi. Görəsən onun ölümü bununlamı bağlı idi?...

Söhrab dünən axşam Mürsəllə olan telefon söhbətini xatırladı... Mürsəldə olan məlumata görə, Vəli Qurban oğlu İran səfirliyinin nümayəndəsi ilə ölümündən iki gün əvvəl görüşüb. 2010-cu ildə onun arvadı Validənin Təbrizdə İranın Təhlükəsizlik İdarəsi tərəfindən həbs edilməsi barədə məlumatlar var idi. O vaxt İran Kəşfiyyat İdarəsilə casusluq etmək üçün Validəyə bir neçə sənədə zorla qol çəkdirmişdilər.

- Sən səhv etmirsən ki? Bəlkə yanlış məlumat ötürüblər?

- Xeyr! Validə özü Təbrizdən qayıtdıqdan sonra bizim idarəyə gəlmişdi. O, Hərbi Sənaye Nazirliyində işlədiyindən onlar onu ələ almaq istəyiblər. Validə onlara gizli hərbi layihələrinin surətlərini, hərbi sənayedə istehsal

olunan silah növlərinin çertyojlarını ötürməli imiş. Bundan artıq sənə heç nə deyə bilmərəm.

- Sözün düzü, bir çox məsələlər, hələ ki, qaranlıq qalır, - Söhrab pəncərənin qabağına keçdi, - bu doğrudur. Ancaq ehtimal nəticə ilə düz gəlmir. Bizim uşaqlar Validənin yataq otağından Hərbi Sənaye Nazirliyinin gizli sənədlərini tapıblar. Çox güman ki, bu sənədlərin surəti çı-xarılıb, kiməsə ötürülüb, bu sual cavabsız qalır.

- Elə ona görə də Validə öldürülüb.

- Bu ehtimalı da nəzərə almaq olar, lakin sənədlərin surəti yəqin ki, başqa adamlara ötürülüb. Baxmayaraq ki, artıq bu sənədlər öz qiymətini itirib. Bəs onda Validəni niyə öldürüblər? Yox, Muxtar, bu, çox qəliz məsələdir.

- Nə üçün? Niyə belə fikirləşirsən?

- Onlar sizi azdırmağa çalışıblar. Vəli Qurban oğlunu ağacdan qurbanlıq qoyun kimi asıblar.

- Əzizim, Söhrab! - Mürsəl səsini alçaldaraq ona yaxınlaşdı, - Mən sənə bilməli olduqlarından da artıq şeylər danışdım. Yaxşı olar ki, tapdığınız sənədləri bizə verəsiniz. Bu siyasi məsələyə oxşadığı üçün, qoy dövlət təhlükəsizlik orqanları onunla məşğul olsun.

- Axı biz sizinlə... “eyni işi görürük”. Söhrab astadan güldü. Bəlkə o sənədlər məndə qalsın. Biz onları araşdırdıqdan sonra, müttəfiq ola bilərik.

- Gizli xidmət orqanları başqa qaydalarla iş görür. Yenicə ürəyini təmir etdirmisən, yoxsa təqaüdə çıxmaq istəyirsən?..

- Sən haqlısan. Bəzən yaxınların sənə o qədər uzaq olur ki, burnunun ucundakının fərqinə belə varmırsan... Sən haqlısan, Mürsəl! Deyəsən qocalıq özünü göstərir. Yaşa dolmaq hələ müdrik olmaq deyil.

Arvadının can verdiyi günü xatırladı: Çıx bu işdən, Mürsəl! Mən səninçün qorxuram. Ömrünün çoxu sürünən həşəratlarla, cəmiyyətin insanabənzər tör-töküntüsü, insan olmayan əclaflarla mübarizədə keçdi, - qadın Söhrabın əlindən tutub, başını qaldırdı: - qurban olum, əl çək bu işdən. Nənəm deyərdi ki, "su səhəngi suda sınar". Nə qədər ki, sınmamısan uzaqlaş, qaç onlardan. Bu dünyanı düzəltmək sənəmi qalıb?..

- İcazə olar, cənab polkovnik?

Söhrab ağırlaşmış başını yavaş-yavaş yuxarı qaldırdı. Qapının kandarında dayanmış Rizvanı gördü. Fikirləri səmum yeli kimi bir andaca dağılıb yox oldu.

- Hə, sənsən, orda niyə dayanmısan, keç içəri! - Söhrab sağ əlini irəli uzatdı. Rizvan yaxınlaşaraq onun əlini sıxıb yellətdi.

- Cənab polkovnik...

Söhrab onun sözünü kəsib, başı ilə yanında oturmağı işarə etdi. Rizvan onun sağ tərəfindəki yumşaq divanda əyləşdi. Söhrab ərklə, əlilə Rizvanın çiyninə vurdu:

- Nə xəbərlə gəlmisən, cənab polkovnik? - Söhrab gülümsədi. Ulduzlarını almamış, özün də ulduza dönmüsən, çox uzaqlarda parıldayırsan. Xumar xanım necədir? İngiltərədən haçan qayıdır?

- Xumar yaxşıdır, həftə sonu qayıdacaq. Sizə şad xə-

bər gətirmişəm. Vəli Qurban oğlunun işi ilə əlaqədar iki şübhəli şəxsi yaxalamışıq. Hər ikisi İran vətəndaşıdır. Qonşu ölkənin Xüsusi Xidmət İdarəsinin xəfiyyələridir. Azərbaycana məqsədli tapşırıqla gəliblər. Dediklərinə görə, burda onlara işləyən agentlər var. Ancaq adlarını demirlər.

- General Azaflıya bu barədə məlumat vermisizmi?

- Xeyr, cənab polkovnik. Dedim, sizinlə məsləhətləşim, lazım bilsəniz, deyərik.

- Lazım deyil, mən özüm onunla danışaram.

Söhrab mobil telefonunda ona lazım olan nömrələri yığdı:

- General, sənə sürprizim var. Yox, zarafat eləmirəm. İrandan "qonaqlarımız" gəlib. Səni onlarla tanış etmək istəyirəm. Yaxşı, çox oldu, gözləyirəm...

***

Azər gələndə onlar artıq Söhrabın otağında oturmuşdular. O, içəri girəndə gözucu onları süzüb, Söhraba dedi:

- Mənim də sənə sürprizim var. Sizin gizli agentlərinizdən birini həbs etmişik. Necə olub ki, o gizli xidmət orqanlarına ayaq aça bilib? Çox güman ki, iki "xozeyin"ə xidmət edirmiş.

Azər yenidən onlara baxdı. Onlardan biri başını aşağı salmışdı. Üzünün ağarmasından hiss olunurdu ki, çox həyəcanlıdır. Azər, təxminən də olsa, başa düşdü ki, bu

şəxs təxribat dəstəsinin başçısıdır. Elə hədəfə də onu götürdü:

- Köhnə dostunu öz evində görmək həmişə xoşdur. Lakin dostun xoşniyyətli olsa. Sizin maraqlandığınız sənədlər bizim əlimizdədir. Doğrudur, siz İrandan çıxmamış dostlarımızdan biri bizi məlumatlandırmışdı. Sizin hər addımınız bizim nəzarətimiz altında idi. Çox təəssüf edirəm ki, həmkarlarımız bizi qabaqladı.

- Cənab general, biz heç kimi qabaqlamamışıq. Sadəcə öz işimizi görmüşük.

- Köpək balığını tutmaq üçün əvvəlcə onu yemləmək lazım gəlir. Biz sənədlərin saxta surətlərini Simuzər vasitəsilə onlara ötürmək istəyirdik. Ağayi Firuzun şəxsən təşrif gətirməsi bizi məmnun etmişdi. Agayi Firuz, Validəni Təbriz şəhərində həbs edib, onu İrana işləməsi üçün işgəncə altında protokola imza atdıranda, doğrudanmı inanırdınız ki, o sizə işləyəcək?

- Siz məni kiminləsə səhv salırsınız. Mən Validə adlı adam tanımıram.

- Hə, əlbəttə, mən ancaq güman edirəm. Bu barədə dəqiqləşdirmə apardıqdan sonra hər şey aydın olacaq.

- Mən sizə cavab vermək istəmirəm. Xahiş edirəm İran səfirliyinə xəbər edin. Mən İran vətəndaşıyam, səfirliyin nümayəndəsi gəlməsə...

Azər Azaflı ona sözünü tamamlamağa imkan vermədi. Üzünü Rizvana tutaraq soruşdu:

- Cənab mayor, İran səfirliyi ilə əlaqə yarada bildinizmi?

- Bəli, cənab general. Səfirin özü ilə şəxsən telefon əlaqəsi yaratdım. Məsələni aydınlaşdırmaq üçün onu bura dəvət etdim. Lakin o gəlməkdən imtina etdi. Dedi ki, bizim İran hökuməti sizinlə məsələni aydınlaşdırandan sonra rəsmi cavab verəcəyik.

Azər sakitcə oturub Ağayi Firuza baxırdı. Çalışırdı ki, axır ayların dağınıq xronikasını beynində birləşdirsin. O, keçən həftə MTN tərəfindən həbs olunmuş İranın iş adamı Əsgəri xatırladı. Əsgər Sabiri İranın yüksək vəzifəli şəxslərilə yaxınlıq edirdi. Onun köməkliyilə Şahini həbs edə bilmişdilər. Şahin Azərbaycanda və Rusiyada narkotik ticarətlə məşğul olurdu. Onun  İran narkomafiyası ilə sıx əlaqəsi vardı. Rusiya və Avropa bazarına heroin və digər narkotik maddələrin çatdırılması onun səlahiyyətinə aid idi. Özünü Bakıdakı Ziya Bünyadov küçəsindəki mərmər anbarının sahibi kimi göstərsə də, əslində İrana işləyən xəfiyyələrdən biri idi. Agayi Firuzun gəlişini də Azər Şahindən öyrənmişdi.

***

İran-Azərbaycan münasibətləri son zamanlar yenidən gərginləşmişdi. İranın dini liderləri Azərbaycanda islamofobiyanın genişləndiyini deyir, nüfuzlu şiə alimi Ayətullah Məkari Şirazi İranın Qum şəhərinin Əzəm məscidində Azərbaycan iqtidarını məscidləri dağıtmaqda, İslam partiyasının tanınmış lideri Möhsümün qanunsuz olaraq həbs edilməsində günahlandırırdı.

Amerika səfiri Enn Dersin hələ 2009-cu ilin mart ayında Vaşinqtona göndərdiyi gizli məktubunda Azərbaycanda fəaliyyət göstərən, Tehran rejiminə yaxın olan İran iş adamlarının və şirkətlərinin Bakıda kirli pulların yuyulması, eləcə də respublika iqtisadiyyatına güclü zərbə vuran təxribatlarla məşğul olduqlarını vurğulayırdı.

Azərbaycanda xalqın içərisinə girib onun inamını qazanmış bu adamlar Tehran rejiminin yüksək vəzifəli şəxsləri ilə, İran İnqilab Keşikçiləri Korpusu (Sepah) və xüsusi xidmət orqanı ETTELAT-la əlaqəyə girərək xüsusi tapşırqla işləyirdilər. Bakının küçələrindəki İran mağazalarında hicablar, təxribat məqsədilə satılan, qadağan olunmuş dini kitablar paylanılır, insanları itaətsizliyə səsləyirdilər.

Azərbaycanda geniş biznes şəbəkəsinin sahibi olan iranlılardan biri, İran rəhbərlərindən birinin tələbəlik dostu Camal Əlləvi idi.

Bakıda və əyalətlərdəki iri İran şirkətlərinin çoxna rəhbərliyi Əlləvi edirdi. Onun şəhərdə şəxsi evi vardı, biznes bəhanəsi ilə tez-tez xüsusi tapşırıqla Azərbaycana səfər edirdi. Əlləvinin təşkilatı Sepaha hərbi avadanlıqların təminatı ilə məşğul olurdu. MTN əməkdaşları Əlləvini çoxdan nəzarətə götürmüşdülər. Azərdə olan məlumata görə, Əlləvi Bakıda, Tehranda və Ərdəbil şəhərində Vəli Qurban oğlu ilə tez-tez görüşürmüş.

Azər qəflətən ayağa durub Ağayi Firuza yaxınlaşdı, sonra iki barmağı ilə onun çənəsindən tutaraq başını yuxarı qaldırdı:

- Ağayi Firuz, sizə deməliyəm ki, dostlarınızın bir çoxu artıq yaxalanıb. Sizin Bakıya gəlməyinizin səbəbini də onlar danışdı. Vəli Qurban oğlunu, onun arvadı Validəni niyə öldürmüsüz? Axı onlar sizə işləyirdilər? Onun çənəsini buraxıb qapıya yaxınlaşdı:

- Ağayi Firuz, six yaxşı bilirsiniz ki, ümid bitən yerdə söz qurtarır: - Söhrab, bunları MTN-ə göndər. Orada onların dillərini açan tapılar.

***

**... Əgər Rəna Nəsibovanın məlumatı vaxtında araşdırılsaydı, bu gün ən azı Fətulla Hüseynov sağ olardı, Zamirə Hacıyeva oğurlanmazdı. Bu cinayətlərin məsuliyyətlərini kim daşıyır? İşdə MTN əməkdaşlarının ifadələri vardı. DİN-in sabiq əməliyyatçısı Salman Əliyevə vaxtında qulaq asılsaydı, Afiyəddin Cəlilov, Şəmsi Rəhimov qətlə yetirilməzdi. MTN-in sabiq müstəntiqi Ramin Nağıyevin açıqlamaları mənim haqlı olduğumu bir daha təsdiq edir...**

**Məhkəmə materiallarından**...

Hacı Məmmədovun verdiyi ifadələr tutulduqdan dörd ay sonra ortaya çıxdı. Əgər bu ifadələr doğru idisə onda niyə Zakir Nəsirovu elə onunla birlikdə həbs etməmişdilər? O zaman "Qara Kəmər" çox peşəkarlıqla həyata keçirilmişdi, bu, analoqu olmayan əməliyyat idi. Hacı

Məmmədova MTN və Baş prokurorluqla oyuna girmək xeyir edirdi. Əgər obyektiv istintaq aparılsaydı, qaranlıq qalan çox məsələlərə aydınlıq gətirmək olardı. Hacının Zakir Nəsirovun əleyhinə verdiyi ilk ifadə Əhməd Məmmədovun oğurlanması idi. Bu çox da inandırıcı deyildi.

İstintaq materialında Sidek Abdulvahabovun ifadəsi var. Hacı niyə əvvəlcə ona Əhmədin atası Məmməd Məmmədovu güdməyi tapşırıb? Bəs onu fikrini dəyişməyə nə məcbur edib, görəsən Elçin? Hə, özüdür ki, var. Elçin Hacının bacısı oğludur. Ağa Laçınlı kirli pullarını Elçinin vasitəsilə təmizləyirmiş. Axı necə olur ki, 40 il əmanət bankının rəhbəri olan Məmmədin səsi çıxmırdı. Oğlu Elmarla, Elçinin dostluğundan sonra Hacı ondan xəbər tuta bilmişdi? Yəqin ki, Elçin onların evinin içini yaxşı bilirdi. Qəzənfər Paşayev Elçinin işlədiyi bankdan pul götürdükdən sonra Məcid Məmmədovun oğurlanması baş tutmuşdu. Məcid Məmmədov hərbi ekspert olub, maaşa baxan adam idi. Məsələ Məciddə yox, onun oğlanlarındaydı. Onlar bizneslə məşğul olublar. Ağa Laçınlının sözlərinə görə bu uşaqları Elçinin bankına o göndərib. Hacı Məcid Məmmədova görə onun oğlanlarından iki milyon iki yüz min dollar pul alıb. Sonra Aslanbek Cintamirova dörd yüz min pul göstərib. Bəs onda pulların qalan hissəsi necə olub? Ağa Laçınlının istintaqa verdiyi məlumata görə, yağlı müştəriləri Hacıya o ötürürmüş. Ancaq etiraf edir ki, heç vaxt Hacı ona pul verməyib. Onda bu qədər pullar kimə ötürülürmüş? Biz ilanın balalarını tutsaq da, ilanın özü əlimiz-

dən sürüşüb çıxmışdı. Hələ ki, Hacı susur. Bir gün o, ilanın yuvasını bizə göstərəcək. Vəzifə, pul insanı fitnə-fəsada sövq edir...

Mürsəlin gəlişi Söhrabı qəflət yuxusundan ayıltdı. O, ayağa durmaq istəsə də, Mürsəl imkan vermədi:

- Ayağa durmaq heç də vacib deyil, cənab polkovnik. Bağışla ki, səni öz dünyandan ayırdım. Bilmək istərdim, başqalarına qiymət verəndə nəyi daha çox üstün tutursan, - zamana görə, yoxsa gözləməyə görə?

- Hə, sən haqlısan. Həmişəki kimi fikirlərimi oğurlamağı bacardın. Səncə, hansı daha vacibdir, vaxt, yoxsa gözləmə?

- Əgər Hacını nəzərdə tutursansa, gözləmək daha yaxşı olardı. Yaxşıya yaxşılıq etsən dostun olar, pisə yaxşılıq etsən düşmənin. Çalış pisdən uzaq olasan.

- Əlbəttə, sən haqlısan. Həyatın sənə verdiyi şansdan çətin heç nə yoxdur.

Mürsəl Söhraba yaxınlaşıb əlini onun çiyninə qoydu:

- Mən bura başqa məqsədlə gəlmişəm. Sən MTN-in sabiq müstəntiqi Ramin Nağıyevi DİN-in sabiq əməliyyatçısı Salman Əliyevi tanımamış olmazsan. Onların gizli yazışmaları və bir neçə xəbərdarlıq sənədləri əlimə keçib.

- Yaxşı olar ki, bu barədə onun özü ilə söhbət edəsən. Get yanına, əsl həqiqəti öyrən!

- Ramin Nağıyev indi xaricdə yaşayır, əlimdə olan sənədlər dəlillərə, sübutlara, real faktlara əsaslanmış sənədlərdir.

- Bu deməyə əsas verir ki, onun yazdıqları həqiqətə uyğundur.

- Lakin elə məqamlar da var ki, onlarla razılaşa bilmərəm.

- Bununla nə demək istəyirsən? Yəni Afiyəddin Cəlilovla Şəmsi Rəhimovun öldürülməsi də sifarişlə olub? Bəs onda, görəsən, Hacı kimin sifarişini yerinə yetirib?

- Söhrab, yetişməmiş meyvə kimi yerə düşmə, bunu ki, bilirsən. Qanunda nəzərdə tutulmuşdur ki, hər hansı ağır cinayətin açılması, obyektiv araşdırılması üçün əməliyyat-istintaq qrupu fəaliyyət göstərməlidir. Mənə elə gəlir ki, Ramin Nağıyev təkbaşına fəaliyyət göstərib, onun kifayət qədər peşəkar dəstəyi olmayıb. Ramin Nağıyev tərəfindən cinayətlərin əsas motivi kimi bu insanların qətlinin Müdafiə Nazirliyində aşkar edilmiş korrupsiya faktları ilə əlaqələndirilməsini düzgün hesab etmirəm.

- Niyə inanmırsan? Belə bir məsəl var: "Əgər inanmırsansa, işi başlama!" Sən ovçu deyilsən ki, bir güllə ilə beş dovşan vurasan.

Söhrab qapını aralayıb dəhlizə baxdı, heç kəsin olmadığını görüb qapını örtdü:

- Mürsəl, gör sənə nə deyirəm. Bu qətllər elə ovçunun bir güllə ilə beş dovşan vurması kimi planlaşdırılıb və həyata keçirilib. Ramin Nağıyevi mən də tanıyırdım. Polis Akademiyasında ona dərs demişəm. Çox ağıllı, təvazökar kursant idi. Heç vaxt əqidəsindən dönən deyildi. Qanundan kənara çıxmazdı.

Polkovnik Kazımov 2002-ci ildə olan bir hadisəni xatırladı...

...Polkovnik Nağıyev 23 avqust 2001-ci ildə Milli Məclisə müraciət göndərmişdi: "Mənim sizə müraciətim ölkənin və millətin təhlükəsizliyi üçün keçirdiyim narahatlıq üçündür. Yüksək çinli dövlət məmurlarının törətdiyi ağır cinayətləri daha gizlətmək mümkün deyil. Bu cinayətlərin istintaqını mən aparmışam. Həmin cinayətlər xüsusi tədqiqata ehtiyacı olmayan adamların adı ilə bağlıdır. Bu həm də 1994-cü ilin mart ayının 19-da Azərbaycan vətəndaşlarına qarşı metronun "20 Yanvar" stansiyasında həyata keçirilən və 14 nəfərin ölümü, 49 nəfərin yaralanması ilə nəticələnən terror aktı ilə bağlıdır.

Mən bu qanlı cinayətin istintaqını 1994-1996-cı illərdə aparmışam. İstintaqla müəyyən edilmişdi ki, bu terror əməliyyatını Ermənistandakı hərbi təlim keçmiş hərəkatın üzvləri həyata keçiriblər. Ermənistan tərəfi isə onları silah-sursat və partlayıcı maddələrlə təmin edibmiş...

- Söhrab, nə yaman xəyala getmisən, yoxsa polkovnik Nağıyevlə olan görüşünü xatırlayırsan? Ramin xaricə getməmişdən bir gün əvvəl sənin yanında olub. O zaman bu məsələni araşdırmaq istəyirdilər, mənim müdaxiləmdən sonra fikirdən vaz keçdilər.

- Bunu hardan bilmişdilər? O mənim yanıma gizli gəlmişdi.

Söhrab səhvini dərhal anladı:

- Hə, axı siz...

- Dövlətin təhlükəsizliyini qoruyanlar, ölkəyə qulluq eləyən hər kəsin hərəkətlərini izləyir. Sən ki, bunu çox yaxşı bilirsən.

- Yaxın gəl, Mürsəl, sənə deyiləsi sözüm var. Söylənilməmiş söz insana ağır yük olur. Sən haqlısan, özünü tapmayanlar həyatda çox şey itirirlər. Polkovnik Nağıyev də onlardan biri idi. Ümidsizlik içərisində yanıma gəlmişdi. Apardığı istintaq materiallarının bütöv bir qovluğunu mənə verdi. O qovluq uzun illərdir ki, məndədir. Zamanı gələnə qədər saxlamaq istəyirdim. Görünür o zaman gəlib. Eşitdiyimə görə Nağıyevin apardığı istintaq işlərini araşdırmağı sənə tapşırıblar.

- Hə, düz eşitmisən! Mürsəl, sən neçə illərdir ki, həyatına risk edərək bu qovluğu gizli saxlamısan. İnsanları gördüyü işə görə qiymətləndirmək lazımdır. Deyəsən doğrudan da qovluğun açılmasının zamanı yetişib. Ver onu mənə. Şəxsiyyətin xarakteri onda deyil ki, o nəsə edib, məsələ onu necə etməsindədir.

Söhrab seyfi açıb, onun dərinliyində gizlətdiyi ağ rəngli qovluğu çıxardı. İllər öz işini görmüşdü, qovluğun üz qabığı saralaraq əvvəlki rəngini dəyişmişdi. O, qovluğu Mürsələ uzadaraq dedi:

- Bu işi başlayanda onun mürəkkəbliyini nəzərə al, tələsmə, bu, zaman məsələsidir. Bu cür çətin həlli olan işin içərisinə girmək üçün fikirlərin və ürəyinin səsinə qulaq as. O şey böyük olur ki, onun məqsədi də böyük olsun.

Mürsəl qovluğu Söhrabdan alıb diqqətlə onu nəzər-

dən keçirdi, sonra dostunun əlini tutaraq sıxdı:

- Ustad, axmaq o adamdır ki, başladığı işi yarıda qoyub, müxtəlif ağızlara baxsın. Çalışaram ki, bu işi sənin istədiyin kimi həll edim. Biz Polis Akademiyasında oxuyanda sənin dediyin sözləri unutmamışam. "Kim kiçik işi bacarmırsa, böyük iş ona lazım olmur". Nə isə... Mən nazirliyə qayıdıram, xahiş edirəm, iranlı dostlarımızı mənim yanıma göndərəsən.

Mürsəl getdikdən sonra elə bil otaqda bir boşluq yarandı. Söhrab darıxan kimi oldu. O, Muxtara özü kimi inanırdı, bilirdi ki, heç vaxt səhv etməz. Polkovnik Nağıyevin açıqlamaları çox şeyi dəyişə bilərdi. İndiki vaxtda bunun mümkün olacağına Söhrab inanmırdı. Həyatında ilk dəfə idi ki, elədiyi iş üçün peşmançılıq çəkirdi. Ancaq onu da başa düşürdü ki, düzgünlüyə aparan yol həqiqətdən keçir. Söhrabın boğazı qurumuşdu, nəsə içmək istədi. Elektrik çaynikini cərəyana qoşduqdan sonra divanda oturub gözlərini yumdu.

***

Xumar məhkəmə zalından çıxanda günortadan xeyli keçmişdi. Hakimin verdiyi qərar onu qane etməsə də, içində bir yüngüllük hiss edirdi. Cinayətin cəzasız qalmaması üçün Xumar əlindən gələni etmişdi. Lakin bu onu sevindirmirdi. Ona elə gəlirdi ki, bu hələ hamısı deyil. Sifarişçi ələ keçməmişdi. Bəlkə də onu qəsdən aradan çıxarmışdılar. Niyə? Bu işdə daha kimlərin əli var?

Xırda balıqları tuturuq, köpək balıqları isə bizə rəhbərlik edirlər.

Xumar hadisə baş verən günü xatırladı. Hələ istintaqa başlamamış ona zəng vurmuşdular: “Xumar, sənin onunla işin olmasın. Onun bu cinayətlə heç bir əlaqəsi yoxdur. Burax onu, sözümü kəsmə. Sənə deyirəm, burax onu, çıxıb getsin. Rizvanla mən özüm danışaram. Gərək ki, onun növbəti ulduz alan vaxtıdır...”

***

...Şəhər Polis İdarəsinin rəis müavini polkovnik Mirqasımov çıxılmaz vəziyyətə düşmüşdü. Bütün xəfiyyələrini işə salsa da, kələfin ucunu ələ keçirə bilmirdi. Nazirlikdən və Baş prokurorluqdan edilən təzyiqlər saatbasaat artırdı. Məsələ çox incə olduğundan, onu açıbağartmaq da mümkün deyildi. Mirqasımov vəziyyətin ağırlığını anlayaraq Söhraba müraciət etdi:

- Cənab general, bu, çox incə məsələdir. Başa düşürəm ki, siz daha böyük işlərlə məşğulsunuz. Heç kim bu cinayət işinə yaxın durmur. Ancaq gərək məni başa düşəsiz. Mən sizin yanınızda uzun illər işləyib təcrübə götürsəm də, bu məsələdə acizəm. Buraxılan ən xırda səhv mənim karyerama son qoya bilər.

- De görüm nə baş verib?

- İki həftə əvvəl liftin kabinəsində naməlum şəxs yüksək rütbəli bir dövlət məmurunun arvadını zorlayıb. O məmuru siz də tanıyırsız. Əclafın biri bıçağı qadının

xirtdəyinə diriyərək üzünü yaralayıb. Bu iş üçün xüsusi təyinatlı axtarış-əməliyyat qrupu işləyir. Şəhərimizin ən yaxşı detektivləri səfərbər edilərək bu işə cəlb olunub. Lakin izə düşmək mümkün olmayıb. Hələlik onlarda bir şey alınmır. Qadın da düzgün ifadə vermir. İstintaqın gedişinə köməklik etmək istəmir. Kömək elə, bu işi açaq. Ona görə yox ki, qadının əri mənim dostumdur. Yox, əsla! Bu işi törədən əclaf bizim hamımızı alçaldıb. Bunu cinayəti törədən hər kimdirsə, elə-belə, təsadüfən etməyib. Sifarişlə də görə bilər, şəxsi intiqam da ola bilər, hətta siyasi sifariş də. Sizdən gizlətmirəm, vəziyyət çox ağırdır. Əgər tezliklə bu iş açılmasa, mən vəzifəmi itirə bilərəm.

- Yaxşı, çalışaram sənə kömək edim, - Söhrab sakit səslə cavab verdi. Sənin dediyin o qadının əri vaxtilə şəhərin adlı-sanlı, seçilən detektivlərindən biri idi. Siyasətə qoşulduqdan sonra yüksək vəzifəli məmura çevrildi. Sən doğru fikirləşmisən, ərini nəzərə alsaq, bu, siyasi sifariş də ola bilər. Kimsə ondan intiqam alır, - Söhrab daxili telefonun dəstəyini götürərək nömrə yığdı: - Rizvanı tap, yanıma göndər!

***

Son illər yeniyetmələrin intihar etməsi hallarının çoxalması Xumarı yaman narahat edirdi. Bakı, Gəncə və Sumqayıt şəhərlərində yeniyetmələr arasında özünə qəsd hadisələri çoxalmağa başlamışdı. Ölüm hadisəsi üç

halda baş verirdi: özünü asmaq, biləyin qan damarını kəsmək və dənizə atılaraq suda boğulmaqla. Xumarın psixoloqlar və psixiatrlarla apardığı söhbətlər öz bəhrəsini verirdi. DİN-in yeniyetmə və azyaşlılara nəzarət edən xüsusi təyinatlı əməliyyat qrupu bir neçə yeniyetməni yaxaladı. Hadisə yerinə gələn Xumar gördüklərinə inanmaq istəmirdi. Yeniyetmələrin saç düzümü və geyimləri çox əcayib idi. Saxlanılan yeniyetmələrlə aparılan istintaq əməliyyatı nəticəsində məlum oldu ki, bu uşaqlar "emo"lar adlanan qəribə hərəkatın üzvləridir.

Dünyanın bir çox ölkələrində "emo"laşma yeniyetmə qız və oğlanlar arasında geniş yayılıb. Son zamanlar Bakıda və əyalətlərdə onların sayı çoxaldığına görə diqqəti cəlb etməyə bilməzdi.

Xumar qarşısında oturan yeniyetmələrə baxırdı. Bunlar kim idi? Oyunbaz yeniyetmələr, yoxsa qəlbən yaralanmışlar. Özünü ağacdan asmağa, dənizə atılaraq boğmağa, biləyini kəsərək ölməyə bunları nə vadar edirdi? Onların hamısı təminatlı ailələrin uşaqları idi. Xumar Emin adlı on altı yaşlı oğlana baxmaqda davam edirdi. Bunlar adi insanlardan nə ilə fərqlənirlər? "Biz fərqliyik, hər kəsə xüsusi enerji veririk" - deyən bu yeniyetmələr, görəsən niyə cəmiyyətdən tədric olunmağa çalışırlar?

- Niyə insanlardan qaçırsız? Mənə dedilər ki, siz "emo"lar həyatınızda heç olmasa bir dəfə "atılmış olmaq nədir" hissini yaşamaq istəyirsiniz. Elə fikirləşirsiniz ki, onların qəlbi yaralı olur? Ancaq atılmış qəlbiyaralıların

heç də hamısı “emo” olmurlar. Emin, səni “emo” olmağa nə məcbur edib? Niyə ata-ananı aldadaraq cəmiyyət və insanlar üçün zərərli olan bu işlə məşğul olursan?

- Mənim on altı yaşım var. Emo olana qədər başqa uşaqlar kimi məktəbə gedər, dərs oxuyardım. Emo qruplarına üç ildir qoşulmuşam, İnternetdə “emo”ların şəkillərinə baxır, onların haqqında yazıları oxuyurdum. Marağım artdıqca, ən böyük arzum fərqli şəxs - emo olmaq idi. Mən emo olduğum üçün fəxr edirəm...

Emin dostları arasında “Emos” kimi tanınır. Emoların əsl adlarından başqa onlara davranış tərzlərinə uyğun ləqəbləri də qoyulur. Bu ləqəbi emonun özü də seçə bilər, lakin çox vaxt dostları bu adı seçirlər. “Emo”ların emosiyaları və hissiyyatları güclü olur. Onlar sevgilərinin gizli qalmasını xoşlamırlar. Biləklərini ülgücləməklə, özünü ağacdan asaraq intihar etməklə, varlıqlarını təsdiqləmək istəyirlər.

- Kimsə biləyimizdəki ülgüc izlərini görəndə elə bilirlər ki, biz narkomanıq. Ancaq onlar yanılırlar. Bu bizim sevgimizin əlamətidir.

- Biləyinizə həmişə qolbağı taxırsız ki, valideynləriniz, tanışlarınız ülgüc yerlərini görməsinlər? Bəs geyimləriniz, sizi təlxəyə oxşadan geyimləriniz, saç düzümünüz? Bunu necə gizlədə bilirsiz? “Şami” ləqəbli Samirə üç dəfə intihara cəhd göstərib. Canı insana Allah verib, onu da ancaq yaradan ala bilər. Siz bütün bunlar üçün, Tanrı qarşısında cavab verməli olacaqsız.

Xumar növbətçi polisi çağırdı: - Aparın bu avaraları,

atın siçovullu kameraya, qoy ağılları başlarına gəlsin.

Polis çəkinə-çəkinə soruşdu:

- Cənab mayor, hamısını bir yerə salım?

- Hə, "emo"lar arasında cinsiyyət ayrımı deyilən bir şey yoxdur. Onlar cinsi ayrı-seçkiliyə yox deyirlər. Qoy canları da bir yerdə çıxsın onların.

Xumar qapını örtüb geri qayıdanda Rizvanla qarşılaşdı. Rizvan Xumarın əlindən tutaraq dedi:

- Cənab mayoru general çağırır, gedək mənimlə.

***

Onlar polkovnikin otağına girəndə Söhrab pəncərənin önündə dayanıb bayıra baxırdı. Ayaq səslərinə çevrilib gələnləri gördü. Sərtləşmiş sifəti bir andaca yumşaldı.

- Xumar, - dedi, - bir aydır ki, Londondan qayıtmısan. Niyə yanıma gəlməmisən? Nəsə olub, bəlkə mən dəyişmişəm?

- Yox, cənab polkovnik, heç nə olmayıb. Mən olmayanda çoxlu işlər yığılıb qalıb. Onları araşdırmaqla məşğul idim.

- Çox yaxşı, əgər doğrudan da belədirsə, günahından keçmək olar. İndi mənə yaxın gəlin. Sizə fövqəladə bir iş tapşıracam. Məsələ cinayətin ağırlığında deyil. Sizdən gizlətmirəm, bu şəxsi intiqam da ola bilər, siyasi sifariş də. Xahiş edirəm, olduqca diqqətli və ehtiyatlı olun. Bu işlə maraqlananlar çoxdur. Ola bilsin ki, təzyiq altında olasınız. Məndən xəbərsiz heç kimə məlumat verməyin.

İndi gedin Şəhər Polis idarəsinə, polkovnik Mirqasımova deyin ki, sizi mən göndərmişəm...

...Səhəri gün Xumar əməliyyat-istintaq materiallarını diqqətlə oxudu, cib dəftərçəsinə özü üçün müəyyən qeydlər etdi.

- Cənab mayor, işin-gücün yoxdur məgər? Evdə qızın gözləyir, sən isə kağızların içərisində eşələnirsən. İncimə, bu məsələdə sən nəsə edə bilməzsən. Bu işlə elə adamlar məşğuldur ki, təkcə soyadları adamın tüklərini biz-biz edir. Onlar qanuni oğruları, qatilləri, quldur dəstələrini dama basıblar. Bu sənə uşağa konfet verib söz almaq kimi görsənməsin.

Cavan müstəntiqin ona yazığı gəlirmiş kimi:

- Dur get evinə, artıq gecədir, mən də bu-raları bağlayım.

Xumarı gülmək tutmuşdu, bilmirdi bu cavan müstəntiqə nə desin. Atalarının gül balalarını sistemə gətirənlər, görəsən, nə fikirləşirlər? Ağzının danışığını bilməyən bu cavan oğlandan müstəntiqmi olar? Xumar kinküdurətini içərisində gizlədərək səsinin tonuna bir qədər sərtlik qatıb dedi:

- Leytenant, yaxşı olar ki, əl-ayağa dolaşmayasan. Sakitcə çıx və qapını arxadan ört.

Xumar incik sözlərə fikir vermədən kağızları axıra kimi oxudu. Qəribədir, zərərçəkən çox xəsisliklə izahat verib. Niyə axı? Bəlkə kimsə onu qorxudub? Çox güman ki, qadın kimdənsə, nədənsə qorxur. Cinayətkarın xarici görkəmini, pal-paltarını, hətta sol qaşının üstün-

dəki çapığı da yaxşı təsvir edib. Zorlanmadan danışanda nəyi isə gizlədib, xəsisliklə izahat verib. “Bəlkə utanır?” - deyə Xumar fikrindən keçirdi. - Yaxşısı budur, onun özü ilə üz-üzə danışım. Qadın qadını daha yaxşı başa düşər...”

Xumar çətinliklə də olsa, zərərçəkmiş Yasəmənlə görüşə bildi. Gözətçilər əvvəl onu içəri buraxmırdılar. Xumarı tanıyandan sonra, harasa zəng vurdular, sonra mayordan üzr istəyib, onu xüsusi palataya buraxdılar.

Yasəmən ilk baxışdan onu yaxşı qarşılamadı. İnamsızlıqla Xumara baxdı. Xumarın gözəlliyi onu valeh etmişdi. Gözlərini onun üzündən çəkə bilmirdi. Zabit paltarında olan bu xanıma qarşı Yasəmən bir doğmalıq hiss etdi. Çarpayıya dirsəklənib Xumarı başdan-ayağa süzdü:

- Bağışlayın ki, sizə oturmağı təklif etmədim. Rica edirəm, əyləşin. Mən artıq on dəfə sizin əməkdaşlarınıza hadisəni olduğu kimi danışmışam. - Qadın inamsızlıqla Xumara baxdı, - İndi də sizi göndəriblər. Axı, nə istəyirsiz məndən, nə bilirdim hamısını danışmışam.

- Hə, əlbəttə, siz haqlısız. Susmaq sizin üçün daha əlverişlidir. Cinayətkarın tezliklə tutulmasını istəmirsizsə, onda heç nə əlavə etmək lazım deyil. - Xumar soyuqqanlılıqla ayağa durdu, - Özünüz bilən yaxşıdır. Biz o əclafı onsuz da tapıb yaxalayacağıq, bax, onda sizin gizlətdikləriniz üzə çıxacaq. Mən elə bildim hər ikimiz qadın olduğumuz üçün tez dil tapa bilərik.

- Axı siz kimsiz? Nə cəsarətlə mənimlə belə danışırsız? Mənim üzümü yaralayıblar, az qala öldürmüşdülər.

Siz isə məndən şübhələnirsiz. Əlavə etməyə bir şey yoxdur.

- Bax, elə buna mənim bir qədər şübhəm var. Ərinizədəmi hər şeyi olduğu kimi danışmısız? Yoxsa... - Xumar sözünün dalını demədi. Yüz dəfələrlə sınaqdan çıxmış baxışlarla Yasəməni süzdü: - Yazıqlar olsun.

Yasəmənin rəngi ağardı, bir anlığa özünü itirən kimi oldu. Gözləri yaşla dolmuşdu. Xumar oxunun hədəfə dəydiyini hiss etdi. Bayaqdan ötkünlüklə danışan Yasəmən birdən-birə boşalmışdı:

- Siz nəyə görə məndən şübhələnirsiz?

- Mən sizin ərinizi yaxşı tanıyıram. Bir çox illər əvvəl bizim nazirlikdə işləyirdi. Təbiəti etibarilə çox qısqanc adamdır. Ona görə də mən sizinlə bəzi şeyləri aydınlaşdırmalıyam. Ərinizə yalan danışmısız. Susmaq həmişə yüngüllük gətirmir.

- Məsələn? - qadın ehtiyatla soruşdu.

- İstintaqda ifadə vermisiz ki, cinayətkar siz liftdən çıxan anda üzünüzü bıçaqla kəsib. Daha doğrusu, sizi zorladıqdan sonra. Bunu əlvida jesti kimi də qəbul etmək olar. Lakin protokolda yazılıb ki, həmin anda liftdən çıxmısız. Bax, elə buradaca ifadələr üst-üstə düşmür. Əgər sizə inansaq liftin kabinəsində az qan olmalı idi. Axı siz liftdən tez çıxmısız. Ancaq ekspertlər müəyyən ediblər ki, liftin döşəməsində qan çox olub. Mən belə düşünürəm ki, cinayətkar sizin üzünüzü sonra yox, əvvəldən çapıb.

- Bunlar hamısı sizin axmaq fərziyyələrinizdir.

- Əlbəttə, dediklərim fərziyyə də ola bilər. Cinayətkar üzünüzü korlamaq istəməyib, siz özünüz onu buna məcbur etmisiz.

- Əl çəkin məndən, mən hər şeyi demişəm. Məni sakit buraxın... - qadın gözyaşları içərisində bağırdı:

- Rədd olub gedin buradan!

- Mən sizi həyəcanlandırmaq istəmirdim. Yaralı yerinizə toxunduğum üçün bağışlayın! - qadından səs çıxmadı. - Yaxşısı budur, mən gedim. Fərziyyələrimi ərinizlə bölüşərəm, bəlkə bir şey alındı.

Xumar özünü elə göstərdi ki, guya getməyə hazırlaşır.

- Dayanın!.. Allah xatirinə, ərimə heç nə demək lazım deyil. O, əsəbi və qısqancdır. Mən səhvən nəyisə dəyişik sala bilərəm. Həyəcandan nəyisə unuda bilərəm. Mən caniyə müqavimət göstərdim, o da üzümü çapdı.

- Siz ilkin istintaqda ifadə vermisiz ki, cinayətkar sizə arxadan yaxınlaşıb. Heç inanmaq olmur ki, siz sakitcə dayanıb caninin öz iyrənc işini görməsinə mane olmamısız. Bir də bu cür vəziyyətdə o sizin üzünüzü necə yara bilərdi? O sizi zorlayan anda bunu edə bilməzdi. Axı siz qışqıra bilərdiz. Həm də ki, təkbaşına darısqal liftdə bunu etmək o qədər də inandırıcı görünmür.

- Xahiş edirəm, ərimə heç nə deməyin.

- Görürəm ki, siz zəif qadın deyilsiz. Mümkün deyil ki, ona müqavimətsiz təslim olmusuz. İnanıram ki, bu belə də olub. Güman edirəm ki, cinayətkar tək olmayıb. Onlar iki nəfər olub. Yasəmən xanım, bəlkə bu da fərziyyədir?

- Bunu da ərimə deyəcəksiz? - qadın yalvarıcı səslə dilləndi.

- Yox, siz özünüz bunu ona deyəcəksiz. Bu o qədər də çətin deyil. Vaxtı çatanda, özünüz hamısını danışarsız. Bu sizin şəxsi işinizdir. Əriniz gərək başa düşsün ki, bədbəxtlik baş verib, cinayətkar azadlıqda gəzir, onları tutmaq lazımdır. Mən çox gözəl başa düşürəm ki, siz bunu, bu kirli hadisənin yayılmasını, adınızın ləkələnməsini istəmirsiz. Bunu heç mən də istəmirəm. Onda bəs nə etməli? Hər şeyi gizlədib sakitcə oturaqmı? Onları həbs etməsək, sabah başqa qadınları da zorlayacaqlar.

Uzun fasilə yarandı. Sonra qadın danışdı:

- Yaxşı, siz məni inandırdız. Onlar iki nəfər idilər. Biri zorlayırdı, ikincisi məni tutmuşdu. Sonra yerlərini dəyişdilər. Mən müqavimət göstərəndə, onlardan biri üzümü bıçaqla çapdı. "Qoy ərinə yadigar qalsın!" - dedi. Mən istəmirdim ki, ərim bunları bilsin. Kimsə ərimə görə məni sifariş etmişdi. Ona görə də istintaqda yanlış ifadə verdim. İndi hər şeyi doğru dedim. Məni sakit buraxın! - qadın gözlərinin yaşını silərək, otaqdan çıxdı...

On-beş dəqiqədən sonra özünü qaydaya salmış halda qayıdıb gəldi. Xumarı gördükdə təəccübünü gizlədə bilmədi:

- Siz hələ getməmisiz? Mən sizə hər şeyi danışdım axı! Çıxıb gedin, yoxsa...

- Yaxşı, lazım deyil, mən artıq gedirəm. Hələ ki, kağız-kuğuzumu toplamamışam. Qulaq asın, görün sizə nə

deyirəm. Paltarlarınıza baxış keçirərkən, ekspertlər müəyyən ediblər ki, tumanınızın və köynəyinizin arxa hissəsində qan izləri olub. Əgər siz əllərinizi qana batırmış olsaydınız belə, arxa hissədə bu izləri qoya bilməzdiz. Çünki qan izləri paltarınızın yuxarı hissəsində olub. Deməli, bunu o əclaflar edib. Amma siz deyirsiz ki, bu əlvida jesti idi. Əgər bu doğrudan da belədirsə, onda cinayətkarın əli sizin qanınıza bulaşa bilməzdi. Axı onlar təcrübəli cinayətkarlar olublar. Artıq dəlil onlara lazım idimi? Hər şey daha sadədir. Siz yenə də ərinizin qısqanclığından qorxaraq əsl həqiqəti - bütün olayları məndən gizlədirsiz.

- Mən heç nəyi gizlətmirəm. Artıq siz mənim zəhləmi tökməyə başladız. Axı siz də hər şeydən əvvəl qadınsız, niyə mənə inanmırsız?..

- Hər şeydən əvvəl mən qanun keşikçisiyəm. Danışmaq istəmirsizsə, onda mən sizə hadisəni olduğu kimi danışaram. Sizi iki nəfər izləyir, özünüzün bundan xəbəriniz olmur. Liftə iki nəfər kişi də sizinlə birgə girir. Lifti üçüncü mərtəbə ilə dördüncü mərtəbənin arasında saxlayırlar. Biri sizi zorlayır, o birisi qabağa keçərək sizi murdarçılığa məcbur edir. Bir anlığa müqavimət göstərir və qışqırırsız. Onlardan biri sizi qorxutmaq üçün üzünüzü bıçaqla çapır. Əli qana batan əclaf arxanıza keçəndə paltarınızda qan izləri buraxır. Bu, bir neçə dəqiqə davam edir. Başınızı aşağı əydiyinizə görə liftin döşəməsinə xeyli miqdarda qan tökülür.

Xumar sözlərinin təsirini yoxlamaq üçün Yasəmənə

baxdı. Qadının əsəbindən çənəsi əsirdi. Xumar sakitləşdirmək üçün stəkana su töküb ona verdi:

- Alın için, bağışlayın ki, sizi sinirləndirdim. Mən fikirləşirəm ki, bu hadisə məhz belə olub.

- Tutaq ki, belədir... Onlar iki nəfər idilər və məni zorlayaraq bütün vəhşi istəklərini yerinə yetirdilər. Axı bundan sizə nə? Onsuz da o manyakları tapa bilməyəcəksiz, mənim həyatımı isə məhv edəcəksiz. Ərim məni evdən it kimi qovacaq, oğlumu əlimdən alıb məni küçəyə atacaq. Kimlərsə, nəyə görəsə, ərimdən qisas almaq istəyiblər deyə, əziyyət çəkən, biabırcasına rüsvay olan mən olmuşam. Kimə lazımdır sizin həqiqətləriniz? Əgər üzümü kəsməsəydilər, hər şeyi gizlədəcəkdim.

- Siz yanlış fikirləşirsiz. Biz cinayətkarları mütləq tapacağıq. Onlar qanun qarşısında cavab verəcəklər. Onsuz da əriniz hər şeyi biləcək. Bax, onda...

- Hə, onda nə?

- Yaxşı olar ki, əriniz olanları əvvəlcə sizdən, sonra bizdən eşitsin. Müxtəlif şayiələrin yayılmasındansa, bu daha yaxşıdır. İnanın mənə, uzun illərin təcrübəsi olan bir detektiv sizə yalan deyə bilməz. İfadənizi yenisilə dəyişin, deyin ki, özümdə-sözümdə olmamışam. İndi sakitləşmişəm, cinayətin bütün detalları yadıma düşüb. Ona görə də qərara aldım ki, ifadəmi dəyişim, əlavə məlumatlar verim.

- Axı necə? Kim mənə inanar?

- İndiki vəziyyətdə hər şey sizdən asılıdır, nə məndən, nə də ərinizdən. Mən başa düşürəm, siz ərinizdən

daha çox qorxursuz, nəinki sizi zorlayanlardan. Hazırda şəhərimizdə gözəl bərpaçı həkimlərimiz var. Üzünüzdəki çapıq üçün narahat olmayın. Plastik cərrahiyyə etdirərsiz, inanın mənə, əvvəlkindən də gözəl olacaqsız.

- Axı ərim, çox qısqancdır. Bilsə ki, mənə yad kişinin əli toxunub, heç vaxt məni bağışlamaz. Ailəmin dağılmasını istəmirəm.

- Niyə başa düşmək istəmirsiz? Baş verənlər sizin yox, ərinizin günahıdır. Hansı əclafsa ondan qisas alıb.

Xumar dəhlizə çıxdı, xəstəxananın qeydiyyat otağına çatmamış arxadan səs eşitdi:

- Dayanın, mayor! Mən sizə bəzi şeyləri deməliyəm.

Yasəmən yaxına gəlib Xumarın qolundan tutdu. Qeydiyyatçı qız eşitməsin deyə, onun qulağına pıçıldadı:

- Mənim üzümü çapan əclafın göbəyindən aşağıda köhnə çapığı vardı. Dərisində iki eybəcər qara xal, qollarında çoxlu tatuirovka döyülmüşdü. Elə orasına baxsanız, mənim dişlərimin yerini görə bilərsiniz.

Gözlərini Xumardan çəkən Yasəmən qəflətən arxaya çevrilərək tələsik addımlarla ondan uzaqlaşdı.

***

Cinayətkarların cizgiləri hazır idi; üstəlik də tatuirovka. Köhnə çapıq yeri isə xüsusi əlamət idi. Görünür o əclaflar həbsxanada çox oturublar. Bu cür əlamətlərlə ən naşı müstəntiq belə onları tapa bilərdi. Yasəmənin dişlərinin yerini də nəzərə alsaq... Xumar xəyalında cina-

yətkarların portretlərini tamamladı. Elə bu fikirlərlə də polis bölməsinin informasiya mərkəzinə girdi.

Bir saat sonra Xumarın əlində iki fotoşəkil vardı. Bütün faktlar üst-üstə düşərək düz gəlirdi. Xumar elə həmin gün yenidən xəstəxanaya gəldi. Yasəmən güvənclə şəkillərdən birini göstərdi. Onlar ayrılarkən Xumar Yasəmənin əlindən tutaraq özünə sıxdı:

- Ürəkli ol, - dedi. - Ərinlə özün danış.

Səhərisi gün Xumar topladığı faktları və şəkilləri də götürüb şəhər Polis idarəsinə, polkovnik Mirqasımovun yanına gəldi. Yaşıl rəngli qovluğu ona verərək dedi:

- Alın, cənab polkovnik. Yasəmən öz ifadəsini dəyişdi. Budur, cinayətkarların fotoşəkilləri və lazımı faktlar. Bütün faktlar cinayətkarların törətdiyi hadisə ilə yüzəyüz düz gəlir. Mən istintaqı başa vurub cinayətkarları aşkarladım, siz isə onları həbs edin.

Xumar gözlənilməz açıqlamadan çaşıb qalmış polkovnik Mirqasımovla xudahafizləşərək qapıya doğru bir-iki addım atıb arxaya çevrildi. Polkovnik Mirqasımov gözlərini bir nöqtəyə zilləyərək nə barədəsə fikirləşirdi.

- Cənab polkovnik, - Xumar dedi, - lazım olsam yenə də bacarığımı əsirgəmərəm. Görüşərik...

Yalnız Xumar getdikdən sonra polkovnik Mirqasımov özünü ələ ala bildi. Üstündən ağır bir yük götürülmüş kimi dərindən nəfəs alaraq daxili telefonun dəstəyini götürdü:

- Leytenant, Yasəmənin işini aparan istintaq-əməliyyat axtarış qrupuna de, təcili yanıma gəlsinlər.

şəkil səhifəsi

***

Ədalət məhkəməsindən bir gün əvvəl Xumar polkovnik Mirqasımova zəng edərək sifarişçinin kim olduğunu dedi. Lakin nə cinayət işində, nə də məhkəmədə onun adı çəkilmədi. Görünməz əllər yenə də hər şeyi qoşubdüzdü. Məhkəmə bir ay sonra oldu. Cinayətkarlar öz cəzalarını aldılar. Həmin gün Xumara gizli nömrədən zəng gəldi:

- "Ömrüm boyu sizə duaçı olacağam. Ailəmi qoruyub saxladığınıza görə çox sağ olun".

## II fəsil

**Hacı Məmmədovun Aran Muğanlıya məktubu:**

**“...Aran, Şəhlanın qısa bir vaxtda azad edilməsi ilə bağlı danışıqların aparılması belə bir şəraitdə məcburi xarakter daşıyır. Maraqların naminə sənin birinci olaraq borcun odur ki, bizim bu danışıqlar barədə qəti şəkildə heç kimə, heç nə məlum olmamalıdır.**

**Ən başlıcası odur ki, sən bütün bu baş verənlərin sırf biznes xarakteri daşıdığını anlamalısan. Baş verən bu hadisədə heç bir düşmənçilik, yaxud qisas hissi məsələsi yoxdur. Şəhla bizim yanımızda tam təhlükəsiz şəraitdədir. O mümkün ola bilən qədər ciddi şəraitdə saxlanılır və onun hər hansı şəkildə təhqir edilib alçaldılmasından hətta, söz belə gedə bilməz. Sən bunu yaxşı-yaxşı yadda saxlamalısan ki, əgər rəsmi orqanlar bu məsələdən xəbər tutsalar, əvvəla, özün rəhbərlik qarşısında rüsvay olacaqsan, həmçinin, orqanlar sənə bizimlə danışıqlarda maneçilik törədəcəklər. Bu isə öz əksini Şəhlada tapacaq. Təbii ki, biz Şəhlanı sənin hələ heç kimə bəlli olmayan, xüsusilə də rəhbərliyin əsla xoşuna gəlməyəcək sirlərin barədə danışmağa məcbur edə bilərik.**

Bu sənin ilk növbədə xidməti vəzifənə, mövqeyinə təsir edər. Bunlardan müxalifət mətbuatı da xəbər tutacaq. Amma bunlar bizə lazım deyil. Bu, sadəcə olaraq, biznesdir. Əgər bizim danışıqlarımız aşağıdakı qaydalar əsasında keçəcəksə, bizə pul ver, öz uşaqlarının anasını bizdən də sağ-salamat və heç bir xətər dəyməmiş şəkildə təhvil al!

Şəhlanın hər hansı bir xarici ölkəyə səfərə getməsi barədə tarixcə uydurmaq və bunu elə etmək lazımdır ki, hamı buna inansın. "Nokia" markalı yeni mobil telefon və həmin telefon üçün başqasının adına olmaq şərtilə, yeni "Azərsell" nömrəsi almaq lazımdır.

Yeni telefon nömrəsini "Abşeron" mehmanxanasının yaxınlığındakı "Beko kompyuter" reklam lövhəsinin dirəyindən asmaq lazımdır. Bu zaman elə etmək lazımdır ki, nömrənin rəqəmlərinin ölçüləri 20 sm-dən az olmasın. Onlar küçənin gəlişi-gedişi olan hissəsində maşından aydın görünsün.

Bu telefonu bütün gün ərzində özündə saxlamalı və ona zəng gələndə yanında adamlar olsa, dərhal təkliyə çəkilib danışmalısan.

Danışıq həddən artıq konkret və qısa olmalıdır, belə ki, söhbətimiz 30 saniyədən artıq davam etməməlidir. Ən başlıcası isə budur ki, sən bizim mobil telefonla bütün telefon oyunbazlıqlarını və digər əlaqələri kinofilmlərdən yox, Bakı şəhərində topladığımız təcrübədən yaxşı bildiyimizi anlamalısan.

Aran, sən şəhərimizdə kifayət qədər məşhur adam-

san, ən başlıcası da budur ki, sən indiyə qədər bizimlə sənin parlaq karyerana və şəhərdəki nüfuzuna zərbə ola biləcək qorxulu zarafat eləməyəsən. Amma əgər biz sənin tərəfindən ola biləcək belə "zarafatlara" cavab verəsi olsaq, girovluqda saxlanılan qadın buna zərurət yaranacağı təqdirdə, yaxud özündən asılı olmadan hər hansı axmaqlıq eləsən, düz və yalan danışsa, onda bütün bunlar sənin fəlakətinə gətirib çıxara bilər. Lakin bizim işimiz biznes və puldur, yalnız puldur. Bu pulları bizə təmiz ver, həyat yoldaşını bizdən sağ-salamat al və bütün bunları, sadəcə olaraq, unut getsin. Biz təmiz oyunda təmiz oynayırıq. Dostlarının arasından orqan işçiləri sənə çox şeylər vəd edə və çoxlu nağıllar danışa bilərlər. Amma bizim imicimiz çoxlu sayda nüfuzlu adamlara məlumdur. Bu adamlar bizimlə danışıqları düzgün aparıblar və nəticədə bütün tərəflər razı qalıb.

Aran, bizim bu danışıqlarımız barədə kiminsə məlumat əldə etməsi istisna deyil, çünki şəhərimiz "nüfuzlu" oğlanlar və orqan əməkdaşları arasından çıxmış fırıldaqçılarla doludur. Ona görə də səninlə Alik adlı adam danışacaq. Və sənə Şəhlanın durumu ilə bağlı dəlil-sübutları təqdim etməyincə, heç kimə pul ödəmə. Bizim hər yerdə adamlarımız var. Bütün hadisələrdən xəbərimiz olacaq.

Bizim zəngimizi gözlə!.."

***

...Mürsəl pəncərədən parlament küçəsinə baxırdı. Hacı ilə görüşdən sonra özünü toparlamağa çalışsa da, həyəcanı keçmirdi. Uzun illər idi ki, dövlətin təhlükəsizlik məsələləri ilə məşğul idi. Onlarla, yüzlərlə Hacı kimisini zərərsizləşdirmişdi. Lakin heç vaxt bugünkü kimi həyəcanlandırıcı olmamışdı. "Neçə illərdi ki, burnumuzun altında Hacının başçılığı ilə quldur dəstəsi fəaliyyət göstərib, biz onu görməmişik. Axı niyə, nə üçün vaxtında ölçü götürülmədi?" Yuxarıdan-aşağıya hamı susurdu. Hacının istintaqa verdiyi ifadə yadına düşdü: "Onlar həbsimizə cəsarət etsəydi, bütün paxırları üzə çıxacaqdı".

Hacı doğrumu deyirdi? Bəlkə etdiklərinə peşman olmuşdu. Görəsən heç ömründə sevinməyən və kədərlənib peşman olmayan Hacı kimə tor hörürdü. Onu peşman edən səbəb nədir?

"İnsan çox mürəkkəb həyat şəraitinə malikdir. Cəmiyyət üzvləri arasındakı qarşılıqlı mü-nasibətləri dərk etməklə kifayətlənmir". Bu sözləri də Hacı demişdi. Hisslər insanın münasibətləri ilə bağlıdır. Bu cəhəti nəzərə alınsa, Hacının hansı əlaqələri olub? Fazil Muxtarovun azadlığa buraxılması üçün MTN-nin İstintaq İdarəsinin rəisi Rüfət Mansurova 1994-cü ilin sonlarında, Türkiyəyə etdikləri birgə səfərdə verdiyi otuz min manatı Mahir Cavadov vermişdi. Sonralar məlum oldu ki, Mahir Cavadov otuz min manatı Hacı Məmmədovdan alıb. Bu cinayət işini o zaman MTN-nin İstintaq İda-

rəsinin mühüm işlər üzrə müstəntiqi Ramin Nağıyev aparırdı. Ramin Nağıyev bir neçə dəfə Mürsəllə görüşmək istəsə də, bu baş tutmadı. Əgər bizə görüşməyə imkan versəydilər...

...Mürsəl seyfi açıb Söhrabın ona verdiyi qovluğu çıxartdı. Gecəyarıdan keçmişdi, demək olar ki, MTN-in binasında Mürsəldən başqa heç kəs qalmamışdı. O, qovluğu açıb ilk səhifəni oxudu.

“...Yeni ildən dərhal sonra Muxtarovun azad edildiyini bilən prokurorluq müdhiş bir hay-küy qaldırdı, məsələ prezidentə qədər gedib çıxdı. Nazir Mansurovu və məni yanına çağırıb izahat istədi. Rüfət Mansurov bildirdi ki, o, Muxtarovun azad edilməsindən fakt baş verəndən sonra xəbər tutub. O özünü xilas etmək üçün məni pis vəziyyətə qoydu. Günahsızlığımı sübut edəcək heç nəyim yox idi. Rəhbərlik göstərişi şifahi verib, Muxtarovun azadlığa çıxması üçün qərarda isə mənim imzam atılıb. Mən Mürsəllə görüşmək istəsəm də, bu alınmadı. Buna imkan vermədilər. Əgər imkan versəydilər çox şeyləri aydınlaşdıra bilərdik.

Bu hadisədən sonra müşavirələrdə Namiq Abbasov bir neçə dəfə mənim üzümə baxaraq vurğulamışdı ki, Muxtarovun buraxılması üçün 30 min dollar rüşvət alındığı barədə məlumatı var...”

...Daxili telefon zəng çaldı. Mürsəl dəstəyi götürdü, xəttin o başından cavan leytenantın səsi eşidildi:

- Cənab polkovnik, sizin əmrinizlə Hacı Məmmədovu gətiriblər.

- Burax gəlsinlər!

Mürsəl qovluğu örtüb seyfə qoydu, hər ehtimala qarşı daxılı çəkib tabel silahını çıxardı. Silahı stolun üstünə qoyaraq üstünü örtdü. Bundan sonra Rəna Nəsibova və Şəhla Muğanlı barəsində olan əməliyyat işi ilə bağlı materialları araşdırıb Rəna Nəsibova barəsində respublika prokurorluğundan aldığı sənədi götürüb qabağına qoydu. Hacını qolları qandallı gətirmişdilər. O, Mürsələ məhəl qoymadan içəri keçib oturdu. Mürsəl ona yaxınlaşıb əlini Hacının çiyninə qoydu:

- Xoş gördük, Hacı, əllərini niyə bağlayıblar? Hə, başa düşdüm, sən həmişə hökmranlığa can atardın. Elə ki, bu ehtirasın söndü, hökmranlıqdan çıxaraq qula döndün. İndi deyərəm əllərini açarlar.

- Əgər özünü ağıllı sayırsansa, onda o şeyi soruşma kı, sənə cavab verilməyəcək.

- Hə, bəlkə də sən haqlısan. Dünənki prosesdə vəkil Adil İsmayılov səndən bu məsələyə aydınlıq gətirməyini istəmişdi. Elə mən də səni ona görə çağırmışam ki, bəzi məsələlərə aydınlıq gətirək. Ola bilsin ki, bunlardan xəbərim yoxdur. Bəlkə deyəsən, Aran Muğanlının şad olmayacağı məsələ kimə aiddir? Burada hansısa böyük qüvvələr olubmu? Murtuz Haşımov olub bəlkə sifarişçi?

- Olmayıb, mənim xəbərim yoxdur.

- Murtuz Haşımovla hansısa münasibətiniz, yaxın tanışlığınız olubmu?

- Xeyr, mənim onunla münasibəim olmasa da, biz

Murtuz Haşımovla institutda paralel qruplarda oxumuşuq. Əlbəttə ki, onu tanıyıram. Konkret söhbət olsa, dəqiq də cavab verərəm...

Hacı başını qaldıraraq gülümsədi. Dodaqlarının küncündən başlayan gülüş iblisanə şəkildə üzünə yayıldı:

- Belə bir fikir var, bunu sən bilməmiş olmazsan. Qaranlıq otaqda qara pişik tapmaq çətindir. Xüsusilə də, əgər pişik orada yoxdursa, bu daha da müşkül olur. Bu gün mənimlə ibtidai sinifdə oxuyanlar, hər hansı bir işlə bağlı mənimlə yaxın olan adamlar, «Qarabulağ»a gələn yüksək vəzifəlilər və vəzifə daşıyıcıların böyük əksəriyyəti gərək ki, gəlib burada otursunlar. Sənin buna gücün çatarmı?

Mürsəl Hacıya qulaq assa da, beynində başqa fikirlər dolaşırdı. Cinayətkarlar iki kateqoriyaya bölünür. Sifarişçilər və icraçılar. Hər kəsə məlumdur ki, icraçını idarə edən sifarişçidir. Vay o günə ki, sifarişçini də pul idarə edə. Pul yeganə həyat məqsədinə çevriləndə, insan özü də pulkəsən maşına çevrilir. Maşın isə ləyaqət, vicdan, insaf nə olduğunu bilməz. Maşın başqaları tərəfindən idarə olunur. Bu qarşımda oturan Hacı da belə maşınlardan biridir. Lakin təcrübə göstərir ki, kim necə bacarırsa, o cür də hərəkət edir. Təki məqsədə çatsın. Məqsəd isə puldur. Bunun üçün qəlbin canavar yuvası olmalıdır. Hacı canavar kimi susmağı bacarır. Vicdan susanda, nədən desən danışır və bir növ, əsl canavara çevrilir. Bu canavar oturduğu boş otaqdan qorxur. Hər dəfə qapı cırıldayanda dəhşətli qorxu hissi onu silkələyir.

Dəhşətli xatirələr ona fiziki əzab verir. Mürsəl Hacıya olan nifrətini özündən uzaqlaşdırmaq üçün istintaqı dayandırmaq istədi. Qarşısındakı adamın qatil, qəddar və qorxaq olduğunu nəzərə alaraq, özünə "yox" dedi. Mürsəl mələfə kimi ağarmışdı. Hacı bunu hiss edən kimi üstünlüyü ələ almaq istədi:

- Mürsəl, xəstə deyilsiz ki? Sizə nə oldu?

Mürsəl Hacıdan bir addım geri çəkildi:

- Mənə nə olub? - deyə təkrar etdi. - Nə olubsa, sənə olub, Hacı. Nə vaxtsa vicdanın səninlə söhbət edibmi? Hə, deyəsən, çaşdım, sənin kimilərdə vicdan olmur, - Mürsəl əsəbiliklə pəncərəyə çevrildi. Onun Hacı ilə söhbət etməyə gücü qalmamışdı.

Mürsəl Söhrabın ona dediyi sözləri xatırladı:

- Sən hər şeyi çılpaqlığı ilə başa düşməlisən. Dünya zor və pul dünyasıdır. Ayrı dünya yoxdur. Dünyanı idarə edən puldur.

Lakin Mürsəl başqa cürə fikirləşirdi. Əclaflığı görüb ona qarşı çıxmırsansa, deməli, sən onun şəriki olursan. Çox vaxt belə olur. Pul yalnız pis insanlar üçün alətdir.

- Hacı deyirsən ki, Şəhlanı iki gün saxlayacaqdız, nəyə arxalanırdız?

- Fikirləşirdim ki, Şəhla qadındır, bizə zəmanət verilmişdi ki, Aran Muğanlı heç bir orqana müraciət etməyəcək. Mənə aydın olmuşdu ki, sifarişçilərin burada məqsədi pul yox, kompromat toplamaq olub.

- Əvvəldən bilirdiz ki, Şəhlanı fevralın 10-da oğurlayacaqsız? Bəs niyə fevralın 10-da?

- Bəli, müəyyən olunmuşdu. Fevralın 10-u bizim üçün münasib gün idi.

- Siz dediz ki, qadını tez buraxmaq istəyirdiz, bəs niyə buraxmadız?

- Mən və dəstə üzvlərim bu söhbəti tez qurtarmaq istəyirdik. Mən Şəhlaya demişdim ki, səni pulsuz da buraxa bilərəm.

- Zakir Nəsirov sifarişçini tanıya bilərdimi? Sizi bu cinayətə getməyə məcbur edən o idimi?

- Məni heç kim, heç nəyə məcbur edə bilməz. Sifarişçini tanıyıb-tanımadığını Zakir Nəsirovun özündən soruşun!

- Siz öz dəstənizlə bağlı deyəndə, Zakir Nəsirovu da dəstə üzvü kimi nəzərdə tutursunuz?

- Xeyr, tutmuram. Cin ayrı, şeytan ayrı, bunları qarışdırmayın. Bəlkə Corc Buşu da, Bill Klintonu da mənə yükləyəsiz?

- Əgər bu doğrudan da belədirsə, niyə dörd aydan sonra çəkdiniz Zakir Nəsirovun adını?

- Mən ilk çıxışımda da dedim ki, MTN-də işi "dadaizm" üsulu ilə aparırlar. Mən göstərdiyim cinayətlərin istədiklərini qeydiyyata götürüblər, istəmədiklərini isə götürməyiblər. Elmar Hüseynovun qətli ilə bağlı məlumat verəndə elə bil ki, heç eşitmirdilər. Məndən gülə-gülə soruşdular ki, sənin telefonunun nömrəsi eks-nazir Fərhad Əliyevin kitabçasından çıxıb. İndi mən həmin gülən adamı bura gətirdib, onu bu camaata güldürəcəyəm.

- Deyirsiz istintaqdan narazısız. Elə hadisələr var ki, yazmayıblar. Bəlkə indi mənə deyəsiz, onlar hansı hadisələrlə bağlı idi.

- Mən "teraktı" deyirdim, qəbul etmədilər. Sənədlərin saxtalaşdırılmasını deyirdim, eşit-mirdilər. Çox qəribədir ki, iki dəstənin olmasına heç kəs inanmırdı.

- İstintaqa demədiyin başqa şeylər də var. Afiyəddin Cəlilovun və Şəmsi Rəhimovun qət-lini sənə kim sifariş etmişdi? Bu qətllər barədə MTN-in müstəntiqi polkovnik Nağıyev vaxtında açıqlama vermişdi. Onun açıqlamaları sübutlara, dəlillərə və real faktlara əsaslanmışdı. Lakin sənin də yaxşı tanıdığın o gizli əllər buna imkan vermədi. Bəlkə sən aydınlıq gətirəsən?

- Mürsəl, sən məni gic yerinə qoyubsan, yoxsa özün gicbəsərsən? Məgər bilmirsən ki, qətlə yetirilən adamların şəxsiyyətlərinin tam öyrənilməsi mühüm rol oynayır. Afiyəddin Cəlilov Milli Məclisin sədr müavini, millət vəkili, görkəmli ictimai-siyasi xadim, Naxçıvan bölgəsində hamı tərəfindən kifayət qədər tanınan və sevilən bir adam idi.

- Onun haqqında daha nə bilirsən, utanma danış.

- Xalqın ona böyük hörməti vardı. Ölkə başçısı - prezident olmağa daha çox şanslı olanlardan biri, qanunpərəst, müstəqil-demokratik fikirli olduğu üçün yuxarılarda daha çox düşmən qazanmışdı.

- Bəs niyə onu çeçenlərin əli ilə qətlə yetirdin? Niyə?.. Cavab versənə, əclaf?

- Bu biznesdir, pulunu ver, malını al. Biz onda dəstə

kimi formalaşmamışdıq. Bunu mən etməsə idim, "Ələkeçməz" edəcəkdi. Mənə demişdilər ki, o, dövlət üçün təhlükəli adama çevrilib, aradan götürülməsə çevriliş edə bilər. Şəmsi də onun güdazına getdi.

- Sifarişi kim vermişdi, kim? Rövşən və Mahir Cavadov qardaşlarımı? Onların hər ikisi dövlətinə və millətinə bağlı insanlar kimi tanınıblar. Sən yenə də istintaqı aldadır, hadisələri başqa səmtə yönəldirsən. Cavadovları mən də tanıyırdım. Bu qətllərin Cavadovlar tərəfindən sifariş verilməsi, təşkil olunması ağlabatan görünmür.

- Hadisədən dərhal sonra açıqlama verilməsi düşünülməmiş atılan addım idi. Bu çox mətləblərdən xəbər vermirmi? Nə yapışmısan mənim yaxamdan? Ən böyük müstəntiq zamanndır. Vaxtı gələndə, hər şeyi biləcəksiniz. Məgər Rövşənin öldürülməsi sənə heç nə demir?

Divar saatı beş dəfə zəng çaldı. Bu o demək idi ki, səhərin açılmasına bir saatdan da az vaxt qalıb. Ağıllı insanların həmişə yol seçməsi onlar üçün bir növ sınaq olur. Onun uzunluğunu və böyüklüyünü özü üçün aydınlaşdıra bilməsə də, heç olmasa, onun hansı tərəfinin işıqlı ola biləcəyini seçə bilir. Hər gün eyni mahnıya qulaq asmaq, eyni kitabı oxumaq insanı yorur. Mürsəl də yorulmuşdu. Bugünkü işlərinə yekun vurmaq üçün əlini selektorun düyməsinə basdı:

"Əgər cəllada yazığın gəlirsə, onun qurbanlarına çox böyük haqsızlıq etmiş olursan" - deyə fikirləşdi.

- Leytenant, bunu yuvasına apar, çalış ki, yuvanı da murdarlamasın.

Hacı getdikdən sonra yorğunluq onu divana sarı çəkdi. Gözlərini yumandan bir neçə saniyə sonra Mürsəli yuxu apardı...

***

**“...Həmişə pisi görüb, ağlayıb sızlamadın. Başqalarına azadlıq, insan kimi yaşayıb, insan kimi danışmağı öyrətdin. Hər yerdə təmiz ürək, saf niyyət axtardın. Müqəddəs fikirlərə, zərif hisslərə önəm verdin. Başqalarının xoşbəxtliyi üçün mübarizə aparsan da, özün bədbəxt oldun. Sənin bədbəxtliyin üzərində öz səadətini quranlar gec-tez cəzalarını alacaqlar, ömrünü günlərindən alanlar heç vaxt azad olmayacaqlar. Səni öldürməklə onlar bütöv bir xalqın, sənin sevdiyin xalqın nifrətini qazandılar. Bu gün sən bu fani cəsəddən, həqiqi cənnət bağına gedirsən. Ey narahat insan, bəlkə arzuladığın azad həyat üçün orda özünə bir yer tapasan... Sənin həyatını əlindən alsalar da, azadlıq toxumunu bu torpağa səpməyə imkan tapdın. Bu toxum azadlıq çeşməsindən axan su kimidir, kim içsə, sənin qarşında, az da olsa borcunu ödəyə biləcək...”**

**Ruşanənin gündəliyindən...**

***

...Azər Azaflını Tiflisin hava limanında David Qoqaridze qarşıladı. Qarlı, küləkli bir gün idi. Şəhərin nəfəsindən sanki buz salxımları asılmışdı. Küçələrdə sahibsiz itlərdən başqa heç nə gözə dəymirdi. Azər mehmanxanada bir-iki saat dincəldikdən sonra onlar yenidən görüşdülər. Görüş Gürcüstan Respublikası MTN-nin beynəlxalq əlaqələr şöbəsində baş tutdu. Otaqda Azərdən başqa orta və iri rütbəli bir neçə zabit, qədəhlərə qəhvə və gürcü çaxırı süzən iki-üç xidmətçi qız da var idi. Azər türk qəhvəsindən bir qurtum alaraq, yerini rahatlamaq üçün divanın içinə sarı çəkildi. Söhbətə rusca başladı:

- Mən buraya mühüm bir işi həll etmək üçün göndərilmişəm. “Monitor” jurnalının baş redaktoru Elmar Hüseynovun qətlindən 10 il keçdi. Lakin bu cinayət işi tam açılmamış qalır. Bu ağır cinayət işində bir neçə Gürcüstan vətəndaşının adı keçir. Elmar Hüseynovun qətli peşəkarlar tərəfindən törədilib. Cinayəti törədənlərin xaricdən gətirilməsi və qətldən sonra onların dərhal Azərbaycanı tərk etməsi, hadisə yerində silahın atılması da bunu deməyə əsas verir. Biz dəfələrlə Gürcüstan tərəfə müraciət etsək də, cavab ala bilməmişik.

- Bəs necə olub ki, Gürcüstan vətəndaşları istintaqın maraq dairəsinə düşüblər? Bizdə olan məlumata görə maraq dairəsinə düşən məhz iki azərbaycanlıdır - Tahir Xubanov, Teymuraz Əliyev.

- Xeyr, təkcə iki nəfər deyil, - Azər başı daz, enlikürək, ortaboylu polkovnikə baxıb əlavə etdi: - Onlarla birlikdə daha üç nəfər başqa millətdən olan Gürcüstan vətəndaşı da olub. - Kasiya Arçul, Volkvadze Nuqaz, Dabişov Serqo. Bizdə həmin adamların Azərbaycana gəlib-gedişi müəyyənləşdirilib. 2005-ci ilin əvvəllərində bir neçə dəfə Bakıda olublar onlar. Ölkədən son çıxışları martın üçündə səhər tezdən olub. Bu hadisə Qırmızı körpü sərhəd-keçid məntəqəsində olub. Onda da beş nəfər olublar. Amma nədənsə, Gurcustan tərəfi sərhəd-keçid məntəqəsində ancaq iki nəfəri qeydiyyata alıb.

- Belə olan halda, - David Qoqaridze söhbətə qarışdı: - bu adamların cinayətdə iştirakını sübut edəcək başqa dəlillər olmalıdır. Gürcüstan konstitutsiyasına görə, dövlət öz vətəndaşlarını, sizdən fərqli olaraq, hətta cinayət törədiblərsə belə, başqa dövlətə vermir.

- Tamamilə doğrudur. Cənab general, bizim sizin dövlətinizə, xalqınıza böyük hörmətimiz var. Biz qardaşlaşmış dövlətlərik. Siz onları beynəlxalq axtarışa versəniz, onlar Gürcüstandan kənar dövlətin ərazisində saxlanılsa, o halda onları Azərbaycana gətirmək mümkündür.

- Biz istərdik ki, Gürcüstanda istintaq aparaq, adları çəkilən şəxsləri dindirək. Bu mümkün olarmı?

- Beynəlxalq hüquq imkan verir ki, cinayətkar tutulduqdan sonra gedib orada istintaq aparılsın. Sizin Neft Akademiyasındakı terror hadisəsində olduğu kimi. O zaman Gürcüstan tərəfi də sizinlə birlikdə istintaq hərə-

kətləri aparmışdı. Buyurun, siz də cinayətkarı tapın, söz verirəm ki, Gürcüstan öz nüfuzuna xələl gətirməmək üçün, bu işdə istintaq hərəkətlərinin gedişatına problem yaratmayacaq.

- Cənab general, - David Qoqaridze yenidən söhbətə qoşuldu, - səhv etmirəmsə, Hacı Məmmədov məhkəmədə bəyanat vermişdi ki, Elmar Hüseynovun qətlini onun dəstəsi törədib. Elə adamın adını çəkdi ki, bu dəstənin zərərsizləşdirilməsi zamanı öldürülmüşdü. Cinayətin konkret kim tərəfindən sifariş verildiyini də deyirdi.

- Hə, tamamilə haqlısınız, belə bir hadisə olmuşdu. Bu bəyanatdan sonra araşdırmalar başladı. Sizə bəzi şeyləri deyə bilmərəm, buna mənim səlahiyyətim yoxdur. Ancaq bəzi şeyləri izah edə bilərəm. Elmar Hüseynovu Hacı Məmmədovun dəstəsi öldürübsə, bu birbaşa xüsusi xidmət orqanlarının gözü qarşısında baş verməli idi. Çünki rəsmi sənədlərə görə fevralın 27-dən Hacı Məmmədov izlənilib, telefonları dinlənilib, Hacı Məmmədov xüsusi xidmət orqanlarının nəzarəti altında olduğu halda bu cinayəti törədib. Bu da heç cür mümkün deyildi. Qaldı cinayət işinin prokurorluqdan alınıb MTN-ə verilməsinə, bu ancaq məlumatların kənara sızmaması məqsədilə atılmış addım idi.

David Qoqaridze ayağa qalxdı, üzünü otaqdakı zabitlərə tutaraq söylədi: - Siz gedə bilərsiniz!

Onlar getdikdən sonra David Azərlə yanaşı oturdu. Deyəcəyi sözləri fikrindən keçirirmiş kimi, bir müddət susdu, sonra əlini Azərin çiyninə qoyaraq dedi:

- Azərcan, hər şeydən öncə mən səninlə dostam. Açıq danışacağım üçün məni suçlama. Düzdür, sizin MTN-in yaxşı texniki imkanları var. Amma MTN-in müstəntiqləri qəsdən adamöldürmə cinayətlərinin açılmasında mütəxəssis sayıla bilməz. Bu onların sahəsi deyil. Hacı Məmmədovun dəstəsilə bağlı ölüm işlərini misal gətirə bilərəm. Ziya Bünyadovun ölüm işinin açılmasında bizim müstəntiqlər də iştirak ediblər. Onların dediyinə, görə o işlərin də istintaqı çox bərbad şəkildə aparılıb. Elmar Hüseynovun qətli ilə bağlı istintaqı aparan müstəntiq Qəniyevi şəxsən tanıyıram. Bir neçə dəfə bu işlə bağlı bizə də müraciət etmişdi. Amma işinin istintaqı sahəsində təcrübəsi yox idi. İşin faydalılıq əmsalı nəticə ilə ölçülərsə, əmsal sıfıra bərabərdir. Sizin hökumət etiraf etməlidir ki, Elmar Hüseynovun qətli ilə bağlı istintaq dalana dirənib. Bundan sonra da belə olacaq.

Ümumiyyətlə, bu adamların şəkilləri, görüntüləri, onların barəsində məlumatların indiyə qədər KİV-lərdə yayılması müəyyən məsələlərə kölgə salır. Əgər sizin hökumətinizin razılığı olmasa, yaxın perspektivdə bu işin açılmasını gözləməyə dəyməz. Sirr deyil ki, bizim və sizin hüquq-mühafizə orqanları, onlara yuxarıdan göstəriş olanda, daha yaxşı işləyirlər. Əgər göstəriş və istək olsa, güc rəhbərləri orqanları işini elə qura bilər ki, xüsusi nəzarətdə olan bütün ağır cinayət işləri açıla bilər. Bu nə səndən, nə də məndən asılıdır. Elmar Hüseynovun cinayət işi də belədir.

- Sizdən fərqli olaraq, bizim MTN və DİN öz işini

bacarıqla qurur. Bəlkə də siz haradasa haqlısız. Lakin bəzən cinayətin başında elə adamlar dayanır ki, onlarla mübarizə aparmaq çətinləşir. Çünki bu adamların əlləri uzundur. Hara desəz, çata bilir.

- Yaxşı mən səninlə razılaşıram, bəzi məqamlar mübahisəli olsa da, razıyam. İstəsən, səni rəhbərliklə görüşdürə bilərəm. Bəlkə bir şey çıxdı. İndi gedək mənimlə, yəqin ki, gürcü çaxırı üçün darıxmısan...

Onlar küçəyə çıxanda, küçə işıqları yenicə yandırılmışdı. Tiflisin füsunkar axşamı Kür çayının mavi sularında bərq vururdu.

***

Azər Tiflisdən qayıtdıqdan sonra hesabat vermək üçün nazirlə görüşdü. Hər şeyi olduğu kimi ona danışdı. Bundan sonra nazirin göstərişi ilə Elmar Hüseynovun qatillərinin foto şəkilləri mətbuata və interpola ötürüldü.

## III fəsil

Onlar London hava limanından birbaşa Çesterə gəldilər. Xumar xudmani həyəti, qırmızı kərpicdən tikilmiş həndəsi fiqurlara oxşayan çoxqanadlı, ikimərtəbəli binanı görəndə heyrətini gizlədə bilmədi:

- Süsən, əziz bacım, burası lap cənnəti xatırladır. Necə də gözəldir. Ancaq bir az baxımsızdır.

- Əli gedəndən sonra burda olmamışıq. Qonşuların ümidinə qalıb. Mənim burada rəfiqələrim var, bir azdan səni tanış edəcəyəm.

- Xanım əfəndi, bacınıza hansı qanaddakı otaqları hazırlayım?

Süsən xidmətçi qadına baxıb gülümsədi:

- Əlbəttə, çaya baxan tərəfdə. Çalış ki, ən yaxşı otağı balaca Süsənə verəsən.

- Xanım əfəndi, mən təklif etdim, o istəmədi. Mən bacılarımla qalacağam, - söylədi...

- Yaxşı, qoy sən deyən olsun, get işini gör, axşam bu məsələyə bir də baxarıq.

Onlar eyvana çıxdılar, buradan Əlinin öz əlləri ilə saldığı bağça aydın görsənirdi. Xudmani həyətin, xudmani də bağçası vardı. İstər evin arxa tərəfindəki bağçada, is-

tərsə də qarşı tərəfki bağçadakı qızılgüllər yetim uşaq kimi boyunlarını əymişdi. Holland növündən olan bu ağ güllər ilboyu açırdı. Süsən bu ağ qızılgülləri çox sevirdi. Elə bil güllər də sahiblərinin gəldiklərini duyub, bir az dirçəlmişdi. Əli torpağı gübrələyir, su şırılğanı ilə hər yarpağı ayrıca yuyub təmizləyirdi. Əli adi ingilis bağbanından heç nə ilə seçilmirdi. Elə həvəslə çalışırdı ki, sanki bir daha bu bağçaya girməyəcəkdi. O, evinə, ailəsinə qayıtdığı üçün sevinirdi. O, Azərin ona "Azıx" mağarasında dediyi sözləri xatırladı... "Əsas odur ki, özündə güc tapıb şər işlərdən azad olasan. Tanrı sənin günahlarını bağışlayar. Hər kəsin səhvi ola bilər. Bu səhvlər bizə nəyisə öyrədir. Səhvdən qorxmaq lazım deyil, biz bu yolla əsl həqiqətin harada olduğunu tapırıq. Əsası odur ki, nəticə çıxarmağı bacarasan".

Xumar Əliyə yaxınlaşıb su şırılğanını onun əlindən aldı:

- Ver, bir az da mən sulayım, lap uşaqlığımı yadıma saldın. Atamın da kiçik bir bağçası vardı, ilboyu ona qulluq edərdi. Mən onun köməkçisi idim. Üz-gözüm palçığa batanda, Süsən kənardan mənə baxar, gülməkdən uğunub özündən gedərdi.

- Yaxşı, nə deyirəm ki, qoy sən deyən olsun. Amma bu dəfə Süsənə güvənmə, əgər üst-başını batırsan, o ağlayacaq...

Süsən eyvandan onlara əl elədi, həmişə astadan danışan Süsən onlar eşitsin deyə, səsini qaldırdı: - Nahar yeməyi hazırdır, xahiş edirəm, hamı süfrəyə gəlsin.

- Xumar, gəl gedək. Süsəni əsəbiləşdirmək olmaz, yoxsa boynumuzu qırar.

Hər ikisi gülə-gülə bağçadan çıxdı.

Süsən axşam yeməyinə qonşularını da çağırmışdı. Öz əliylə dəmlədiyi toyuq-plovun ətri otağa dolmuşdu. Osmanla Əli yanaşı oturmuşdu, Süsənlə Xumar qarşı-qarşıya, Elizabetlə Conu isə hörmət əlaməti olaraq masanın baş tərəfində oturmuşdular. Zəfəranlı plov ortaya gələndə hamı canlandı. Con plovdan bir qaşıq götürüb ağzına qoydu, sonra dodaqlarının yağını dəsmalla silərək Əliyə dedi:

- Sən buralarda olmayanda dostun bir neçə dəfə gəlmişdi. Elizabet deyir ki, çox yaxşı adamdır. İndiki dövrdə belə yaxşı dostun olmaq böyük xoşbəxtlikdir.

- Elə mən də belə hesab edirəm. Biz birlikdə rus-çeçen müharibəsində döyüşmüşük.

- Mən ixtisasca şərqşünasam. Uzun illərdir ki, qəqim Alban dövlətinin tarixini araşdırıram. Beş il əvvəl Azərbaycana getmişdim. Orada Alban dövlətinin antik dövrdə yerli sülalənin nümayəndələri tərəfindən idarə olunduğu haqqında məlumatlar yığdım. Sizin çox güclü əlyazmalar və tarix muzeyləriniz var. Moisey Kalankatlı bu sülaləni Yasəfin səcərəsinə bağlayaraq sülalənin ilk nümayəndəsinin Arran adlı hökmdar olduğunu bildirir. Arranı sünik nəslinə aid edir. İlk hökmdarının adı ilə bu sülalə aranilər, indiki dillə desək, arrapilər adlanır. Lakin bu sülalə haqqında çox az məlumat tapa bildim.

şəkil səhifəsi

***

- İstəsəniz, Süsən xanım sizə geniş məlumat verə bilər. Axı Süsən xanım da şərqşünasdır. İndi isə gəlin plovu soyutmayaq, yoxsa dadı qaçar...

...Leytenant Ağası Turan içəri girəndə Xumarı gözüyumulu gördü. Əvvəlcə elə zənn etdi ki, Xumar yatıb, onu ayıltmamaq üçün geriyə qayıtmaq istədikdə, arxadan səs eşitdi:

- Turan, yaxına gəl, mən yatmamışam, indicə Çesterdə Conla danışırdım. Məgər sən zəfəranlı plovun iyini hiss etmirsən?

Turan çaşıb qalmışdı, bilmirdi ki, nə cavab versin. Zərif çiyinlərini yuxarıya qaldıraraq, - Mən səni, anlamadım, - söyləmək demək istəsə də, demədi. Sakitcə dayanıb susdu.

- Yaxşı, yaxın gəl görüm. Sənə tapşırdığım işi bacara bilmisənmi? Qaldı məni anlamadığına, bu, o qədər də vacib deyil. Sən hələ təzəsən, çox şeyləri anlamağa vaxtın olacaq.

- Cənab mayor, üç gündür ki, İnternetdəyəm. “Emo”lar haqqında hər şeyi öyrənmişəm. Bütün ölkələrdə eynidir. Eyni fikirlər, eyni sevgi, eyni davranış. Hətta geyimləri də eynidir, lakin saç düzümlərinə görə fərqlənirlər. Alın, özünüz baxın, mənə elə gəlir ki, onlara baş qoş-mağa dəyməz.

Turan əməliyyat işçisi olmasa da, dəftərxana işlərini yaxşı bilirdi. Hərbi Polis Məktəbini bitirdikdən sonra

bura işə göndərmişdilər. Xumarın gözü qızın üstündə idi. Cəldliyi, dünyaya fəlsəfi baxışı, işgüzarlığı xoşuna gəlirdi. Gələcəkdə onu əməliyyat dəstəsinə qoşmaq üçün tez-tez qıza sınaq tapşırıqları verirdi.

- Yaxşı, sən get, lazım olsan çağıraram!

Xumar Turanın ona verdiyi kağızları qabağına qoyub başladı vərəqləməyə.

...Özlərini "emo" adlandıran yeniyetmələrin ilk baxışda cinsini təyin etmək çox çətindir. Saç düzümləri, geyim tərzləri fərqli olsa da, hamısı bir-birinə oxşayır. Belə desək, çox əcayib bir görünüşdə olurlar. Hətta söhbət əsnasında ətrafdakılar onlara çox təəccüblə baxırdılar. Ancaq bu onları narahat etmirdi: "Bizi harada görürlərsə, ayaq saxlayıb baxırlar. Bu da bizə əlavə stimul verir. Əgər insanların diqqətini özümüzə cəlb edə biliriksə, deməli, biz fərqliyik. Biz hər kəsə müsbət enerji verməyə çalışırıq..."

...Avropada yaşayan "emo"lar daha cəlbedici olurlar. Azərbaycanda "emo" olmaq bir qədər çətindir. Çünki insanlar onlara lağ edir, "emo"lara qız kimi baxırlar. "Emo"ları cəmiyyətdən təcrid etmək lazım deyil. Yaponiya, Almaniya və digər ölkələrdə "emo"lara normal baxırlar. Təəssüf ki, bizim ölkədə bu belə deyil...

..."Emo" oğlan və qızlar bir-birinə çox oxşayırlar. Oğlanların əksəriyyəti kosmetikadan istifadə edir. Emoların həyatında rok mahnıları çox böyük yer tutur. «Emo»ların sözlərinə görə, onların arasında təbəqələşmə yoxdur. Sadəcə olaraq varlı ailələrin uşaqları daha çox geyim

markalarına görə fərqlənirlər. "Emo"ların əksəriyyəti elə varlıların uşaqlarıdır. Bu varlı balalarının sosial xəstəliyidir...

Xumar vərəqləri özündən kənara itələdi. Əlləri ilə başını tutub xeyli hərəkətsiz dayandı. - "Bu sosial xəstəlik təkcə varlı balaları üçün deyil, yaşadığımız mühitin, çürüməkdə olan cəmiyyətin ağır bəlasıdır. İyirmi ildir ki, bu xəstəliklə mübarizə aparırıq. Nəticə varmı? Həqiqəti gizlətmək əclaflıq olduğu kimi, yalan danışmaq da qorxaqlıqdır".

Xumar Viktor Hüqonun sözlərini xatırladı: - "Hər insanın üç xasiyyəti olur: biri ona yapışdırılan, biri özü yapışdırdığı, üçüncüsü isə həqiqətdə olan gerçəklikdir". Bu sənin də üzv olduğun cəmiyyətin astarı deyilmi? Axı nə vaxta qədər bu cəmiyyətə astardan üzlük çəkiləcək? Nə vaxta qədər bu sosial bəlalar xirtdəyimizdən yapışaraq, bizi çamırlığa sürüyəcək? Əgər insanlar təkcə gördüklərini danışsaydılar, Yer üzü necə də sakit olardı?! Cəmiyyətdə gedən mənfi proseslər gəncləri çaşdırıb, onların ətrafında dəhşətli dərəcədə pis olan aura yaradıb ki, bu da inkişafda olan yeniyetmə və gənclərimizi mənəvi cəhətdən məhv edir.

Xumar öz fikirlərinə o qədər aludə olmuşdu ki, qapının açıldığını belə hiss etmədi. Çavuş xeyli gözlədikdən sonra dedi:

- Cənab mayor, o "emo" adlandırdığınız uşaqların ata-anaları gəliblər, içəri buraxımmı?

- Xeyr, buraxma! - Xumar ona məxsus olmayan sərt

səslə cavab verdi. - Uşaqları da, valideynlərini də Şəhər Polis İdarəsinə apar. Orada yeniyetmələr və gənclərlə işləyən şöbə var. Uşaqları və saxlama protokolunu onlara ver. Allah kömək etsin sizə!

Xumar üst-başını səliqəyə saldıqdan sonra, daxili telefonun dəstəyini qaldırdı.

- Rizvan, mən Süsəni məktəbdən götürməyə gedirəm.

***

**... "Bizim dəstənin üzvlərindən bir neçə nəfəri hələ də tutulmayıb. Hüseyn Abdulvahabovun dəstəsindən də burada beş nəfər yoxdur. Nizami Abdullayev düz deyir. Şirxanın, Borisin, Ruslanın və Dilarənin qətlləri Nailə Quliyevanın mənzilində həyata keçirilib..."**

**Hacı Məmmədovun istintaqa verdiyi ifadədən...**

Mürsəl artıq bir saat idi ki, Ramin Nağıyevin Söhraba verdiyi cinayət işlərinin məxfi sənədlərini oxuyurdu.

"...Mən tam əmin olanda ki, 1995-ci ildəki qətlləri törədən də Hacı Məmmədov və onun dəstəsindəki çeçenlərdir, bütün sənədləri-sübutları toplayıb rəhbərliyə müraciət etdim və onların reaksiyanı gözlədim. Bu mənim tərəfimdən atılmış hüquqi addım idi. Mən Afiyəddin Cəlilovun, Şəmsi Rəhimovun və Ziya Bünyadovun korrupsiya hallarını araşdırdıqlarına görə öldürüldüklərini söyləmişdim. Ancaq təkcə korrupsiyaya görə yox, Er-

mənistana neft və neft məhsulları satılmasına görə də. Bir vaxtlar bizim neft, dizel kimi yanacaq məhsullarımız Gürcüstan vasitəsilə Ermənistana aparılırdı. O vaxt Qazaxda MTN-ə yeni rəis qoydular. O, bu işləri qurdaladığına görə onu vurdular, heç bir ay işləmədi. Bundan başqa pul məsələləri də vardı. Müxtəlif bəhanələrlə pulları xarici banklara yatırırdılar.

Şəmsi Rəhimovda bununla bağlı sənədlər, sübutlar vardı. Bu, "qara qovluq" adlanırdı. Həmin bu "qara qovluğu" Namiq Abbasov da axtarırdı, İsa Nəcəfov da. Tapa bilmirdilər. Sonra məlum oldu ki, qovluq Afiyəddin Cəlilovda olub. Onun oğlu qovluğu Afiyəddin Cəlilov öldürüləndən 40 dəqiqə sonra atasının Milli Məclisdəki otağındakı seyfindən götürmüşdü. Bizə məlum olmayan səbəbdən ondan nəsə soruşmağı qadağan etdilər. Biz onu sorğu-sual etməli olsaq da, Namiq Abbasov icazə vermədi. O dedi: "Qoymurlar, ona bu sualları vermək olmaz!"

İşi məndən alıb başqa müstəntiqə verdilər. Qovluğun hara getdiyi məlum olmadı. Bu günəcən də bəlli deyil. Mən Şəmsi Rəhimovun, Afiyəddin Cəlilovun və Ziya Bünyadovun qətlinin arxasında kimlərin durduğunu bilirdim. İcraçıları isə çox güman ki, Hacının əli ilə öldürdülər. "Qurd qapı"sında iki çeçeni və yanlarındakı bir qadını maşında yandırmışdılar.

2002-ci ildə mən Moskvada olanda bütün sənədləri rəhbərliyə göndərdim. Bakıdan adam göndərmişdilər, mən də sənədləri verdim. Belə çıxdı ki, bu işi elə onu

törədənlərin özləri araşdırır. Onlar bu məsələyə girişdilər və özləri də qurbana çevrildilər.

Haqlı olaraq soruşa bilərsiniz ki, Hacı Məmmədovun dəstəsilə bağlı məlumat güc strukturlarında var idi, lakin heç kim birinci addım atmaq istəmirdi. 2004-cü ildə nazirlikdə Eldar Mahmudovun göstərişi ilə MTN-də komissiya yaradıldı. Həmin komissiya müəyyən etdi ki, belə bir dəstə mövcuddur. Namiq Abbasov heç nə etmədi, sadəcə bununla bağlı prokurorluğa müraciət etdi. Onlar da məktubu geri qaytardılar. 1999-cu ildən bu yana Hacı Məmmədov 10 adam öldürüb. Bu, rəsmi məlumatdır. Bəs sübut olunmayanı, Hacının dilə gətirmədikləri nə qədərdir? Hazırda Hacı Məmmədovun dəstəsindən əlavə başqa cinayətkar dəstə fəailiyyətdədir. Mən bilirəm ki, bu dəstə daha qəddar, daha yırtıcıdır. Elmar Hüseynovla bağlı adları desəm, bu işə dəxli olanlar, məni də aradan götürəcəklər. Mən bilirəm ki, Elmarı Hacı Məmmədov öldürməyib. Onu başqaları öldürüb. Mən Elmarı öldürənlərin izinə düşmüşdüm. Cinayət işində daşdan keçən sübutlar var. Nədənsə onu araşdırmaq istəmirlər. Cinayətkarın papağı və saçı tapılmışdı. DNT analizi aparılmışdı. Qatilin DNT-si məndə var. Ad desəm, bunu sübut etməyə imkan verməyəcəklər. Qətlin arxasında kimin durduğu da bəllidir. Bu işin tam açılması üçün zamana ehtiyac var..."

Mürsəl çox yorulmuşdu. Başı yazıları oxumağa elə qarışmışdı ki, axşamın nə vaxt gəldiyindən belə xəbəri olmadı. O, qovluğu bağlayaraq əvvəlki yerində gizlətdi.

Nədənsə dünən İranın Azərbaycandakı səfiri ilə olan söhbəti xatırladı:

- İran İslam Respublikasının sizin ölkəyə olan dost münasibətini beləmi qiymətləndirirsiniz?

- Cənab səfir, axırıncı hadisələrdən xəbəriniz varmı? Sizin "Səhər-2" televiziya proqramınız Azərbaycana qarşı təxribat xarakterli məlumatlar yayır, din xadimləriniz ölkəmizdə yaşayan dindarları üsyana çağırır. Üstəlik 2012-ci ildə Bakıda terror əməliyyatları keçirmək üçün emissarları burada cəmləşdirilib. Biz onlardan bir dəstəsini həbs etmişik. Cənab səfir, dostluq beləmi olur?

- Bəli, mən sizi səbirlə dinlədim. Dedikləriniz mənbəyi olmayan şayiələrdir. Mənim İranla bağlı nə baş verirsə hamısından xəbərim var. Təkcə sizin dediklərinizdən başqa!

Səfir ayağa durdu:

- Gərək ki, mənim getmək vaxtımdır.

- Dayanın, icazə verin sizi yola salsınlar.

- Buna ehtiyac yoxdur. Dediklərinizi mən öz hökumətimə çatdıraram.

Səfir Mürsələ əlini uzatdı. Səfirin əli Mürsəlin güclü barmaqları arasında sıxıldı. Səfir bir anlığa ətrafa nəzər saldıqdan sonra qapıya yönəldi. Mürsəl əlini belinə qoyaraq səfirin getməsini gözləyirdi. O, artıq başqa şey haqqında fikirləşirdi. Yarım dəqiqə sonra Mürsəl deyəcəyi sözü ürəyindən keçirdi: "Bu hələ hamısı deyil. Sən qayıdacaqsan. Mən buna tam əminəm..."

***

Mürsəl çox yorğun idi: imtahandan kəsilmiş tələbə kimi bədəni axırdı. Tələbə - indiki vaxt üçün ən önəmli söz idi. Bu Mürsəlin ağlına qəflətən gəldi. O, özünü nəinki tələbə kimi yorğun hiss edirdi, hətta ona elə gəlirdi ki, yorğunluqdan bütün bədəni şəffaflaşmışdı, qolunu qaldırsa, hər şey apaydın görsənəcək. Ağır iş günləri onun canını, qanını sorub aparmışdı, təkcə həssas sinirlərdən ibarət olan kövrək sümükləri və dərisi qalmışdı. Həddən artıq yüklənmə insanın nəinki fikirlərini, elə xasiyyətini də dəyişə bilər.

Mürsəl beş gün idi ki, evinə getməmişdi. Bu günlər ərzində 90 saatdan çox gərgin işləmişdi. O da başqaları kimi yatağında uzanıb səhərin açılmasını gözləyə bilərdi. Mürsələ elə gəlirdi ki, Ramin Nağıyevin qovluğunu oxuduqdan sonra hər şeyə nöqtə qoya bilər. Lakin oxuduqları ona başqa şey deyirdi. O, həqiqətin harada olduğunu çılpaqlığı ilə başa düşsə də, onunla razılaşa bilmirdi.

Hər şeyin zamana ehtiyacı var dilemması ilə üz-üzə gəlmişdi. Ramin Nağıyevin açıqlamalarını üzə çıxarmaq, yenidən istintaqa vermək, özü-özünə ölüm hökmünü imzalamaq kimi bir şey idi. O, Söhraba çox inanırdı. Söhrab qovluğu ona verəndə zamanın gəldiyini demişdi. Lakin Mürsəl onunla razılaşa bilməzdi. İndiki vaxt üçün o "zaman" gəlməmişdi.

Hələlik onu başqa şey düşündürürdü. Necə, hansı yol-

la? - sualı birinci yerdə dururdu. Terrorçu dəstə hələ tam zərərsizləşdirilməmişdi. Vəli Qurban oğluyla, Validənin qətl işi başa çatmamışdı. Əgər qatil tapılsa, məsələ tezliklə aydınlaşa bilərdi. Simuzər qatili tanıyırmı? Onun evi İrandan gələn xəfiyyələr üçün görüş yeri olmuşdu. Ağayi Firuzun gəlişi Simuzərin həbsi ilə eyni vaxta düşürdü. Onlar bir-birini tanıyırdılarmı?

Simuzər İrana alış-veriş üçün gedən qadınlardan idi. İlkin istintaq göstərdi ki, o, narkotik alveri ilə də məşğul olur. Başındakı qarmaqarışıq fikirləri dağıtmaq üçün yan otağa keçib üzünə bir ovuc soyuq su çilədi. Artıq üçüncü dəfə idi ki, Mürsəl saatına baxırdı.

- Sizin getmək vaxtınızdır, cənab polkovnik.

İçindən gələn bu səs onu qapıya sarı yönəltdi. - Dayan, hara gedirsən? - İkinci səs onu geri qaytardı. - Biz hələ indi başlayırıq, gəl içək.

- Nəyə görə? - Mürsəl yüngül istehza ilə dedi:

- Sənin keçmişinə görə...

- Hə, sən haqlısan, keçmiş adama həmişə lazımdır.

Onun qarşısında ikinci bir Mürsəl dayanmışdı. O öz varlığını ikinci Mürsələ vermişdi.

- Bəlkə faktların detalları haqqında danışaq. Düşünürəm ki, sənin bu barədə daha çox bilgin var.

- Hə, əlbəttə, var. Bunu sən də bilirsən.

- Mənim bilmədiyim bəzi şeylər var. Biz onu aydınlaşdırmaq üçün burda dayanmışıq.

- Sənin dostlarından biri yaxın günlərdə sənə əl uzadacaq. O sənin istəyinə yardımçı olacaq.

Aralığa qəribə, maraqlı sükut çökmüşdü. İkinci Mürsəl bu sükutu pozdu:

- Sənin getməyin lazımdır. Əgər bir də görüşə bilsək, səni başa salaram.

- Harada?..

- O yerdə ki, qaranlıq olmur.

- Nəyə işarə vurursan? Dayan, getməmişdən öncə bir söz de!

- Nəyi başa düşmədin? O yerdə ki, qaranlıq olmur. Bu ki, çox sadədir. Sən ömrün boyu qaranlıqla mübarizə aparmısan. Həyatını verməyə hazırsanmı?

- Əlbəttə, yüzlərlə günahsız insanların həyatını qurtarmaq üçün əgər lazımsa.

- Başqaları sənin kimi düşünmür. Ramin Nağıyevi yadına sal. Sənin kimi düşündüyü üçün onu vətənindən didərgin saldılar.

- Biz onlarla mübarizə aparırıq.

- Yazıqlar olsun sənə. Sənin onlara gücün çatmaz. Bu, uşağın üzünə azot turşusu atmaq kimi bir şeydir. Gəl vidalaşaq, bir daha görüşmək üçün.

Yenidən ortaya sakitlik çökdü. Mürsəl gümüşü rəngli qutudan bir siqaret çıxarıb yandırdı. Burun deşiyindən çıxan bozumtul tüstü burula-burula tavana doğru meyilləndi...

***

Şam yeməyindən sonra onlar bağçaya çıxdılar. Evin sol qanadı altında qoyulmuş yumşaq kürsülərdə oturdular. Xidmətçi qadın təzə dəmlənmiş türk qəhvəsi gətirdi. Con qəhvədən bir-iki qurtum alıb:

- Bəlkə yemək vaxtı başladığımız söhbəti davam etdirək. - dedi.

Osman uşaqlara bağçada nəsə danışır, uşaqlar səs-küylə gülüşürdülər. Xumar Elizabetlə söhbət edirdi. Süsən Əlinin qolundan tutaraq ona qısılmışdı.

- Şərqşünaslıqla məşğul olmaq mənə bir çox elmlərin açarını verdi. Latın dili ilə "Avesta" əlifbasını öyrənəndə çox maraqlı bir nəticəyə gəldim. "Avesta" əlifbası bir çox əlifbaların ilkin bünövrəsi olmuşdur. Təbii ki, bu əlifbanın, eləcə də planetlərin həndəsi şəkli olan rəqəmlərin işlənib hazırlanmasında qədim maqların böyük rolu olmuşdur. Səhv etmirəmsə, bu tayfa türk köklü olan başqa tayfalarla birlikdə qədim alban torpaqlarında yaşamışlar. Lakin bu sülalə haqqında məlumatlar çox azdır. Arranın davamçılarının fəaliyyəti haqqında məlumatlar çox cüzidir. Demək olar ki, yox səviyyəsindədir. Rica edirəm, əgər mümkünsə mənə qədim torpaqlarınız sayılan Qafqaz Albaniyası haqqında bir qədər geniş məlumat verəsiniz.

- Hə, əlbəttə - deyə Əli dodaqaltı mızıldandı. - Süsən, bəlkə sən danışasan?

- Əslinə qalsa, mən də bu barədə çox az bilgiyə ma-

likəm. Lakin bəzi şeyləri aydın-laş-dıra bilərəm. Arranilər sülaləsinin hakimiyyəti dövründə Albaniyaya yadellilərin yürüşləri baş vermiş və Albaniyanın üç vilayəti - Artsax, Utik və Paytakaran işğal edilmişdir. Lakin bu işğal uzun sürməmiş, eramızdan əvvəl 66-cı ildə yadellilər Roma ordusu tərəfindən məğlub edildikdən sonra bütün işğala məruz qoyduqları əraziləri, o cümlədən Albaniya torpaqlarını tərk etməli olmuşdur.

- Mənim bildiyimə görə, sizin bəhs etdiyiniz Artsax, Azərbaycanın indiki Dağlıq Qarabağ bölgəsində olub, yoxsa yanılıram?

- Xeyr, yanılmırsınız. Ta qədim tarixdən bəllidir ki, ermənilərin heç zaman nə torpaqları, nə də dövlətləri olub. Erməni başçısı II Tiqran romalıların köməkliyi ilə eramızın əvvəllərində Finikiyada olan dağlıq ərazidə kiçik bir dövlət yaratmışdı. Elə həmin romalıların özləri də o kiçik dövləti darmadağın edib, yer üzündən silmişdilər.

- Mən kollecdə tələbələrə Cənubi Qafqazın tarixindən dərs deyirəm. Qədim əlyazmalardan və tarixi mənbələrdən məlumat verilir ki, mömin Varaqanın Albaniyada hakimiyyəti Albaniyanın siyasi, dini-mədəni intibah dövrü olub. Məktəblər açdırıb, dağılmış kilsələri bərpa etdirib, yeni kilsə və monastrlar tikdirib.

- Tamamilə doğrudur. Alban arşaxları müstəqil alban siyasəti yürüdür, Albaniya dövlətinə, alban xalqına sədaqətlə xidmət edir, yerli mədəniyyətə qarışaraq albanlaşırdılar.

- Bəs necə oldu ki, bu cür qüvvətli dövlət süqut edərək, məhv oldu?

- Alban arsaxilərinin hakimiyyəti 510-cu ildə sona yetdi. Ölkə 510-629-cu illər ərzində Sasani şahları tərəfindən idarə olunurdu. VI əsrin sonu, VII əsrin əvvəllərində Girdiman vilayətinin feodal hakimi olan Mehranilər nəsli gücləndi. Başda Mehr olmaqla Sasani Mehranilərinin əsli VI əsrdə saray çevrilişində iştirak etdiyinə görə, Sasani şahı II Xosrov Pərvizin qisasından qurtarmaq üçün 30 min ailə birlikdə Xosrovun düşmənləri - Xəzərlərə qoşulmaq üçün İrandan qaçmışdılar. Təbii ki, bu qaçqınlar içərisində İran erməniləri də var idi. Ermənilərin Albaniya - indiki Qərbi Azərbaycan torpaqlarına gəlməsi Xosrovun hökmranlıq etdiyi 628-ci ildən başlamışdı.

- O vaxta qədər sizin torpaqlarda ermənilər kütləvi halda yaşamışdılar ki?

- Xeyr, onların sayını barmaqla göstərmək olardı, - Süsən Xumarın üzünə baxdı - Nə ağzına su alıb oturmusan, danışsana.

Con təəccüblə Xumara baxdı:

- Siz tarixçisiniz?

- Xeyr, mən polis işçisiyəm. Təkcə sizin ölkədə yox, Azərbaycanda da polislərə vətənlərinin tarixini yaxşı öyrədirlər. 622-ci ildə Albaniya yenidən Xəzərlərin hücumuna məruz qaldı. Alban hökmdarı Cavanşir bu dəfə onları məğlub edib ölkədən qova bildi. Lakin 664-665-ci illərdə Xəzərlər yenidən Albaniyaya hücum etdilər.

Onlar Kür çayını keçərək Araz çayına çatdılar. Alban və iberlərdən çoxlu adam əsir aldılar. Kür və Araz çayları Azərbaycan torpaqlarından axır. Sizin Temza çayı kimi sulu olsalar da, ondan uzun çaylardır. Süsən, ardını sən danış, mən sizə qəhvə dəmləyim.

- Cavanşir Xəzərlərlə müqavilə bağladı və Xəzər xaqanının qızı ilə evləndi. Lakin kiçik Asiyanın bir sıra vilayətlərinin ərəblər tərəfindən tutulması nəticəsində Bizansın zəifləməsi Cavanşirin Bizansla bağladığı müqaviləni pozmağa məcbur etdi. Hökmdar saysız-hesabsız Türküstan ordusundan imtina edərək, ərəblərə tabe olmağı üstün tutdu.

- Beləliklə, 705-ci ildən etibarən Albaniya həm faktiki, həm də hüquqi baxımdan tama-milə ərəb əsarəti altına düşdü. - Con gülümsünərək Süsəndən soruşdu: - Doğrumu deyirəm?

- Sən bunları bilirdinsə, niyə xanımları incitdin? - O, Süsəni göstərdi. - Görürsən, necə tərləyib?

- Mən sizin xanımlara heyran qaldım. Doğrusu, elə bilirdim ki, təkcə ingilislər öz vətənlərinin tarixini dəqiq bilir. Görünür yanılmışam.

Səba atasına yaxınlaşaraq, qorxa-qorxa dedi:

- Ata, küçədə iki nəfər səni çağırır. Biri polis paltarındadır. Sən olmayanda da, o, tez-tez bizə gəlir, anamdan səni soruşurdu. Onu Osman əmi də tanıyır. Sən getmə, qoy Osman əmi onunla danışsın.

- Yox, qızım, bu mənim işimdir, Süsən, sən qonaqlarla məşğul ol, mən indi gəlirəm.

Əli küçəyə çıxdı, evin qabağında bir polis maşını dayanmışdı. Əlini çağıranlar maşına söykənərək siqaret çəkirdilər.

***

Azər Azaflı fikir içərisində çulğalanırdı. İki-üç gün idi ki, özünü narahat hiss edirdi. Əslində buna əsas da var idi. Hərbi hakimiyyətin iki qolu arasında gəzişsə də, heç birinə üstünlük verə bilmirdi. İranda rəsmi kəşfiyyat fəaliyyətini həyata keçirən «Ettelaat» regionda nüfuzlu təşkilatlardan idi. İranın mühacirlərini və ölkəyə daxil olanları süzgəcdən keçirmək bu qurumun əsas fəaliyyəti daxilindədir. İran rejiminin qapalı siyasətindən asılı olaraq, bu qurumun siyasətə marağı böyükdür. İranın xarici siyasəti demək olar ki, «Ettelaat»ın mə-ruzələri əsasında formalaşdırılır. Axırıncı məlumata görə, təşkilatın hazırkı rəhbərliyi dini və siyasi hakimiyyət arasındakı qarşıdurmadan istifadə edərək, xeyli müstəqilləşib. Rejimin part-layışı üçün ən həssas materiallar bu qurumun əlindədir.

Başqa tərəfdən Sepah - dini rejimin vuran sağ əlidir. Hərbi, həm hərbi-kəşfiyyat, həm də hərbi əks-kəşfiyyat bu sağ əldə cəmləşib. Onun bir çox ölkələrdə terroru dəstəklədiyi, diversiyalar təşkil etdiyinə dair məlumatlar var. Başlıca vəzifəsi isə İran daxilində dini hakimiyyətə qarşı çıxanlara divan tutmaqdır. «Sepah»ın zirzəmilərində minlərlə inqilabçı qadın və kişi zorlanır. Bu barədə ölkə kəşfiyyatının da əlində material var.

«Sepah» dini rejimi qoruyan təşkilat olsa da, ayrıca bir struktur şəbəkədir. Bu şəbəkə ayrı-ayrı ölkələrdə qapalı «biznes» resurslarına malikdir. Bu cür biznes şəbəkələrində işləyən adamlar əsas güclərini hərbi kəşfiyyatın xidmətinə verir. Bu isə Azərbaycan üçün təhlükəli-dir.

Azər qarşısında oturan Ağayi-Firuza baxırdı. Özünü şəxsən tanımasa da, İslam İnqilabı Keşikçiləri Korpusunda («Sepah») işlədiyini bilirdi. Onu da bilirdi ki, Ağayi-Firuz tülkü kimi hiyləgər, canavar kimi yırtıcıdır.

Azər kompyuterin qabağında oturan, onun əmrini gözləyən leytenant qıza işarə elədi. Bu o demək idi ki, yazıda diqqətli olsun.

- Adınız və soyadınız? Xahiş edirəm, düzgün cavab verəsiniz. Bakıya hansı məqsədlə gəlmisiniz?

Ağayi-Firuz cavab vermədi, başını aşağı salaraq susdu. Arada gərginlik yaranmışdı. El-çin içəri girəndə başını qaldırıb ona baxdı:

- Mane olmadım ki, cənab general?

- Xeyr, elə vaxtında gəlmisən. Bu cənab, deyəsən, adını, soyadını unudub.

- Bəlkə heç soy adını bilmir, ya da unudub. İndi mən onun yadına salaram. Ağayi-Firuz ola bilər ki, zaman keçdikcə, insanlar çox şeyi unuda bilsin. Lakin elə şeylər var ki, onu unutmaq mümkün deyil. - Elçin ona yaxınlaşıb çənəsindən tutaraq başını yuxarı qaldırdı, - mə-nə diqqətlə bax, gör tanıya bilirsənmi?

- Mən heç nə bilmirəm, heç kimi də tanımıram. Keçən dəfə də demişdim, indi də de-yirəm, İranın Bakıdakı səfiri gəlməsə, heç bir sualınıza cavab verməyəcəyəm.

- Ağayi-Firuz, biz sizin xahişinizi yerinə yetirmişik. Səfir bura gəlmişdi, o, sizdən imtina elədi. Vaxtı çatanda sizi onunla bir də görüşdürəcəyik. General əlindəki fincanı ona uzatdı:

- Buyurun, su için, deyəsən, boğazınız quruyub.

General ona sarı əyildi:

- Hər ikimiz dövlət adamıyıq, eyni işlə məşğuluq. Məni düzgün başa düşün, Ağayi-Firuz, biz sizin üsullardan istifadə etmək istəmirik. Axı hər ikimiz müsəlmanıq.

General Elçinə göz vurdu:

- Bizim ümumi bir düşmənimiz var - deyə, sözünə davam etdi. - Əlbəttə, biz hamımız insanıq, günahsız insan olmur. Lakin bu fəlsəfə çox vaxt özünü doğrultmur. Elə Validə də günahsız idi. Sizin əmrinizlə onu 22 saat üzü üstə saxlamışdılar. Siyasi məhbus adı ilə ona ağır işgəncələr vermişdilər. Sizin rejim üçün qadın-kişi fərq etməz. Təki məqsədinizə çatasız. Zindanda insanlığa sığmayan işgəncələr verir, sonra da İslamın əmridir, deyirsiz. Biz də İslam ənənəsi ilə yaşayan ölkəyik, amma fərqliyik. 2009-cu ildə Təbrizə, doğma torpağını gəzməyə gələn Validə Aranlını xatırlayırsınızmı? Sizə casusluq etmək istəmədiyinə görə onun dırnağını şəxsən özünüz dartıb çıxarmışdız,

sinəsini siqaretlə dağlamış, ölümlə təhdid edərək bədəninə və başına elektrik cərəyanı vermişdiz. Bu cür əziyyətlərlə sağlam insan ağlını itirə bilər. Axı o zavallı qadın sizin yox, bizim vətəndaş idi. Niyə onda Azər-bay-canın səfirini çağırmadız? Sizin səfirdən fərqli olaraq, bizim səfir öz vətəndaşına yiyə du-rardı.

Ağayi-Firuz, bəzən xətalar gerçək olsa da, xəyal kimi görünə bilər. Biz sizdən xə-taların yalanmı, gerçəkmi olduğunu soruşmuruq.

Elçin generalın yanından keçərək qapıya yaxınlaşdı - bu qapıdan dillərinə qıfıl asıb içəri girənlər, sonradan açarlarını da itirirlər.

Ağayi-Firuzun sifəti ciddiləşərək rəsmi görkəm aldı. İlk dəfə olaraq başını yuxarı qaldırıb diqqətlə Elçini süzdü. Onu tanıdığına əmin idi. Ancaq haradan tanıdığını xatırlaya bilmirdi.

- Məni harada gördüyünü xatırlaya bilmirsən? Onda mən sənin yaddaşını təmizləyə bilərəm. İki il əvvəl Xankəndində görüşmüşdük. O ünvanda ki, biz görüşmüşdük, indi orda tamam başqa adamlar yaşayır. Dostun Samveli də, ona satdığın silah-sursatı da cəhənnəmə göndərdik.

- Cənab polkovnik, özünüzü ələ alın! - Azər səsini qaldırdı.

- Günahkaram, cənab general.

Ağayi-Firuz yenidən başını aşağı salaraq susdu. Elçin telefonu götürərək üçüncü şöbəyə zəng vurdu:

- Cənab polkovnik, Ağayi-Firuzun işi üzrə bir qadın

saxlanılıb. Hə, adı Simuzərdir. Onu generalın yanına göndərin, Ağayi-Firuzu sizə göndəririk. Dilinə qıfıl vurub, yəqin ki, sizdə açar tapılar.

Ağayi-Firuzu apardıqdan sonra hər ikisi susdu. Otağa çökən sakitliyi Azər pozdu. O, stolun üstündəki xrustal stəkana su töküb, Elçinə uzatdı:

- Al iç, bir az toxta. Sənə deyiləsi sözüm var. Doğrudur, bu hələ dəqiqləşdirilməyib. Xankəndindəki hava limanını işə salmaq istəyirlər. Kristinadan yeni məlumat almışıq. Limanı məhv etmək üçün səni ora göndərməyi xahiş edir. Bu rəhbərliyin qərarından asılıdır. Bu o qədər də asan iş deyil. Qərar verməmişdən qabaq bir çox məsələləri araşdırmalıyıq.

***

...Elə həmin axşam Azər Mürsəllə görüşdü. Mürsəl onu gülə-gülə qarşıladı:

- Cənab general, nə yaman həyəcanlısan? Yoxsa nəsə baş verib? Gürcüstandan gələndən səni görməmişəm. De, görüm Kristinanı görə bildinmi? Elmar Hüseynovun qatil-lə-rini gürcü dostlarımız bizə qaytarırmı? - Mürsəl dediyi sözə peşman kimi, əlini havada yellədi. - Yaxşısı budur, bu məsələni qapadaq. Qoy Baş prokuror məşğul olsun bu işlə.

- Niyə ki, onlar buna etiraz etmədilər. Dedilər ki, əgər siz onların həqiqətən Elmarın ölümündə iştirak etdiyini sübuta yetirsəniz və bizi buna inandıra bilsəniz, heç bir problem qalmayacaq. Lakin ortalıqda sizin bizdən tələb

edəcəyiniz heç bir rəsmi sorğu yoxdur. Vano dedi ki, ağlamayana əppək vermirlər.

- Sənin Vanon çox ağıllıdır. Gərək ki, siz onunla Neft Akademiyasında terror hadisəsi baş verən günlərdə tanış olmuşduz. Səhv etmirəmsə, terrorun təşkilatçılarından olan ermə-nini o bizə təhvil vermişdi. Ancaq o zaman heç sorğu istəmədilər. Ayıya armud lazım olanda, ağacı silkələmədən də onu qopara bilir.

- Mürsəl, mən bura tamam başqa bir məsələ üçün gəlmişəm. Gürcüstanda olanda Kris-tina ilə görüşdüm. Təşkilatın maliyyə cəhətdən vəziyyəti ürəkaçan deyil. Bəzi adamları ələ almaq üçün onlara pul lazımdır. Böyük bir işə hazırlaşırlar. Xankəndindəki hava limanını məhv etmək istəyirlər. Kristina dedi ki, bərpaçı fəhlələr və hərbi qarovulçular arasında adam-ları var. Bir də xahiş etdi ki, əməliyyatı başa çatdırmaq üçün Elçini Xankəndinə göndərək.

...Azər elə bil min ilin yuxusuna getdi. Gözlərini bir nöqtəyə zilləyərək halsızlaşdı. Atış-ma səngisə də, təhlükə aradan qalxmamışdı. Arazın lilli suları sarımtıl bataqlığa oxşayırdı. Yuvası dağıdılmış yaralı leylək sərhəd dirəyinə qonaraq həşir qoparmışdı. Leylək qanadlarını tikanlı məftillərə çırpır, elə bil özünü öldürmək istəyirdi. Ətrafa ölü sükutu çöksə də, ley-ləyin harayı Azəri kövrəltmişdi. Azər düyünlənmiş yumruğunu dizinə çırpdı. Sonra ayağa qalxaraq Elçini qucaqladı:

- Qızılqaya yüksəkliyi uğrunda gedən döyüşlər

yadındadır? Sən onda şir kimi döyü-şürdün. Yadından çıxarma ki, qarşıda Füzuli, Cəbrayıl rayonları dayanır. Biz bir həftəyə bu rayonları erməni quldurlarından təmizləməliyik, cəbhədə dönüş yaratmalıyıq.

Muxtar təəccüblə Azərə baxırdı. General bahar buludu kimi tutulmuşdu. Bir himə bənd idi ki, yükünü boşaltsın. Aralıqda yaranmış cəhənnəm sükutunu Azər özü pozdu:

- Muxtar, yuvası dağıdılmış leylək buna dözmədi, özünü tikanlı məftillərə çırparaq həlak oldu. Məgər biz bir quş qədər də yoxuq? İyirmi ildir ona-buna yalvarırıq ki, torpaqlarımızı ermənilərdən alıb bizə qaytarsınlar. Axı, onlar haradan bilsin ki, can yanğısı nədir? Bu qədər gücümüz ola-ola niyə torpaqlarımızı geri almırıq? Bu torpaqlar uğrunda gedən döyüşlərdə yüzlərlə igidlərimiz şəhid olub. Axırıncı döyüşlər Horadizdə gedirdi, biz qələbəyə lap yaxın idik. Niyə atəşkəs etdilər? Niyə qoymadılar torpaqlarımızı geri alaq? Başqaları bu barədə heç fikirləşmədiyi halda, biz Elçini ölümün ağuşuna göndəririk. Bir təyyarə limanını partlamaqla iş düzəlmir. Biz Xankəndində hərbi qərargahı, Laçında «Laçın dəhlizi»ni partlatdıq, əvəzində ən yaxşı kəşfiyyatçımızı itirdik. Nə düzəldi? Ermənilər torpaqlarımızı qaytardılarmı? Yox, əlbəttə yox!

- General, sən nələr söyləyirsən, ağzın deyəni qulağın eşidirmi? Bəlkə də sən haqlısan. Bu məsələlərdə çoxlarının günahı var. Onlar «Tanrı mənim günahımı bağışlayar!» fəlsəfəsilə yaşayırlar. Ancaq elə günahlar

var ki, Tanrı da onları bağışlaya bilmir. Sən ehtiyatlı ol, çekis-tin qanı isti olsa da, başı soyuq olmalıdır. Mən heç nə eşitmədim. Gəl qəhvə içək, yorğunluq üçün ən yaxşı dərman qəhvədir.

Mürsəl onun çiyinlərindən qucaqlayaraq divanda əyləşdirdi. Söhbətin səmtini dəyişmək üçün bir qədər uzaqdan başladı.

- Eşitmişəm İrandan qonaqlarımız gəlib. Bir şey öyrənə bildinmi?

- Yox! Hələlik yox! Bu gün üçüncü şöbəyə verdim. Bəlkə orda dilini aça bildilər.

- Bu işdə mən sənə kömək edə bilərəm. Ağayi-Firuzun Bakıdakı casuslarından ikisini həbs etmişik. İranın ən güclü narkodillerlərindən olan Əkrəm Sabiri burda ticarət etmək adıy-la fəaliyyət göstərir. Əslində isə o, Simuzər vasitəsilə lazımi, təxribat xarakterli məlumatları yığaraq Ağayi-Firuza göndərirmiş. Çox güman ki, axtardığımız Validənin öldürülməsinə sə-bəb olan sənədlər də onun əlinə keçib. Lakin biz sənədləri vaxtında dəyişdirmişdik. Onlar sənədlərin saxta olduğunu biləndən sonra qadını qətlə yetiriblər: - Mürsəl qəhvədən bir-iki qurtum alıb təəssüflə başını buladı: - Başımız söhbətə qarışdı, qəhvə soyudu. İndi deyərəm təzəsini gətirsinlər.

- Zəhmət çəkməyin, mənim qəhvə ilə bir o qədər də aram yoxdur. - Azər sözü başqa səmtə fırlatdı: - Mürsəl, Ağayi-Firuzun Bakıya gəlməsindən nə vaxt xəbər tutmusan?

- O, hələ Bakıya gəlməmiş bizim məlumatımız var idi. Özbəkistanda yaşayan xüsusi agentimiz Molla Hüseyn dəqiq məlumat ötürmüşdü.

Azər ayağa durub Muxtarın əlini sıxdı:

- Hər şeyə görə çox sağ ol, Muxtar. Kişilik qəlbin ən böyük sərvətidir. Bu zəmanədə ideal dostu olmaq hər adama qismət olmur. Lev Tolstoy deyirdi: - «O vaxt insan sakit yaşayır ki, özünü dostundan yaxşı və yuxarıda hiss etmir. Əksinə, onu özündən yaxşı və yüksəkdə görür»

***

Məhəmməd Məşhədi Kərimə xəbərdarlıq etdi:

- Kərim, vəziyyət yaxşı deyil. Simuzər ünvanını dəyişib, Sabiri yoxa çıxıb. «Qonaqları» necə qəbul edəcəyik, bilmirəm? O qədər malı gizlətmək mümkün deyil.

- Nə tez ödünü yedin? Ə, adam kişi olar. Payız gəlməmiş saralmağa başlama. Qonağı da, malı da Qubaya göndərərik. Kəblə Hacı Vaqif mənim dostumdur. Qubada hamı bilir ki, onun İranda qohumları var. Heç kəs ondan şübhələnməz. Elə biləcəklər ki, gələn onun qo-hum--larından biridir.

- Şübhə etmirəm. - Məhəmməd onunla razılaşdı. Bəs gətirdiyi yükü neyləyək?

- O barədə narahat olma, dağıstanlı İsmayılın vasitəsilə Rusiyaya ötürərik.

- Əgər İsmayıl ilişsə necə? Biz hamımız əlli-ayaqlı yox olarıq. Mən İsmayılı yaxşı tanı-mıram. Kiminlə oturub-durduğunu da heç bilmirik. Bu köpək uşaqları it kimi iy bilirlər, əgər izə düşsələr...

- Gərək bunu öyrənək, onların içərisində mənim adamım var. Əslində polisə iş verəndi, ancaq bizi satmaz.

- Necə öyrənəcəksən? Bunu kim edəcək?

- Gəl bunu bir yerdə fikirləşək ki, harada, kiminlə danışaq.

- Molla Hüseynlə, onun bu işlərdə səriştəsi var.

- İnsan iradəsinə tabe olmayanda, o ağlını idarə edə bilmir. Onu aldatmaq da, başqaları üçün işlətmək də asan olur. Molla Hüseyn də ağlının qurbanı oldu. İlişməsin deyə, köçüb getdi Özbəkistana. Kim bilir, orda nə işlə məşğul olur?

Məhəmmədin çayxanasına ucaboylu, qarasaqqallı bir kişi girdi. Kimisə axtarırmış kimi gözlərilə hər tərəfi yoxladı. Kişinin boynunun sağ tərəfində təxminən bir santimetr qulaq seyvanından aşağıda çapıq yeri aydın görsənirdi. O, ətrafına bir-iki dəfə boylandıqdan sonra, axtardığını tapan adam kimi Məhəmmədə yaxınlaşdı:

- Əla növ İran çayım var, almaq istəmirsən?

- Əlbəttə, istəyirəm, indi dəmə qoyaram, xoşuma gəlsə alaram.

- Əslində çayı başqası üçün gətirmişdim. - Kişi çalışsa da İran ləhcəsini gizlədə bilmirdi:

- Heç bilmirəm nədən başlayım?

Məşhədi Kərim ona yer göstərərək yanında oturdu:

- Hər şeyi əvvəldən başlamaq la-zım-dır, - dedi.

- «Fərhad» kafesinin arxasında... - kişi nədənsə ehtiyatlanıb susdu.

- İki mərtəbəli köhnə bir ev var, məscidə yaxın.

Kərim Məhəmməd kişinin nə deyəcəyini gözləmədən soruşdu:

- O sökülməkdə olan evimi deyirsən?

- Hə, oranı indi ekskovator qazır. - Kişi hiss edirdi ki, bütün bədəni gərginləşib. - Orda bir qadın yaşayırdı. Adı Simuzər idi, - o dərindən nəfəs alaraq susdu.

- Nə olsun ki, bunları bizə niyə danışırsan?

- Necə deyim, mən onunla görüşməli idim, mal gətirmişəm. Şirazdan gələndə Ağayi-Firuz sizin ünvanı ehtiyat variantı kimi mənə vermişdi. Mənə dedi ki, şübhəli bir şey olsa, Məhəmməd kişini tap, o sənə kömək edər. Biz silah-sursat da gətirmişik. Mən həmin uçuq evin yanında dayanan bir qadından Simuzəri soruşdum. Qadın mənə dedi ki, o, «şpion» idi, tutub apardılar.

- Sən bunu bilmirdin?

- Yox, mənim vəzifəm deyil bu. Bəlkə də bilirdim, lakin vaxtaşırı çox şeyləri unutmaq lazım gəlir. Ağayi Məhəmməd, siz həmişə beləsiniz, yoxsa mən nəyisə başa düşmürəm?

- Xeyr, başınız var, onu işlətmək istəmirsiz.

Kərim, qonağı apar mənim Mərdəkandakı bağıma, məni orada gözləyin. Mən bəzi şeyləri

aydınlaşdırmalıyam. Axı, biz qonağımızı sabah gözləyirdik. Ağıllı adam görəcəyi iş-ləri fikirlərində gizlədir, axmaq isə onu hamıya açıqlayır.

Məhəmməd yan otağa keçib əl telefonu ilə harasa zəng vurdu. Bir neçə dəqiqə danış-dıqdan sonra qayıdıb gəldi:

- Hər şey qasındadır, bu elydaə biz gözlədiyimiz adamın özüdür.

Məhəmməd çayxananı bağlayıb açarları çayçıya verdi. Onlar birlikdə küçəyə çıxdılar. Soyuq şimal küləyi əsirdi. Şəhərin üzərinə qaranlıq çökməkdəydi. Onlar maşına oturana qədər iki nəfər onları izlədi, onlardan biri əl telefonu ilə harasa zəng çaldı. İkincisi isə onlar maşına oturan vaxt gizli şəkillərini çəkdi. Sonra onlar qaranlığa qarışaraq yox oldular.

***

...Mən taksi sürücüsüyəm, sərnişin hara desə, ora da sürürəm.

- Axşam Şərifzadə küçəsindəki doqquz mərtəbəli binanın həyətinə kimləri apar-mış-dın?

- Sərnişinlərim kişi ilə qadın olub. Mənə elə gəldi ki, onlar içkili idilər. Deyəsən qa-dın daha çox sərxoş idi.

- Ora neçə dəfə getmisən?

- İki dəfə. Birinci dəfə onları həyətdə düşürüb tez də geri qayıtdım. Məni başqa müş-təri gözləyirdi.

İstintaq materiallarından...

Evdə hər şey yerində idi. Səliqə-səhman pozulmamışdı. Hər hansı bir müqavimətin, yaxud mübarizənin izi belə yox idi. Belə çıxırdı ki, qatil ya həddindən artıq təcrübəlidir, ya da ev yiyəsi qatili tanıyırmış. Onu özü evə buraxmışdı. Axtarış-istintaq qrupu hadisə yerində işlədiyi vaxt, gecəyarısı olmasına baxmayaraq, polkovnik Kazımov təcili toplantı keçirdi. Qatili tapmaq üçün xüsusi plan hazırlandı. Qatilin şəxsiyyətini müəyyən etmək üçün xüsusi çevik polis qrupu yaradıldı və bu iş sahə müvəkkili ilə xüsusi işlər üzrə müstəntiq Xumara tapşırıldı. Toplantıda şəhər pro-kuroru İsmayılov da iştirak edirdi.

- İndicə aldığım məlumata görə məhkəmə-tibb eksperti ilkin müayinə aparıb. Yuxu arteriyasının deşilməsi və çoxlu qan itirilməsi mərhumun ölümünə səbəb olub. Təkrar edirəm, yuxu arteriyasının kəsilməsi yox, məhz deşilməsi nəticəsində. Qatil bıçağı yaxın məsafədən atıb, bıçaq yuxu arteriyasını deşib və boğazda sancılıb qalıb.

Prokurorun məlumatından sonra toplantını polkovnik Kazımov yekunlaşdırdı:

- Beləliklə, biz təcrübəli, qəddar və amansız qatillə qarşılaşmışıq. O, nə qədər çox azad-lıqda qalsa, başqalarını da təhlükə gözləyir.

- Qatili bacardıqca tez zərərsizləşdirməliyik. O, bu

gecə tapılmalıdır! - Prokuror Söhrabın sözünə qüvvət olsun deyə, əlavə etdi. Biz səhərə qədər işləyəcəyik.

Vaxtı itirmək olmazdı. Gecəyarıdan keçməsinə baxmayaraq, polis əməkdaşları axtarışa başladılar. Onlar əvvəlcə məhəllədəki bir vaxtlar məhkum olmuş insanlarla danışdılar. Vax-tından əvvəl cəzaçəkmə müəssisəsindən çıxanları, polis bölməsində qeydiyyatda olan keçmiş «zek»ləri polisə yığıb hər birindən ayrı-ayrılıqda ifadə aldılar. 20-ci polis bölməsinin mayoru və sahə müvəkkilinin axtarışları ilkin nəticələri verdi. Məlum oldu ki, həmin axşam sarı rəngli taksi hadisə baş verən evin həyətinə iki dəfə gəlib. Nə maşının markası, nə də onun nömrəsi məlum deyildi. Lakin bu yol-patrul xidmətinin rəisini narahat etmədi. Dərhal işə başlayan rəis bir saat ərzində hər şeyi qoşub-düzdü. Hətta taksinin kimə məxsus olduğunu belə istintaqa bildirdi.

Axtarış-əməliyyat qrupunun əməkdaşları taksi sürücüsünün ilk ifadəsini aldı:

- Bəs necə oldu ki, eyni adamları, eyni həyətə iki dəfə gətirdin? Sən sərnişinləri çox-danmı tanıyırdın?

- Yox! Birinci dəfə idi ki, görürdüm. Mən onları tanımırdım. İkinci dəfə onları maşına mindirməyim təsadüfi oldu.

- Anlamadım!

- Burda başa düşməməli nə var ki, cənab müstəntiq? Mən küçədə dayanıb sərnişin gözləyirdim. Həmin kişi mənə yaxınlaşıb boş olduğumu soruşdu. Belə müştərilərlə taksi sürücüləri tez-tez rastlaşırlar. Bir

gündə eyni adama bir neçə dəfə rast gəlirsən.

- Həyətdəki maşın dayanacağının qarovulçusu deyir ki, ikinci dəfə də taksidən bir kişi və bir qadın düşdü.

- Hə, o, düz deyir. Kişi maşına oturub, onu həmin küçənin yuxarı məhəlləsinə aparmağı xahiş etdi.

- O, xahiş etdi, sən də apardın. Yolda şübhə doğuran heç nə hiss etmədin ki?

- Yox, əgər maqnitafonu nəzərə almasaq, heç nə hiss etmədim. Kişi əlində bir maq-nitafon tutmuşdu. Gecə onu hara aparırdı, bilmirəm?!

- Bəlkə başqa şeylər də olub, sən fikir verməmisən?

- Bəlkə də olub, yalan deyə bilmərəm, mən ancaq maqnitafonu gördüm. Maşını əvvəlcə kişi deyən yerə sürdüm, kişi bloka girdi, çox çəkmədən qadınla birgə qayıtdı.

- Bəs maqnitafon?

- Bu dəfə kişi əliboş idi. Yəqin maqnitafonu qadının evində qoymuşdu. Onlar maşına oturdular və mən əvvəlki həyətə gəldim.

- Qadının xarici görkəmi necə idi? Yadında qalan xüsusi bir şey oldumu? - Xumar qolundakı saata baxdı, vaxt keçirdi.

- Adətimdir, mən qadın sərnişinlərinə baxmıram. «Quran»da da belə yazılıb, özgə qadınına baxmaq günahdır. Ancaq qadın blokdan çıxanda maşının fanarları onu işıqlandırdı. Sarı saçları, uzun ayaqları vardı. Koftasının yaxası çox açıq olduğundan mən onun sinəsinin bir hissəsini də gördüm. İri ağ sinəsi vardı.

Taksi sürücüsünün sözlərindən sonra sahə müvəkkili kapitan Muradov qadını tanıdı. Yün-gül həyat keçirən qadınlardın biri idi. Axtarış-əməliyyat qrupunun əməkdaşları qadının evinə baş çəkdilər. Qadın əvvəlcə heç nəyi boynuna almadı. Öz hüquqlarını əməliyyatçılara xatırlatdı:

- Siz nə haqla gecənin bu vədəsində mənim evimə soxulmusuz? Mənim hüquqlarımı pozmağa sizin ixtiyarınız yoxdur. Mən sizdən şikayət edəcəyəm.

- Əcəb eləyəcəksən, bu sizin hüququnuzdur. Bizim vəzifəmiz, vaxtdan asılı olmayaraq, canini, adamöldürən şəxsləri yaxalamaqdır.

***

Cənnət Moskvaya getməmişdən əvvəl rəfiqələri ilə görüşdü. O, rəfiqəsindən xahiş etdi ki, hərdən onlara getsin, ərinə baş çəksin. Kim bilir, qadın evdə olmayanda çox şeylər baş verə bilər. Rəfiqəsi razılıq vermədi. Cənnət onu dilə tutub müxtəlif səbəblər gətirdi:

- Sənə qurban olum, Gülər, evdə qiymətli əşyalar var. Min bir zəhmətlə almışam onları. Mən uzunmüddətli müalicəyə gedirəm. Vaqifə etibar eləmirəm. Özün bilirsən ki, o zəif iradəli adamdır. Qurban olum sənə, gözün onun üstündə olsun. Günaşırı bizə get, onu əl-qol açmağa qoyma. Ömrüm boyu sənə minnətdar olaram.

- Yaxşı, ağlama. Nə desən hamısını edəcəyəm. Təki

sən sağal, tezliklə ev-eşiyinə qayıt.

Onlar doğma bacı kimi qucaqlaşıb ayrıldılar. Cənnət evin açarlarını rəfiqəsinə verdi:

- Sən Vaqifə baş çəkmək üçün tez-tezmi onlara gedirdin? Vaqiflə aranızda narazılıq olmamışdı ki?

- Xeyr, olmamışdı, o iradəcə zəif olsa da, çox yaxşı insan idi. Cənnəti də çox sevirdi.

Xumar ayağa qalxaraq pəncərəyə yaxınlaşdı, nəfəsliyi açaraq pəncərənin önündə xeyli dayandı. İnsanın davranışı, özünü necə aparması onun güzgüsüdür. Bu güzgüdə hər kəs özü-nü göstərir. O şeyləri ki, eləmək lazım deyil, onu heç fikrindən də keçirmə. On il əvvəl Söhrabın dediyi sözlər indi Xumara daha çox lazım idi.

- Bilirsən, Gülər xanım, insan mələk deyil. Onun təbiətində yalan demək, aldatmaq, özünü qorumaq instinkti var. Yarpağı qoparmaq üçün budağı sındırmaq lazım deyil. Mənə həqiqəti danışın, olduğu kimi. Bu həm sənə, həm də mənə lazımdır. Vaqifin yanına get-diyin günü dəqiqliyi ilə yadına sal.

- Soyuq bir oktyabr axşamı idi. Saat ona qalmış evə baxmaq üçün Cənnətin evinə gəldim. Yasamal rayonunun Şərifzadə küçəsində yerləşən doqquzmərtəbəli binanın altıncı mərtəbəsinə qalxıb qapını açarla açmaq istədim. Qapı bağlı deyildi. Bu hal evin kişisinə xas olmayan iş idi. Vaqif çox ehtiyatlı adam idi, heç vaxt tanımadığı adama qapı açmazdı. Mən içəri girəndə Vaqifi döşəmədə uzanan gördüm. Onda heç bir həyat əlaməti yox idi. Mən tez «Təcili yardım»

xidmətinə və polisə zəng vurdum. Hadisə yerinə tezliklə polislər gəldilər. Rayon prokuroru və məhkəmə-tibb eksperti də polislərlə gəlmişdi. «Təcili yardım»ın həkimi, məhkəmə eksperti ilə birlikdə meyidi müayinə etdilər. Sonra prokurora zəng vurdular, o da çıxıb getdi. Orada bir kapitan da vardı, adını Kamran çağırırdılar. Əsas işi də o görürdü. Meyidin üzərindəki zorakı hərəkətlər adi gözlə də görsənirdi. Boynunda boğucunun izləri qalmışdı. Bədəninin müxtəlif yerlərində qansızmalar, siyirmələr və göyərmələr var idi. Meyidin yanında maqnitafondan qoparılmış naqil Kamranın diqqətini çəkdi: - Çox güman ki, onu bu naqillə boğmağa cəhd göstərilib, - dedi. Başının sağ tərəfindən boğazına bıçaq san-cılmışdı. Ölünün qeyri-təbii formada uzanması əsas faktlardan biri idi. Ekspertin dediyinə görə, bıçaq yaxın məsafədən atılmışdı.

Kamran məndən ifadəmi aldıqdan sonra evə buraxdı.

- Yaxşı, hələlik mən də sənə inanıram. - Xumar buraxılış vərəqəsinə qol çəkib ona verdi: - Qapıda növbətçi polis dayanıb, bunu ona verərsən.

***

Sentyabrın on ikisində Zara məşuqəsi ilə gecə barlarının birində əylənir, spirtli içkilər qəbul edirdi. Pulları qurtarsa da, içmək həvəsləri güclənmişdi. Onlar belə qərara gəldilər ki, Zaranın keçmiş tanışı olan

Vaqifin yanına getsinlər. Nə vaxtsa Zara onunla bir idarədə işlə-mişdi.

- O, xəsis kişi deyil, içməyə bir şey tapa bilərik. Bəlkə pul da qopara bildik. Onlar tak-siyə oturub Vaqifin yaşadığı evə getdilər. Qapını Vaqif özü açdı. Vaqifin evində üçlükdə içdilər. Bir neçə dəqiqədən sonra Zaranın oynaşı onu Vaqifə qısqanmağa başladı. Mübahisə qızışdıqca, vəziyyət ağırlaşırdı. İşin pis olduğunu görən Zara evi tərk edərək, çıxıb getdi.

- Sonra nə olubsa, mən bilmirəm, içkili olmuşam. Heç nə yadımda deyil.

Xumar hadisə yerindən çəkilən bir dəstə şəkilləri stolun üstünə çırpdı:

- Bax, - dedi. Diqqətlə bax, heç bir günahı olmayan bir insanın həyatını əlindən al-mı-sız. Sonra da deyirsən ki, heç nədən xəbərim yoxdur.

- Bunlar nədir? - Zara soruşdu. Sizə elə gəlmirmi ki, məndən həddən artıq şeylər istəyirsiz? Mən sizə bildiklərimi dedim, bu azdır?

- Azdır! - Xumar amiranə səslə bağırdı. Sizin kimilərdir bu ölkəni zibilləyən.

Və elə onda da başa düşdü ki, siçan başqa qəfəsdə əl-üzünü yumaq istəyir. Birdən-birə Xumarı kədərli bir hiss çuğladı. O, nəinki ağlı ilə, bütün varlığı ilə hiss etdi ki, artıq hər şey həll olundu. «Yox, - dedi, Xumar, özünə gəl, yox, belə olmaz. Fikirləş, Xumar, yaxşı-yaxşı fikirləş, bu sənin qələbən olmalıdır. Mən elə belə də fikirləşirəm! - Xumar öz sualına özü də cavab verdi.

Mən əlimdən gələn hər şeyi edəcəyəm ki, bu cinayət işi tez açılsın. Mən bi-lirəm ki, qələbə əldə etmək üçün nə lazımdır. Lakin nə etmək olar, çox vaxt bu qələbəni sənin əlindən alırlar».

Telefon zəngi Xumarı elə bil yuxudan ayıltdı. Telefonun dəstəyini götürüb qulağına tutdu. Rizvanın səsi qulağına doldu.

- Xumar, özünü yorma. Qatili yaxalamışıq. Zaranı da götür, gəl mənim otağıma...

***

Kərimi polisdə yaxşı tanıyırdılar. Kərim keçən ilin sonlarında cəzasını çəkdikdən sonra həbsxanadan azadlığa buraxılmışdı. Onu adam öldürdüyünə görə həbs etmişdilər. Kərimin bıçaq atmaqda tayı yox idi, ən uzaq məsafədən belə hədəfi vura bilirdi.

Axtarış-əməliyyat dəstəsi bir neçə kiçik dəstələrə bölündü. Hansı yerlərdə ki, Kərim ola bilərdi, orada pusqu qurdular. Ən çox ehtimal olunan yer Kərimin anasının evi idi. Sahə müvəkkili və 20-ci polis bölməsinin baş əməliyyatçısı bu evə gəldi. Onlar yanılma-mış-dılar. Səhər Kərim bir neçə dəfə anasına zəng vuraraq soruşdu:

- «Məni heç kim xəbər al-mayıb? Əgər soruşan olsa, mən şəhərdə yoxam!».

Əməliyyatçıların nəzarəti altında olan ev sahibəsi çalışırdı ki, oğlunu sakitləşdirsin:

- Sən kimə lazımsan? Evə gəl, şey-şüyünü yığışdır apar. Mənə maqnitafon lazım deyil.

Yarım saat keçdi. Hər yerdə və hər şeydə ehtiyatlı olan Kərim evə gəlməmiş bir də zəng vurdu: «Mən gəlirəm», - dedi.

Polis mayoru Kərimin dəliqanlı, çox qəddar adam olduğunu bilirdi. Silahının qoru-yucu-sunu ayağa çəkərək onu qarşılamaq üçün qapının arxasına keçdi. Rizvan onu elə qapının kandarında yaxaladı.

- Əllərini qaldır, üzü divara, tərpənsən vuracağam! - dedi.

- Mən sizə könüllü təslim olmaq üçün açıqlama verməyə gəlmişəm.

- Yalan danışma, əclaf! - Rizvan qandalı onun qollarına keçirdi. Könüllü təslim olsaydın polis bölməsinə gələrdin.

Rizvan qolları qandallı Kərimi bayıra itələdi:

- Açıqlama vermək yaxşıdır, amma ünvan düz deyil, polis idarəsi başqa səmtdədir.

Təkzibolunmaz dəlillər qarşısında Kərim başqa hava oxudu. O, törətdiyi cinayəti etiraf etdi:

- Biz taksi ilə onun evinə gedəndə yolda düşünürdüm ki, oradan əliboş qayıtmayacağam. Zara mənə demişdi ki, tanışı kasıb deyil. Mənə ancaq onu öldürmək üçün bəhanə lazım idi, onu da özü verdi. Bir az içdikdən sonra aramızda mübahisə oldu. Zara xasiyyətimi bildiyi üçün evi tərk etdi. Mən çox da fikirləşmədən onu vurdum. O yıxıldı. Arxasına keçərək maq-nitafon naqili

ilə onu boğmağa başladım. İstəyirdi ki, mənə müqavimət göstərsin. Birdən na-qil əlimdə qırıldı. O, hələ sağ idi, amma huşunu itirmişdi. Fikirləşdim ki, onu niyə sağ bura-xım? Axı o, Zaranı tanıyırdı. Ona görə də işini bitirdim. Mətbəxə keçib mənə münasib olan bıçağı seçib götürdüm. O, döşəmədə uzanmışdı.

- Sən huşsuz, köməksiz adamı öldürdün! - Xumar ona bir sillə vurdu. Sən nə murdar adamsanmış?!.

- Sən çox da əluzunluq eləmə, anam balası! Baxmaram ki, polissən. Hə, onun boynuna bıçağı mən sapladım. Mən dəliqanlıyam axı. O kim idi ki, mənim məşuqəmə əl atsın.

Rizvan Xumarı sakitləşdirmək üçün ona su içirtdi:

- Sən bilmirdinmi ki, Zara yüngül əxlaqlı qadın sayılır. Bir ona diqqətlə bax, səndən başqa yüzlərlə kişi ilə yatıb.

- Xətrimə dəyirsiz, cənab naçənnik, yoxsa danışmaram. Hə, dedim axı, o, döşəmədə uzanmışdı. Barmağımla boyun arteriyasını tapıb, bıçağı ora soxdum. Siz bilmirsiniz, mən iç-kili olanda anamı da doğraya bilərəm. Evdən bir az pul, maqnitafon və bəzi şeyləri götürüb küçəyə çıxdım. Küçədə tanış taksiyə rast gəldim. Əgər məhkəmə təmiz ürəklə etiraf etdiyimi nəzərə alsa...

Rizvan onun sözünü kəsdi:

- Hə, əlbəttə, səni bağışlayar. Qaldı ürək məsələsinə, sənin ürəyin it qanı ilə işləyir.

Rizvan qapıda dayanan polis nəfərinə işarə elədi:

- Bu it oğlunu apar buradan, çalış zən-cirləri möhkəm olsun!

Kərim qapıya çatanda Xumar arxadan qışqırdı:

- Get, it oğlu, it. Analar sənin kimi şərəfsiz oğulları dünyaya necə gətirir görəsən? Get, bir də on beş ildən sonra səninlə görüşərik. Rizvan, aç pəncərəni, qoy üfunət bayıra çıxsın.

Xumar Rizvana yaxınlaşaraq onu qucaqladı:

- İnsan hansı işlə məşğul olursa-olsun, hətta ən yüksək səviyyədə belə olsa, onun gördüyü iş bir qəpiyə dəyməz. Əgər o, vətən qar-şı--sında öz borcunu yerinə yetirə bilmirsə.

## IV fəsil

...İl çox çətin olmuşdu. Qış çoxlu qar gətirsə də, yazda ürəkaçan heç nə olmadı. Təbiət möcüzə göstərmək istəsə də, heç nə dəyişmədi. O ilin yaddaqalan iki hadisəsini çoxları indi də xatırlayır. İki fakt - ilk baxışda bir-birindən çox da uzaq olmayan iki fakt. Təkcə coğrafi cəhətdən yox, həm də mahiyyətinə görə yaxın olan iki hadisə...

Laçın dəhlizinin Azərbaycan kəşfiyyatçıları tərəfindən partladılması Ermənistanın Qarabağla əlaqəsini zəiflətdi. Xankəndi hava limanının yenidən tikilib, təmir olunması İrəvan hakimiyyətinin qarşısına yeni vəzifə qoydu. Bu fakt Ermənistan büdcəsinin onsuz da zəif olan maliyyə sistemini heçə endirirdi. Çətin

vəziyyətə düşən Ermənistan hökuməti Rusi-yadan yardım istədi. Bunun müqabilində Rusiya Soçidə prezidentlərin üçtərəfli görüşünü təşkil etdi. Görüşdə Ermənistan hökuməti müəyyən razılığa gəlsə də, sonradan, həmişəki kimi, bu razılaş-ma-dan boyun qaçırdı.

Həmin il iyunun 18-dən 19-na keçən gecə baş vermiş qanlı hadisə bütün dünyanı sil-kələdi. Azərbaycan ordusunun əsgəri Mübariz İbrahimov təkbaşına cəbhə xəttini yararaq er-məni ordusunun arxasına keçdi. Qəhrəman Mübariz Çaylı kəndinin içərisinə girərək, kənddə yerləşən erməni hərbi hissəsinə daxil oldu oradakı silah anbarını partlatdı. Partlayış nəticəsində düşmənin əlli dörd əsgəri öldü. Mübariz partlayışdan sonra ərazini tərk etmədi. Düşmən əhatəsində olmasına baxmayaraq, təkbaşına beş saat qeyri-bərabər qarşıdurmada geri çəkil-mədi. Beş düşmən əsgərini öldürəndən, dördünü ağır yaraladıqdan sonra Çaylı kəndinin içində mühasirəyə alındı. Hər tərəfdən sıxışdırılan Mübariz kəndin içindəki tikanlı məf-til-lərdən ibarət maneəni keçə bilmədiyinə görə, ermənilərin açdığı kütləvi atəşə məruz qaldı. Başından və sol ətrafından aldığı üç güllə yarasından dünyasını dəyişdi...

- Aldığımız rəsmi məlumata görə partlayış nəticəsində düşmənin 54 əsgəri ölüb. Mü-bariz partlayışdan sonra kəndi tərk etməyə çalışsa da, düşmənin diqqət mərkəzindən çıxa bilməyib. Tək

olmasına baxmayaraq, döyüşdən qaçmayıb. Beş saat qeyri-bərabər qarşıdur-mada duruş gətirməyi bacarıb. Bu zaman daha beş düşmən əsgərini yerindəcə öldürüb. Ağır yaralanmış Mübariz Çaylı kəndinin içində dünyasını dəyişib. Əsgərimizin təkbaşına bu qədər erməni əsgərini öldürməsi inanılmazdır. Lakin ortada hərbi hissənin partladılması faktı var.

- Hə, əlbəttə, bundan da artıq ölüm halının ola biləcəyi mümkündür, - Mürsəl Azərin sözlərinə əlavə etdi: - Çünki silah anbarının partladılması təkcə onu qoruyan onlarla əsgərin ölümü deməkdir.

- Mən sizinlə razıyam! - Azər əlini Elçinin çiyninə qoydu. - Bunu Elçin daha yaxşı bilər. Axı onun silah anbarını partlatmaqda səriştəsi var.

- Cənab general, partlayışın yaxınlığa təsiri də diqqətdən qaçmamalıdır. O vaxt Xankəndindəki silah-sursat anbarını biz partladanda ətrafdakı canlı nə vardısa, hamısı məhv olmuşdu.

- Hadisədən dərhal sonra Ermənistan tərəfi faktla bağlı cinayət işi qaldırıb. Ermənistan hərbi prokurorluğunun yaydığı məlumata görə Çaylı kəndində baş vermiş hadisə zamanı 6 əsgər ölüb, 4-ü isə yaralanıb. Ancaq erməni mətbuatı ölüm hallarının sayının daha çox oldu-ğunu yazır. Onu da deyim ki, İrəvan hökuməti baş vermiş hadisədən ciddi şəkildə na-rahatdır.

- Kristinanın göndərdiyi məlumatlara görə, Ermənistan müdafiə naziri Seyran Ohanyan geniş

kollegiya iclası keçirib. O, bütün hərbçiləri ağır şəkildə təhqir edərək, onlardan açıq-lama tələb edib. Ohanyan bir Azərbaycan əsgərinin təkbaşına belə bir hadisə törətməsinin qarşısını alma-ğa gücləri çatmayan generallardan istefa vermələrini tələb edib. İki erməni generalı tutduğu vəzifədən qovulub.

- Nəzərinizə çatdırım ki, bu, artıq rəsmi qaydada təsdiqlənmiş faktdır. Elçinin Xankən-dinə getməsi və hava limanının partladılması Ermənistan hökumətinin axırına çıxacaq.

- Mübarizin ərazisinə daxil olduğu hərbi hissənin komandirini bu günlərdə həbs ediblər. Bəlkə Elçin ora getmişkən, elə onu da azad edib bura gətirsin?

- Hə, bu pis olmazdı, elə mən də fikirləşirdim ki, qovulmuş erməni ordu generallarını işə götürək.

- Xahiş edirəm, cənab general, bunu eləməyin. Öz generallarımızı yerləşdirməyə yer tap-mırıq. Yaxşısı budur onları Hacı Məmmədovun yanında oturdasan. Bəlkə Hacının dili açıla.

Hər üçü güldü, zarafat yerinə düşdüyündən aralıqda yaranan gərginlik də götürüldü. Mürsəlin Hacını xatırlaması Elçinin içini qaynatdı. Nifrətinin bayıra çıxmaması üçün üzünü yana çevirib özünə qapandı. Fikirlərin burulğanında fırlana-fırlana xəyalən yenidən Mübarizin yanına qayıtdı. Elçin, əslində, ermənilərin necə şərəfsiz və alçaq bir millət olduğunu bilirdi. Müharibə qanunlarına görə, döyüşdə həlak olmuş əsgərin döyüş meydanından götürülməsi qadağan deyil.

Hətta bunun üçün atəşkəs belə elan olunmur. Amma ermənilər insanlığa yaraşmayan və insanlıq üçün qara ləkə hesab olunan addım atdılar: Mübarizin nəşini belə vermək istəmirdilər. Əlbəttə, haradasa onları başa düşmək olardı, çünki Mübariz onlara təkbaşına dağ çəkmişdi. Ermənilər bunu hələ də həzm edə bilmirdi.

Mürsəl əlini Elçinə toxundurdu. Ani təmasdan Elçin diksinərək özünə qayıtdı.

- Al, qəhvə dəmləmişəm, sən də iç, bəlkə kömək elədi. - O, qəhvə ilə dolu fincanı Elçinə uzatdı. - Bəlkə fikrini dəyişmisən, biz başqasını da göndərə bilərik. Əlbəttə, əgər Azər razılıq versə.

- Əmrə tabe olmaq, hələ qanuna tabe olmaq deyil. Qanun bizi təkcə başqalarından deyil, özümüzü-özümüzdən də qorumalıdır. Dünyada elə insan tapmaq olmaz ki, azadlığı sevməsin. Kişilik təkcə qəhrəman kimi təhlukəyə atılmaq deyil, təhlükəni açıq gözlə qarşılamaqdır. Elçin oddan-alovdan keçmiş zabitlərimizdəndir. Mən ona inanıram.

Azər yol xəritəsini mizin üstünə sərdi...

Bayırda əsən cənub küləyi, güclü əsən şimal küləyi ilə əvəz olunmuşdu. Ay, göy qüb-bəsinə qalxmışdı, onun qızılı şüaları Bakının mərkəzindəki Dağüstü parkda salınmış Şəhidlər Xiyabanına sanki xırda ulduzlar səpirdi. Şəhər dərin yuxuya getmişdi.

***

...Məhəbbətdən ayrılmaq ocaq kimi insanın qəlbini

yandırır. O, bir növ, küləyə bənzəyir, illər ötdükcə ocağı daha çox alovlandırır. Kim ki, uşaqlıqdan başa düşür ki, sevmək-sevilmək həyatın qanunudur, lazım olan yerdə, qəhrəmanlıq göstərməyə də qadirdir. Bunun üçün onun iradəsi olmalı, təkcə öz sevgisi uğrunda yox, sevgilisinin yaşadığı Vətən, doğma torpaq uğrunda da qəhrəmanlıq göstərməyi bacarmalıdır. Elçin bunu bacarırdı. O, təkcə Gülzarı yox, vətənini də can yanğısı ilə sevirdi və onun uğrunda ölməyə də hazır idi.

Elçin vidalaşmaq üçün Şəhidlər Xiyabanına gəlmişdi. Gülzarın məzarı önündə diz çö-kərək ağlayırdı. Gözyaşları sinə daşını islatdıqca xəyal onu çox-çox uzaqlara, iyirmi illik zaman keçmişinə aparırdı.

...«O qız burdadır, Laçın dağlarında. Adı Gülzardır. Odur ey, özü də gəlir. Elçin uzaq-dan gələn qızı tanımışdı. Əynində əsgər paltarı, çiynində avtomat ona sarı gəlirdi. Gülzar ye-rimir, elə bil üçürdü. Gözlənilməz görüşdən özünü itirmiş Elçin yerindəcə quruyub qal-mış-dı»

- Bağışla, məni Gülzar, nə səni, nə də Vətən torpağını qoruya bilmədim. Bizim məhəbbətimiz açıl-mamış fidan kimi idi. Bütün çiçəklər kimi, o da açılmalı idi. Lakin açılmadı, o çiçəyi elə fidan kimi məhv etdilər. Bağışla məni, bağışla...

Elə bil kimsə əlini Elçinin saçına çəkdi. Ani təmasdan diksinən kimi oldu.

- Elçin, mən burdayam, geri baxsana, mənəm, sənin Gülzarın...

Gülzar əsgər paltarında Elçinin bir addımlığında dayanmışdı. Pərişan saçları əsgər köynəyinin üstündən çiyinlərinə tökülmüşdü. Solğun yanaqlarını elə bil payız şaxtası vur-muşdu.

- O gülləri mənəmi gətirmisən? Məgər sən bilmirsən ki, mən sarı gülləri sevmirəm?

- Bağışla, unutmuşam!..

- Hə, əlbəttə, gör neçə il keçib? 20 ildir ki, səni görmürəm. Niyə evlənmirsən? Axı sən ağıllısan...

- Sən nə danışırsan, əzizim? Sevməkmi? Mən sevginin nə olduğunu çoxdan unut-mu-şam.

- Sən hələ də məni sevirsən?

- Ver əlini mənə, Gülzar, iyirmi ildir o əllərin həsrətini çəkirəm.

- Verə bilmərəm, axı mən canlı varlıq deyiləm. Səninlə vidalaşmağa gəldim, neçə vaxtdır ki, səni gözləyirdim. Bilirəm, Xankəndinə gedirsən. Kristina qoçaq qızdır, sev onu. Mə-həb-bətsiz həyat, bulanıq su kimidir, hara axdığını bilmir. Sevgisiz yaşamaq olmaz. İnsana qəlb ona görə verilib ki, sevsin. Qadınlar məhəbbətdə daha davamlı olurlar. Günəşsiz güllər açmadığı kimi, məhəbbətsiz də səadət olmur. Bizə bu səadəti yaşamaq qismət olmadı. Təki sən yaşa. Hə, vaxtdır, gəl vidalaşaq. Di sağ ol.., ol.., ol...

Gülzar bir anda alatoranlığa qarışaraq əriyib yox oldu. Elçin məzar daşına söykənərək çaşqınlıq içində qalmışdı. Gülzarın ruhu Elçini gözlənilməz təhlükədən xəbərdar etmə-yəmi gəlmişdi? Görəsən Gülzarın ruhu

mənim taleyimi həll etməyə, onu başqa səmtə dön-dərməyəmi gəlmişdi? Axı Gülzar heç Kristinanı tanımır. Əgər belədirsə, niyə mənə onu sev dedi.

Alatoranlıq yavaş-yavaş qatılaşaraq qaranlığa çevrilirdi. Yan-yana düzülmüş başdaşları qara kabusları xatırladırdı. Uzaqlarda uzun gəmilərin işıqları dənizdə bərq vururdu. Elə bil ulduzları toplayıb dənizə tökmüşdülər. Gülzarın xəyalı çoxdan getsə də, Elçin hələ də məzarlıqda idi. Yaranmış ab-hava ətrafda dolaşır, Elçini getməyə qoymurdu. Ölüm həmişə insanın qəlbinin dərinliklərinə yol tapır və insan başa düşəndə ki, ölümə bu qədər yaxındır, həyat onun üçün daha əziz olur. Elçin Şəhidlər Xiyabanından çıxanda, Ay yenicə doğmuşdu. Şəhərin çil-çıraqları içərisində o, fənər kimi közərirdi...

- Ermənistan təcavüzkar siyasətində terroru əsas vasitəyə çevirmişdir. Terror Ermənis-ta-nın «Qarabağ siyasəti»nin ayrılmaz hissəsi olaraq türk etnosunun məhvinə yönəlib. Hər halda faktlar ermənilərin Azərbaycana qarşı yalnız ərazi iddiasında olmadığını göstərir. Bu siyasət Ermə-nistanın xüsusi xidmət orqanları və erməni diasporlarının dəstəyi ilə həyata keçirilir.

- Bəzən xətalar xəyal olsa da, gerçək görünür, ana! - Kristina başını anasının dizinin üstünə qoydu. - Hər axşam öldürdüyüm adamların səsini eşidirəm. Onlar məni çağırır, amma mən heç kimdən qorxmuram.

- Heç kimdən qorxmamaq, özü də qorxuludur. Atan

həmişə mənə bu sualı verərdi ki, sən həyatı sevirsənmi? Sonra da gözlərimin içinə baxıb gülərdi: - Mən filosof deyiləm, bu Franklinin sözləridir. Yəqin ki, bu sözlər fransız dilində daha gözəl səslənir? Yox! - deyə mən onu qucaqlayıb başımı sinəsinə qoyardım: - Sənin dilindən eşitmək mənə daha xoşdur.

- Bəs, atam neyləyirdi onda? Yəqin ki, səni daha çox sevirdi.

Atan deyərdi: - Onda vaxtını itirmə, həyat vaxtını səmərəli keçirməkdən ibarətdir. Elə-belə yaşamaq heç bir məna kəsb etmir. Onun qiyməti yaşamaqdan necə istifadə etməkdədir.

- İnsanın sifəti çox şey deyir ana. Maraqlısı odur ki, ən müqəddəs şeylər ürəkdə yerləş-diyi halda, ürək ancaq duyğuların, fikirlərin inikasıdır. Sifət isə təbiətin insana bəxş etdiyi güzgüdür. İnsanı tanımaq üçün bir dəfə onun sifətinə baxmaq bəs edir.

- Sən çox ağıllısan qızım, ağlın olmasaydı, gözəlliyin də mənasını itirərdi.

- Ana, səndən bir şey soruşmaq istəyirəm. Sən Dağlıq Qarabağ erməni icmasının başçısı Karenin arvadı ilə yaxınlıq edirsən. Mən onu keçən həftə ermənilərin Qarabağda azərbaycanlı mülki əhaliyə qarşı törətdikləri ən vəhşi qətliamlardan birinin, Xocavənd rayo-nunun Qaradağlı kəndinin əhalisi ilə birlikdə yer üzündən silinməsinin il dönümündə gör-düm. Karen Samvelin yaxın dostu idi...

- Qızım, özünü çox incitmə, bütün bunları mən də

bilirəm. Əsas sözünü de, məndən nə istəyirsən?

- Doğrusu, mən səni bu işə qatmaq istəməzdim. Ancaq məni başa düşəcəyinə ina-nıram. Ermənistan öz içindən dağılır, əhalisi günü-gündən azalır. Yoxsulluq axırıncı həddə çatıb. Ölkə bir qrup caninin, korrupsioner əclafların əlində oyuncağa çevrilib.

- Qızım, xahiş edirəm, məni incitmə, de görüm, sənə nə lazımdır?

- Dağlıq Qarabağla İrəvan arasında tezliklə hava yolu açılacaq. Bunun üçün Xankəndin-də köhnə hava limanını bərpa edirlər. İlk uçuş Ermənistan prezidenti Serj Sarkisyan olacaq. Biz istəyirik ki, o Xankəndinə uça bilməsin. Bunun üçün sənin köməkliyin lazımdır.

- Mən nə etməliyəm? - Kristinanı köksünə sıxıb, onun alnından öpdü: - Qızım, sən çox təhlükəli oyuna girmisən. Məni qorxutma!

- Sən məni düz başa düşmədin, ana, biz prezidenti yox, aeroportu partlatmaq istəyirik. Bunun üçün də prezidentin uçuşunun dəqiq vaxtı lazımdır bizə. Əgər limanı partlada bilsək, onsuz da Ermənistanın can verən iqtisadiyyatı tamam çökə bilər.

Kristinanın anası fikrə getdi. Terror erməniliyin xislətidir. Onların bu məkrli savaşı insanlığa yönələn qanlı akt kimi başa düşülür. Çünki, məqsəd və niyyətlərini yalnız terror vasitəsilə həyata keçirmələri bunu bir daha təsdiqləyir. Ermənilik bəşəriyyət üçün də böyük təhlükədir. Niyə bunu onların özlərinə qarşı yönəltməyək. Dünya - ayna kimidir, o hər kəsin

əməllərini onun əksi kimi özünə qaytarır.

- Yaxşı, qızım, qoy təyyarə limanı hazır olsun, mən sənə uçuşun dəqiq vaxtını deyə-cə-yəm. Ancaq bir şərtim var! Bu sənin axırıncı əməliyyatın olacaq.

- Söz verirəm, əməliyyatı qurtaran kimi, Bakıya atamın yanına gedəcəyəm.

...Onlar ana-bala qucaqlaşıb ayrıldılar. Axşam reysi ilə Kristina Tbilisiyə üçdü. O, Elçini görmək üçün tələsirdi. Dörd il əvvəl Elçinin ona dediyi sözləri xatırladı: «Qadın bağçada bitən balaca çiçəkdir, güclü tufan əsəndə ondan iz də qalmır». «Yanılırsan, əzizim, mən çiçək deyiləm, nə tufan, nə qasırğa məni yox edə bilməz».

Kristina Tbilisiyə çatanda səhər açılmaq üzrə idi. Atası onu hava limanında gözləyirdi. Hava çiskinli və soyuq idi. Dünəndən yağan qar, yolun hər iki tərəfinə yığılıb qalmışdı.

***

- Rus dilində bilirsiz?

- Yox, yaxşı bilmirəm.

- Bəs rus dilində yazılmış bu ittihamnamədə hansı söz sizi qorxutmuşdu?

- Terror.

- Axı ittihamnamədə terror sözü yoxdur.

- Terror yoxdur, amma yazılıb ki, İran Azərbaycanı bombalayacaq.

- Xahiş edirəm, dediyiniz sonuncu sözləri rus dilində deyin.

- Mən rus dilini bilmirəm, ancaq o dedi ki, tədbir görəcəyik.

- İrana və ABŞ-a qarşı hansı tədbiri görmək istəyirdi?..

- Mən bilmirəm!

Məhkəmə materiallarından...

- Öldürülən adamlar qatillərin gözünün içinə baxır, buna necə dözürdün?

- Öldürdüyüm adamların mənə baxması heç vecimə də deyildi. Necə öldürdüyümü də kiminsə görməsi məni maraqlandırmır. Kimin alnına nə yazılıbsa, o da olacaq. Çox vaxt günah elə ölənlərin özündə olur.

- Səni həbs etmək bizim planımızda yox idi. Ancaq sən bunu tezləşdirdin. Uşağı öldürdüyün isə səbir kasamızı doldurdu.

- Axı mən o pulların çoxunu sizə və sizin ağalarınıza verirdim. Əgər məni həbs etsəniz, o pulları qaytaracaqsan. Görürəm, sən qorxursan. Bu məni cuşa gətirir. Qorxağı öldürmək, milçəyi əzmək kimi bir şeydir. Mən saatlarla məşq etmişəm, sifarişli ölümlər çətin olmur. Dosyeni elə sifarişçi verir. İndi isə daha sözün yoxsa, aç qapını mən getmək istəyirəm.

- Daha nə istəyirsən?

- Desəm inciməzsən ki, axı nə fərqi var, bu gün, ya da sabah mən səninlə haqq-hesab çəkəcəyəm.

- Dəli olmusan? Elə burda, mənim otağımda? Görmürsən nə qədər polis var? Yox, rədd ol, daha səni görmək istəmirəm!

- Mən sənin kimi qorxaqlara nifrət edirəm. Əgər məni həbs etsələr açıb hamısını de-yəcəyəm. Sən öz nüfuzundan, vəzifəndən istifadə edib, narkobizneslə məşğul olursan.

- Bunu sənə vəkilinmi dedi? Yoxsa dostun Məhəmməd kişi?

- Nə fərqi var, əgər mən bunu açıqlasam, sizin karyeranıza birdəfəlik son qoyulacaq.

Kapitan fikrə getdi. Bir anlığa özünü onun yerində hiss etdi. Elə bil bədənindəki bütün qanı çəkib çıxardılar. Onu soyuq tər basdı. Bu adam manyakdır, nə etdiyini anlamır, ya da özünü gicliyə vurub. Kapitan gözləmədiyi çətin vəziyyətə düşmüşdü. İnsanın xarakteri ən çətin hallarda bilinir, onun özünü necə aparmasında və bir anda qərar qəbul etməsində. Ya indi, ya da heç vaxt.

- Bəlkə səni indi həbs edim. Bir tərəfdən arvadı qətlə yetirdiyiniz dəlillər və kaset var. O biri tərəfdən iranlı dostlarının gətirdiyi narkotiklər.

- Hə, əlbəttə, avazın yaxşı gəlir. Ancaq gərək əvvəlcə o kasetin hansı şəraitdə yazıl-dığını öyrənək. Sənə axırıncı sualım var. Ölmüş bildiyin keçmiş arvadın hardadır?

- Onu sən öldürmüsən, sən də bilərsən haradadı.

- Kapitan, sənə zəng vurmuşdular. Deyə bilərsənmi haradan? Dəlixanadanmı? De, onsuz da bunun xərci yoxdur.

- Mən səni çoxdan öldürməli idim. Ancaq bunu etsəydim, məndən şübhələnəcəkdilər. Bütün planlarım həyata keçdi. İndi isə başını aşağı əy və say. Bir... iki... üç... Atəş! Nədi qorxdun?

- Hə boynuma alıram ki, bir az qorxdum. Axı qadınlar kişilərdən çox cəsarətli olur.

- Yalan danışma, telefon zəngini aydınlaşdıra bildim. O mənim arvadım deyildi.

- Kapitan, sənin keçmişin heç də mənimkindən təmiz deyil. Uzun müddət Hacı Mame-dova qulluq göstərmisən. Sənin vəzifən adam öldürmək yox, sifariş vermək idi, ağalarının sifarişlərini. Sən nə etdin, doğrudanmı qadını öldürdün? Bundan sonra hər şeyə dörd gözləmi baxacaqsan?

- Əlbəttə. O qadın ölməmişdən qabaq gözlərini mənə verdi. Dedi ki, oynaşı həmişə onun gözlərindən öpərdi. Mən də onun gözlərini çıxarıb sənə gətirdim. Nə qədər istəyirsən öp.

Qapının qəfil açılması ilə üzü maskalı xüsusi təyinatlıların otağa dolması eyni anda oldu:

- Əllərinizi qaldırın və sakit dayanın! - Rizvan üzündən qara maskasını çıxardı:

- Cənab kapitan, axır ki, sizi bir yerdə yaxalaya bildik. - Rizvan telefona yaxınlaşıb dəstəyi götürdü, menbranı

fırladıb dəstəyi açdı. Balaca «juk»u əlinə alaraq kapitana göstərdi:

- Hə, indi nə deyəcəksən? Gözlərini çıxartdığın qadının əlimizdə lent yazısı var. Səndə olan kaseti və dəlilləri bizə verəcəksən, yoxsa özümüz axtaraq?

- Siz ünvanı səhv salmısınız, məndə heç nə yoxdur. İstəyirsiniz axtarın.

- Əlbəttə yoxdur, ömründə bir dəfə düz danışdın. Kaset də, dəlillər də bizdədir. Əv-vəllər Hacı Məmmədova qulluq edirdin, indi də iranlı dostlarına. Yeri gəlmişkən, çayçı Məhəmməd kişi sənin üçün darıxıb, ona baş çəkmək istəyirsənmi? İrandan böyük partiya «mal» gəlib, onu Rusiyaya ötürmək üçün sənin köməkliyin lazımdır. Danışmaq da, susmaq, hüququn var. Ancaq danışsan...

Kapitanın rəngi kətan kimi ağarmışdı. Dizləri titrədiyindən ayaq üstə güclə dayanırdı. O, əlləri əsə-əsə qollarını qabağa uzatdı. Qandallanmış əllərini aşağı salaraq: - Mən hazır! - dedi.

- Cənab mayor, bəs bunu neyləyək? - xüsusi təyinatlılardan biri soruşdu.

- Atın qoduqluğa, çalışın qabırğaları sınmasın!

Otaq boşaldıqdan sonra Rizvan gizli şifrə ilə nömrələri yığdı:

- Cənab polkovnik, hər ikisini götürdük. Bəli, siz deyən kimi oldu, səssiz-küysüz.

***

Mirzəyevlərin qapısına iki nəfər yaxınlaşanda, şəhər dərin yuxuya getmişdi. Küçə fənər-lərinin çoxu söndürülmüş, hündür mərtəbəli binaların bəzilərinin pəncərələrində təkəmseyrək işıqlar yanırdı. Onlar ətrafı diqqətlə yoxladıqdan sonra qapının kilidini qırdılar. Sona heç nə eşitmədi, körpə uşağını yırğalayırdı. Nədənsə uşaq özünü çox narahat aparırdı. Vəli hamam otağında yuyunurdu. Çağrılmamış qonaqları görəndə Sona çox qorxdu, qışqırmaq istəsə də, səsi çıxmadı. Yəqin ərim göndərib, - ani olaraq fikrindən keçirdi. Əri Müslüm doğma bacısını öldürdüyünə görə ikinci il idi ki, cəza çəkirdi. Müslüm tutulduqdan sonra Sona əlində körpə uşaqla qalmışdı. Uşağı təkbaşına böyütmək çətin idi. Sona heç yerdə işləmirdi. Bir-iki dəfə cəhd göstərsə də, alınmamışdı. Nə vaxt ki, Sonanın həyatında Vəli peyda oldu, qadının yaşamaq ümidi də artdı. Onlar bir yerdə yaşamağa başladılar.

Sona həyəcanlı səslə qışqırdı:

- Vəli..., ay Vəli!

Vəli hamamdan yarıçılpaq çıxdı... Və elə o anda da ürəyindən qüvvətli bıçaq zərbəsi aldı.

- Sən, - saqqallı kişi Sonanın saçlarından tutaraq sürüyüb stulda otuzdurdu: - Al bu qələmi məktub yaz. Sonra rişxəndlə gülüb: - Ölümündən qabaq, - dedi.

Sonanın dəhşətdən sifəti əyilmişdi. Boğazı elə qurumuşdu ki, udquna bilmirdi. O, göz-lərini döşəmədəki qan gölməçəsindən çəkə bilmirdi. Başa

düşə bilmirdi ki, nə baş verir. Ağlının dumanlanmış bir küncünə yığılmış dəhşətdən bütün bədəni əsirdi.

- Otur, - saqqallı kişi onu kobudcasına itələdi, mobil telefonu Sonanın qulağına qoydu:

- Gözləmirdin? - telefondan ərinin səsi eşidildi. Mən zonadan zəng vururam. Görür-sənmi, mənə dəmir barmaqlıqlar belə mane ola bilmir. Səni hər yerdə tapa bilərəm. Oynaşını cəhənnəmə ona görə göndərdim ki, başqasının arvadını əlləşdirməsin.

Müslümü öskürək tutdu, xeyli öskürəndən sonra xırıltılı səslə dedi:

- Kömək et, qəfəsdən çıxım, onda səni sağ buraxaram. Polisə ərizə yaz, yaz ki, mən oynaşımla birləşib ərimi yox etməkdən ötrü onun bacısını öldürmüşəm. Ərim mənim əvə-zi-mə cəza çəkir. Bir də yaz ki, oynaşımı da özüm bıçaqla öldürmüşəm. Peşmanam, daha belə yaşaya bilmədim. Təkrar elə...

Onun nə demək isitədiyini Sona ərinin məkrli niyyətindən başa düşdü. Başını yellədi:

- Deyirsən özümə şər atım? Bunu bacarmaram, mən heç vaxt yalan danışmaram.

Qəflətən aldığı zərbədən döşəməyə sərələndi. Ayılanda ərinin səsini yenidən eşitdi. Əri onlara əmr verirdi:

- Sonanı oynaşının qanına bulaşdırın, ölünün əlinə bir çəngə onun saçlarından qoyun. Elə başa düşsünlər ki, Sona onunla dalaşıb, sonra da bir-birlərini öldürüblər. Hər şey təbii alınmalıdır. Sonrası necə danışmışıqsa, elə

də olacaq.

- Bəs uşağı neyləyək?

- Öldürün! Onlar dalaşanda uşağı tapdayıb öldürüblər.

- Havalanmısan? Tez ol yaz! - Sonanın dodaqları, əlləri də əsirdi. O, ayağa qalxa bil-mirdi. Dumanlanmış təsəvvüründə keçmiş həyatı gözləri önündə canlandı və o, başa düşdü ki, həyatının bədbəxtliyində özü günahkardır. Sona ayağa durdu. Stola yaxınlaşıb qorxu içə-risində başladı yazmağa. Ərinin telefonda ona dediklərinin hamısını yazdı. Sona prokurorluğa yazdığı məktubu qurtardıqda quldurlardan biri gülümsədi:

- Sən ağıllısan, çoxdan belə etməliydin.

Sona onun gözünün içinə baxdı:

- Məktubu da götürüb gedin. Qızım yuxudan ayılsa, çox qorxacaq.

- Yox əşi, deməli, sən belə fikirləşirsən. Vəhşi qancıq! Ərin səni də, qızını da sifariş edib.

Saqqallı kişi sakitcə qalxdı, özlərilə gətirdikləri kəndiri çil-çırağa bağlayıb ilgəklədi. Sona onun ölümü üçün hazırlanan kəndirə baxırdı. Dişləri kilidləndiyindən ağzını aça bil-mirdi. Lakin onu əldəqayırma edam kəndirinə sürükləyəndə vəhşi kimi bağırdı. Çalışırdı ki, özünü onların əlindən qurtara bilsin. Qatillər aldıqları sifarişi kortəbii yerinə yetirirdilər. Ölümdən qabaq çabalayan Sona xırıldayırdı. Boynundakı ilgək onu boğurdu.

Nə vaxt ki, hər şey qurtardı, onlar mobil telefon ilə Müslümə zəng vurdular:

- Hər şey bitdi!..

***

Ağır cinayət işləri üzrə xüsusi müstəntiq Kamran Yusifli hadisə yerinə gələndə, məh-kəmə-tibb eksperti doktor Hüseyn və Yasamal rayon prokuroru, ikinci dərəcəli Ədliyyə müşaviri Kənan Mirzəzadə artıq hadisə yerində idi. Meyitləri qonşular aşkarlamışdı. Səhər tezdən uşağa süd gətirən qonşu arvadın qışqırtısına, haraya gələn qonşular gözlərinə inana bilmirdilər. Qatillər çox qaba işləmişdi, - sahə müvəkkili prokurora izah edirdi:

- Elə ilk baxışdan görsənir ki, Sona özü-özünü asmayıb, ona kömək ediblər. Lakin hələ bunu sübuta yetirmək lazımdır. Qatillər evdəki qızıl zinətlərini və «musiqi mərkəzi»ni də aparıblar. Çox güman ki, onlar bunu izi azdırmaq üçün ediblər.

Otaq ələk-vələk edildiyindən elə təsəvvür yaranırdı ki, onlar burada əlbəyaxa döyüş aparıblar. Vəlidən bir az aralıda Sonanın meyiti uzanmışdı. Onu kəndirdən azad etdikdən sonra müayinə üçün döşəməyə uzatmışdılar. Vəlinin sağ ayağı yaş yarımlıq qız uşağının be-lində idi. Uşaq üzüqoylu vəziyyətdə idi...

***

...Sona Bakı Şəhər Mərkəzi Klinik Xəstəxanasında tibb bacısı işləyirdi. Müslüm də elə bu xəstəxanada

Sonanın yolunun üstə çıxmışdı. Ucaboylu, xasiyyətcə qısqanc olan Müslümün hərəkətləri də qaba idi. O, Sonadan yaşca böyük idi. Sona «Yetimlər evi»ndə böyüdüyündən heç kəsi yox idi. Müslüm onun üçün göydəndüşmə olmuşdu. Çox çəkmədən Sona Müslümün qolları arasında günəşdən əriyən qar kimi axıb getdi. Sonra toyları oldu. Bir il sonra isə Sona dünyaya bir qız uşağı gətirdi. Uşağın doğulması onun taleyini başqa səmtə yönəltdi.

Müslüm içməyə başladı. Sona ərinə olan sevgisinin boş və mənasız olduğunu anlamağa başlamışdı. Əri tez-tez ləyaqətsiz hərəkətlər edir, evdə dava-dalaş salır, Sonanın tanımadığı şübhəli adamlarla görüşürdü. Sona xəcalət çəkir, utanırdı. Qonşuların üzünə baxa bilmirdi. Müslümün doğma bacısını qəddarlıqla qətlə yetirməsi onların ailə həyatına nöqtə qoydu...

...Kamran qatillərin izinə tez düşdü. Mobil telefon danışıqları onun köməyinə gəldi. O, bu məsələni çox asanlıqla həll etdi və sifarişçinin kim olduğunu aşkarladı.

- Həyasızlığın həddinə bax. Arvadını, uşağını sifariş verəsən, özü də zonadan mobil telefonla qatillərə rəhbərlik edəsən!

- Mahmud, sifarişçinə neçə çıxıb? - Kamran saqqallı kişiyə dedi. Bizim əlimizdə təkzib-edilməz dəlil-sübutlar var. Əgər yalan danışsan işini ağırlaşdıra bilərsən.

- Mən əfv fərmanındakı siyahıya düşdüyüm üçün

kaloniyadan getməli idim. Pul lazım idi. Müslüm mənimlə birgə oturudu. O məni dilə tutdu ki, arvadını və oynaşını öldürüm. Uşaq söhbəti olmamışdı. Mobil telefonu ona köhnə dostlarından biri ötürmüşdü. Elə o tele-fonla da məni tapdı. Keçmiş zek Mirələm də mənə kömək elədi. Onun belə işlərdə səriştəsi daha çox idi.

- Öldürdüklərinə görə sənə nə qədər söz vermişdi?

- İki yüz min. Dedi ki, bir neçə özəl müəssisəni talan etdikdən sonra pulları etibarlı yerdə gizlədib.

Mahmud Sonanın onun tapançasının lüləsi altında yazdığı məktubu inkar etdi. Dedi ki, qadın öz razılığı ilə yazıb. Sübut etmək üçün ki, Sona məktubu təzyiq altında yazıb, kriminalistlərin dəqiq ekspertizasının təsdiqi lazım oldu...

Mobil telefonla cinayət törətməyi Azərbaycanın hüquq-mühafizə orqanları ilk dəfə idi ki, rastlaşmışdı.

- Həqiqəti qazıb çıxarmaq üçün çoxlu ekspertiza keçirmişik. Və əsasən qərara aldıq ki, bu hadisənin müəllifi kimdir. Bu ekspertiza üzə çıxardı ki, Sona öz fikirlərini kağızda ifadə etməyib, əksinə, kiminsə diqtəsi altında yazıb. Mənə prokuror məsləhət gördü ki, Müslümün anası ilə söhbət etməyim. Qoca arvadı həyəcanlandırmaq lazım deyildi. Qa-dın oğlundan çoxdan imtina edib.

- Yaxşı bəs o köhnə «zek» dediyin cani hardadır? Tuta bildinizmi onu?

- Xeyr, cənab mayor, onu siz kapitanla birlikdə məndən qabaq həbs etmisiz. Uşağı o öldürüb.

- Sən Mirələmimi deyirsən?

- Bəli, cənab mayor, illərdir axtarışda olan, tülkü cildinə girmiş canavarı deyirəm. «Qara kəmər» əməliyyatında biz onu tuta bilmədik. O, Hacının azadlıqda olan dəstəsində ən təh-lükəli adam idi. Mənə deyirdi ki, hər şeyi yaddan çıxarıb. Ancaq bunu göründüyü kimi unuda bilməmişdi.

Şüşəkəsmənin arxasından Mürsəl onun sifətini görə bilməsə də, hərəkətlərini izləyirdi. Simuzər oturduqdan sonra onun burnunun nə qədər balaca ollduğunu gördü. Bir anlığa bu balacaburunu tutub əzmək istədi. Sonra bir anlıq zəifliyə görə, «Ən xırda səhvdən, böyük səhvlər doğur», - deyə özünü sakitləşdirdi. Bəziləri bu səhvdən öz xeyirlərinə istifadə edir, bəziləri isə onu dərinləşdirərək cinayət həddinə çatdırır.

Bir az vaxt keçdikdən sonra Simuzər gülümsədi. İblis gülüşü əvvəl onun dodaqlarında, sonra bütün sifətində göründü. Simuzər ona verilən suallara cavab olaraq belə gülümsəyirdi...

Mürsəl şüşəkəsmənin arxasından çıxanda Simuzər artıq yox idi. Mürsəl Kamrandın soruşdu:

- Ağayi-Firuzu tanıdımı?

- Xeyr, tanımadı. Onun dediyinə görə, əlaqələndirici olub, «xozeyn»lərini tanımır. Hər dəfə «malı» müxtəlif adamlardan alıb, çayçı Məhəmmədə ötürürmüş. Simuzər çox şeyləri bizdən gizlədir. Mən inanıram ki, Validə Aranlının ölümündə də, onun əli var.

- Çox güman ki, belədir, - Mürsəl onun sözünü

təsdiqlədi.

- Mən Simuzərə təklif etdim ki, fotoşəkillərə baxsın, şəkillərin içərisində çayçı Məhəmmədin də şəkli vardı. O, heç kəsi tanımadığını dedi. Ona görə də qadını aşağıya, istintaqa göndərdim.

- Görünür, hələ sınmayıb.

Qapını döydülər, kimsə Mürsəlin köməkçisi ilə danışırdı. Mürsəl Azərin səsini tanısa da, yerindən qalxmadı. Azər içəri girib sürəkli baxışlarla ona baxdı ki, elə bil Mürsəli birinci dəfə idi ki, görürdü.

- Niyə belə çaşqınsan?

- Bilmirəm.

- Ola bilməz? - Azər əlini Mürsələ uzatdı: - Bəs ürəyin?

Mürsəl əyilərək stolun arxasından Azərin əlini sıxdı: - Gərək bir də yoxlayaq - dedi.

- Bizimkilər elə bununla məşğuldur.

Mürsəl söhbətin səmtini dəyişmək üçün gülümsədi:

- Azər, çoxdandır ki, Söhrabı görmürəm. Hər dəfə nəyisə həll edəndə, düşünürəm ki, Söhrab bunu daha yaxşı edərdi. Bazar günü onu bağ evimə dəvət etmişəm. Bəlkə sən də gə-ləsən, birlikdə oturub söhbət edərik. İşlərimiz get-gedə qəlizləşir.

- Dəvətə görə çox sağ ol. Lakin insan boş butulka deyil ki, istədiyin qədər ona maye tökə biləsən. Əgər tökə bilsən belə, olduğundan artıq alınmayacaq. Mürsəl, biz həqiqəti gördüyümüz kimi yox, olduğu kimi görməliyik. Bu məsələdə Söhrab bizə kömək edə bilər.

Bir müdrik demişkən: «O şeyləri ki, biz bilirik, çox azdır, bilmədiklərimiz daha çoxdur».

- Tamamilə haqlısan. Vaxtilə böyük filosof Edison deyirdi: «Sivilizasiyanın ən böyük vəzifəsi insanları düşünməyə öyrətməkdir». Üstündən neçə əsr keçsə də, elə bil bizim zəmanə üçün deyilib. Qloballaşan dünyada bu, çox vacibdir.

- Mən sizin dostluğunuza qibtə edirəm. Həyatda və işdə ciddi olan adamlarda çox ideya olmur. Onlar iş adamları olduqları üçün ağılları emosiyalarına qalib gəlir. Hər işi səbirlə görürlər. Səbirlə görülən iş insana xeyir gətirir. Səbirsiz insan isə ən xeyirxah işdən belə zərər çəkir. Mən Söhrabın haqqında hələ sovetlərin vaxtında eşitmişdim. Lakin şəxsi tanış-lığımız olmayıb. 1991-ci ildə siyasi baxışllarıma görə məni həbs etmişdilər. Eşitdiyimə görə, o zaman məni müdafiə edənlərdən biri də Söhrab olub.

- Hə, elədir, Söhrab etiraz edərək Polis Akademiyasından istefa vermişdi. Mən də onun tələbəsi olmuşam. O, dərs dediyi tələbələrə həmişə mərdlik, düzlük və ləyaqətli olmağı töv-siyə edirdi. Söhrab böyük alim və filosof olan Yasinskinin sözlərini misal çəkərdi: «Düşməndən qorxmaq lazım deyil, ən pisi səni öldürə bilər. Təsadüfi dostlardan uzaq olmaq lazımdır, səni sata bilər. Laqeyd adamlardan qorxun ki, onların sayəsində yer üzü qatillər və satqınlarla dolur...»

Azər getdikdən sonra Mürsəl sakitcə kürsüdə oturub başını arxaya verdi. Ağlı-qaralı saçları kürsünün

başlığına dağılmışdı. Heç nə ifadə etməyən, yorğun gözləri pəncərədən bo-zumtulmavi göyə dikilmişdi.

***

Astara rayonunun sərhəd kəndlərinin birində, gecəyarıdan ötmüş Nuru kişinin qapısı döyüldü:

- Ay adam, kimsən orda? - Nuru kişi həyətə düşdü. - A bala, dillənsənə! O, cavab alma-dıqda həyət qapısının kiçik gözünü açıb doqqaza çıxdı. Qaranlığın içindən kimsə dil-ləndi:

- Allah qonağıyıq, gecələməyə yer verərsənmi?

- Qaranlıqda dayanmayın, keçin içəri. Allaha da qurban olum, qonağına da! - Sonra səsini alçaldıb: - Mən sizi dünən gözləyirdim, - dedi. - Elə bildim ki, sərhəddə ələ keçmisiz.

- Ona oxşar bir şey oldu. İt uşaqları, elə bil iy bilirlər. Yaxşı canımızı qurtardıq.

- Heç olmasa, «malı» bu yana keçirə bildizmi?

- Bir hissəsini sərhəddə tulladıq.

- Yaxşı-yaxşı, keçin içəri, görən olar. İndi gecdir, yatın, dincəlin, sabah söhbət edərik.

Nuru qonaqlarını evə saldıqdan sonra, hər ehtimala qarşı küçəyə çıxıb ətrafı yoxladı. Kənd dərin yuxuya getmişdi...

Sövdələşmə səhər yeməyindən sonra baş tutdu.

- Bundan artıq verə bilmərəm!

Üzündə çapığı olan kişi etiraz etdi:

- Həmişəki kimi, neçə demişəm, o qədər.

- Bu yenilikdir, yoxsa çoxdan belə başlamısız?

- Belə malı İranın özündə belə sən deyən qiymətə verməzlər. Biz həyatımızla risk edirik.

- Siz elə bilirsiz ki, biz dünyanın pulunu qazanırıq. İnsanları «düzgün» yola gətirmək üçün, əvvəlcə onların kim olduğunu başa salmaq lazım olur. Kimin kim olması isə bizim işimizdə ən vacibdir. Siz iranlılarla iş qurmaq, alış-veriş etmək get-gedə çətinləşir.

- Niyə ki? Biz təmiz «mal» veririk, siz isə onu aşağılayırsız. Allah bilir, sonra içinə nə qatırsız?

- Bəlkə də, kim bilir? Hər şeydən əvvəl gərək istək olsun. İstək olan yerdə həyat sadələşir. Cənnət də, cəhənnəm də sənin öz qəlbində olur.

- Allahdan qorxmursuz?

- Rəhmətlik atam deyərdi ki, Rusiyada bir yazıçı var, o da Allahdan qorxmurdu. Allah illüziyadan başqa bir şey deyil, yazırmış. Amma mən belə düşünmürəm. O, ağılla birləşəndə reallığa çevrilir. Kərim də, çayçı Məhəmməd də həbs olunub. Mən Nuru kişi deyiləm, onu yaxalayıblar. Azərbaycan dövlətinin adından təhlükəsizlik naminə sizi həbs edirəm.

MTN-in Astara rayon şöbəsinin zabiti Nurullayev ara qapını açıb, xüsusi təyinatlı po-lisləri çağırdı:

- Qonaqları aparın, Astarada onları gözləyirlər.

Nurullayev mobil telefonla nömrə yığdı:

- Cənab polkovnik, hər şey bitdi. Xeyr, atışma sərhəddə olub, onlardan biri öldürülüb. Kənddə sakitlikdir. Oldu, cənab polkovnik, mən də onlarla

qayıdaram.

Kənd hələ səhər yuxusundan oyanmasa da, mal-qaranı örüşə ötürənlərin səs-küyü doqqazı bürümüşdü. Günəş üfüqdən yenicə boylanırdı. Onun qızılı şəfəqləri gözəl bir səhərin açıldığından xəbər verirdi.

***

Benqazidə Amin Əli Rukeyi çox adam tanıyırdı. Balacaboylu, daim hərəkətli, qıvraq bir qoca idi. Ərəbdən daha çox, avropalılara oxşayırdı. Balaca saqqalı, sarışın sifəti olan bu qocanın qalın şüşəli eynək arxasından baxan boz gözləri çox işıqlı və hər şeyi bilmək istəyilə alışıb-yanırdı. Amin çox şey bilir, onları gizlətməyi bacarırdı. Möhkəm xarakterli, enerjili bu agent, uzun illərdi ki, ingilis kəşfiyyatının göstərişlərini yerinə yetirirdi. Mustafanın gəlməsi onu çox sevindirdi. Amin Əli Rukeyin kifayət qədər pulu vardı. Benqazinin sakit küçələrindən birində yaxşı bir ev almışdı. O, nökərini çağırıb, sual dolu baxışlarını Mustafaya yönəltdi:

- Çay, yoxsa qəhvə?

- Çay yaxşı olardı, - Mustafa onunla razılaşdı.

- Əlbəttə, əlbəttə... - Amin gülümsədi. Mən sizin yerlilərinizlə qabaqlar çox görüşər-dim. Onlar da heç vaxt qəhvə içməzdilər.

- Mən qəhvəyə öyrəşə bilmədim.

- Heç lazım da deyil. Həmişə ürəyin istədiyini seç.

Deyəsən bu mənasız söhbət Amini bezdirdi.

Mustafanın davranışı onun xoşuna gəlmişdi.

- Amma mən bir fincan kofe içəcəm - qoca da Mustafa kimi düzünü dedi. Həyatının belə keçməsini Amin onu yad ölkəyə atanlarda görürdü. Balaca saqqalı əsəbiliklə titrədi. Mustafa ona fikir vermədən çayını içirdi.

Amin ona diqqətlə baxdı: «Bu adam hər riskə gedər!» - deyə fikirləşirdi. Muzdunu versən, əli bıçağı möhkəm tutar, zərbə dəqiq və ağır olar. Mustafa çayını içdikdən sonra Aminə dedi:

- Səni soruşurdular.

- Kim? - qoca sakitcə maraqlandı. - Mən bu yaşımda kimə lazımam?

- Yad adam idi. Türk olsa da, ingilis dilində danışırdı.

- O, tez-tezmi buraya gəlir? - Amin soruşdu.

- Hə, demək olar ki, hər gün. Bir ay olar...

- Tək gəlir?

- Həmişə eyni vaxtda gəlir, - Mustafa çiynini oynatdı. - Əbu Məhəmməd qardaşları ilə, sən onları tanıyırsan.

- Birlikdə gəlirlər?

- Yox, bir gün biri ilə, o biri gün isə digəri ilə.

Amin Əbu Məhəmməd qardaşlarını tanıyırdı. Ancaq qərara gəldi ki, indi Mustafadan bu barədə heç nə soruşmasın. Aydındır ki, onlar əcnəbi qonağı izləyirlər.

Səhərisi gün Mustafa çoxlu məlumatla gəldi:

- Əbu-Məhəmməd iki il qardaşından böyükdür. Cəsarətli adamdır. Qəddafiyə qarşı vuruşan adamlardandır. Deyirlər onun vicda-nında iki hökumət

adamının həyatı var.

- Bəs o birisi?

- Adı Musadır, çox qəddar adamdır.

- Niyə?

- Məlum deyil, nə işlərdən çıxır. Qəribə adamdır, üzünə gülər və qəflətən boğazından yapışar. Üsyançılara kömək edir.

- Bircə elə bu əskik idi, - Amin dərindən nəfəs aldı. Günahkar adamlar kimi Mustafaya baxdı və əsas sualı ondan gözlətdi:

- Yadellinin adı Əlidir, İngiltərədən gəlib. Ancaq hələ öyrənə bilməmişəm kimin adamıdır. Deyirlər, tək deyil. Üsyançılara kömək üçün gəliblər. Silah-sursat və üsyançılar üçün çoxlu pul da gətiriblər.

- Öyrənmək lazımdır, özü də lap tez. Görək məni niyə axtarır?

Amin İngiltərədən gələn qonağın onu niyə axtardığını çox yaxşı bilirdi. Hətta ürəyində ona qarşı haqq da qazandırırdı: «Hər kimdirsə çox ağıllı adamdır. Mənimlə görüşməmişdən əvvəl kəşfiyyat aparır. Ehtiyat igidin yaraşığıdır. Kəşfiyyatçı olmaq üçün gərək ehtiyatlı olasan, yoxsa başını itirərsən».

Amin çox-çox illər əvvəl onu Livana göndərəndə, ona dedik-ləri sözləri xatırladı. Kəşfiyyatçı romantikadan uzaq olmalıdır. Lakin romantikasız emossiya-larımızı cilovlaya bilmərik. Hətta onunla razılaşmasaq belə.

- Ola bilər ki, o, tapşırıqla gəlib, - Mustafa razılaşdı:

- Ancaq hər şey bizdən asılı deyil. Benqazidə əsl müharibə gedir. Onu dəstəkləmək bizim işimizdir.

- Hə, əlbəttə, bizim, bizim işimizdir, - Amin əsəbiliklə cavab verdi. Ancaq əvvəlcə baxaq görək okeanın o tərəfindəki dostlarımız bizə nə göndərib?

Amin Liviya haqqında çox şey bilirdi. 30 il əvvəl onu ingilis kəşfiyyatı casus kimi ha-zır-layanda, ona Liviya haqqında çox şey öyrətmişdilər. Aminin atası ərəb, anası ingilis qadını idi. Ana babası dövlət təhlükəsizlik orqanlarında əks-kəşfiyyat idarəsinə başçılıq edirdi. Babası ona uşaqlıqdan hərbçi olmağı öyrədirdi. Ata babası Süleyman Şənab Müəmmər Qəddafinin Liviyadakı inqilab çevrilişində öldürülmüşdü. Onu Lliviyaya Qəddafinin hökm-ranlığının başlanğıcında göndərmişdilər. Amin Qəddafinin xüsusi qvardiyasında qulluq edirdi. Orduda olarkən, qadın «amazonka»lardan biri, Şeri ləqəbli qızla tanış olmuşdu. O, əsas mə-lumatları Şeridən alır, ingilis kəşfiyyatına ötürürdü. Müəmmər Qəddafinin şəxsi mühafizəsinə götürülən hər qadının adı dəyişdirilir və gizli saxlanırdı. Onun da adını dəyişərək Faxada, yəni «Pələng qancığı» adı verilmişdi.

Təlim mərkəzində Şeri rus məşqçisinin qolunu sındırdıqdan sonra amazonkalar arasında məşhurlaşmışdı. Üzgüçülük hovuzunda ən cəld üzərək və iri suitinə çataraq onu xəncərlə öldürmüşdü. Amazonkalar arasında ən dəqiq və sərrast atan da Şeri idi. Hərəkət edən lövhəni nişan almadan dəqiqliklə vururdu. Qəddafi amazonkalar arasından Faxadanı

seçmişdi. O, deyirdi: «Faxada üçün heç bir düşmən təhlükəli deyil!» Və Faxada diktatorun etimadını doğrultdu. 1998-ci ildə Qəddafinin kortejini islam fundamentalistləri gülləyə tutanda, Faxada Müəmməri öz bədəni ilə örtdü. Diktatorun həyatını öz qanı ilə qurtardı.

Faxadanın ölümündən sonra Amin ordudan təxris olunaraq, gizli işə keçdi. Lakin ordu ilə əlaqəni kəsmədi. Dostları ona gizli məlumatlar ötürürdülər. İllər ötdükdən sonra vəziyyət də dəyişdi. İngilis dostları onu unutdular. Budur, uzun illərdən sonra Amin yenidən yada düşmüşdü. Bu, həqiqət idi. Həyatda heç bir şey həqiqət kimi çətinliklə əldə edilmir. Babası ona deyərdi: həqiqət o qədər kövrəkdir ki, ondan bir qədər aralansan, yolunu aza bilərsən. Amin bütün bunları yada saldıqdan sonra Mustafaya dedi:

- Məni onunla görüşdür. Ancaq evimə gətirmə, bu, şübhə doğura bilər. Uğursuzluq şeytanın ən böyük silahıdır. Çalışmaq lazımdır ki, onun altına düşməyəsən.

Onlar görüş yerini seçdikdən sonra Mustafa çıxıb getdi.

***

Həyat Əliyə çox şey öyrətdiyi kimi, ehtiyatlı olmağı da öyrətmişdi. O, Liviyaya gələndə ona lazım olan adamları tapmağa tələsmədi. Bir müddət baxmaq, görmək və eşitmək istədi. Ərəb «baharı» öz işini görməkdə idi. Artıq zaman gəldiyi üçün Əli qərar qəbul

etmək, işə başlamaq istədi. Şəhərdən çıxdıqdan sonra rahatlıqla nəfəs aldı. Nehrə kimi çalxalanan şəhərdən bir qədər uzaqlaşdığı üçün özünü gücsüz, yorğun hiss elədi. Məndən nə casus olar, nə kəşfiyyatçı. Məgər mən bu qədər böyük üsyana başçılıq edə bilərəm? Mənimki öldürmək, dağıtmaq, partlatmaqdı. Lakin artıq gec olduğunu başa düşmüşdü. Bükülmüş əli hiss olunacaq dərəcədə titrədi. Amin Əli Rukey, bu ad bir an da olsun, onun başından çıxmırdı. Qocanı görməsə də, ona bir yaxınlıq hiss edirdi. O qoca başını itirməkdən qorxmur. Onun həyatda heç kəsi yoxdur. Bəs mən? Mən nəyə görə risk edirəm? Əli addımlarını ləngitdi. Bir neçə dəfə ayaq saxlayıb, kədərlə od içində yanan şəhərə baxdı. O zaman Xocalı da, Laçın da beləcə yanırdı. Xocalını erməni faşistləri yandırdı, Benqazini isə özünküləri alova qərq ediblər.

Meyvə bazarı kiçik və adamsız idi. O, Benqazinin səsli-küylü bazarına oxşamırdı. Bazardakı çayxana da heç dəyişməmişdi. Çayxananın sahibi Aminin qabağına çıxaraq onu qucaqladı. Çox sayda sualla Aminə müraciət etdi. Sağlamlığını, özünü necə hiss etdiyini, hər şeyin yaxşı olub-olmadığını soruşdu. Cavab almadıqda, başladı şikayət etməyə. Görürsən də, bu boyda çayxanaya gələn yoxdur. Çətin vaxtdır. Heç bilmirəm bu camaat nə istəyir? Şəhəri viranə qoyublar. Ölənlərin sayı-hesabı yoxdur. Benqazinin ancaq adı qalıb, Allah baisin evini yıxsın, əməlli-başlı camaat dolanırdı. Çaşdırdılar bizi, Amin, vallah, çaşdırdılar.

- Musa, qonağım olacaq, hansı otağa keçim?

Aminin Musa deyə çağırdığı çayxana sahibi onu əldən-ayaqdan uzaq, küncdəki otağa ötürdü. Qoy hörmətli qonağı burda hərlənən avaralar və dilənçilər narahat etməsin. Ətraf sakitlik idi. Amin görüşə yarım saat tez gəlmişdi, əmin olmaq istəyirdi ki, onlara heç kəs mane olmasın. Amin həmişə fikirləşirdi ki, insan cəsarətsiz olanda, qorxağa çevrilir. Ömrünün yarıdan çoxunu ingilis kəşfiyyatına işləmişdi. O, çox yaxşı bilirdi ki, fikirdə səhv buraxsan, sözdə də yanlışlıq olur. Sözdə buraxılan səhv, işdə də böyük problemə çevrilir. İşdə buraxılan səhv isə insanı fəlakətə sürükləyir.

Sakitliyi çaydanın pıqqıltısı pozdu. İpə bağlanmış qapaq çaydan qaynadığına görə atılıb-düşürdü. Musa səliqə ilə dəm çaydanına qaynar su tökənə qədər, Amin yerini rahatladı.

Musa nimçənin içində meyvə, qənd və çay gətirdi. Çaydanı ehtiyatla yerə qoyub ehti-yatla pıçıldadı:

- Çin malıdır... Kaşqardan gətiriblər.

Amin gülümsədi. Bu xoşxasiyyət, sədaqətli insan Aminin xoşuna gəlirdi. Amin kimi, tale Musanı da uzaq, yad ellərə atmışdı, lakin sındıra bilməmişdi. Musa milliyyətcə özbək idi. Çayxanada elə söhbət olmazdı ki, Musa Fərqanədən, xüsusən də Kaşqardan danışmasın. Belə vaxtlarda Musanın dodaqlarında həmişə kədərli təbəssüm olardı. O, təbəssümlə nəfəs alar, yorulmadan müştəriləri yaxşı dəm almış çaya qonaq edərdi. Amin çayı yavaş-yavaş içərdi. Bir-iki qurtum alıb sonra fincanı

yerə qoyar və ətrafdakı sakitlikdən feyziyab olardı. Belə sakitlikdə insan keçmişini xatırlamır, sabahkı gün üçün qorxu keçirir. Sabahkı gün necə olacaq? Bu sualı Amin özünə çox vermişdi.

Amin Mustafa ilə gələn qonağa baxırdı. O, heç qonağın adını da bilmirdi. Haradasa bu iti baxışlı qara gözləri görmüşdü. Lakin xatırlaya bilmirdi. Qoca tək bir narazı baxışlarını qonaq-dan yayındırdı. Sonra köhnə parolu yadına salaraq dedi:

- Gecə yaman qaranlıq idi.

- Ona görə ki, duman qatılaşmışdı, - Əli cavab verdi.

Amin heç nə demədən Əliyə baxmaqda davam edirdi. Onun pencəyinin altından 38 ka-librli «Makarov» tipli tapançasının dəstəyi görsənirdi. Hərbi səhra tipində olan pencəyin ya-xalığı açıq idi.

- Sənə nə oldu? - Əli təəccüblə soruşdu.

- Bu pencək mənə tanış gəlir. Vaxtilə mənə də ondan geydirmişdilər. Elə sən yaşda olar-dım.

Amin ayağa qalxaraq qapıya getdi, qapının cəftəsini içəridən bağladıqdan sonra Əliyə dedi:

- Əzizim, əgər sən bilsəydin ki, necə igid oğlanlar ehtiyatsızlıq ucbatından başını itirib, heç bura gəlməzdin.

- Sənə hövsələylə inanıram! - Əli cavab verdi. - Mən səndən bu cür şübhələndiyinə görə incimirəm. Narahat olmağına dəyməz, mən tapançanı qoburunda gizlətmişəm.

- Bu ki, lap əladır. Deyə bilərsənmi adın nədir?

- Əlbəttə! Əbu Müslüm. Bu, əsl adım deyil, ancaq mən ondan çox da istifadə etmirəm. Başqa adla məni burada heç kəs tanımır.

- Əgər belədirsə, Əbu-Müslüm, bura gəlməyinin məqsədini bölüş mənimlə.

- Mən tək deyiləm, buraya üsyançılara kömək etmək üçün gəlmişik. Con sənin ünvanını mənə verib. Dedi, əgər sağdırsa, sənə Qəddafi ordusuna girməyə kömək edər. Mən ordunun zabit və əsgərlərini üsyançıların tərəfinə keçməyə təhrik etməliyəm. Bir də ki, Liviya ordu-sunun paltarını geyinib Qəddafi tərəfdarlarının çox olduğu şəhər və əyalətlərdə təxribat törətməliyik.

- Neynək, qabaqdan mart gəlir, bunu etmək üçün ən əlverişli aydır. Əgər din uğrunda cinayət törədilsə, bu, cinayət sayılmır. Bu, qəhrəmanlıq hesab olunur. Allah və İslam yolunda şəhid olanlar cənnət övladlarıdır. Onlar göylərin qulu olurlar ki, yerdəki qardaşları azad yaşasın.

- Mən sənin haqqında məlumat yığmışam. Mənə dedilər ki, təmiz və vicdanlı adamsan. Con mənə dedi ki, Amin öz borcunu yerinə yetirib. İngiltərə kəşfiyyatı onun sayəsində çox şey qazanıb. Əgər Amin sənə kömək etmək istəməsə, onu məcbur etmə. O, azad adamdır.

- Bunun heç bir əhəmiyyəti yoxdur. Yəqin zarafat edirsən, sənin qarşına elə bir kişi çı-xıb-mı ki, öz keçmişini belə tezliklə unuda bilsin. Fikirləşmirəm ki, sənə inanmaq olar. Lakin bilmirəm sənə nəyi demək

olar, nəyi yox?

- Amin, bizi sizin inqilaba kömək etmək üçün göndəriblər. - Əlinin görkəmi narazılıq hiss etdirirdi: - Bəlkə mən yanılıram, bu heç mənim axtardığım Amin deyilsən?..

- Yanılmırsan! Mən elə sən axtardığın adamam - Amin onun fikirlərini gözlərindən oxu-du. Uzun illərin acı təcrübəsi dadına yetmişdi: - Sən «qrek» Sultanı çoxdan tanıyırsan?

- Mən? - Əli təəccüblə qocaya baxdı: - Hə, çoxdan tanıyıram. Fikirləşirəm ki, bundan heç nə itirməmişəm. Biz birlikdə rus-çeçen müharibəsində döyüşmüşük. İgid oğlan idi.

Amin gülümsədi, üzünün ifadəsindən anlamaq olurdu ki, Amin həyatını karta qoyub. Əgər Əli məsciddə «İncil» tapsa idi, indiki kimi təəccüblənməzdi. Sultanın Aminlə nə əlaqəsi var? Əli birdən ehtiyatlanmağa başladı.

- Məsələ ondadır ki, mən bir müddət «qrek» Sultanla birgə işləmişəm. Əvvəllər o mənim evimdə qalardı. İndi Qəddafi ordusunda zabit işləyir. Eşitdiyimə görə üsyançılara böyük köməklik göstərir. Səni onunla görüşdürərəm, qalanı öz işindir. Sabah axşam Mustafa səni bizə gətirər.

...Onlar çayxanadan çıxanda hava qaralmışdı. Yaxınlıqdakı Benqazi şəhərindən atılan top və mərmi səsləri aydın eşidilirdi. Şəhərin şimal hissəsi od tutub yanırdı.

(yeni səhifədə verilsin)

Pulun alınması xeyli vaxt apardı. Onlar məndən şübhələndikləri üçün qəsdən vaxtı uza-dırdılar. Zahid Dünyamalıyev və Arzu Kazımovla görüşümüz Zahid Dünyamalıyevin Bilqəhdəki istirahət pansionatındakı xidməti otağında baş tutdu. Qardaşım Mahirin qay-tarı-lması üçün veriləcək pulun məbləği barədə razılığa gəldik. Bu prosesdə Zakir Nəsiro-vun qudası, əvvəllər DİN-də işləmiş Ağa Abbasov da iştirak etmişdi. Mahirin qaytarılması ilə bağlı Arzu Kazımov və Zahid Dünyamalıyevlə bütün danışıqlar qurtardıqdan sonra, onun xeyir-duası və Arzu Kazımovun evində gedən məsləhətləşmələrdən sonra məndən qar--daşım Mahirin qaytarılması üçün qohum-əqrəbadan yığdığım ümumi miqdarı üç milyon ABŞ dollarını onlara verdim. Rəsmi qaydada yeddi yüz əlli min ABŞ dollarını Arzu Ka-zımova, qalan hissəsini isə Zahid Dünyamalıyevə onun DİN-dəki xidməti otağında təhvil verdim. Beləliklə üç milyon ABŞ dollarının verilməsi bu qaydada başa çatdı.

Elşad Abdullayevin
istintaqa verdiyi məlumatdan

- Hacı, ilk ödəmələrin dəqiq ünvanını söylə. Zakir Nəsirovun Mahirin qaytarılması üçün pulun məbləğini

beş milyona qaldırmasından sənin xəbərin olubmu?

- Siz yazılan ifadələri oxumursuz? Mən onları tanımıram. Mahiri də mən oğurla-tma-mışdım.

- Mənə müstəntiq deyib ki, Hacının xəbəri olmadan bu qədər pulu onlar ala bilməzdilər. Zakir Nəsirov Hacıdan xəbərsiz belə bir işə qol qoymazdı. Mən bu hadisə ilə bağlı Kürdəmir rayon polisinin Anar adlı müstəntiqinin izahatını almışam. Həmin vaxt DİN-in İstintaq İda-rəsinin sabiq rəisi Zakir Nəsirovun göstərişinə əsasən bu əməliyyatın keçirilməsi üçün Nərimanov rayon Polis İdarəsinin istintaq bölməsinin rəisi və daha iki nəfər DİN əməkdaşı Kürdəmir rayonuna ezam olunubmuş. Onlardan biri Mahirin tələbə yoldaşı olub. Mahiri Kürdəmir polisində görəndə ondan nə üçün burada olduğunu soruşub. Həmin polisin adı Mübariz olub və həmin gündən o da yoxa çıxıb. Onu sənmi oğurlatmışdın?

- Mürsəl, sən ki, hər şeyi bilirsən, məndən niyə soruşursan? Bu hadisələr çoxdan olub. Unutmuşam artıq. Neçə ildir cəzamı çəkirəm. Niyə məni Qobustana göndərmirsiz? Məni burda saxlamaqla heç nə öyrənə bilməyəcəksiz.

- Hacı, özünü ağıllı sayan insan, başqaları ilə hesablaşmır. Nəticədə öz «ağlının» qurbanı olur. Güclülər hər şeyi başa çatdırmağı bacarırlar, onlar sənin kimilərdən daha iradəli olurlar.

- Yarımçıq həqiqət sürüşkən olur, bütöv həqiqət isə dayaqlı. Siz nə qədər özünüzdən uydursanız da, üstünlük

mənim tərəfimdədir. Əgər belə olmasa idi, nə o həqiqətin dəyəri olardı, nə də mənim. Get o uydurduğunuz həqiqəti başqa yerdə axtar. Mən bildiklərimin hamısını demişəm.

- Sən haqlısan, Hacı, alçaqlıq əyninə geyilən paltar kimidir. Çox geydikcə, ona öyrə-şir-sən. Lakin bir gün gəlir ki, daha o paltarlar lazım olmur. Çılpaq qalanda nə qədər eybəcər olduğun görsənir. Bax, onda əsl həqiqət ortaya çıxır. O vaxta qədər də sən burada, təcrid-xanada çürüyəcəksən. Seçim sənindir...

...Milli Təhlükəsizlik Nazirliyinin İstintaq Təcridxanasında saxlanılan sabiq baş əmə-liyyat müvəkkili Hacı Məmmədov Qobustan Qapalı Həbsxanasına köçürülməsi tələbi ilə əvvəl ölüm aclığına başladı.

Hacı Məmmədov 2005-ci ilin martında həbsə alınandan sonra ilk dəfə idi ki, Qobustana köçürülməsi tələbi ilə çıxış etmişdi. O günə qədər vaxtında təcridxananın təlimatına uyğun qaydada gəzintiyə çıxır, gündəlik mətbuatla tanış olurdu. Hacı Məmmədov məhkəmədən sonra gözlədiyinin əksinə olaraq, Qobustan Qapalı Həbsxanasına köçürülmədi. Qanuna görə, heç bir məhbus öz istəyi ilə istintaq təcridxanasında saxlanıla bilməz. Lakin altı il idi ki, Ha-cı Məmmədov heç bir əsas olmadan orada saxlanılırdı. «İllərdir onu orada qanunsuz saxlayırlar. Qanun buna imkan vermir. Onu Qobustana çoxdan göndərməli idilər». Zakir Nəsirovun dediyi kimi,

görünməz əllər hələ də Hacıya kömək edirdi.

Hacı Məmmədovun MTN-də saxlanılması, onu daim nəzarətdə saxlamaq məqsədi güdürdü. Hacı Məmmədov çoxlu sirləri özündə gizlətdiyi üçün, onu bir an belə gözdən qoymaq istəmirdilər. Hacının dediyinə görə, azadlıqda onun dəstəsindən daha qorxulu bir dəstə vardı. Heç şübhəsiz ki, bu dəstənin himayədarlarının sirləri açılmasın deyə, Hacı Məmmədovu nəzarət altında saxlayırdılar. Mürsəl bütün bunları yaxşı başa düşürdü. Mürsəl onu da bilirdi ki, Hacı üçün ən təhlükəsiz yer MTN-in təcridxanasıdır. Hacı özü Mürsələ demişdi ki, Qobustana köçürülmək istəmir. «Əgər ora köçürülsəm, həyatıma təhlükə olacaq. Mənim üçün elə ən təhlükəsiz yer MTN-nin təcridxanasıdır».

Lakin Hacı bunu çoxdan demişdi. İndi vəziyyət də, şərait də dəyişilmişdi. Hacı özü də başa düşürdü ki, artıq danışmağın vaxtıdır. Ancaq Hacı onu da başa düşürdü ki, səxavətli olmaq asandır, həqiqəti qəbul etmək çətin. Hacı o qədər də iradəli adam deyildi. Zəif xarakterli insanlar sədaqətli ola bilməzlər. Çünki onları başqaları idarə edir. Belə insan-lar qanunu qəbul etmirlər. Qanun o adamlar üçün önəmli deyil, onlarda vicdan olmur. Lakin bununla belə Hacı çox böyük dirəniş göstərirdi.

Hacı təcridxanada vaxtını boş keçirmirdi. Şəkil çəkir, şeir yazırdı. Çox vaxt isə kitab oxuyurdu. O, hesab edirdi ki, kitabsız insan həyatı boş və mənasızdır. Kitab ömrü boyu insanı müşahidə edən peyk kimidir. Ona hansı tərəfdən baxırsan bax, özünü görəcəksən. Mürsəl

pəncərədən aralanıb Hacıya yaxınlaşdı. Hacı mürgüləyirdi, amma gözləri açıq idi. Mürsəlin yaxınlaşmasını görüb başını dikəltdi.

- Hacı, insan həyatı qısadır, boş vaxtımız isə çox azdır. Bizim kimilər vaxtlarının çoxunu işə sərf edir. Sən isə bizə kömək etmək əvəzinə kitab oxuyursan. Mən kitab oxumağın əley-hinə deyiləm, mütaliə yaxşıdır. Xüsusən də detektiv kitabları. Bəzən hadisələri yazıçı bizdən tez qabaqlayır. Şəxsən mən detektiv kitablardan çox şey öyrənmişəm.

- Hə, əlbəttə, sənədli olanda, daha maraqlı oxunur.

Mürsəl siyirtməni açıb oradan qalın bir kitab çıxardı:

- Hacı, sənin haqqında detektiv roman yazılıb. Maraqlı adı var, «Ələkeçməzlər». Bu kitabda həqiqətən də yazıçı çox şeydə bizi qabaqlayıb. Hətta məhkəmə vaxtı onun bir il əvvəl verdiyi proqnozlar da özünü doğrultdu. Bu o deməkdir ki, sənin gizlətdiyin sirlər gec-tez açılacaq. Bəlkə o faktları yazıçıya sən vermisən? Ona görə səni daha çox «tərifləyir?»

- Sən boşluğa düşən adam kimi danışırsan. İnsan boşluğa o vaxt düşür ki, bütün ümid-lərini məhv edir. Ümid insanın dayağıdır. Həmişə ona söykənmək olar. Bəlkə də sən haq-lısan, cidanı çuvalda gizlətmək olmaz. Zaman özü hər şeyi həll edəcək.

- Axı niyə hər şeyi zamanın öhdəsinə buraxaq. Deyə bilərsənmi sən nə istəyirsən? - Mürsəl səsinin tonunu qaldırdı: - Cavab versənə?

- Mən istəyirəm ki, camaat günahkarın kim olduğunu,

qətllərin dalında kimin durduğunu bilsin. Mən heç nədən qorxmuram, sadəcə, zamanın yetişməyini gözləyirəm.

Əslində, Hacı düz deyirdi. Elə Söhrab Ramil Nağıyevin qovluğunu Mürsələ verəndə də bu-nu demişdi. Məhkəmə iclasında təqsirləndirilən şəxs qismində dindirilən Hacı Məmmədov ona elan olunmuş ittihamlarda özünü təqsirkar bilsə də, çox şeyləri məhkəmədən gizlətmiş, yalan ifadələr vermişdi. O, 1977-ci ildən polis orqanlarında çalışmış, DİN-nin Baş Axtarış İdarəsinin baş əməliyyat müvəkkili işləmişdi. Onun iştirak etdiyi cinayətlərdən yalnız üçü onun və Hüseyn Abdullayevin başçılıq etdiyi ayrı-ayrı dəstə tərəfindən, birlikdə törədil-mişdi. Bu cinayətlərdən biri Nazim Paşayev və onun sürücüsünün oğurlanması əməliyyatıydı. Onlar üçü birlikdə, Hacı, Şirxan və Hüseyn razılığa gələrək bu cinayəti törətmişdir. Lakin Hacı bu cinayətin törədilməsini etiraf etsə də, səmimi olmamış, ən mühüm detalları istin-taqdan gizlətmişdi. Hacı, uzun illər istintaq orqanlarında çalışdığına görə, məharətlə maskalana bilirdi.

Hacı qəddarlığı ilə də başqalarından seçilirdi. O çox ehtiyatla hərəkət edirdi. Oğurlaya-cağı, yaxud öldürəcəyi adam haqqında dəstənin üzvlərinə heç nə demir, çalışırdı ki, onları fakt qarşısında qoysun. Söhbət zamanı Mehman ona demişdi ki, onlara verdiyi pasportu Saray kənd qəbirstanlığında işləyən Novruz İsmayılovdan götürmüşdür. Bundan sonra «İşini ehtiyatlı

tut ki, qonşunu oğru bilməyəsən!» - zərb məsəlini Hacı ehtiyat variantı kimi qəbul etmişdi. Malikə tapşırmışdı ki, Mehmanı götürüb Qusara getsinlər. «Qarabulaq» İstirahət Mərkəzində Mehmanla söhbət edərkən o, etiraf etmişdi ki, həqiqətən də pasportu Novruzdan yeyib-içdikləri zaman almışdır. Hacı özündə olan «PSM» markalı tapançadan Mehmana 2-3 dəfə atəş açmış və aldığı güllə yaralarından Mehman çalaya yıxılmışdı. Sonra Malikə tapşırmışdı ki, çalaya torpaq töküb meyiti basdırsın. Dəstə üzvlərini qorxutmaq və özünü təs-diqləmək üçün Hacı çox vaxt bu üsuldan istifadə edirdi.

Mürsəl bu kiçik epizodu xatırla-maq-la, Hacının içərisində yatan, zamanını gözləyən onlarla cinayətin nə vaxt açılacağı bəlli olma-yan, o zamanın gələcəyinə ümid edirdi. Telefonunun zil səsi onu olduğu gerçəkliyə qay-tardı. O, ağır addımlarla yaxınlaşıb şifrəli qara telefonun dəstəyini götürdü...

***

...Meyiti yanvarın 26-da tapdılar. Soyundurulmuş qadının cəsədini, Novxanı kəndinə ge-dən yolun alt tərəfindəki «Duzlu göl»ə atmışdılar. Qadının ayaqları və bədəninin aşağı his-sələri şor suyun içərisində idi. Elə ilk baxışdan Rizvanın diqqətini çox vacib olan bir detal cəlb etdi. Gölə sarı gedən kişi idman çəkməsinin ləpirləri torpağa batmışdı, göldən sahilə gedən ləpirlər

isə yerin səthində idi. Rizvanın göstərişilə ləpirlərin əksini əməliyyat eksperti çıxar-dı.

- Cənab kapitan, çox güman ki, qatil gölə sarı gedəndə əlində ağır yük olub, ona görə də ləpirlər dərinə işləyib. Hər iki ləpir eyni çəkmələrə aiddir.

Qatil gedəcəyi yolu əvvəlcədən yoxlamış, ətrafı və «Duzlu göl»ü bir neçə dəfə ziyarət etmiş, hər şeyin sakitliklə həll olunacağına tam əmin olduqdan sonra, qadını bura gətirib. Məqsəd aydın olmasa da, əməliyyat müstəntiqi belə hesab edirdi ki, bu, qisas faktı ola bilər.

Müstəntiq çalışırdı ki, cinayətkarın psixoloji portretini yaratsın. O, güman edirdi ki, qatil fiziki cəhətdən güclü, möhkəm iradəli adam olmuşdu. Rizvan meyiti məhkəmə - tibbi eks-pertiziyaya göndərdikdən sonra iş yerinə qayıtdı.

***

- Aygün, bu sənsən?

- Hə, mənəm. Sözünü de.

- Bazar ertəsinə mənə münasibətini bildir. Danışığımız qüvvədə qalır, yoxsa...

- Mən çalışacağam. Lakin dəqiq heç nə deyə bilmərəm. Günün yarısını şöbədə keçi-rirəm. İndi işə gedirəm. Məlum deyil orada nə qədər qalacağam.

- Mənim sənədlərimi qaydaya sala bildinmi?

- Bu gün vəkillə görüşəcəyəm. Buna mənim çoxlu vaxtım gedir. Çalışaram bazar ertə-sinə qədər həll edim.

- Bir ildir məni aldadırsan. Sən başa düşürsən? Artıq

səbrim tükənib. Məgər bu, düz hərəkətdir. Bu insanlıqdan deyil axı?

- Sən mənə mənəviyyatdan dərs demə. Mən bunu hər gün eşidirəm. Yüzlərlə adam mənə etikadan danışır. Artıq cana doymuşam, heç reaksiya da vermirəm...

Lentə yazılmış bu danışıq iş adamı Elmarın və daşınmaz əmlakın alqı-satqısı ilə məşğul olan Aygünün səsi idi. Yasamal rayon Polis bölməsində Aygünün işi ilə çoxdan maraqla-nır-dılar. Aygün gözaltına götürülmüşdü. Əslində Aygün daşınmaz əmlakın alqı-satqısı əvəzinə dələduzluqla məşğul idi. «Şərəf və vicdan əkiz qardaşlar kimidir», - Rizvan belə düşünürdü. Şərəfsiz adamda vicdan, vicdansız adamda şərəf olmur. Rizvanın göstərişi ilə Aygünün işini araşdıran polis müvəkkilləri maraqlı hadisələrlə qarşılaşmışdılar. Aydın olmuşdu ki, 30 yaşlı bu qadın tənha qoca kişi və qadınları mənzil istismar idarəsinin əməkdaşları vasitəsi ilə tapır, əvvəl onların etimadını qazanmaq üçün yardım edir, sonra müxtəlif üsullardan istifadə edərək, evlərini satırdı. Polisə aydın oldu ki, Aygün insanların etimadını necə qazanır. Aldadılmış qarılardan biri sonralar polisə demişdi:

- O qadın məni aldadırdı.

- «Babulya», sən mənə qulaq as. Vicdansız adamlar səni aldada bilər.

Yanındakı qoca kişini göstərirdi:

- Bax, elə sənin yaşındadır. Az qalmışdı evini də, pulunu da itirsin. Ona mən kömək elədim, evini də

pulunu da geri qaytardım. Bax, bu pullar onunkudur, - bir dəstə pulu qocaya verirdi.

- Ən xırda qəpiyinə kimi buradadır.

Bu cür əməliyyatları Aygün dəfələrlə təkrar edirdi. Alıcıları aldadaraq pullarını alır, guya ki, satılan evləri onlara göstərir və aradan çıxırdı. Polislərin telefon danışıqlarını lentə yazdıqları Elmarı da bu üsulla aldadaraq küllü miqdarda pulunu almışdı. Elmar polisə yazılı məlumat vermişdi. Müstəntiq cinayət işi açsa da, sonradan tutarlı «faktların» olmamasını bə-hanə gətirmiş, Aygünə yalnız xəbərdarlıq edərək, cinayət işini bağlamışdı.

Aylar ötdükcə, Malikin səbri tükənirdi. Özü iş adamı ola-ola, bir qadının onu aldatmasına dözə bilmirdi. Vaxtilə onların arasında isti münasibət olmuşdu. Bundan istifadə edən Aygün ondan 100 min ABŞ dolları almışdı. İki ildən çox idi ki, Malik pulunu geri ala bilmirdi. Aygünün ona verdiyi bütün vədlər boşa çıxandan sonra, Malik ona bir də zəng vurdu.

Aygün ona: - Bir də məni narahat etsən, özündən küs, - dedi.

Aygün tez-tez iş yerini və ünvanını dəyişdiyi üçün, bir müddət Malik onu tapa bilmədi.

Malik sonralar istintaqa izahat verərkən, Rizvan ondan soruşdu.

- Səni tanıyanlar ağıllı olduğunu deyirlər. Ağıllı adamlar həmişə ölçüyə gəlməyən im-kanları qabaqcadan görürlər. Axmaqlar isə əl altda olan, indiki

hal üçün imkanları seçirlər. Sən niyə ikincini seçdin?

- Mən axmaq hərəkət etdiyimi cinayəti törətdikdən sonra başa düşdüm. Öz axmaqlığını başa düşən şəxs, artıq axmaq deyil. Ən azı ona görə ki, düşünmə qabiliyyəti var. Mən Aygünü «Duzlu göl»ə ona görə aparmışdım ki, öldürəm. Bilirdim ki, bu, asan olmayacaq. Aygünlə mənim yaxınlığım vardı. Ancaq o məndən pulu alandan sonra uzaqlaşdı. O mənə bu pulun əvəzinə şəhərin mərkəzində üçotaqlı mənzil söz vermişdi. Lakin elə olmadı, sonralar mənimlə əlaqəsini kəsdi. İş yerini tapıb onu izlədim. Bu gün qabağını kəsib pulumu istədim. Aygün, sadəcə olaraq, dönüb gedə bilərdi. Lakin o bunu etmədi, səs-küy salıb mənə ordan rədd olub getməyimi dedi.

Malikin sözləri Rizvana çox inandırıcı göründü. Malik deyəsən, düz danışırdı. Aygünün telefonu nəzarətdə idi və vaxtaşırı onun bütün söhbətlərinə qulaq asırdılar. Rizvan belə söhbətlərdən birini xatırladı. Aygün telefonda Malikə hədə-qorxu gəlirdi: «Mənim şəhərdə başkəsən dostlarım var. Əgər şəhərdən çıxıb getməsən, başını itirə bilərsən. Sən mənə evlənməyi vəd etmişdin, amma bunu etmədin. Mən də sənə aldığım evi öz adıma qeydiyyatdan keçirmişəm. Məni qeydiyyata saldığın evi isə satmışam. Əgər başını qorumaq istəyirsənsə, bu gecə vağ-zalda yat!»

Bu Aygünün ona axırıncı sözü oldu. Əldən getmiş pullar, itirilmiş evlər vəziyyəti kritik hala gətirmişdi. Aygün bütün körpüləri yandırdığı üçün geriyə yol

qoymamışdı.

- Mən bir anda Aygünün boğazından yapışdım. Qaranlıq olduğundan o məni tanımadı. Aygün yalvarmağa çalışsa da, ona rəhm etmədim. Meyiti «Duzlu gölə» atdıqdan sonra geriyə, şəhərə qayıtdım. Səhərisi gün polisə gəlib əhvalatı olduğu kimi danışdım.

- Peşman olmusanmı?

- Xeyr! O qadın ki, axıra kimi qadın olaraq qalır, böyük sərvət olur. Nə vaxt ki, qadın özünü kişi kimi aparır, dələduzluqla məşğul olur, o qadın kimi qiymətdən düşür. Belələri gec-tez kiminsə əlində ölür.

***

Ağır cinayət işləri üzrə şəhər məhkəməsi səhər tezdən başladı. Aygünün aldatdığı onlarla şahid məhkəmədə öz sözünü dedi. Bu insanların dələduzluq, aldatma və şantaj yolu ilə pulları, evləri əllərindən alınmışdı.

Məhkəmədə ömrünün payızını yaşayan, ağsaçlı qadın çıxışında dedi:

- Bu gün mən çox kədərliyəm. Ona görə ki, onlarla aldadılmış insanların qisasını almış bu cavan oğlan mühakimə olunur. Lakin o, Aygünü öldürməklə çox adamları xilas etdi. Mən öldürülmüş qadına insan deməyə dilim gəlmir. O, canavar kimi yırtıcı və qəddar idi. İndi məhkəmə qarşısında oturan bu cavan oğlan cinayətkar deyil, əsl cinayətkar öldürülən qadın idi. O cani kimsəsiz, köməksiz adamları aldadaraq, onların

axırıncı ümidlərini də əllərin-dən alırdı. Biz aldanmışlar dəfələrlə polisə müraciət etsək də, onlar bizim səsimizi eşit-mə-dilər. Hətta hüquq müdafiəçilərinin də edə bilmədiyini bu cavan oğlan etdi. Cinayətlərin davam etmə-sinə son qoydu. O qızın bu torpağın üstündə yeriməsi belə günah idi. Əgər bu cavan oğlan onu öldürməsəydi, bu qadın onun özünü öldürtdürəcəkdi.

Uzun illər dövlət quluqçusu olmuş bu ağsaçlı qadının çıxışı Malikin müdafiəsinə yönəl-mişdi. Qadın həqiqəti danışırdı. İnsanlara bir daha xatırladırdı ki, hələ də aramızda çoxlu mənə-viyyatsız, dələduz adamlar yaşayır. Onlardan özünüzü qorumaq üçün laqeydlikdən əl çəkin, ətrafınızda baş verənlərə nəzər salın, insan aldandığı fikirlə heç cürə barışa bilmir, hətta həyat təcrübəsi varsa belə, mənliyinin kimsə tərəfindən tapdalanmasına dözmür. Nə qədər kədərli olsa da, Aygünün ölümü onun aldatdığı insanlara bir qədər rahatlıq gətirə bildi. Onlar hər şeylərini itirmiş adamlar idi.

Rizvan məhkəmə zalından çıxanda kiminsə: - Heyif bu cavan oğlandan. Onsuz da məhkəmə itirilmiş pulları tapa bilmədi. Bu sirri Aygün özü ilə birlikdə torpağa basdırdı, - dediyini eşitdi.

Rizvan ona haqq qazandırdı: «Əgər dünyada bir nəfər dələduz yaşayırsa, sakit yaşamaq və xoşbəxt olmaq mümkün deyil», - ürəyində fikirləşdi.

***

Süsən arxasını eyvanın pəncərəsinə söykəyərək Əlinin bağçasına baxırdı. Ağ qızılgüllər o qədər təravətli idi ki, Süsən özü-özündən şübhələnirdi. Bir vaxtlar Süsən heç də bu ağ qızılgüllərdən seçilmirdi. Ərinin əkdiyi bu güllər kimi həmişə təravətli olardı. Zaman keç-dikdən sonra Süsən özünü bu güllərlə daha tez-tez müqayisə edirdi. Həmişə də üstünlüyü ağ qızılgüllərə verirdi. Süsən fikirləşirdi ki, məhəbbət qızılgülün kolları kimidir. Əkirsən bitir, dərin köklər atır, həyatı boyu başlayır çiçəkləməyə. Bu yaşıl budaqlar hətta bizim ürəyimizdə də bitir. Gəncliyində hansısa bir kitabdan oxuduğu bu cümlələr indi onu narahat etməyə baş-la-mışdı. İnsan ağac deyil ki, yarpaqlarını töksə belə yaşaya bilsin. Ağacla insanın fərqi ondadır ki, hər il yaz gələndə ağaclar yenidən çiçəkləyərək yaşıl yarpaqlardan don geyir. İnsan isə bunu bacarmır. İnsanın yarpaq tökümü başlayanda ömrün payızı da onunla birgə başlayır. Lakin adam hər yaşda sevə bilir. Sevgi ölümdən də, qorxudan da güclüdür. Süsən fikirləşirdi ki, insan sevginin sayəsində özünü tanıyır, püxtələşir və irəli gedir: «Bəlkə xoş-bəxtlik elə budur? Axı niyə bu xoşbəxtliyi mənim əlimdən alırlar?»

Süsən fəlsəfə elmini çox sevirdi. O, artıq həyatda baş verənləri başa düşür, hər şeyə fəlsə-fənin gözü ilə baxırdı. Tez-tez özü-özünə sual verirdi: necə olur ki, bəzən insanlar sevinir və ya kədərlənir? Biz nə üçün qəzəblənirik? Görəsən heç ömründə sevinməyən və ya kədər-lənməyən insan varmı? Doğrudanmı, qadın

bağçada bitən balaca güldür, güclü külək əsəndə ondan iz də qalmır? Süsən bununla razılaşmırdı, o, nə qədər balaca gül olsa da, heç vaxt «küləyin» qarşısında aciz qalmamışdı. Əli ilə tanışlığı Süsənə çox şey öyrətmişdi. O, Əli üçün yaman darıxırdı. Əlidən ayrı yaşadığı günlərdə Süsənin həyatı ulduzları sönmüş gecəyə bənzəyirdi. Gecə öz qara pərdəsini ətrafa səpəndə, o bunu daha çox hiss edirdi...

Elizabetin gəlməsi Süsənin beynində yaranmış saysız-hesabsız fikirlərin ipini qıraraq onu seyrəltdi. Elizabet Süsənin yanında oturaraq onun göyərçin qanadına oxşayan əlindən tutdu.

- Həqiqətə olduğu kimi yox, göründüyü kimi baxmağı öyrən. Uğursuz şeytan Allahın məkanından qovulsa da, hələ də yer üzünü dolaşmaqdadır. Çalış ürəyini çalmasın. Özünü çox da üzmə, qızlarını düşün. Emosiyaya uyma, hisslərini cilovlamağı öyrən. Hər şey yaxşı ola-caq. Əlini Liviyaya sən göndərməmisən. Con deyir ki, Çesterdən onlarca oğlan  azadlıqları uğrunda mübarizəyə qalxan Liviya xalqına köməyə gedib. İnsan çox mürəkkəb həyat şərai-tinə malikdir. O, ətraf aləmi və təbiəti, cəmiyyət üzvləri arasındakı qarşılıqlı münasibətləri dərk etməklə kifayətlənmir. Eyni ilə dövlətlər arasında münasibətlərdə də belə olur. Dövlət başçısı öz fəaliyyəti dövründə ayrı-ayrı ölkələrlə, dövlətlərlə, eləcə də xarici aləmlə, müxtəlif xalqlarla ilə münasibətlər qurmağa çalışır. Əlbəttə, bu, ayrı-ayrı ölkədən də asılıdır. Biz ingilislər demokratik və güclü

bir ölkədə yaşayırıq. Liviyada baş verənlərə, bu hadisələr vaxtı günahsız ölən insanlara laqeyd qala bilmərik. Orda Liviya xalqının qanı axır. Niyəsi hamıya məlumdur. XXI əsrin insanları diktatura rejimində yaşamaq istəmir. Azad, müstəqil, demokratik bir ölkədə yaşamaq onların haqqıdır. Bu insanlar dünyaya ərəb «baharı»nı gətir-dilər. Azadlıq o adamlara verilir ki, onlar azadlıq istəyir. O, Allah vergisi deyil. Bu, hər bir xalqın içində olan rüşeyimdir. O, ancaq mübarizələrdə cücərib, inkişaf edir.

Süsən Elizabetə heyranlıqla qulaq asırdı. Elə bil onun hər sözünü, hər kəlməsini havada tutmaq istəyirdi.

- Axı azadlıq insanların qanı ilə suvarılan torpaqlarda barıt iyi verir. Bu günahdır: - Süsən yaşarmış gözlərini Elizabetdən yayındırdı. - Allah buna necə icazə verir, yaratdığı bəndələrinin canına necə qıyır?

- Sən yanılırsan, Süsən, ən böyük günah azadlığın insanın əlindən alınmasıdır. Yaramaz hökmdarda vicdanı oyatmaq üçün ona özü kimi yaramazın törətdiyi əməlləri göstərmək lazımdır. Bunsuz nəinki insanlar, xalqlar, heç ölkələr də xoşbəxt ola bilməz.

...Hava qaralmışdı, söhbət maraqlı olduğundan, vaxtın necə keçdiyindən xəbərləri olmamışdı.

- Bağışlayın, siz Allah, - Süsən ayağa durmağa çalışdı, - qəhvə hazırlamağı unutmuşam.

Elizabet onu durmağa qoymadı.

- Lazım deyil, mən indi gedirəm. Conun işdən gələn vaxtıdır.

...Səba əlindəki qalın dəftəri vərəqləyə-vərəqləyə onlara çatıb: - Xoş gəldin, Elizabet xala! - dedi. Sonra təəccüblə Süsənə baxdı. - Anam sizi qəhvəyə qonaq etməyib?

- Eybi yox, sonra içərik.

Elizabet gülümsədi, dəftərə işarə edərək soruşdu:

- Əlindəki dəftəri bir mənə ver!

- Elizabet xala, burada yazılanların çoxunu başa düşə bilmirəm. Görün nə yazılıb: Eyni bir cism, oxşar bir hadisə müxtəlif adamlarda, fərqli hisslər törədə bilər. Bu, necə ola bilər axı?

Elizabet dəftəri Səbadan alıb vərəqlədi. Bir neçə səhifə oxuduqdan sonra onu qıza qaytardı:

- Bu çox sadə məsələdir, ananla elə bu cür hadisələrdən danışırdıq. Müəllim tamam doğru deyir. Hisslərin mənbəyi xarici obyektiv aləm olsa da, ancaq hər cür cism və ya hadisə insanda lazımı hissi doğurur. Həm də onlar həmişə eyni qüvvədə hiss yarada bilmir. Buna görə də eyni cism, oxşar hadisə müxtəlif adamlarda, fərqli hisslər törədə bilir.

- Elizabet xala düz deyir. Hisslər müxtəlif adamların bir-birinə olan münasibətləri ilə bağlıdır. Bu münasibətlər müxtəlif formada ola bilər. Bunu nəzərə alsaq, hiss ilə emosiya insanın fikir və arzusuna bəslədiyi münasibəti ifadə edən psixi prosesdir.

Bütün bu proseslər təbiətlə bağlıdır. İnsan da təbiətin bir parçası olduğu üçün onun sifəti çox şey deyir. Maraqlısı odur ki, ən müqəddəs duyğular ürəkdə

yerləşdiyi halda, ürək ancaq fikirlərin inikasıdır. Sifət isə çox vaxt təbiətin fikirlərini özündə əks etdirir...

Nigarın qaça-qaça gəlməsi söhbəti yarımçıq qoydu:

- Ana, bu məktubu bir əmi verdi, dedi ki, anana verərsən.

- Yaxşı qızım, siz gedin dərslərinizi hazırlayın, mən də Elizabet xalanı yola salıb gəlirəm.

Artıq küçə işıqları yandırılsa da, qatı duman içərisindən işartıları güclə sezilirdi. Duman yavaş-yavaş evlərin həyətinə, bağçalara dolur, onsuz da qaranlıq olan havanı daha da qa-tılaşdırırdı. Süsən elə əvvəlki kimi belini sütuna söykəyərək eyvanda oturmuşdu. Gözlərini qaranlıq boşluqlara zilləsə də, məktub tutan əli titrəyirdi. Məktubun Əlidən olduğunu bilsə də, onu açmağa ürək eləmirdi. Süsən həyatın ən böyük sevincini də, ən böyük kədərini də Əli ilə dostluqdan sonra yaşamışdı. Onu itirməkdən yaman qorxurdu.

***

Ərazisinin çox hissəsi səhra və yarımsəhra olan Liviya, Aralıq dənizi vasitəsilə böyük dənizlərə çıxır. Neft, qaz və duz ixrac edən Liviyanın daimi axarlı çayları yoxdur. Lakin yeraltı su ehtiyatları ilə zəngindir. Əhalisinin böyük əksəriyyəti 1978-ci ilə qədər liviyalı olmuş, sonradan bura köç edən qəbilələrin sayəsində dəyişmişdir. Əhalisinin əksəriyyəti ticarət və sənətkarlıqla dolanır, dövlət orqanlarında çalışan və

hərbidə qulluq edənlər isə daha çoxdur. Köçəri həyat sürənlər də var. Əhalisinin əhəmiyyətli hissəsi ən böyük şəhərlərdə - Tripoli və Benqazidə yaşayır. Tripoli yunan sözü olan tripolitaniyadan götürülmüşdür. Mənası üç şəhər deməkdir. Yeddinci əsrdə Liviyanın şimalında yunan şəhər - koloniyaları salınıb. Beşinci əsrin ortalarında Liviyanın xeyli hissəsi Karfagenin hakimiyyəti altına keçir. Eramızdan əvvəl altıncı əsrin sonu - beşinci əsrin əvvəllərində Liviya Əhəmənilər, sonra isə Makedoniyalı İsgəndərin əlinə keçir. Karfagenin süqutundan sonra Liviyanı romalılar, beşinci əsrin ortalarında vandallar işğal edir və altıncı əsrdə Bizansın tərkibinə daxil edilir. Ancaq bu çox çəkmir. Liviya yeddinci əsrin əvvəllərində ərəblər tərəfindən ərəb xilafətinə qatılır.

Sonralar Liviya ərazisi tam və yaxud qismən Misir və Tunisdə hakimiyyətdə olan müsəlman sülaləsinin tabeliyinə keçir. Bu dövrdə ərəb tayfalarının kütləvi surətdə Liviyaya köçürülməsi yerli əhalinin ərəbləşməsinə səbəb oldu. Ölkədə İslam dini yayıldı. On altıncı əsrdə Liviya Osmanlı imperiyasına qatıldı. 1835-ci ildə türklər Liviyada hökmranlığa başladı-lar. 1911-ci ildə İtaliya Liviyanı ələ keçirmək üçün türklərlə müharibəyə başladı. Bu müharibə nəticəsində Liviya İtaliyanın nəzarəti altına keçdi. Yerli əhali onlara inadla müqavimət göstərirdi. 1914-1918-ci il müharibəsi dövrü İtaliya qoşunlarının çox hissəsini Liviyadan çıxarmağa məcbur oldu. Xums, Trablis və Benqazi şəhərləri

İtaliyanın tabeliyində qaldı. Faşistlərin hakimiyyətə gəlməsi ilə Liviya xalqı kütləvi qırğınlara məruz qaldı. Təkcə bir şəhərdə dörd min nəfər adam edam edildi. 100 min insan ölkəsini tərk edərək didərgin salındı. Almaniyanın köməyi ilə İtaliya Liviyanı yenidən işğal etdi.

1969-cu il sentyabrın birində Qəddafinin başçılığı ilə dövlət çevrilişi nəticəsində monarxiya devrildi və Liviya Respublikası elan edildi. Qəddafinin hakimiyyətə gəlməsi ilə 1970-ci ildə ölkədəki xarici bazalar ləğv edildi. 1977-ci ildə Qəddafi ölkədə xalq haki-miyyətinin yaradıldığını elan etsə də, əslində monarxiya diktatura ilə əvəzləndi. Qəddafinin 46 illik hakimiyyətindən sonra, Tunis və Misirdə başlayan «ərəb baharı» inqilabı 2011-ci ildə Liviyaya da gəlib çatdı. Liviya xalqı diktatora qarşı üsyan etdi...

...Əlinin Liviyaya gəldiyi gündən iki ay keçmişdi. Əli hər keçən gün, ölkədə yeni-yeni kütləvi məzarlıqların şahidi olurdu. Neçə adamın həyatını itirdiyini müəyyənləşdirmək müm-kün deyildi. Üsyançılar kəndbəkənd, şəhərbəşəhər irəliləyirdilər. Əlinin əldə etdiyi gizli səi-nədlərdən görünürdü ki, Qəddafi dünyadakı bütün terror təşkilatlarını dəstəkləyirmiş.

Onun İngiltərə məxfi kəşfiyyat orqanına göndərdiyi sənədlərdən aydın olurdu ki, Afrikadakı müxtəlif vətəndaş müharibələrinin arxasında çox vaxt Qəddafi dayanırmış. Sudanın bölünməsini də o təmin edib. Ölkədəki qarşıdurmada hər iki tərəfə dəstək verərək,

tərəfləri bir-birinə qarşı qaldırmışdı. Əli özgələrinin qanına bulaşmış Qəddafi indi də öz xalqını qızışdıraraq iki yerə bölmüşdü. Qəddafi tərəfdarları ilə azadlıq mücahidləri arasında qanlı toqquşmalar nəticəsində yüzlərlə, minlərlə liviyalı öz soydaşını şəhid edirdi.

Ərəb dünyası və NATO-ya üzv olan Avropa ölkələri Liviya inqilabına köməklik göstərdiyi halda, Rusiya Qəddafinin tərəfində dayan-mışdı. Rusiya könüllü dəstələrlə bərabər, vaxtilə Kosovaya, Belqrada və Macarıstana göndərdiyi sarı «pərvanə»lərini indi də Liviyaya göndərmişdi. Bədən biznesi ilə məşğul olan marusiyalar vasitəsilə Rusiya bir güllə ilə iki dovşan vurmaq istəyirdi. Əksəriyyəti Rusiya Təhlükəsizlik İdarəsinin casusları olan sarı «pərvanə»lərin köməkliyi ilə Qəddafi ordusundakı zabitləri ələ almaq və xaricdən gətirilmiş muzdlu döyüşçüləri həvəsləndirmək idi. Ağız-la-rının suyu axan qaradərili muzdlu döyüşçülərin içərisinə girən sarı «pərvanə»lər axşamlar eşidilən atışma səsinə bir intim iniltilər də əlavə edirdilər.

Marusiyalar öz şövinistliklərindən də qalmırdılar. Onlar üsyançı livan qadınlarını vəhşi-cəsinə döyürdülər. «İndi bilərsiniz, NATO-ya tərəf çıxmağın axırı nə olur!» - deyərək, onları saçlayıb itti-ham edirdilər.

Əli topladığı məxfi sənədlərdə Rusiyanın sarı «pərvanə»ləri haqqında da ingilis kəşfiy-yatına məlumatlar ötürmüşdü.

Əli sarı «pərvanə»lərdən biri ilə Süleymanın vasitəsi ilə tanış olmuşdu. Marina adlı bu «pərvanə» Qəddafinin

«amazonka»larının içinə girə bilmişdi. Bu qızın vasitəsilə Əli Qəddafinin Liviya daxilində hərəkətini, hansı gün, hansı iqamətgahda, yeraltı bunker və ya hansı sarayda olduğunu dəqiqləşdirirdi. Əlinin göndərdiyi məlumatın koordinatları əsasında ingilis təyyarələri raketlə çox asan həmin obyektləri vura bilirdi.

Əli başa düşürdü ki, insan mələk olmadığı kimi, heyvan da deyil. O vaxt ki, insan mələk olmağa can atır, tədricən heyvana çevrilir. Qəlbini şeytana verəndən sonra ancaq pis işlər görür. Qəddafi də hakimiyyətinin ilk illərində mələk olmaq istəyirdi, bu istək çoxal-dıqca, qorxulu heyvana çevrildi. Ən qorxulusu da bu idi ki, hakimiyyəti möhkəmləndirmək üçün şeytanı köməyə çağırdı. O, kirli milçək kimi hakimiyyətinin divarlarını murdarlayırdı.

Qəddafinin uzun illər boyu yığdığı var-dövlətini itirməsi qorxulu deyildi. Qorxulu o idi ki, Qəddafi diktatorluğunu qorumaq üçün vicdanını və ləyaqətini də itirirdi. O, Liviyanın təbii sərvətlərindən əldə etdiyi milyardları xalqından gizlədirdi. Oğurladığı pulların hesabına Nigeriyadan qara dərili başkəsən quldurları Liviyaya gətirmişdi. Oğruların ən axmağı, ən çox cinayət törədəndir. O, həm oğurlayır, həm gizlədir, həm də öldürürdü. Qəddafi elə bilirdi ki, xalq onu sevir və heç vaxt ona qarşı çıxa bilməz. Lakin o, yanılırdı. XXI əsrin adamı qul olmaq istəmir. Artıq üsyançılar böyük bir orduya çevrilərək Benqazi şəhərini, Qəddafi tərəf-darları və hökumət ordularını məğlub edərək, azad

etmişdi.

***

Marinanı zəng səsi yuxudan oyatdı. O, divandan sıçrayaraq ayağa qalxdı. Yuxulu göz-lərilə ətrafa nəzər saldıqdn sonra başa düşdü ki, bu telefondur. Marina dəstəyi götürdü:

- Özünü necə hiss edirsən, dostum?

Marina bir dəfə dərindən nəfəs aldı, özündən asılı olmayaraq, divana çökdü. O hər şeyi düzgün hesablayıb. Bu odur. Həmin məxmər səs, sözləri də eyni, olduğu kimidir.

- Niyə danışmırsan? Bu mənəm. Tanımadın? Yaxşı, istədiyin qədər sus, bu yaxşıdır. Əgər susursansa, deməli, qorxursan. Bir az olsa da, qorxu var. Harada qorxu varsa, orda an-laşma da var. Başa düşürsən? İstəyirsən sənə dediklərimi unut getsin, mən sənsiz də baca-raram. Onda birtəhər yaşayaq da bu dünyada...

- Mən fikirləşirəm, - Marina dəstəyə pıçıldadı. - Bu çox qorxulu oyundur. Qızlar başa düşsələr başımı itirə bilərəm.

- Yaxşı, fikirləş. Ancaq uzun çəkməsin. Mən telefonu qapadıram, - onun səsi dəyişərək özgələşdi:

- Sonra araşdırarıq. Sən ki, Süleymanı tanıyırsan, məni aldatsan, özündən küs.

Marina fikirləşdi ki, niyə onlar ancaq məni

qorxudurlar, satın almağa çalışmırlar. Belə yaxşıdır, lap detektivlərdəki kimi. Məgər detektivlərdə aldadırlar?

Marina saata baxdı, səkkizin yarısı idi. Yəqin ki, o, bu gecə heç yatmayıb. Bir si-qaret çəkdikdən sonra telefonun yanında oturub dəstəyi qaldırdı.

- Bağışla, Süleyman. Səni səhər erkən narahat edirəm. Diqqətlə mənə qulaq as, çalış ki, başa düşəsən. Sən dostunla nə vaxt görüşmək istəyirsən? Bu o deməkdir ki, üç gündən sonra. Yox, sən bu gün onunla görüş, mütləq bu gün. Yox, yox... Ciddi bir şey yoxdur. An-caq bu, lazımdır. Tamamilə doğru deyirsən. Həyəcanlanma, bu, müvəqqətidir. Yəqin sən düz deyirsən, o mənimlə zarafat edib. Ancaq bu zarafat çox qəliz idi. Ona de ki, mənə iki gün vaxt versin. Koordinatları öyrənən kimi sizə xəbər edərəm.

***

**Səhifə 151-dən başlayan** yazı

...İki gün sonra onlar qaranlıq bir küçədə görüşdülər.

- Salam, Marina!

- Salam! Sizə nə lazımdır? Süleyman deyirdi ki, siz ölmüsüz...

- Xeyr, dünənki döyüşdə yüngül yaralanmışam. Bu gün Mustafa gəlməli idi, onun yerinə mən gəlmişəm. Mustafadan sənə hədiyyə gətirmişəm, al...

- Bu nədir? Siz heç yaralıya oxşamırsız. Heyif ki,

qaranlıqdır, üzünüzü görə bilmirəm.

- Bu, çox da vacib deyil. Al bunu, çox qiymətli hədiyyədir.

- Əgər almasam?

- Onda özündən küs, axı sən Marina deyilsən. Moskvada oxumuş liviyalı qızsan. Rus casusu olandan sonra Gülsümü Marinaya dəyişmisən. Sən Qəddafini də aldatmısan. Onun «amazonka»ları bakirə qızlardan ibarətdir, sən isə, "sarı" pərvanələrdənsən.

- Sizə nə lazımdır?

- Sənin üçün çox asan olan bir əməliyyat. Qəddafinin hərəkət istiqamətinin planı.

- Bu mümkün deyil, məni öldürərlər.

- Özün bil, mən sözümü dedim!

Əli özünü elə göstərdi ki, guya getməyə hazırlaşır.

- Dayanın! Mən razıyam. Hədiyyəni mənə verin. Sabah axşam elə bu yerdə görüşərik!

Səhərisi günün axşamı Əli Marinanı gözləyirdi. Ona üzüörtülü bir qadın yaxınlaşdı. Ehtiyatla ətrafına baxdıqdan sonra soruşdu:

- Bağışlayın, saat neçədir?

Əli onun sualına cavab olaraq:

- Elə dünənki yerdə, dünənki vaxtdır, - söylədi.

Bu parollaşma bitdikdən sonra gələn qadın asta, yalnız Əlinin eşidəcəyi səslə ona:

- Məni Marina göndərib. Alın, bu sizə çatacaq, - deyərək, əlindəki iri zərfi Əliyə verib bir andaca qaranlığın içərisində yox oldu.

***

Tanınmış rəssam Hafiz Mirzəcanzədənin rəsm sərgisinə canlı bədii təsvir sənətinin vurğunu, axtarış-əməliyyat qrupunun baş müstəntiqi, mayor Xumar da gəlmişdi. O, bu sərgiyə təsadüfən düşməmişdi. Sərgiyə maraq o qədər yüksək idi ki, bilet tapmaq asan deyildi. İki gün əvvəl polkovnik Kazımov Xumara zəng vuraraq ona sərgiyə getmək üçün iki bilet təklif etmişdi. Müşavirə olacağı üçün özü sərgiyə gedə bilməyəcəyini demişdi.

Xumar minnətdarlıqla biletləri qəbul etmişdi. Balaca Süsəni sərgiyə aparacağına Xumar sevinirdi. Belə sərgilər insan qəlbinin ən incə nöqtələrinə belə möcüzəli təsir göstərir. Hətta qəddar insanlar belə, bu şəkillərin təsiri altında, bir an da olsa, insanlığa qayıdırdı.

Sərgi salonu musiqiçilər, ədəbiyyat və incəsənət xadimləri, adlı-sanlı şəxslərlə dolu idi.

Xumar tələsmədən Süsənin əlindən tutaraq bir tablodan digərinə keçir, rəssamın yaradıcılığına heyranlıqla tamaşa edirdi.

- Ana, bəs niyə şəkillərin musiqisini eşitmirəm? Axı özün demişdin ki, onlar təbiətin bir parçasıdır. Təbiət müxtəlif səslərlə dolu olur. Onların birləşməsindən gözəl, insanın qəlbinə toxunan musiqi yaranır.

- Hə, əlbəttə! - Xumar qızının saçlarını tumarladı: - Əgər diqqətlə baxsan, həm təbiəti görəcəksən, həm də

musiqini eşidəcəksən. Buna ancaq istək lazımdır.

Onlar növbəti salona keçdilər. Salondakı şəkillərin əksəriyyəti Xumara tanış idi. Bir qədər künc tərəfdən asılmış qız portreti onun diqqətini cəlb etdi. Tablonun altında qırmızı hərflərlə "Naməlum qız" sözləri yazılmışdı. Xumar portretə diqqətlə tamaşa etdikdən sonra cib dəftərçəsinə qeydlər etdi. Amma əhvalı bir anda yamanca pozulmuşdu. Daha sərgiyə baxmaq istəmirdi.

- Ana, mən eşidirəm. Sən bu qızın şəklinə bax! Niyə rəssam onu qan rəngli sünbüllərin arasında çəkib? Həm də onun ayaqları qana bulaşıb. Elə bil bu qız kimdənsə kömək istəyir. Ana, mən onun səsini eşidirəm.

- Sakit ol, qızım! - Xumar Süsəni salondan çıxardı.

Orta salonda tamaşaçıların əksəriyyəti Hafiz Mirzəcanzadənin başına toplaşmışdı. Rəssam pərəstişkarlarına öz imzası ilə sərgidəki şəkillərin əksi basılmış əlvan rəngli albom paylayırdı.

- Ana, gedək biz də albom alaq. - Süsən Xumarın əlindən çıxaraq rəssamın yanına qaçdı. İmzalanmış albomu Xumara uzadanda, o, bir qədər aşağı əyilib sakit səslə rəssamdan soruşdu:

- Bağışlayın, çəkdiyiniz "Naməlum qız" portretində sizə poza verən xanımın adını deyə bilərsizmi?

Rəssam sualı eşitmədi, ya da özünü elə göstərdi ki, guya eşitmir. Başını əyməklə təşəkkür etdi:

- Gəldiyinizə görə çox sağ olun!

Albom almaq arzusunda olanlar Xumarı yüngülcə

itələdilər. O, imzalanmış albomu Süsənə verdi və onlar sərgi salonundan çıxdılar...

Səhərisi gün tezdən Xumar qəhvəyi rəngli uniformasını geyinərək albomu da əlinə götürüb evdən çıxdı.

O, DİN-nin giriş qapısından içəri keçib üçüncü mərtəbəyə qalxdı. Burada onu xanım mayor kimi yox, təcrübəli müstəntiq, istintaq-əməliyyat şöbəsinin əməkdaşı kimi hörmətlə qarşıladılar.

Xumar sonra enli pilləkənlərlə aşağıya enib özünün keçmiş 210-saylı kabinetinin qapısını açdı. İndi bu kabinetdə vaxtilə onunla birgə işləmiş Sənubər Həsənova otururdu. Sənubər mayoru görən kimi bir qalaq kağızın içərisindən ayağa qalxdı:

- Xoş gəlmisiz! Hansı külək sizi bura gətirib?

- Necə deyim, köhnə yaddaş yenə yaşamağa rahatlıq vermir. Xumar Sənubəri qucaqladı. Səni görməyə gəldim, - sonra əlavə etdi: - İtkin düşmüş bir qızın istintaqının gedişilə bağlı sənədlərə baxmaq istəyirəm.

- Arzu Hüseynova, fotomodel... Evdən çıxıb, bir daha geri qayıtmayıb, - Sənubər gülümsündü.

- Düzdür. Sənin nə yaxşı yaddaşın var imiş, cənab leytenant. Düzü, gözləməzdim.

- Bu işlə polkovnik Kazımov da maraqlanır, - Sənubər telefonun dəstəyini götürüb kiməsə zəng vurdu: - Xahiş edirəm, arxivdən "354" saylı açılmamış cinayət işini götürüb təcili buraya gətir!

On dəqiqədən sonra "354" saylı cinayət işi artıq

Xumarın qarşısında, masanın üstündə idi...

Düz dörd il əvvəl polkovnik Kazımov Xumara foto-model Arzu Hüseynovanın yoxa çıxması ilə bağlı istin-taq-əməliyyat işini aparmağı həvalə etmişdi. İşin gedişində məlum olmuşdu ki, Arzu Hüseynova səhər tezdən evdən çıxaraq naməlum istiqamətə getmiş və bir də geri qayıtmamışdır. Xumarın yadında idi ki, istintaq-axtarış işinə yarım ildən çox vaxt sərf etmişdi. Lakin həmin müddətdə nə qızın meyitini, nə də onu görən hər hansı bir adamı aşkarlaya bilməmişdi. Altı ay sonra Xumar istintaq-əməliyyat materiallarını əlinə götürüb polkovnik Kazımovun yanına getmişdi. Həmin vaxt açıl-mamış "354" saylı cinayət işini bitmiş hesab edərək arxivə verməli olmuşdular.

Budur, Xumara gərgin aylar yaşadan həmin cinayət işi yenidən qarşısında idi. O, tələsmədən qovluğu açdı. Qovluğun içəri cibinə tikilmiş bir neçə fotoşəkli çıxararaq iş masasının üstünə qoydu. Xumar hiss edirdi ki, gicgahlarındakı damarlar zoqquldayır. Onda olan gərginliyi Sənubər də hiss etmişdi. Odur ki, masanın üs-tündəki qrafinindən stəkana soyuq su töküb Xumara uzatdı. O, stəkanı alıb sudan bir neçə qurtum içərək dedi:

- Cənab leytenant, mənə elə gəlir ki, nəhayət, bu işi açmaq üçün imkan tapmışam. O adam ki, başqalarına zəhmət təlqin edir, əslində xəstəliyini nümayiş etdirir. Xəstəliklə qorxaqlıq bir adamda birləşəndə qəddarlıq yaranır. Mənə elə gəlir ki, Hafiz Mirzəcanzadə də

nədənsə qorxur. İçərisində qorxaqlıq oturan adamlar qul həyatı yaşayırlar.

Sənubər diqqətlə fotoşəkillərə baxırdı. O, barmağını şəkillərdən birinin üstünə qoyaraq:

- Bu, Arzu Hüseynovadır!

- Tamamilə haqlısan, mən bu qızı dünən sərgi salonunda görmüşəm.

- Necə yəni sərgi salonunda? - leytenant təəccübləndi.

- Daha doğrusu, qızın özünü yox, portretini görmüşəm. Mən səhv edə bilməzdim. Rəssam kətan üzərində Arzunu itkin düşməmişdən bir gün əvvəl çəkib, - Xumar Hafizin ona bağışladığı albomu açaraq "Naməlum qız" portretini Sənubərə göstərdi. Sonra da ona xitabən: - Rəssam öz əli ilə şəklin çəkilmə tarixini də göstərib.

- Oxşayır, çox oxşayır, - deyə Sənubər onunla razılaşdı. Ancaq bu qızı rəngli sünbüllərin arasında çəkmək bir qədər anlaşılmazdır. Belə çıxır ki, Arzunun yoxa çıxması bu portretlə əlaqəli ola bilər.

- Tamamilə haqlısan! - Xumar onunla razılaşdı. Mən vaxtilə bir musiqiçinin cinayət işini aparırdım. Qeyri-adi istedadı onu çox məşhurlaşdırmışdı. Həyatı başdan-başa başgicəlləndirici nağıla oxşayırdı onun. Çoxlarının həyatını məhv emişdi. Əsl manyak idi. Necə bilirsən, bu rəssam da manyak ola bilərmi? Qızların rəsmini çəkir, sonra da öldürür, - Xumar Sənubərə Aristotelin bir kəlamını xatırladı: - "Ağıllı adam düşünmədən də, çox şey öyrənə bilər".

Xumar üz-gözünü turşutdu. Onun ağlı qəbul etmirdi ki, dünyanın gözəlliklərini kətana köçürən, insan hisslərini ehtizaza gətirən, ağılasığmayan möcüzələr yaradan rəssam, əllərini insan qanına bulaşdıra bilər. Xumarı bu sual narahat edirdi:

- Arzunun meyidini görməmişəm, onun harada basdırıldığını belə bilmirəm. Mən ürəyimin səsinə necə inana bilərəm ki, onu Hafiz öldürüb. Lakin bununla belə Xumarın şübhələri yavaş-yavaş həyata vəsiqə alırdı.

- Mən bilən rəssam bizim şəhərdə bir neçə ildir ki, yaşayır, - Xumar hələ formalaşmamış dumanlı fikirlərini cəmləşdirməyə çalışdı.

- Hafiz Mirzəcanzadənin kimlərlə əlaqədə olduğunu, bütün dost-tanışlarını öyrənin, - Xumar leytenanta göstəriş verdi. Sonra o, qovluğu bağlayaraq əlinə götürdü: - İşi aydınlaşdırana qədər bu məndə qalacaq! - dedi və əlavə etdi: - Rəhbərliyə özüm xəbər verərəm.

Mayor qapıya doğru bir neçə addım atıb dayandı. Sonra da:

- Hə, az qala tamam unutmuşdum, öyrənin-görün Hafiz Bakıya köçməzdən əvvəl yaşadığı şəhərdə gözəl qızların itkindüşmə halları olubdurmu? - söylədi. Daha sonra sözünə davam etdi: - Xüsusilə də naturaçı qızlara daha çox diqqət yetirin. Bir də mümkün qədər onun yaxın ətrafı - ailəsi, arvadı, məşuqəsi barədə məlumatlar toplayın...

Otaqdan çıxdıqdan sonra Xumar əlində qovluq birbaşa polkovnik Kazımovun yanına getdi. Ürəyində düşündü

ki, onunla görüşməyi yaxşı olar. Hərdən çox bilmək insana mane ola bilər. Mən onun göstərişi olmasa, özbaşına hərəkət edə bilmərəm.

Səhər tezdən, hələ şəhər yuxudan oyanmamış polkovnik Kazımovun başçılıq etdiyi əməliyyat qrupu və onlara kömək etmək üçün ayrılan xüsusi təyinatlılar, şəhərin kənarında, gözəl, mənzərəli bir yerdə tikilmiş üçmərtəbəli bağ evinə gəldilər. Evin ətrafı hündür daş hasara alınmışdı. Uzun-uzadı zəngdən sonra çağırılmayan qonaqlara hasarın içəri tərəfindən bağ iti səs verdi. İt dayanmadan hürür, hasarın içəri tərəfində özünü didib-dağıdırdı. Nəhayət, hündür dəmir darvazanın arxasından narazı səslə bir kişi soruşdu:

- Kimsən? Səhərin bu vaxtı nə istəyirsən?

- Biz polisdənik! - Xumar yumşaq səslə cavab verdi və şəxsi vəsiqəsini açaraq qapıda quraşdırılmış yoxlayıcı kameranın qara gözlüyünün qabağına tutdu. Sonra da: - Evin sahibinə deyiləsi sözümüz var! - söylədi.

Hasarın o biri tərəfindən uzun müddət səs-səmir gəlmədi. Sükutu yalnız dayanmadan hürən itin səsi pozurdu. Söhrabın göstərişilə xüsusi təyinatlılar barını aşmağa hazırlaşdılar. Onlar hərəkətə gəlmək istəyən anda qəflətən darvazanın kiçik qapısının cəftəsinin çəkildiyini eşitdilər. Ardınca dəmir qapısı açıldı. Gələnlərin qarşısında üzütüklü, hündürboylu, qəzəbli bir kişi dayanmışdı.

- Hafiz bəy yuxudan yenicə ayılıb, - kişi xırıltılı səslə dedi. Səhərin bu vədəsində o, qonaq qəbul eləmir.

Lakin sizin polisdən olduğunuzu nəzərə alaraq içəri buraxa bilərəm, - kişi başının işarəsilə ardınca gəlməyini işarə etdi.

Nəhayət, gözətçi kişinin müşayiəti ilə onlar xüsusi mülkiyyətin həyətinə daxil oldular. Sonra birbaşa həyətin ortasında ucadılmış nəhəng binanın üçüncü mərtəbəsinə qalxıb dayandılar. Hafiz onları emalatxanasında qarşıladı. Rəssam açıq albalı rəngli ipəkdən səhər xalatı geymişdi.

Gələnlər ani baxışla ətrafı nəzərdən keçirdilər. Emalatxananın tən ortasında dəri üzlüklü hündür bir kürsü qoyulmuşdu. Divarlarda quraşdırılmış dolabın gözlüklərində müxtəlif ölçülü, rəngbərəng boyalarla çəkilmiş peyzajlar və karandaşla cızılmış eskizlər vardı. Emalatxana böyük bir çardağı xatırladırdı. Döşəməyə bir neçə eskiz səpələnmişdi. Bu otaq çoxdan yığışdırılmadığına görə ürəkaçan vəziyyətdə deyildi. Hafiz xırda qara gözlərini Söhrabın baxışlarından yayındıraraq:

- Cənab polkovnik, sizə necə kömək edə bilərəm? Əgər şəkil istəyirsizsə, buyurub seçə bilərsiz.

Xumar emalatxananı gəzərək hər şeyə diqqətlə baxır, cidd-cəhdlə nəzərdən keçirirdi. Bir-birindən gözəl tabloların içindən "Naməlum qız" portretini axtarırdı. Söhrab Hafizlə qarşı-qarşıya qoyulmuş kiçik türk divanında oturdu. Xumar axtardığını tapmadıqda Hafizə yaxınlaşdı:

- Siz məni yadınıza sala bilirsizmi? - soyuq səslə

soruşdu.

- Sizi? - Hafiz bir anlığa fikirləşdi: - Söz yox ki, gözəl xanımsız, amma bağışlayın ki, yadıma sala bilmirəm. Sizintək gözəl xanımı əgər əvvəllər görsəydim, yaddaşımda qalardız. Vallah ətrafımdan o qədər adam keçir ki, hamısını yadda saxlamaq olmur.

Söhrab istehza ilə gülümsədi. O bilirdi ki, rəssamlarda görmə yaddaşı, pianistin barmaqları kimi həss olur. Heç vaxt sahibini peşman etməz.

- Biz sizinlə şənbə günü sərgi salonunda görüşmüşdük, - Xumar dilləndi. O, bir qədər susduqdan sonra isə: - Sizdən bir söz soruşdum, lakin cavab ala bilmədim, - söylədi.

- Nə olsun ki, ola bilər, - Hafiz çiyinlərini çəkdi.

- Həmin gün mən sizdən soruşmuşdum ki, naturadan çəkdiyiniz "Naməlum qız" portretindəki fotomodelin adı nədir?

- Hə, yadıma düşdü, siz məndən nəsə soruşduz, mən də sizə sərgiyə gəldiyinizə görə təşəkkür etdim. Ancaq mənə poza verən qızların adlarını yadımda saxlamaq, bu heç də vacib deyil.

- Mən yadınıza sala bilərəm! - Söhrab ayağa qalxdı: - Arzu Hüseynova, fotomodel... Portret çəkilən günün səhərisi Arzu qəflətən yoxa çıxıb. Biz onu çox axtarsaq da, tapa bilmədik.

- Mənim günahım nədir?

- Boş-boşuna danışmaq adamı yorur, nəinki işləmək. İstintaqın nəticələrə belə qərara gəlməyə əsas verir ki,

Arzu Hüsyenovanın itkin düşməsinin günahkarı siz və sizin arvadınızdır!

- Siz nəyə görə belə qəti nəticəyə gəlmisiz? - rəssamın barmaqları kürsünün kənarını sıxdı. Bu Söhrabın gözündən yayınmadı.

- Ağıl insana müəyyən sərhədə qədər verilir. Ağılsızlıq isə heç bir sərhəd tanımır. - Polkovnik birdən-birə onunla sənlə danışmağa başladı: - Sənin o ağılsız arvadın qorxudan titrəyə-titrəyə bir qədər əvvəl çardağın damından bizim söhbətimihə qulaq asırdı. İndi də qaçmağa hazırlaşır. Amma bu mümkün olmadı. Xüsusi təyinatlılar artıq onu yaxalayıblar. İnsanın ağıllı, ehtiyatlılığı hələ o demək deyil ki, həmin adam heç vaxt səhv eləmir. Ən pisi isə odur ki, onu dönə-dönə təkrar edir. Arzunun meyitini haraya basdırdığını da bilirəm! - Söhrab bayaq həyətə girərkən itin zingildəyə-zingildəyə alma ağacına sarı qaçdığını və orada torpağı eşələdiyini yadına saldı. O, sözünə davam etdi: - Səndən fərqli olaraq itin çox ağıllıdır. Həyətə girəndə o meyitin basdırıldığı yeri çox nəzakətlə bizə göstərdi. Bəlkə, alma ağacının altına baxaq...

- Dayanın! - Hafiz çətinliklə nəfəs aldı. Günahkar odur, arvadım. O, xəstədir, yoxlatdıra bilərsiz, xəstəxanada da yatıb.

- Bunlar bizə məlumdur, - Xumar rəssama sərt cavab verdi. Sərgidə göstərdiyiniz qanla çəkilmiş “Naməlum qız” portreti sizinki deyil, arvadınız çəkib. Bu, xəstə təxəyyülün məhsuludur.

- O, xəstə olduğu üçün mənim pərəstişkarlarımı qəbul etmirdi. Bir gün Arzunu mənimlə bir yerdə görəndə...

Söhrab onun sözünü kəsdi:

- Dörd il əvvəl siz Gəncədən köçüb Bakıya gəlmisiz. Orada arvadınız elə bu yolla daha bir qızı o dünyaya göndərib. Həmin qız - Məlahət Həsənova tələbə idi. Bir ora bax, o portretdəki qız elə Məlahət Həsənovanın özüdür. Hər bədbəxtliyin öz səbəbi var. Sən qorxaqsan, ağılsızsan. Ağıl olmasa, gözəllik mənasını itirir. Sənin çəkdiyin tablolar kimi...

- Hə, siz haqlısız! Arvadım psixi xəstədir, mən özüm ondan qorxuram. O, kabus kimidir. Mənim bu işlərdə günahım yoxdur.

- Hər birinizin nə dərəcədə günahkar olduğunu məhkəmə təyin edəcək, - O, işarə elədi. Xumar polkovnikin işarəsini görən kimi rəssamın qollarını qandalladı. - İndi bizimlə polis idarəsinə gedəcəksiniz. Orada hər şeyi aydınlaşdırarlar.

...Səhərin gözəl havasını uda-uda Söhrab tələsmədən maşına doğru gedirdi. Bu qocaman detektivin qəlbində bir sakitlik hökm sürürdü. Dörd il Söhraba sakitlik verməyən cinayət işi nəhayət ki, açılmışdı. o, dönüb arxaya baxdı. Köpək qabaq ayaqları üstə çömbələrək quyruğunu yelləyirdi.

## V fəsil

...“1996-cı il fevralın 27-də mən, Sidek və Albet polis

əməkdaşı Ədalət Əsədullayevin maşını ilə “Qarabağ” mehmanxanasının yaxınlığına getdik. Ədalət Əsədullayev orada bizi maşından düşürdü. Sonra bir az qabağa gedərək bizi orada gözləməyə başladı. Biz Elşən Həsənovu Əsədullayevin maşınına mindirdik. Bir qədər getdikdən sonra isə yolda Sidekin maşınına keçdik. Mənim istintaqa verdiyim ifadələr düzdür. Əsədullayevin orada heç bir rolu olmayıb.

2002-ci ilin noyabrında Muradın oğurlanmasının planlaşdırılmasında Nailə Quliyevanın evində mənimlə yanaşı, Qadir, Nizami, Fərhad Məmmədbəyov, Hacı Məmmədov, Hüseyn Abdulvahabov və Rövşən Ağayev iştirak edirdi. Murad Kazımovu oğurladıqdan sonra onun yaxınlarından yüz min ABŞ dolları aldıq. 1997-98-ci illərdə Hacı Məmmədov özünün Saraydakı bağ evində mənə DİN-də işləyən Kamil adlı dostu barəsində danışıb. Onun dediyinə görə, həmin adamla oğurluqla bağlı olan işlərini məsləhətləşirmiş. Kamil ona oğurlanan şəxslərin yaxınlarından pul alınarkən, hüquq-mühafizə orqanlarının hansı tədbirlər görəcəyini məlumatlandırırmış. Hacı Məmmədov da buna görə ona pul verirmiş. Bu dəfə bir milyon qazanacaqdıq deyə həmin şəxsə 200 min dollar verəcəyini söylədi.

Bundan bir neçə gün sonra mən Eldar Rəhimov Zemfira Hacıyevanı güdməyə gedəndə Eldara dedim ki, Hacı yalandan yuxarı vəzifəlilərə pul verdiyini deyir ki, bizə az pul versin. Eldar Rəhimov onun DİN-də Kamilin yox, daha yüksək rütbəli dostları olduğunu təsdiqlədi.

Buna görə də bankirin arvadını oğurlamağı tezləşdirmək lazımdır. Hacı da Kamil Sədrəddinova 200 min dolları ona görə verir ki, o maşınların nömrələrini saxtalaşdırsın. Bunu mənə Eldar sirr kimi dedi...”

Aslanbek Cantamirovun istintaqa verdiyi ifadədən...

***

İş gününün axırı olduğundan dəhlizdə sakitlik hökm sürürdü. Mürsəl otağında tək idi. O, bir neçə dəfə seyfə yaxınlaşsa da, onu açmağa cəsarət etmədi.

«Əgər mən Ramin Hacıyevin qovluğundakı cinayət işlərinin mahiyyətini öyrənsəm, çoxlarını özümə düşmən edə bilərəm», - deyə fikirləşdi. - «Gözəl həyatı bizi yaradandan almırıq. Həyat onda uzun olur ki, ağılla istifadə edəsən. Həyat özü bunu bizdən tələb edir.

İllərdir ki, əsl həqiqəti kənarda axtardığım halda, indi onlar bir qovluğun içərisinə yığılaraq məni gözləyir.

Doğrudanmı əsl həqiqətin açılması üçün zaman yetişib? Bəlkə də yox! Bunu sübut etmək üçün uzun və çətin yol keçməliyəm. Yolun əvvəli bəllidir, sonuna çatmaq mənə qismət olacaqmı?»

Mürsəl Söhrabın sözlərini xatırladı: “Özün üçün yaşamaq istəyirsənsə, başqalarını da fikirləş. Təkcə özün üçün yaşamaq, yaşamaq deyil, öz kölgənin ardınca sürünməkdir”.

Mürsəl bir anlığa fikrə getdi, fikirlərin ala-

toranlığında işıq axtardı: «Mən niyə bilmirəm? Hər şeyi bilmək üçün əvvəldənmi başlayım? Aman Allah! Bu necə də mürəkkəbdir, buna mənim gücüm çatacaqmı?»

Məsələ o vaxt çətinləşir ki, düşmənin qabağından qaçmayasan, ona müqavimət göstərməyi bacarasan. Mürsəl bir neçə il əvvəlki istintaqı xatırladı. O zaman məlum olmuşdu ki, Eldarın Hacının törətdiyi cinayətlərdə iştirakı ancaq köməkçilikdən ibarət olub. Nazim Paşayev və onun sürücüsünün qətli Hacı Məmmədovun ifadəsilə Eldarın adına yazılıb. Niyə? Hacı ən ağır cinayətlər törədib, niyə ona kömək edirlər? Onun arxasında kimlər durur? Bu gözəgörünməz əllər kimindir? Hacı ifadəsində Nazimi tanımadığını, sifarişçinin Şirin Abıyev olduğunu desə də, bu yalan idi. Hacı Nazimi yaxşı tanıyırdı. Nazim özü də bunu məhkəmədə təsdiq etmişdi. Hacı kimin dili ilə danışır? O, törətdiyi cinayətlərin çoxunu ölən şəxslərin, adları istintaqa məlum olmayan adına yazır.. Biz onu Ağa Laçınlı ilə üzləşdirəndə onu tanımadığını söylədi. Özünü kor filosof kimi aparır Hacı. Hər şeydə məntiq axtarır o.

Mürsəl Ramin Nağıyevin yazdıqlarını xatırladı: "İstintaq Hacı ilə sövdələşmişdi. Həmin sövdələşmə mənə də təklif olunmuşdu. Bunu edəcəyim halda mənə 50 min dollar verməklə yanaşı, saxta sənədlərlə xaricə çıxmağımı təmin edəcəklərini bildirmişdilər...".

Bütün bunların arxasında kim dayanır? Yox, bu işdə tələsmək lazım deyil. Axmaq danışmaqdansa dinləmək daha yaxşıdır, - Mürsəl pəncərəyə yaxınlaşıb pərdəni

çəkdi. Fəxri Xiyabanın işıqları hələ yandırılmamışdı. Uzaqdan hündür baş daşları Mürsələ qara kabus kimi görsəndi: «Sənə nə olub, Mürsəl? "Əgər hisslərini cilovlaya bilmirsənsə, onda özünü idarə etməyi öyrən. Düşüncəsiz hərəkət etmə, bu səni bədbəxtliyə aparar. Heyvan kimi instinktlə hərəkət etsən, düşünə bilməzsən. Düşüncə elə bir şeydir ki, onu sənin əlindən heç kim ala bilməz. Düşüncəsiz insan axarı olmayan göl kimidir». - Söhrab bu sözləri Mürsələ hələ çox-çox illər əvvəl Polis Akademiyasında oxuyarkən söyləmişdi...

Qapı astadan döyüldü. Mürsəl özünü yığışdırıb barmaqları ilə saçlarını arxaya daradı. Azər içəri girəndə, Mürsəldə olan dəyişikliyi hiss etdi:

- Xasiyyətin gücü onun məzmunundadır, - Azər Mürsəlin əlini sıxdı. - Bu yeganə şeydir ki, təbiətin ən zəngin qaynaqları ilə ölçülür. Sənin kimi güclü xarakterə malik olan insanın ağlı da, düşüncəsi də güclü olur. De görüm, külək hansı səmtdən əsir? İş vaxtı çoxdan qurtarıb, niyə özünü üzürsən?

- Daha üzməyə bir şey qalmayıb, üzülməli nə vardısa, hamısı üzülüb.

- Bircə ümiddən başqa. Özün demirdinmi ki, ümid həmişə qabaqda olur, - Azər divanda Mürsəllə yanaşı oturdu, - Mürsəl, mən bura filosofluq etməyə gəlməmişəm...

Azərin söhbətin səmtini dəyişməsi Mürsəlin ürəyindən oldu. O, Azəri bir daha süzdükdən sonra dedi:

- Bəs nəyə gəlmisən?

- Daha vacib işlərimiz var. Sənə bir söz deyəcəyəm, ancaq əlinlə ürəyini tut ki, yerə düşməsin.

Mürsəlin rəngi hiss olunacaq dərəcədə ağardı. Ona elə gəldi ki, otağın tavanı aşağı endi. Dodaqları əsəbiliklə titrədi:

- Söhraba bir şeymi olub?

- Xeyr! Söhrabla dünən danışmışam. Axı o mənim də əziz dostumdur. Əlbəttə ki, sənin sayəndə, - Azər minnətdarlıqla Mürsələ baxdı. - Həyat o zaman boz olur ki, kədərini də, sevincini də bölüşməyə dost tapmırsan.

- Tamamilə haqlısan, dostu olmayan insan tənhadır.

- Çox şükür ki, bu barədə bizimki gətirib. Ancaq mən sənə başqa məlumat vermək üçün gəlmişəm. Böyük Britaniyanın Mərkəzi Kəşfiyyat İdarəsi "Ələkeçməz"in izinə düşüb. Onun barəsində bütün məlumatları toplayıblar. Bu haqda ingilis xəbər agentliklərindən məlumat almışam, - Azər əlində tutmuş teleqramı Mürsələ uzatdı.

- Al oxu, gör nələr yazıblar.

- Bu ki, şifrəlidir, açmaq lazımdır.

- Mənim «uşaqlarım» bunu ediblər. Böyük Britaniya Mərkəzi Kəşfiyyatı Əli ilə sövdələşib. Onun ailəsinin təhlükəsizliyinə zəmanət verilib. Əlini Liviyaya göndəriblər. Onun göndərdiyi dəqiq məlumatlar əsasında ingilis təyyarələri Qəddafinin hərbi obyektlərini məhv edir...

- Dayan görüm! Əli bunları necə edir? O ki, kəşfiyyatçı deyil.

- Siz haqlısız, lakin Qarabağda apardığımız əməliyyatlar Əlinin yaxşı kəşfiyyatçı oldu-ğunu sübut etdi. Bir də ki, Əli Liviyada tək deyil, ona Mərkəzi Kəşfiyyat İdarəsinin Liviyadakı çoxsaylı agentləri də kömək edir. İngilis barmağı hər yerdə işləyir.

- Fikrin nədir?

- Osmanla danışmışam. Birinci rus-çeçen Müharibəsində onların dəstəsində Süleyman adlı bir azərbaycanlı da olub. Süleyman hal-hazırda Qəddafinin milli qvardiyasında xidmət edir. Onun ora necə gedib çıxdığını heç kəs bilmir. Əgər biz Osmanı Liviyaya göndərsək, o Süleymanın vasitəsilə Əliyə kömək edə bilər. Liviyada yaşayan azərbaycanlıları Suriya sər-həddindən Türkiyəyə keçirə bilərlər.

- Liviyada bizim səfirliyimiz var. Bu onların vəzifə borcudur.

- Mən səfirliklə danışmışam. Dedilər ki, Liviya od içində yanır, səfirlikdən kənara çıxa bilmirlər. Onların özlərinə kömək lazımdır. Üsyançılar Liviyanın ən böyük Sənas şəhərini ələ keçirə biliblər. Benqazi yeni Liviyanın paytaxtı elan olunub.

- Sən bu məsələni nazirlə həll etməyə çalış. Lazım gəlsə, mən dəstək verərəm.

Onlar vədələşib ayrıldılar.

...Mürsəl evə gələndə gecəyarıdan keçmişdi. Yataq otağında gecə lampasının sarımtıl işığı çözələnirdi. O, yataq otağına keçdi. Arvadı yatmışdı. Gecə lampasının zəif işığında çox sol-ğun görsənirdi. Mürsəl çarpayının

qırağında oturdu. Onların evləndikləri gündən çox illər keçmişdi. Aralarındakı soyuqluq hər şeyi buza döndərmişdi. O, hiss edirdi ki, daha ailəsi yoxdur. Bir-birlərinə yad adamlar kimi yaşasalar da, Mürsəl hələ də arvadını sevirdi. Mürsəl həyatda hər şeyə asanlıqla nail olanlardan deyildi. Arvadının sevgisini də asanlıqla qazan-mamışdı. Mürsəlin ömrü qarmaqarışıq mübarizələrdə keçdiyi üçün sevgisini belə unutmuşdu. Həmişə sakit ailə həyatı üçün xəyallarında hörümçək toru qurardı. Nə oldu bəs? Niyə hər şey birdən-birə yoxa çıxdı? Mürsəl ehtiyatla əllərini arvadının balıncın üstə dağılmış ağlı-qaralı saçlarına toxundurdu.

«Səni qoruya bilmədim, başqalarını qoruduğum üçün sənə vaxtım çatmadı. Həyatımız özgə həyatı kimi ötüb keçdi. Hamı gördü. Özgələri də özümüzkülər də, amma heç kəs, heç nə eləmədi. Gəncliyini məhv etdim sənin. O günlər elə bil yaz yağışı idi, yağdı qurtardı. Sevgi insan qəlbi üçün ən gözəl musiqidir, deyərdin mənə. Əgər ailə səadəti mənə ikinci dəfə verilsəydi...»

Mürsəl çarpayıdan ayrılaraq gecə lampasını söndürdü. Otağa onun qəlbi kimi acı bir qaranlıq çökdü...

***

Əlinin getməsindən bir neçə ay keçmişdi. Süsən gecəni gündüzə qataraq ərini gözlə-yir-di. Onlar bir-birini sevirdilər. O öz içi ilə danışmağı xoşlayırdı. Uzun-uzadı gözlərini səmaya zilləyərək fikrə dalırdı. O, ərini heç kimlə bölüşmək istəmirdi. Onlar gecə ilə gündüz

kimi bir-birlərinə can atsalar da, tez də ayrılırdılar. Ona görə də məhəbbətin ömrü qısa olur-du. Aylar kecdikcə, Süsənin həyəcanları da artırdı. Lakin məhəbbət unudulmur deyənlər də, haqlıdır. Əli uzun ayrılıqdan sonra evinə qayıtmışdı. Süsən onu görən kimi ağladı:

- Mən elə bilirdim ki, bir daha səni görə bilməyəcəyəm.

Əli Süsəni qolları arasına alaraq özünə tərəf sıxdı:

- Ancaq mən bilirdim, səni heç zaman unuda bilməyəcəyəm.

Elə həmin gündən də sevgi dolu gecələrin xoşbəxt günləri başladı. Hər ikisi səadət də-ni-zində çimirdi. Qaytarılmış məhəbbət necə də şirin idi... Süsən bu səadəti yaşaya bilmədiyi üçün heyifsilənirdi: «Səadəti məqsədlərimizdə, arzu və istəklərimizdə deyil, daha çox öz iradə və əzmimizdə axtarmaq lazımdır».

Süsən öz-özünə təsəlli verirdi: «Qadınlar nifrətə nisbətən, məhəbbətə daha davamlı olurlar. Günəşsiz güllər açmadığı kimi, məhəbbətsiz də səadət yoxdur. Məhəbbət istər evdə, istərsə də evdən kənarda qadına verilən xoşbəxtlikdir. Niyə? Axı niyə bu xoşbəxtliyi bizə yaşamağa çox görürlər?»

Süsən məktubu hələ də əlində tutmuşdu, açmağa qorxurdu. Ona elə gəlirdi ki, məktubu açsa hər şeyə nöqtə qoyulacaq. Süsən başa düşə bilmirdi ki, niyə özü özüylə danışır. Ancaq onu da bilirdi ki, sözlərilə özünü aldadır. Ona elə gəlirdi ki, Əlini bilə-bilə itirib. İndi də həsrətini gözlərində bitirərək uzun-uzadı yollara baxır,

onun gələcəyi günü gözləyirdi. Süsən əlindəki məktuba kabus kimi baxırdı. Çox-çox qədim zamanlardan belə bir əfsanə dolaşır ki, ailəyə bədbəxtlik gətirən ölüm kabusu müxtəlif formalara girərək ölümqabağı xəbərdarlıq edir. «Bəlkə də, bu məktub elə məni gözləyən təhlükədən xəbər verir. Görəsən, insanlar tale-yimizi qabaqcadan həll etməyə, onu döndərməyə, ya da ki, məhv etməyə qadirdirmi? Əgər belədirsə, bəs nə üçün özləri ilə ölüm kabusu da gətirirlər». Süsən dönə-dönə özünə bu sualları versə də, cavab tapa bilmirdi. Məktubu isə açmağa qorxurdu. Kim bilir, orda nə yazılıb? Bəlkə də...

- Süsən, yatmısan? - Süsən gözlərini açmadan əlini yellədi.

- Səfehləmə, belə də yatmaq olar? - Elizabet deyinməyə başladı: - Bu cavanların işinə lap mat qalınmalıdır. Söz soruşuram axı səndən?

Süsən narazılıqla başını tərpədib gözlərini açdı. Elizabeti görən kimi ayağa qalxdı. Əlindəki məktubu arxasında gizlətməyə çalışdı.

- Siz Allah, məni bağışlayın. Gəldiyinizi hiss etməmişəm. İçəri keçək, bir fincan qəhvə içək.

- Yaxşı! O arxanda gizlətdiyin nədir? Onu mənə ver görüm! - Elizabet Süsənin titrəyən əlindən məktubu aldı: - Çox tez ayılmısan. Gərək bir neçə gün də saxlayaydın bu məktubu.

Süsənin dodaqları qaçdı, yaşla dolu gözlərini Elizabetə dikdi. Bir-birlərinə dikilən ba-xışlardan çox şey anlamaq olardı. Elizabet Süsənin çiyinlərindən

tutaraq onu qucaqladı:

- Gedək bir yerdə oxuyaq bu məktubu!

***

Süleyman rus-çeçen müharibəsində Şamil Basayevin komandanlıq etdiyi dəstədə dö-yüşürdü. Terrorçu əməliyyat dəstəsində Süleymanı «İldırım» deyə çağırırdılar. Terrorçular arasında əməliyyat vaxtı ildırım sürətilə hərəkət etdiyinə görə, o, bu adı qazanmışdı. 1991-ci ildə Şamil Basayevlə birlikdə «Tu-154» təyyarəsini Türkiyəyə qaçırmışdı. Onlar Çeçenistanda və İnquşetiyada rusların fövqəladə vəziyyət elan etməsinə etirazlarını bildirmişlər. Sonralar Süleyman bir müddət Pakistandakı mocahedlərin məşq düşərgəsində təlim keç-mişdi. 1994-cü ildə Şamil Basayevlə birlikdə Əfqanıstana getdi. Süleyman Əfqanıstanda olarkən Basayev onu Üsəma Ben Ladenlə tanış etdi. Bu tanışlıq Süleymanın xeyrinə oldu. Süleyman fəal terroristlərdən birinə çevrildi. On iki il müddətində Basayevlə birlikdə Süleyman qanlı həyatına bir çox terror əməliyyatları yazıldı. Onlar Budyonovski xəstəxanasını ələ keçirdilər. Sonra Dubrokada ən qanlı terror aktı törətdilər. Qroznı şəhərində hökumət binasını partlat-dılar, sonra Beslanda məktəb binasını ələ keçirərək partlatdılar. Süleyman 2004-cü ildə Şamil Basayevin dəstəsində Dağıstana keçərək terrorçu qruplarla birləşdi. Şamil «Qara dul qadın» adlı ölüm briqadası təşkil etmişdi. Bu briqada hələ də çeçen dağlarında fəaliyyət göstərirdi. 2006-cı

ildə yük maşınında silah-sursat apararkən, partlayış nəticəsində Basayev həlak oldu. Şamil Basayevin ölümündən sonra, Süleyman iordaniyalı Xəttabın dəstəsinə keçdi. Bu keçid Süleymanın həyatında dönüş yaratdı. Süleyman qara dərili Xəttabın köməkliyi ilə Liviyaya gələrək Qəddafinin muzdlu ordusunda xidmətə başladı...

***

Süleyman görüş yerinə çatanda Əli hələ gəlməmişdi. Onu Mustafa qarşıladı.

- Amin bizi gözləyir, onun bu gün qonağı olacaq, - dedi.

- Kimdir o qonaq? - Süleyman ehtiyatlandı.

- Sənin yerlindir, amma ingiliscə danışır. Səninlə görüşməyə yaman can atır.

Süleyman daha sual vermədi. O, Amin Əli Rukeyi ilə Əfqanıstanda tanış olmuşdu. Özünün qəddarlığı ilə Süleyman çoxlu düşmən qazanmışdı. Əfqanıstana gəlməmiş dağlarda iki rus sərhədçisini güllələdikdən sonra, 1998-ci ildə Süleyman dörd nəfər xarici rabitə mühəndisini oğurlayaraq, dağlara çəkilmişdi. Bir müddət onlara işgəncə verdikdən sonra, Süleymanın iştirakı ilə xaricdən gəlib, yerli çeçen hökumətinə kömək etdiklərinə görə, şəriət məhkəməsi onlara ölüm hökmü çıxardı. Onların başını kəsib Rostov-Bakı yoluna atdılar. Daha Süleyman orada qala bilməzdi. O yenidən Əfqanıstana qayıtdı...

Onlar həyətə girəndə Amin Əli Rukeyi taxtın üstə bardaş qurub oturmuşdu. Mustafa ona yaxınlaşıb əlindən öpdü:

- Süleymanı gətirmişəm, qonaqlar gəlməyib?

Amin təzə dəmlənmiş çaydan bir qurtum alıb, fincanı yerə qoydu, gözlərilə Kərimə getməsini işarə etdi:

- Qonaqlar indi gələrlər. - Sonra diqqətlə Süleymana baxdı: - Heç dəyişməmisən, elə əvvəlki Süleymansan.

Elə bil Süleymanın üzü yenidən doğuldu. İşıqlanmış gözləri parıldadı. Ürəyində ümid yarandı. Süleyman Amini bağrına basıb öpdü. Ürəyində isə: «Görəsən məni niyə çağırıb? Bəlkə ona olan can borcumu xatırladacaq», - deyə fikirləşdi.

Aminin gözləri ona nəsə demək istəyirdi. Amma nədənsə ehtiyatlanırdı.

- Qəddafi Tripolidən çıxıb, doğulduğu şəhərə pənah aparıb, - Süleymanın cavab vermədiyini görüb, əlavə etdi: - Düz edib, orada daha təhlükəsiz olar.

- Mən bunun çox da ciddi olduğunu düşünmürəm. Qəddafi heç vaxt təslim olmayacaq. Liviya Misir deyil. İran ona köməklik göstərir. Hər gün Afrika ölkələrindən Liviyaya yüzlərlə muzdlu əsgərlər gətirilir.

- Bu inam səndə haradandır? Məgər hər gün tökülən qanları, xarabalığa çevrilən şəhər-ləri görmürsən? Benqazi artıq «Azadlıq ordusu»nun əlindədir. Milyonlar hesabına Liviyaya gətirilən qara dərili əsgərlər bu torpaqda gəbərəcək. Ən yaxşısı isə gəldikləri kimi geri qayıdacaqlar.

- Tutaq ki, belədir. - Süleyman çiyinlərini oynatdı: - Bu nəyi dəyişir?

- Sən korsan? - Amin səsini ucaltdı. - Bir ətrafına bax, gör nələr baş verir. Liviyada «ərəb baharı» sona yetməkdədir. Qəddafi özü ölümünə fitva verdi. Əfqanıstanı nə tez unutdun? O vaxt mən olmasaydım, ruslar səni diri-diri yandıracaqdı. Mən həyatımı riskə qoymuşdum...

- Hə, Amin, mən hər şeyi başa düşürəm. Sənə bir can borcluyam, ancaq onu Liviyada vermək istəmirəm.

- Səndən can istəmirəm, bizə kömək lazımdır. Qəddafi əsgərlərini xalqın tərəfinə keçir. Nə qədər gec deyil, fikirləş!

- Bu, o qədər də asan deyil. Qəddafinin hər yerdə görən gözü, eşidən qulağı var.

- Bilirəm, sənə kömək edəcəyik. Bakıdan Osman, İngiltərədən Əli gəlib. Onların sənə deyiləsi sözü var.

Amin Mustafaya işarə elədi. Mustafa açıq qapıya bir-iki ağız öskürdü. Bu, o demək idi ki, gələ bilərsiz. Süleyman arxasını qapıya çevirmişdi, onların gəldiyini görmədi. Əlləri xəfifcə titrədi. Süleyman Qəddafi ordusunda kiçik zabit rütbəsində xidmət edirdi. Komandiri Hüseyn Rəbbinin üsyançıların tərəfinə keçən gün ona dediyi sözləri xatırladı: «Biz Qəddafi ordusunu məhv edəcəyik. Onlar it kimi gəbərəcəklər. Sən ki, ərəb deyilsən, Qəddafi sənin nəyinə lazımdır? Ən cəsarətli, ən ağıllı adam odur ki, ölümə icazə vermir, onun fikirlərini idarə etsin...»

Amin Əli Rukeyi müsəlman ölkələrində çalışan, mərkəzi ingilis kəşfiyyatının ən təc-rübəli və ağıllı agenti idi. Onu Əfqanıstanda bir neçə dəfə yaxalamaq istəsələr də, məharətlə əldən sürüşərək yox olmuşdu. Liviyada lövbər saldıqdan sonra dindarlar arasında böyük hörmət qazanmışdı. Amin istədiyi yerdə, istədiyi vaxt peyda olur, ingilis casusu kimi bütün Şərqi müsəlman dövlətlərini dolaşmışdı. Atası liviyalı köçəri ərəb qəbiləsindən idi. Varlı olmasalar da, kasıb da deyildilər. Atası onu təhsil almaq üçün Londona göndərmişdi. Bir çox dilləri bilən Amin, xüsusi əməliyyatları çox asanlıqla yerinə yetirirdi. O, Liviyaya köçürü-ləndən sonra, Benqazinin görkəmli məhəllələrinin birində ev aldı. Böyük Britaniya Mərkəzi Kəşfiyyat İdarəsi onu yaşına görə ehtiyatda saxlayırdı. Süleyman başa düşməyə çalışırdı ki, bu ərəbəsilli ingilis casusu niyə bu qədər müsəlmanların taleyini düşünür? Süleyman yaşına görə çox şey eşitmişdi. Bir-birindən fərqli, - ağıllı, axmaq, məkrli insanlar görmüşdü. Həmişə də fikirləşirdi, görəsən Amin o arıq çiyinlərinə niyə bu qədər ağır yük götürür?..

- Əgər mən razılaşmasam? - Süleyman dilləndi: - Mənə qulaq asın, siz şərtlərinizi çox tez irəli sürürsünüz?

- Xeyr! - Amin cavab verdi. Ağıllı adamlar sübut etməyə çalışır ki, hər ağaca bir bağ-ban tapmaq olar, əgər gələcəkdə onun meyvəsi olsa.

- Tamamilə haqlısan! Süleymanın əkdiyi ağaclar

həmişə meyvə verib, özü də necə?

Mustafa qapıdan kənara çəkildi.

- Heyvərə! - Süleymanın səsi titrədi. - Əgər sən.., bir də sən.., onda nə edəcəyimi bilmirəm? Bu çox qorxulu oyundur.

Amin fikrə getmişdi. O, saqqalını sığalladı. Bu onun adəti idi, qərar qəbul etməzdən əvvəl saqqalını sığallayırdı.

«Əlbəttə, risk var, bunu məndən yaxşı kim bilə bilər? Əli də ingilis kəşfiyyatına işləyir, lakin peşəkar deyil. Qabaqlar hər şey başqa cür idi, ayrı zaman idi...» Amin çox ölkələrdə təcrübəli kəşfiyyatçılar görmüşdü. Bəzən ən təcrübəli ca-suslardan belə canını qurtara bilmişdi. Amin gülümsədi, gözlərində bir anlığa parlayan qığılcım içərisinə düşərək onu isitdi. Ürək ağrısı ilə o günləri xatırladı. Artıq gəncliyin keçən günləri yaddaşının cəngəlliklərində yoxa çıxmışdı. Sadəcə hər şey ona real görsənirdi. Elə bil yuxu deyildi. Atası ona deyərdi: «İnsan ölmür, əgər onu yada salan varsa»

Süleyman arxaya çevriləndə gördüklərinə inanmadı. Osmanla Əli ara qapının ağzında dayanaraq ona baxırdı:

- Aman Allah! Mən yuxumu görürəm, - O yıxılmamaq üçün Amin oturan taxtdan yapışdı: - Bu ola bilməz... Dağlar şahini səhralarda nə gəzir?

Süleymanın gözləri yol çəkdi, bu dolanbac yollar onu on beş il geriyə apardı. Əlini Dağıstan sərhəddindən Azərbaycana keçirərkən dediyi sözləri xatırladı: «Ağıllı adam ömrünün axırında başa düşür ki, ancaq kənardan

baxanlar üçün dəhşətlidir, onun üçün yox. İnsan anadan ölməz doğulmur, biz özümüz, ölümü axtarırıq. Təbiət özü insana ölüm haqqında fikirləşməyə imkan vermir, ona görə ki, bunu fikirləşsən, həyatın cəhənnəmə dönə bilər. Əgər bizə seçim verilsəydi ki, ölmək, ya dünya durduqca yaşamaq? Onda seçim çox ağır olardı».

Ruslar bilirdi ki, Süleyman şəhərdədir. O, Dağıstana Kabuldan yenicə gəlmişdi. Ruslar onun hər addımını izləsələr də, Süleyman onları aldada bildi. O, qoca, bic tülkü kimi tələdən çıxdı. O vaxtdan on-on beş il keçsə də, onlar bir daha görüşmədilər. Süleymanın nəfəsi tın-cıxdı. Yaxalığını boşaldaraq köynəyinin düymələrini açdı.

- Süleyman! - Osmanın səsi titrədi, yadındadır, Ömər bizə nəyi öyrədirdi? Bəzən xətalar xəyal olsa da, gerçək görünür. Gəl yanımıza, qardaşım. Ümid insanın dayağıdır, hə-mişə ona söykənmək olar.

Onlar yaman günlərin dostları kimi qucaqlaşıb görüşdülər. Əli Süleymanı özünə sıxaraq dedi:

- Əgər günahkar bir tərəf olsa, müharibələr çox uzun çəkmir...

Süleyman, biz bura xüsusi tapşırıqla gəlmişik. Sən Qəddafi ordusunun zabiti kimi Osmana kömək etməlisən ki, Liviyada yaşayan azərbaycanlıları Suriya sərhəddindən Türkiyəyə keçirə bilsin. Bu işdə Mustafa ilə Azim Hüseyn sənə köməklik edəcək. Azim Hüseyn ordudan xalq üsyançıları tərəfinə keçən ilk zabitlərdən biridir. Ona inanmaq olar.

- Elə bu? - Süleyman təəccüblə onlara baxdı. - Biz birlikdə bundan qat-qat çətin olan işlərin öhdəsindən gəlmişik.

- Yox! Bu, hələ hamısı deyil. Əgər unutmamısansa, çeçen xalqı milli azadlıqlarını almaq üçün Rusiyaya qarşı qeyri-bərabər döyüşə girmişdi. O zaman sən də, bizim aramızda idin. Artıq xalqlar diktaturanın zülmü altında yaşamaq istəmir. Əvvəl Tunis, sonra Misir, indi də Liviya. Biz Liviya xalqına kömək etmək üçün buradayıq. Mən Benqazidə keçid hökumətinin rəhbər-ləri ilə görüşmüşəm. Bir az tez, bir az gec Qəddafi məğlub olacaq. Günahsız insanların qanı tökülməsin deyə, sən bizə köməklik etməlisən.

- Bu necə ola bilər? Mən həmişə nəzarət altındayam.

- Olar, Süleyman! - Osman Əliyə göz vurdu. - Biz səni göydə axtarırdıq, yerdə əlimizə düşmüsən.

Osman incik halda Süleymanın qolunu buraxdı.

- Sən bir buna bax, öz xalqını azad edə bilmədi, indi də diktatora qulluq edib, Liviya xalqını qırğına verir. Yaxşı söyləyiblər: «Hamının dostu, heç kəsin dostu deyil».

- Onda nəyi gözləyirik. Boş-boşuna danışmaq qısır ağac kimidir, çoxlu yarpaq gətirsə də, meyvəsi olmur.

- Səhra komandirimiz Ömərin bizə dediyi yadındadır? - Süleyman yaşarmış gözlərini Əliyə çevirdi. - «Dostu seçəndə tələsmə ki, onu itirəndə sevinəsən, tapanda ağlayasan». Allah, sənə min şükür! Mən səni ölmüş bilirdim. Demə «Şahin» göylərdən yerə enib.

Üç dost yenidən bir-birinə sarıldı. Amin də, Mustafa da heyrətlə onlara baxırdılar. Amin bunu gözləmirdi. Onların bir-birini tanıması, döyüş dostları olması işi asanlaşdırırdı. O, ra-zı-lıqla saqqalını sığalladı. Kərim işarəni anlayaraq çay süfrəsi düzəltmək üçün tez mətbəxə getdi. Bir az keçəndən sonra yaxşı dəmlənmiş ətirli yaşıl çaydan özbək piyalələrinə süzərək süfrəyə düzdü.

- Dostunu tənqid edərkən, yalnız bir məsələdə qoxmaq lazım deyil, - Amin boşaltdığı piyaləsini Kərimə uzatdı: - O vaxt ki söhbət həqiqəti onun üzünə deməkdən gedir. Sən bununla dostuna olan sevgini göstərirsən. Gəlin keçək əsas mətləbə, görək dostları Süley-mandan nə istəyir.

Kərim piyaləni yenidən çayla doldurdu. Amin bir-iki qurtum çay içdikdən sonra piyaləni yerə qoyaraq dedi:

- Mənim rəhmətlik nənəm deyərdi ki, insanın ağlı özünə yol tapa bilməyəndə o, məhv olur. Ağıl cilalanmış qılınc kimidir, nə qədər çox işlətsən, bir o qədər də çox parıldayar. İnsanın var-dövlətini itirməsi qorxulu deyil. Qorxulu odur ki, azadlığını, vətənini, bir də ləyaqətini itirəsən. Bu dünyada iki yol var: yaxşı və pis. Hansı yolla getməyi özünüz seçin...

Süleyman birinci yolu seçdi. Tabeliyində olan əsgərlər və hərbi texnika ilə birlikdə xalq üsyançılarının tərəfinə keçdi. Artıq Liviya «Azadlıq ordusu» Tripolinin ətrafına qədər irəliləmişdi. Gecə-gündüz ölüm-dirim mübarizəsi gedirdi. Üsyançılar böyük itkilər versələr də,

mövqelərindən geri çəkilmədilər. Süleyman əsgərlərinə deyirdi:

- İnsan o vaxt azad olur ki, vətənini sevsin. Xalqının diktaturadan azad olması üçün sərbəst düşünə bilsin. Qəddafi kimi diktatorlar bu sevgini, sərbəst düşünmə imkanını bizim əlimizdən alıblar. Allah, vətən və azadlıq uğrunda sizi mübarizəyə səsləyirəm. Əgər səsimə cavab versəniz, hamımız bir olsaq, biz qalib gələrik.

Süleyman Qəddafi ordusunun komandirləri arasında da təbliğat aparırdı. Onun sayəsində artıq onlarla yüksək rütbəli zabit xalq üsyançılarına başçılıq edirdi. Bir gün təbliğat apardığı yerdə onu yaxaladılar. Polkovnik Süleymanı yaxşı tanıdığından onu yanına çağırdı. Bir müd-dət hər ikisi susdu.

- Azadlıq qəfil yağan qar kimidir, cənab polkovnik, onu güclə yox, diqqət və sevgi ilə əldə etmək olar. Bu həyatda yaşamaq üçün birinci şərtdir.

- Süleyman, belə şeylərdə gərək ehtiyatlı olasan, yoxsa özünü də, bizi də məhv edə bilərsən. Cəsarətin də bir həddi olmalıdır. Burası Liviya torpağıdır, biz kişi kimi vuruş-ma-lıyıq.

- Kişilik və cəsarət insana ona görə verilmir ki, xalqını daim xof altında saxlayan dikta-tora boyun əyib alçalasan. Ona görə verilir ki, əldə silah düşmənə qarşı vuruşasan.

- Biz əsgərik, əmrə tabe olmalıyıq.

- Doğrudur, biz əsgərik, ancaq kimə qarşı vuruşuruq.

Mən ərəb deyiləm, ancaq azadlıq qazanmaq istəyən bütün ərəbləri sevirəm. Öz xalqına güllə atan kişi deyil. Əsl kişilik döyüş vaxtı bilinir. Əgər diktator görsə, biz qaçırıq, ağrıları artdığı kimi, əsgərlərinin sayı da azalacaq. Qəddafi çox rəhmsiz və qəddar olub. Məsələ o zaman yumşalacaq ki, düşmənin qabağından qaçmayasan, ona müqavimət göstərməyi bacarasan, azadlıq uğrunda vuruşmağı da. Məncə, ən şərəfli yol budur.

- Yaxşı! Sən haqlısan, məni inandıra bildin.

- Millətin azadlığı, bizim də azadlığımızdır. Əsgərlərinizə əmr verin, üsyançılara güllə atmasınlar. Diktatorun axırı çatıb, «Xalq Azadlıq Ordusu» Tripolini mühasirəyə alıb. Hər gün NATO təyyarələri Qəddafinin hərbi obyektlərini, qərargahlarını, onlarla, minlərlə insan əməyinin hesabına tikilən saraylarını bir göz qırpımında məhv edir. Məgər bunları görmür-süz? Özünüzdə cəsarət tapın və «Xalq Azadlıq Ordusu»na qoşulun. Hələ gec deyil.

Hadisələr o qədər tez inkişaf edirdi ki, artıq ona kənardan baxmaq qeyri-mümkün idi. Polkovnik Əmir Hüsnü də Süleymanla razılaşmaya bilmədi. Üç gün sonra Tripoli uğrunda gedən döyüşlərdə Əmir Hüsnünün başçılıq etdiyi bütöv bir diviziya, ağır texnikası ilə birlikdə xalq üsyançılarının tərəfinə keçdi.

## V fəsil

... - Mənə müstəntiq deyib ki, Hacı Məmmədovun Kamil adlı dostu var. Buna qədər mən Kamili tanımamışdım.

- Sən bunu Eldar Rəhimovun söhbətindən demisən?

- Mənimlə Eldar Rəhimov arasında belə söhbət olmayıb. O vaxt Elçin Əliyev tamam başqa bankda işləyirdi.

- İfadəni imza edərkən, sənə dedilər ki, orda nə yazılıb?

- Mən ümumi olaraq bilirdim. Vəkil mənə demişdi.

- Sən protokolun sonunda niyə qeyd etmədin ki, ifadələr düz deyil?

- Orada mənə desəydilər ki, atom bombası var, mən ona da qol çəkərdim.

- Oqtay Babayevin oğurlanmasını Hacı Məmmədova kim təklif etmişdi?

- Bilmirəm. Adətən o, bankirləri təklif edirdi. Güman edirəm ki, bu nişanı ona Elçin Əliyev verib. O, tez-tez Hacı Məmmədovun yanına gəlirdi. Onlar məxfi söhbətlər edirdilər.

- Məhkəmədə verdiyin ifadələrdə Elçin Əliyev barədə heç nə bilmədiyini demisən.

- Bu müstəntiqlərin nağılıdır.

- Niyə qol çəkirdin nağıla?

- Mənə nə verirdilər, ona da qol çəkirdim.

- Niyə günahsız adamlar barədə ifadə verirdiniz?

- Həmin ifadələri müstəntiqlərin və başqa şəxslərin təzyiqi altında vermişəm.

İstintaq materiallarından...

***

A.Cintamirovun ifadələrindəki digər ziddiyyətli məqam Azər İsmayılovun qətli ilə əlaqədar idi. Bu epizod üzrə məhkəmə qapalı keçirildi. Elçin Əliyevin barəsində toplanan materiallarda onun üzərinə kölgə salan məqamlar çox idi. Nədənsə istintaq hüquq müstə-visində aparılmadı. Müstəntiqlər hadisələri məişət səviyyəsinə endirərək Elçinə qarşı şübhə-ləri bacardıqları qədər azaltdılar. İstintaqı başqa istiqamətə yönəldən kimlər idi?

Elçin Əliyevə qarşı irəli sürülən ittihamların hamısı Nailə Quliyevanın Hacıdan eşitdiyi sözlər üzərində quruldu. Başqasının sözlərinə istinadən verilən ifadə sübut deyil. Bunu qanun da təsdiqləyir. Elçin Əliyev həbs olunan zaman intihara cəhd göstərmişdi. Bunun səbəbi istintaqda göstərilmədi. Niyə? Əgər o, Hacının cinayətlərindən xəbərsiz idisə, niyə özünü öldürmək istəyirdi? Silahı əlinə götürməkdə nə məqsəd güdürdü? Elçin Əliyev əlindəki silahla yaşadığı binadan şəhərin mərkəzinə çıxmışdı. Özünü öldürmək istəsəydi bunu otağında edə bilməzdimi? Bəlkə o, kimisə öldürməyə çalışırdı? Kimi? Aradan beş il keçsə də, bu sual hələ də cavabsız qalmışdı.

Hacı Məmmədov Elmar Hüseynovun qətli ilə bağlı açıqlama verdikdən sonra, fikir yarandı ki, o, bacısı oğlunu xilas etmək üçün bu cinayəti öz üzərinə götürüb.

Hacı yalan danışırdı. Hansı məqsədlə yalan ifadə verdiyi Hacının özünə və sövdələşdiyi onu qoruyan qara əllərə bəlli idi. Söhrab Bakı Apellyasiya Məhkəməsində onun verdiyi cavabları xatırladı. Vəkil Adil İsmayılovun suallarını cavablandırarkən, əsəblərini cilovlaya bil-mirdi. Məhkəmə zalında şahid qismində oturan Söhrab başa düşürdü ki, Hacını əsə-bi-ləşdirən səbəb nədir. Hacı yerində otura bilmirdi, tez-tez ayağa durub əl-qol atırdı. O zaman Söhraba elə gəlmişdi ki, Hacı çox şeyləri aydınlaşdıra bilər, tez də bu fikri özündən uzaqlaşdırmışdı.

- Burda verdiyiniz ifadələr nə dərəcədə doğrudur?

- Hacı zarafat etməyi çox sevir. - Kimsə məhkəmə zalından söz atdı: - Adamları da zarafatla öldürüb.

- Sualınızı dəqiq verin, o da cavab verə bilsin. Ola bilər ki, bəzi şeyləri yadından çı-xarıb.

Söhrab dəmir barmaqlıqlar arxasında oturan Hacıya baxırdı. Ona elə gəldi ki, Hacı qocalıb. Söhrab öz içi ilə danışırdı: «İnsan gəncliyində nə qədər çox səhv buraxsa, qocalanda o səhvləri yaşamaq məcburiyyəttində qalacaq. Bizlərdən heç birimiz gəncliyin tez ötüb keçməsinin fərqinə varmırıq. O zaman ki, ayılırıq, qocalıq artıq boynumuzda oturmuş olur...»

- Hacı, mən sualları sizə bəzi məsələlər aydın olsun

deyə verirəm.

- Verin...

- Azər İsmayılovun qətlindən Zakir Nəsirovun xəbəri olubmu?

- Planlaşdırmada iştirak etməyib.

- Elçin Əliyevdəmi xəbərsiz olub? Bu cinayətin heç bir epizodunda onun adı çəkilmir.

- Elçin Əliyevin bu qətldən xəbəri olmayıb. Qətldən sonra Zakir Nəsirovun xəbəri olub.

- Siz nə ilkin istintaqda, nə də məhkəmə istintaqında bu barədə bir söz deməmisiz. Sizi Zakir Nəsirovla üzləşdirəndə isə susdunuz. Niyə?

- Belə lazım idi. Zakir Nəsirov Fətulla Hüseynovun sifarişçisinin kim olduğunu bilir. Qoy özü desin... Bu qətllə bağlı istintaq çiy aparılıb...

- Hacı, həyatınızda bir dəfə də olsa vicdanınızın səsinə qulaq asın. Bundan sonra Ali Məhkəmə gəlir. Orada sizə ehtiyac olmayacaq. Deyin sifarişçilərin adlarını, onların cinayət-ləri daha böyükdür.

- Sualınıza cavab vermirəm. Mən danışsam, - Hacı əlini yellədi, - zamanı gələndə hamısını deyərəm...

Zaman!.. Axı nə vaxt gələcək bu zaman? Kim bilir, bəlkə də heç gəlmədi. Zamanı saxlamaq olarmı? Söhrab Türkiyədə toplantıda olarkən, türk həmkarının ona dediyi sözləri xatırladı: «Böylə keçər bir zaman ki...» O, ürəyində həmkarına haqq qazandırsa da, zamanın elə-beləcə keçəcəyinə inanmırdı. Köməkçinin otağa girməsi Söhrabı yaxın keçmişdən qaytardı.

- Cənab polkovnik, çayçı Məhəmmədi və iranlı Feyzini gətiriblər...

- Gətirsinlər!

Söhrab telefon dəstəyini götürüb diski bir neçə dəfə fırlatdı: «İstintaq materiallarını da götürüb həmən yanıma gəlin!»

Çayçı Məhəmməd çətinliklə də olsa, həyəcanını gizlətməyə çalışırdı. Feyzi barmaqları ilə dizini döyəcləyirdi.

Onların arxasında iki polis nəfəri dayanmışdı. Xumar Kamranla içəri girib onları nifrətlə süzdü:

- Özgə tüstüsü xoşunuza gəldimi?

- İndiyə qədər şikayət edən olmayıb! - Çayçı Məhəmməd ona xas olmayan səslə cavab verdi. Sonra Söhraba sarı dönüb dedi: - Bunlar məni yanlış yaxalayıblar. Mənim polislə həmişə yaxşı əlaqələrim olub. Biz sakit bir yerə keçib təklikdə danışa bilərikmi?

- Yox, heç vaxt - Xumar Söhrabın əvəzinə cavab verdi. - Biz sizi iş başında yaxalamışıq.

Xumar qovluğu açıb bir neçə kağız çıxartdı. Onları polkovnik Kazımova uzatdı:

- Çayçı Məhəmməd bu dəfə ünvanı səhv salıb. Cənab polkovnik, tapşırdığınız sənədləri arxivdən tapa bildik.

Xumar gülümsüyərək Söhraba baxdı:

- Həqiqəti üzə çıxarmaq üçün bəs edər. Bu ucaboylu, yanağında çapığı olan adamın adı Feyzi deyil. Qadını öldürdüyünə görə axtarışda olan Ağamirzədir. On gün əvvəl Astaradan sərhəddi keçərək, ölkəmizə

qaçaqmalçılıq yolu ilə külli-miqdarda narkotik maddə - heroin gətirib. Astaranın sərhəd kəndi Cinlidə Nuru adlı bir kişinin evində gecələyib. Həmin gecə təhlükəsizlik orqanları tərəfindən həbs edilsə də, bir neçə saatdan sonra azadlığa buraxılıb.

- Məqsəd?

- Kimlərlə əlaqədə olduğunu öyrənmək üçün. Feyzi buraxılan saatdan nəzarətə götü-rülüb. Dəqiqləşdirilmiş dəlillərimiz olsa da, şübhəli məqamlar çoxdur. Biz onun Ağayi-Firuzla əlaqəsi olub-olmadığını öyrənmək istəyirdik. Lakin daha dəqiq faktlarla üzləşdik. Feyzi təkcə narkotik deyil, o, qaçaqmalçılıq yolu ilə sərhəddən silah-sursat da keçirib.

- Nurunu nə vaxtdan tanıyırsız?

- Üç il olar, o məni sərhəddən keçirəndə salamımız olub, lakin heç bir münasibətimiz yox idi.

- Alış-verişə nə vaxtdan başladız?

- Cinli kəndindəki sərhəd düşərgəsində bir zabit var, adını bilmirəm. Onu kapitan Musayev çağırırdılar. Mən gətirdiyimi ona verirdim, o da Nuruya. Mən bütün bunları Astara rayonunda həmkarlarınıza danışdım. Onlar məni Nurunun evində həbs etmişdilər. İnan-ma-dılar, dedilər ki, Nuru təmiz adamdır, sən ona şər atırsan. Sonra da məni sərbəst burax-dı-lar.

Söhrab Feyziyə qulaq assa da, fikri tamam başqa yerdə idi. Çalışırdı ki, Yasamal rayonunda beş il əvvəl baş vermiş dəhşətli cinayət hadisəsini yadına salsın. Şərifzadə küçə-sindəki evlərdən birində qadını

qəddarlıqla qətlə yetirmişdilər. Öldürülmüş qadının cəsədi bir neçə yerə parçalanmışdı. Qollarını isə kəsib gotürmüşdülər.

Qatilin kimliyini müəyyən etmək mümkün olsa da, özünü tapa bilmədilər. Beş il sonra axtarışı dayandırıb cinayət işini arxivə verdilər.

- Məni aldatmağa çalışmısan, - Kamran arxivdən gətirdiyi 1052-saylı ağır cinayətlərə aid olan qalın qovluğu Feyzinin təpəsinə çırpdı. - Belələrini həzm edə bilmirəm. Mən indiki cəmiy-yətə nifrət edirəm. Qatillər, yalançılar, vətən xainləri.

- Dövlət aparatına soxulan əclafların sayəsində belələri günü-gündən artır, çoxalır, inkişaf edir. - Kamran günahkar kimi Söhrabın üzünə baxdı.

Söhrab onun qolundan tutaraq kənara çəkdi:

- Heç vaxt bildiklərini danışmağa tələsmə, çalış nə danışdığını biləsən. Səni başa dü-şürəm, bu cinayət işini sən aparmısan. Qatili tapa bilmədin, o öz ayaqları ilə yanına gəlib. İnsanlar özlərinə o zaman oxşamırlar ki, qəzəbdən öz həqiqi naturalarını gizləyə bilmirlər.

Kamran bir anlığa buraxdığı səhvə görə özünü danladı. Ona elə gəldi ki, Söhrabın ona münasibəti dəyişə bilər. Söhrab onun çiyinlərini yüngülcə qucaqladı:

- Öz sirrini gizlət-mək, ağlın müdrikliyidir. Əgər ağlının yaxşı işləməsini istəyirsənsə, sinirlərinə fikir ver. Əsəblərini cilovlaya bilməyənlər üçün ağlın bir o qədər də əhəmiyyəti yoxdur. İndi get, bir az təmiz hava

al, qoy sinirlərin sakitləşsin!

Söhrab öz yerinə keçib əyləşdi. Aralıqda yaranmış gərgin sükutu pozaraq Feyziyə dedi:

- Qaçaqmalçılıqla məşğul olursan. İranda qiyafəni dəyişsən də özünü dəyişə bilmə-misən. Eşitdiyimə görə çeçələ barmağını İranda oğurluq etdiyinə görə kəsiblər. - Söhrabın səsi sərtləşdi: - Qadının qolları yox idi, onu harada gizlətmişdin?

- Bilmirəm, yadımda deyil. - Feyzi cavab verdi.

Xumar ona kiçik, qara bir açar göstərdi.

- Bu açarı harada görmüsən? Onu sənə kim verib?

Feyzi uzun müddət gözlərini açardan çəkməsə də, cavab vermədi.

- Sən o qadını «Qarabulaq»dan gətirəndə, Hacı sənə niyə qadını öldürməyi tapşırdı? Nə baş verdi? Onu niyə öldürdün? Həmin gecə vağzalda saxlama kamerasına qadının qollarını niyə qoymuşdun? Əgər cavab verməsən, səninlə başqaları məşğul olar. Onlar səninlə tez dil tapar.

Feyzi başını qaldırıb Xumara baxdı: - «Zəiflərin güclüsü olmaqdansa, güclülərin güclüsü olmaq yaxşıdır», - deyə fikrində Xumara haqq qazandırdı.

- Cənab mayor, mən Hacı Məmmədovun sürücüsü idim. «Mersedes - 600» markalı ma-şını sürürdüm. Hacı bu maşından ancaq məşuqələri üçün istifadə edirdi. Nədənsə mənə çox inanırdı. O qadının Hacının yanında suçlu olub-olmadığını bilmirdim. O mənə dedi ki, qa-dının əllərini vağzaldakı saxlama kamerasına qoyum.

Bu açarı da o mənə verdi.

- Niyə İrana qaçdın?

- Hacı özü tapşırmışdı. Dedi, bir müddət İranda qal, sonra özüm çağıracam səni. Hacının sərhəddə bir kapitan dostu vardı. «Mersedes - 600» markalı maşını ona verdim, o da məni sərhəddən keçirdi.

Söhrabın ağrıdan gicgahları zoqquldayırdı. Bədən üzvlərinin bir-birinə olan diqqəti, qəlbin bədənə olan diqqəti kimidir. Belə olsa insan həkimsiz də sağala bilər. Ürəyində hə-kiminə haqq qazandırsa da, başqa cür edə bilmirdi. Nə qədər ki, Hacı kimiləri bu torpağın üstündə yaşayır, - «Mən Tanrının qəzəbiyəm. Torpaq mənim ayağımın altında titrəyir!..» - deyirlər qəlbin bədənə diqqət yetirməsi mümkün deyil. Söhrab ürəyində Kamrana haqq qazandırdı. Həqiqət həmişə hakimiyyətdə olan adamlar üçün qorxuludur. Ona görə onların əksəriyyəti yaramaz olur və həqiqəti sevmirlər. Düşünmədən instinktlə hərəkət edir, bu da onları çox vaxt bədbəxtliyə aparır.

- Nuru sənə Feyzinin gələcəyini xəbərdar etmişdimi? Buzovnadakı evindən tapılan silah-sursat, kimin üçün hazırlanıb? Niyə onları zirzəmidə gəzlətmişdin?

- Siz dəli olmusuz? Ağzınızdan çıxanı qulağınız eşidirmi? - Məhəmməd özündən çıxdı: - Nə mal, nə silah, bunlar haradan çıxdı canım?

- Amma Nuru kişi başqa hava çalır. İstintaqa verdiyi ifadəsində hər şeyi boynuna alıb. Astaradan Bakıya gətirilən narkotik malları və silah-sursatı çayçı

Məhəmmədin Buzovnadakı evinə göndərdiyini deyir. Sən isə narkotikləri Dağıstan sərhəddindən gömrükdə olan «dost-ların» vasitəsilə Rusiyaya keçirirsən. Əsədin vasitəsilə Qubadakı dostun Molla Qurbana İran-dan göndərilən silah-sursat və partlayıcı qurğular vermisən.

- Tövbə, ə tövbə! Allah, keç bunun günahından. Mömin bəndənə şər atanları bağışla...

- Çərənləmə... De görüm dünən gecə nə baş verməli idi?

Molla Qurban artıq həbs edilib. Qurbanın arvadı iranlı qadındır. Molla Qurban və onun dindar qardaşları ölkədə çevriliş etmək, terror aktları törətmək, İsrailin və yüksək rütbəli xarici səfirliklərin vətəndaşlarını qətlə yetirmək üçün İranın Mərkəzi Təhlükəsizlik İda-rə-sindən sifariş alıblar. Sən də onlara köməklik göstərmisən.

- 2009-cu ilin may ayını yadına sal! - Söhrab Xumara işarə etdi ki, sakitləşsin, - bilmək istərdim necə oldu ki, çayçı Məhəmməd onlarla alış-verişə razılaşdı.

- Eyni resept ilə, başqaları necə, mən də elə. İrana getmişdim. Məqsədim Kərbəlaya gedib İmam Rzanı ziyarət etmək idi. Ərdəbildə Qurbanın qaynı ilə görüşdük. Səhv etmi-rəm-sə adı Qulammirzə idi. Cəmi iki dəfə onunla görüşmüşəm. İran xəfiyyəsində işləyirdi.

- Bu iki görüş arasında nələr baş verdi? Nuru kişi ifadəsində göstərir ki, Molla Qurbanın ismarıcı ilə səni Ərdəbildə həbs ediblər.

- Mən olub keçənləri demək istəmirəm. Mənə bir neçə kağıza qol çəkdirəndən sonra bu-raxdilar. Bu

düzdür. Lakin ortada təkzibedilməz faktlar var. Mən İrandan qaçaqmalçılıq yolu ilə gətirilən malların alış-verişilə məşğul olmalı idim. Mənə kömək etmək üçün bir qadın da ayır-mışdılar. Adı Simuzər idi, o qadının. Səhv etmirəmsə, onların məxfi xəfiyyəsi idi. Bakıda Validə adlı bir rəfiqəsi də var. Tez-tez İrana bir yerdə gedib-gəlirlər. Mən bundan artıq bir şey bilmirəm. Gizli təhlükəsizlik xidmətində başqa qaydalarla işləyirlər.

Artıq çayçı Məhəmməd üçün heç nəyin fərqi yox idi. Ona elə gəlirdi ki, bu əsl yan-lışlıqdır. Bəlkə də belə idi, kim bilir? Hər şeydən əvvəl gərək istək olsun. İstək olan yerdə ən çətin həyat belə sadələşir. Kor olmuş gözlər də ətrafda nələrin baş verdiyini görür. Söhrab Xumarın qolundan tutaraq onlara yaxınlaşdı:

- Yaxşı-yaxşı bax. Belələrini həyatımızda çox görmüşük. Şərəf və vicdan əkiz qardaşlardır. Onların heç biri bunlarda yoxdur. Çayçı Məhəmmədin istntaq işini tamamlayın, Feyzinin cinayət işi ilə birlikdə MTN-ə verin. Mür-səllə danışmıram. Cinayət cəzasız qalmamalıdır.

Küçədə sulu qar yağırdı, dəli Bakı küləyi güclənmişdi. Küləyin gücü artdıqca, vıyıltısı çoxalırdı. Belə havalarda Söhrabın ürəyi sancırdı. Qocalığın «gizli» gözəlliyi özünü göstə-rirdi. Söhrab divanda oturub başını arxa söykənəcəyə qoymuşdu. Başında fikirlər bir-birinə qarışmışdı. Nə vaxt gəncliyinin ötüb keçdiyini duyursan, başa düşürsən ki, təkrarolunmaz həyatını geri qaytara bilməyəcəksən. Onda ürək dostunu

axtarırsan. Bu isə asan olmur. Ancaq həyatının sonuna qədər çox şeyləri unuda bilsən də, tək bircə dostunu unuda bilmə-yəcəksən. O da sənin gəncliyindir.

***

Marina gecikirdi. Dəqiqələr keçdikcə Əlinin həyəcanı artırdı. Tripolinin yarı dağıdılmış küçələrinin birində xudmani gecə kafesi vardı. Gizli görüş üçün ən əlverişli yer bura idi. Burada bir fincan qəhvə içməklə kiminlə istəsən görüşə bilərdin. Əli kiçik otaqda, gözlərini qapıya dikərək oturmuşdu. Nədənsə bu kafe Əliyə Çesterdəki «Fərqanə» çayxanasını xatırlatdı. Hə-min gecə Əli bu çayxanada İsadora ilə görüşmüşdü. Gecədən keçmiş evinə qəmgin və fikirli qayıtdı. Yol boyu öz-özü ilə danışırdı. İlahi, mənə güc ver ki, ailəmi qoruya bilim. Axı sən hamıdan güclüsən. Güclü olanlar bağışlamağı bacarırlar. Sən də, məni bağışla. Zəiflərə kö-mək etmək üçün güc ver. İlahi, mənə sağlam düşüncə ver ki, fikirləşə bilim...

- Niyə belə kədərlisən? Yoxsa əvvəlki həyatının səhifələrini vərəqləyirsən. Məgər mənə güvənmirsən? Pis insanlar dünyanın hər yerində var, - Mariya ondan soruşdu. Bunu ki, sən yaxşı bilirsən!..

Bu sözlərdən sonra Əlinin qəlbinə sakitlik çökdü. Onda yenidən ümid yarandı. İnsanın gizli gözəlliyi onun fəaliyyəti dövründə özünü daha qabarıq göstərir, nəinki qalan ömründə. Həyat sənə qiyməti olmayan böyük istedad verib.

On il əvvəl bu sözləri ona səhra komandiri Ömər demişdi. Əli bu sözləri xatırlayarkən onun necə də düzgün deyildiyini anladı.

- Gec gəldiyin üçün narahat olmuşdum. Şəhərdə qarmaqarışıqlıqdır. Dostla düşməni seçmək o qədər də asan deyil.

- Niyə ki?! Sənin kimi dostu olan düşməni neynir?

Hər ikisi güldü, bu gülüş aradakı gərginliyi azaltdı:

- Bu gün səninlə Ayrişa görüşməli idi. Amazonkaları saraydan çıxarmaq ucuz başa gəlmir. Mən onu Aminin yanına göndərdim. Süleymanın ismarıcını ona çatdıracaq. Səninlə də vidalaşmağa gəlmişəm. Səhər mən yoxa çıxacam. Süleymanla Osman dünən axşam Liviyada yaşayan azərbaycanlılarla, özbəkləri Suriya sərhəd-dindən dünən axşam Türkiyəyə keçirdilər.

- Bunlardan xəbərim var. Sən mənə hərəkət planını ver. Əgər bunu bacarsaq...

- Hə, əlbəttə, bacararıq. Bu gecə hər şeyi həll edəcəyik. Üsyançılar Tripolini ələ keçir-dik-dən sonra Müəmmar Qəddafi doğma şəhəri Sirtə qaçdı. Onun başqa yolu qalmamışdı. Onun yanında amazonkalar və az miqdarda şəxsi qvardiyası qalmışdı. Mən hər şeyin planını çəkmişəm. Burada yol xəritəsi, hərəkətin dəqiq vaxtı göstərilib.

Marina barmağını iri bir nöqtənin üstünə qoydu. Kortej burdan keçəcək. Bu yol heç kəsə bəlli deyil. Kordinatları dəqiqləşdirmişəm. Heç bir səhv ola bilməz. Onlar səhər tezdən, saat altıda hərəkətə başlayacaqlar.

Deyəsən Səudiyyə Ərəbistanına qaçmaq istəyir.

- Bəs sən hara yoxa çıxmaq istəyirsən?

- Mənim əsl adım Gülsümdür, bunu bilirsən. Anam Suriyada yaşayır. Bacımın faciəvi ölümündən sonra daha Liviyada qala bilmədi. Böyük bacım Qəddafinin gəlini idi. Əri onu səkkizinci mərtəbədən yerə tullamışdı. Mən and içmişdim ki, bacımın intiqamını alacağam. Buna Allah özü yol açdı.

Marina gözyaşlarını əlinin dalı ilə silib dedi:

- Qüsura baxmayın, mən iradəsiz adam deyiləm. Beş ildir ki, rus kəşfiyyatına işləyirəm. Amazonka olmağımın səbəbi budur.

- Blirsən də amazonkalar keçmişdə də olub. Bu cəsur qızlar xalqının azadlığını, vətənlərini yadelli işğalçılardan qorumaq üçün döyüşüblər. Rəvayətə görə, amazonkalar hündürboylu, qəşəng, məğrur görkəmli və güclü qadınlar olublar. Hələ körpəlikdən onların sağ döşlərini qızarmış dəmirlə yandırır, böyüməsinə imkan vermirdilər. Bu isə o qızın sağ qolunun güclü olması üçün edilirdi.

- Hə, amazonkalar haqqında mənim də məlumatım var. Atam danışardı, eramızdan əvvəl 484-425-ci illərdə Kiçik Asiyada yaşayan amazonkalar döyüş zamanı yunanlara əsir düşürlər. Əsir aparılan zaman amazonkalar gəmidəki yunan kişilərini öldürürlər. Lakin gəmini idarə edə bilməyən amazonkalar özbaşına axınla Meoti gölünün, indiki Azov dənizinin kənarında yaşayan skif tayfalarının torpaqlarına gəlib çıxır, orada at ilxısı

ələ keçirir və skif tayfalarını qarət etməklə məşğul olurlar. Amma amazonkaların ilk yaşayış yeri çox maraqlı olsa da, bunu mən bilmirəm.

- Məlumata görə amazonkaların ilk tayfaları Qafqaz dağları ətəklərində yaşamışlar. Amazonkalar haqqında çoxlu rəvayətlər yaranmışdır. Albanlar amazonkalarla qonşu olublar. Arvadım deyir ki, Plutarxın yazdıqları daha dəqiqdir. O göstərir ki, amazonkalar romalılarla vuruşmada albanlara kömək etmişlər. Alban çarlığı isə qədim Azərbaycan torpaqlarını əhatə edib. Qədim tarixçilərin amazonkaların kaspi, laz, leklərlə qonşuluğu haqqındakı məlumatı onların Azərbaycan və Dağıstan tayfalarına məxsus etnik qrupların əcdadları olmasını sübut edir. 1992-1993-cü illərdə İçkeriya dağlarında çeçen «amazonkaları» heç də bizdən pis döyüş-mürdü. Lakin sizin amazonkalar diktatoru qoruyur...

- Sən düz deyirsən, bizim amazonkaların yaradılmasında polkovnik Sergey Şmelevin böyük xidmətləri olub. Onun yaratdığı amazonka dəstələrinə ilk təlimi də özü keçib. Sabiq SSRİ dövründə Sergey Şmelev sovet hərbi mütəxəssisi kimi Afrika ölkələrində və Ya-xın Şərqdə işləmişdir. 1980-ci ilin əvvəllərində Müəmmar Qəddafinin xahişi ilə onu Li-viyaya göndərirlər.

Sergeyə qədər amazonkalardan ibarət şəxsi qvardiyanı yaratmaq ideyasını Qəddafiyə ADR-in gizli hərbi kəşfiyyatında işləyən Karl Hans vermişdi. O, Qəddafini inandıra bilmişdi ki, qadınlar kişilərə nisbətən

daha sədaqətli olur. Qadınların baş verəcək hadisəyə qarşı həssas olması, çevikliyi və iy bilməsi kişilərdən daha üstündür. Təlim görmüş qadınların təh-lükə vaxtı reaksiyası daha kəskin olur və onlar silahla daha ehtiyatlı davranırlar. Əgər qulluq etdiyi insanın həyatı təhlükədə olarsa, heç fikirləşmədən onu qurtarmaq üçün həyatlarını qur-ban verirlər. Ən başlıcası odur ki, şəxsi qvardiyada xidmət edən qızların hamısı bakirə olma-lıdır. Qoruyucu qadınların beyni, fikirləri kişilərdə olmamalıdır.

Qəddafi bu ideyanı həvəslə qəbul edib bir neçə əmr verdi. Tripolidə dünyada ilk dəfə olaraq qızlar üçün hərbi məktəb açdılar. Məktəbdə təlimləri Sergey Şmelev və onun kö-mək-çiləri aparırdı. Qəddafi öz şəxsi qoruyucu amazonkalarını bu məktəbdə təlim almış qızların içərisindən seçib götürürdü.

- Qəddafi bu qızları necə seçirdi? Hamısı eyni hazırlıqlı qızlar idi.

- Əvvəlcə onların bakirəliyi və psixoloji durumu yoxlanılırdı. Qızlar amazonka olmaqdan əvvəl bəzi sənədləri imzalayırdılar. Hər qız ayrı-ayrılıqda 25 yaşına qədər ərə getmə-yəcək-ləri barədə öhdəlik götürür, bunu müqavilə ilə təsdiqləyirdilər. 25 yaşından sonra hər bir amazonka ailə həyatı qurmaq hüququ qazanırdı. Buna baxmayaraq, qızların çoxu xidmətdə qalmağa üstünlük verirdi. Amazonkaların adi Liviya qadınlarından bir çox üstünlükləri var idi. Onlar xidmətdən kənar, cins şalvar, şortı, nazikdaban ayaqqabı

geyməklə üzü açıq gəzə bilərdilər. Onlara çimərlik paltarında bədənlərini qaraltmağa da icazə verilirdi.

- Marina, necə oldu ki, Qəddafinin amazonkalarına qoşula bildin? Sənin dediyinə görə, amazonkalar çox ciddi yoxlamalardan keçirlər.

- Mən Rusiyadan «sarı pərvanə»lərlə birgə gəlmişəm. Sergey mənim gələcəyimi qabaqcadan bilirdi. Onun köməkliyi ilə məktəbə girə bildim. «Sarı pərvanə»ləri isə dəniz flotuna və muzdla tutulmuş qara dərilərin düşərgələrinə payladılar.

Sergeyin sayəsində dərsarası boş vaxtım olurdu. Məktəbin çimərliyində qızlar akvalanq-la sualtı təlim keçirdilər. Onlardan biri mənim yanıma üzüb gəldi. Xahiş etdi ki, ona su al-tında batterfellə üzməyi öyrədim. Mən razılaşdım. Qız gülə-gülə suya baş vurdu. Onun gü-lüşü sahildəki təlimatçı əsgərin əsəbi reaksiyasına səbəb oldu. O, əmr verdi ki, qızlar su-dan çıxıb cərgəyə düzülsünlər. Ayrişa üzə-üzə sahilə çatanda qızlar artıq düzlənmişdilər.

Axşam Ayrişa qorxu içərisində ona veriləcək cəzanı gözləyirdi. Hərə öz çarpayısında uzan-mışdı. Qaydaya görə qızların ayaqları bir yerdə, əlləri gövdələrinin üstə olmalı idi. Serjant çarpayıların arası ilə gəzirdi. Ayrişaya çatanda onun ayaqlarından tutaraq odun parçası kimi çarpayının kənarına çırpdı. Mən tərcüməçi Lütfi ilə birlikdə səhər görüləcək işləri hesablayırdıq. Lütfidən soruşdum:

- Bu nə məzhəkədir?

O da cavab verdi ki, rus təlimatçısına qulaq asmayan qızlar belə cəzalanırlar. Serjantın əmri ilə Ayrişa əlinə söykənərək ayağa durdu. O bir zərbə ilə qızı beton döşəməyə sərdi. Sonra məcbur etdi ki, dizləri üstə sürünsün. Ayrişa ağrıya döz-məyib ağladı.

Məktəbdə mənim vəzifəm serjantınkından üstün idi. Onu yanıma çağırıb cə-zanı dayandırmasını tələb etdim:

- Bu cəza onun ağladığı üçündür. Amazonkalar ağlamaz! - dedi.

- Məktəbdə qızları şəxsi qvardiyaçı kimi hazırlayırdılar, yoxsa döyüş əsgəri kimi? Əli saatına baxdı: - Vaxta az qalır.

- Hərəkət etməyən ZPK «Strela - 2» çiyindən buraxılan raketlərdir. Bu elmi qızların hamısına öyrədə bilmirdilər. Sınaqdan keçə bilməyən qızları qvardiyanın tərkibindən çıxa-rırdılar. Onlar məktəbdən çıxıb üsyançılara qoşulurdular. Ayrişa mənimlə işləyir. Sənə mək-tub gətirən qızı deyirəm. Bu gecə mən də, Ayrişa da yoxa çıxacağıq.

Marina qoynundan çıxardığı balaca xəritəni stolun üstünə sərdi:

- Bu Qəddafinin doğulduğu şəhərin planıdır. Şəhərə üç giriş və çıxış yolu var. Dördüncü yol bunkerdən keçərək şəhər kanalizasiya borusunun yanından cənuba doğru gedir. Çox güman ki, Qəddafi bu yolu seçəcək. Əgər əməliyyatı mən verdiyim koordinatlarla aparsalar, onun axırına çıxa bilərlər. - Marina da saatına baxdı: - Mən öz işimi gördüm, yerdə qalan sizdən asılıdır. -

Marinanın gözləri yaşla doldu: - Vidalaşmağın vaxtıdır, bir daha görüş-mə-mək üçün.

Əli onu sinəsinə sıxdı:

- Amazonkalar ağlamır, - dedi. - Kim bilir, bəlkə yollarımız bir da-ha kəsişdi.

- Daha mən amazonka deyiləm, Gülsüm olmaq istəyirəm. Anamın yanına, Dəməşqə qa-yıdıram.

Onlar birlikdə arxa qapıdan küçəyə çıxdılar. Əli qız gözdən itənə qədər yerindən tər-pənmədi. O, ən qiymətli məlumatları ala bilmişdi. Bu məlumatlar minlərlə insanın hə-yatını xilas edəcəkdi.

Artıq qaranlıq öz taxtında oturmuşdu. Qonşu evlərin pəncərələrində işıqlar yanmırdı. Ağaclar gecənin rütubətli havasıyla nəfəs alırdı. Gecənin qatı qaranlığı hər şeyi ağuşuna alaraq yox etmişdi. Əli Aminin evinə çatmaqda idi ki, onu Mustafa qarşıladı...

***

Əli evə səhərə yaxın qayıtdı. Bütün gecəni Aminin evindəki zirzəmidə işləmişdilər. Sirt şəhərindəki bunkerlərin, yeraltı və yerüstü yolların, Qəddafinin maşın karvanının hərəkət cədvəlini, yol üstündə olan strateji məntəqələrin dəqiq koordinatlarını Böyük Britaniya Mərkəzi İngilis Kəşfiyyatına ötürmüşdülər. Aminlə Mustafa yatırdı. Əli kürəyini divar peçinə söykəyərək gözlərini pəncərədən səhərin alatoranlığına zilləmişdi. Bu alatoranlığın içərisində Əliyə bir şey aydın deyildi. Anlaqlı kütləvi ərəb psixozu onları hara

aparacaq? Bu «ərəb baharı»nı doğrudanmı ərəb xalqı başlayıb? Yüz illərlə səhralarda yatmış, yerin dərinliklərində sakit-sakit axan su, necə oldu ki, üzə çıxdı, fantan vuraraq ərəb dünyasını ağuşuna aldı?!

Əli Şuşu kəndindəki qaya mağarasında Azərin ona dediyi sözləri xatırladı: «Özün üçün yaşamaq istəyirsənsə, başqalarını da fikirləş. Təkcə özü üçün yaşamaq, yaşamaq deyil, kiminsə köl-gəsinin ardınca sürünməkdir».

Əli ürəyində Azərə haqq qazandırdı. Bu insanlar min illərdir ki, təkcə özü yaşamaq istəyən tiranların diktatorların kölgəsinin ardınca sürünürdülər. O çox yaxşı bilirdi ki, ağıl öyrətmək və ağıllı olmaq başqa-başqa şeylərdir. Diktatorlar ağılsız olmasalar da, acgöz olurlar. Bu da onları gec-tez fəlakətə sürükləyir. Çünki ağıllı adam xalqına mənsub olan xalqına verməlidir...

...Əli küçəyə çıxanda iki nəfərin onu gözlədiyini gördü. Polisə oxsalar da, mülki pal-tarda idilər. Uzun illərin təcrübəsi Əliyə deyirdi: «Bu adamlar ya sifarişçi, ya da ovçudur». Həyat və keçdiyi maraqlı ömür yolu Əliyə çox şey öyrətmişdi. Belə qonaqlarla onu təəccüb-lən-dirmək olmazdı.

Əli çağrılmamış qonaqlara baxan kimi hər şeyi anladı. Anladı ki, tale onu yenidən əv-vəlki yola sürükləyir. Lakin Əli çox dəyişmişdi, keçmişdə həyatında nə vardısa, hamısını salıb atmışdı. Onu yenidən bu yola qaytarmaq mümkün deyildi. Tindən çıxan polis maşını sürətini azaldaraq onların yanında dayandı. Kişilərdən

biri maşının arxa qapısını açaraq, «Çox az vaxtımız var», - dedi. Çalışarıq sizi ləngitməyək. Onlar maşına oturdular.

Maşın Çesterin dar küçələrinin birində «Fərqanə» çayxanasının yanında dayandı. Çay-xananın sahibi yaşlı bir özbək idi. Özbəkistanda bolşeviklər hakimiyyətə gələndən sonra xaricə mühacirət edənlərdən sayılırdı. Yaşının çox olmasına baxmayaraq, bu çayxanaya sahiblik edirdi. Onlar qapısı həyətə açılan kiçik bir otaqda oturdular. Çayxana sahibi qabaqcadan hazırlıq görmüşdü. Stolun üstündə bir çaynik təzə dəmlənmiş çay və dörd piyalə vardı. Bu otaq çayxanadan çox, gizli görüş yerinə oxşayırdı.

- Mən Con Simonam. Çester polisinin komissarı. Bu cənablar Londondan gəliblər, - Əli ilə hündürboylu kişini və xüsusi formada olan mulat qadını göstərdi: - Məxfi Kəşfiyyat İdarəsinin komissarı Con Silver. Xarici kəşfiyyat üzrə agent, leytenant İsadora. Sizi narahat etdiyimizə görə üzr istəyirəm. Con Silverin sizinlə söhbəti var. Tanışlıq baş tutarsa, şad olardım.

Söhbət çox sakit şəraitdə gedirdi. Əli ingilis nəzakətinə heyran qalmışdı. Onlar Avro-pada yaşayan müsəlmanların gələcək talelərindən, Misirdə baş tutan «ərəb baharı»ndan xalq-ların öz demokratik hüquqları, azadlıqları uğrunda apardıqları mübarizənin genişlənərək bütün ərəb ölkə-lərini bürüyəcəyindən danışırdılar. Con Silver sözarası qeyd etdi ki, «ərəb baharı» Gürcüs-tanda olduğu kimi post-sovet ölkələrində də baş verə bilər.

Con Silver bir qutu «Çester-fil» siqaretini Əliyə sarı itələdi:

- Çəkin, gözəl ətri var, - gülümsəyərək təklif etdi.

- Mən siqaret çəkmirəm, - Əli də ona eyni təbəssümlə təşəkkür etdi. - Siqaret ağciyərləri korlayır, - dedi.

- Siz haqlısız! Sağlamlığım buna imkan verməsə də, əl çəkə bilmirəm. İşim elədir ki, tüstüsüz keçinmək olmur.

- Həyat hər insana qiyməti olmayan sağlamlıq verir. Onu qorumaq isə insanın özündən asılıdır. Pifaqorun gözəl bir kəlamı var: «Sağlamlığına zərər vuran və sənə utanc gətirən heç nə eləmə». Çalış birinci özün-özünə hörmət edəsən.

- Görürəm, sağlam bədəndə, sağlam ruh yaşayır. Bunu sən həmişə bacarmısan. - İsadora söhbətə qatıldı.

- Yeri gəlmişkən, bu yaxınlarda Türkiyəyə gedəcəyəm. Mənə yoldaşlıq edərsənmi?

Əli eyhamı başa düşsə də, söhbətin səmtini dəyişməyə cəhd göstərdi:

- Mənim iki qızım, gözəl arvadım var. Mən onları çox sevirəm. Süsən məni heç kəslə bölüşməz.

- Sən haqlısan! Süsən, həqiqətən, gözəl qadındır. Məryəm ananın mələklərinə oxşayır. Mən onu tanıyıram. Luvr muzeyində Xumarla görüşmək istəmirdi...

Əli o günləri yaxşı xatırlayırdı. İsadoranın da orada olduğunu yadına sala bilmədi. Əgər bu qədər informasiyaya malik idilərsə, niyə elə o vaxt məni

yaxalamadılar?

Əli hər şeyi anlamışdı. Məsələni uzatmaq istəmirdi. Bu onun xeyrinə deyildi.

- Keçmişi geri qaytarmaq olmaz. Amma onu tarixə çevirmək mümkündür. Bütün bunların indi heç bir mənası yoxdur. XXI əsrin insanları fərqli düşüncəyə malikdirlər.

- Dünya getdikcə qloballaşır, millətlər arasındakı fərq də get-gedə azalır. Azad, demokratik öl-kədə yaşamaq hamının hüququdur. Niyə müsəlmanlar bundan istifadə etməsin? Öz din qar-daş-larından başqa müsəlmanların Avropaya da ehtiyacı var. Biz onlara bərabərhüquqlu vətəndaş olmağa köməklik göstəririk, onların buna ehtiyacı böyükdür.

İdeoloji hazırlıq başa çatmaq üzrə idi. Əli başa düşdü ki, hazırlanmış geniş planın bir nöqtəsi ola bilər.

- Buna ehtiyac yoxdur, - Con Silver Əlinin fikirlərini tutmuşdu. - Mən ömrümün çoxunu ingilis kəşfiyyatında keçirmişəm. Desəm ki, bu işi canımdan artıq sevirəm, düzgün olmazdı. Ancaq vətənimə xidmət etməkdən şərəf duyuram. Bu hər bir ingilis vətəndaşının borcudur.

Əli daha dəqiq açıqlama gözləyirdi. İngilis ehtiyatlılığı buna mane oldu. O, ürəyində müqayisə etdi: «Əgər bu söhbət onun ölkəsində getsəydi... Yox!»

İngilislər daxili həqarət-lərini daha çox gizlədirlər. Faktları kiminsə xeyrinə yox, ümumi işin xeyrinə sərf edirlər.

- Mən sizi başa düşməyə çalışıram. Bu, heç də asan

deyil. Günahlarıma görə cəzamı çəkməyə hazıram. İcazə versəydiz bəzi şeyləri qaydasına salardım. Bu, ancaq mənim ailə-mə aiddir.

- Sənin gizli sirlərin də varıymış? - İsadora ürəkdən güldü. - Biz hər şeyi bilirik. Soruşa bilərsən biz nəyi bilirik? Ancaq buna ehtiyac yoxdur. Siz İngiltərə vətəndaşısınız. Keçmiş keçmişdə qaldı. Hər bir ingilis vətəndaşı, millətindən asılı olmadan, ölkəsinin xeyrinə çox iş görə bilər.

- Siz məndən nə istəyirsiz? - Əli sakit səslə soruşdu.

- Biz səndən şəxsən heç nə istəmirik. Hər bir ingilis vətəndaşı vətən qarşısında öz borcunu yerinə yetirməlidir.

Con Simon ayağa qalxdı.

- Əgər razılığa gəlsəniz, çox sevinərdim. Söhbətinizə davam edin, mən komissarlığa qayıtmalıyam.

- Hə, əlbəttə, razılığa gəlsək, yaxşı olardı. - İsadora saatına baxdı. - Vaxt keçir, biz isə hələ heç nə əldə edə bilməmişik.

Əli diqqətlə Con Silverə baxırdı. İngilis kəşfiyyatının nəhənglərindən biri olan bu uca-boylu kişi, istəklərini məharətlə gizlədirdi. Onun özünü soyuqqanlı aparması təbii idi. Lakin bu ingilis soyuqqanlılığının arxasında nə dayandığını Əliyə çox maraqlı gəlirdi.

- Məndən nə istəyirsiniz? - Əli təkrar soruşdu.

- Desəm ki, heç nə, bu, yalan olardı. Müharibələr çox uzun çəkməzdi, əgər ortada üçüncü tərəf olmasaydı. Biz səni və ailəni daim nəzarətdə saxlayırıq. O gündən ki,

siz arva-dınızla ilk dəfə ingilis torpağına ayaq basdınız, bizim maraq dairəmizə düşmüsüz.

- Komissar! Siz mənim iki saat əvvəl yenidən doğulduğumu dediniz?

- Haqlısınız! İki saat əvvəl sizin yaşadığınız evə bomba qoymaq istəyirdilər. Biz onları zərərsizləşdirdik. Qrupun hansı təşkilata aid olduğunu aydınlaşdırırlar. Bu rus, ya da erməni terrorçu qrupu ola bilər. Ruslar Çeçenistana, ermənilər Laçın dəhlizinin partladılmasına görə intiqam ala bilərdilər. Lakin sən narahat olmaya bilərsən. Elizabet ailənizi nəzarətdə saxlayır.

- Elizabetmi? - Əli hirsini və təəccübünü gizlədə bilmədi, - O, arvadımın rəfiqəsidir.

- Yenə də, haqlısan. Elizabet Mərkəzi Kəşfiyyat İdarəsinin zabitidir. Siz ona inana bilər-siz.

İsadora Əlinin əlindən tutdu.

- Mən sənin həyəcanını başa düşürəm. Ancaq Elizabet haqqında pis düşünmə. O, sizin ailəni çox sevir, lap qoruyucu mələk kimi nəzarətdə saxlayır.

İsadora sözlərinin təsirini yoxlamaq üçün susdu.

Gecə lampasının işığında Əlinin dodaqları titrəyirdi.

- Həyat təkcə əzab-əziyyətdən və ya kef çəkməkdən ibarət deyil. Həyat bizə ona görə verilir ki, başladığın işi vicdanla başa çatdırasan. Əgər bunu bacara bilməsən, həyatın boş-boşuna əsən küləyə bənzəyəcək.

- Özünü çox da üzmə. Biz səni ona görə seçmişik ki, insanların azadlıqları üçün vuruş-mağı bacarırsan. Liviyada müsəlman qardaşlarının qanı tökülür. Onlara

kömək lazımdır.

Əli ayağa durdu:

- Sizə haqq qazandırmaq olar. Lakin həyatın mənasını başa düşməyənlər, heç də bəd-bəxt insanlar deyil. Onlar kor ilə dolma yeyənə oxşayırlar. Çalışırlar ki, hər şeyin çoxunu götürsünlər. Diktatorlar da belədir, bir vaxt ayılırlar ki, həyatı boyu, başqalarının hesabına topladıqlarından heç nə qalmayıb.

- Sakit olun, xahiş edirəm. - Con Silver Əliyə dedi: - Ən düzgün qərarı özün verdin. Bu bir qədər nağıla oxşasa da, fərq ondadır ki, bu nağıl araşdırılmış həqiqətdir.

- Yaxşı, icazənizlə mən gedim. Ailəmlə vidalaşmaq lazımdır. Con Silver onu qucaqlayıb özünə sıxdı: - Vidalaşmaq niyə? Tezliklə evinə qayıdacaqsan!..

Əli arxa qapıdan həyətə çıxanda Con Silverin İsadoraya dediyi sözləri eşitdi: insanları düzgün yola gətirmək üçün əvvəlcə onların kim olduğunu başa salmaq lazımdır. Kimin-kim olması bizim işdə ən vacibidir...

... Kimsə Əlinin çiyinlərindən tutub möhkəm silkələdi:

- Oyan qardaşım, Qəddafinin axırına çıxdılar. Liviya xalqı 46 illik diktaturadan qurtuldu.

Mustafa çalışırdı ki, Əlini inandırsın. Dur gedək, biz də o sadə xalqın içində olmalıyıq.

# VI FƏSİL (təzə səhifədən verməli)

...Teatrın tamaşaçı zalı adamla dolmuşdu. Amfiteatr və lojalar projektorların işığı altında bərq vururdu. Haradasa, səhnənin dərinliklərində orkestr pərdəqabağı məşq edirdi. Dərin-likdən çıxan qırıq-qırıq musiqi səsləri, tamaşaçıların uğultusu içərisində əriyirdi. Opera və balet teatrının qabağında toplaşanlar tamaşaya baxmaq üçün kassaların qabağında növbə yarat-mışdılar. İkinci mərtəbəyə qalxan pilləkənlər, teatrın foyesi, bufet və tualet otaqları müxtəlif rəngli lampalarla işıqlandırılmışdı. Ətrafdakı əsrarəngiz gözəllik insanı valeh edirdi. Giriş və çıxış qapılarında xüsusi forma geyinmiş qadınlar tamaşaçıların biletlərini yoxlayır, yerlərini tapmaqda onlara köməklik göstərirdilər. Böyük çıl-çıraqlarla bəzədilmiş tamaşaçı zalı çətin-liklə nəfəs alırdı.

Salon, doqquzuncu sıra, beşinci yer: Rizvan bir daha biletinə nəzər saldıqdan sonra keçib yerində oturdu.

Bu tamaşaya baxmaq üçün Rizvan on gün əvvəl bilet sifariş etmişdi. Küçələrdə, xüsusi trafaretlərdə yapışdırılmış afişalarda Syuzan Brionun adı iri həriflərlə yazılmışdı. Rusiyada ən yaxşı soprana səsə malik bu gözəl qadın Bakıda, opera səhnəsində cəmi bircə gün çıxış edəcəkdi. Syuzan Brion Verdinin «Traviata» operasında Violettin partiyasını ifa edəcəkdi. Syuzan

Brion əslən bakılı idi. Onun tələbəlik və gənclik illəri bu şəhərlə bağlı idi.

Rizvan tamaşanın başlanmasını səbirsizliklə gözləyirdi. Onun sağ tərəfində cavan ər-arvad oturmuşdu. Sol tərəfində yaşına uyğun olmayan qırmızı paltar geyinmiş yaşlı qadın nədənsə çox narahat görünürdü. Qadın köhnə dəbdə geyindiyindən diqqəti cəlb edirdi. Yaşlı qadın Rizvana sarı əyilərək pıçıldadı: «Nə vaxtsa Syuzan məndən dərs almışdı».

- Siz nəsə dediniz? - Rizvan təəccübünü gizlədə bilmədi. - Syuzan Brion sizdən dərs alıb?

- Bəli, cavan oğlan, - qadın başı ilə təsdiqlədi. Mən Syuzanın fortepiano müəllimi olmu-şam. Onda Syuzan musiqi texnikumunda oxuyurdu.

- Sonra nə oldu ki, sənətini dəyişdi?

Rizvan naftalin iyi verən bu yaşlı qadına inanmaq istəmirdi.

- Sonra Brion Konservatoriyanın vokal fakültəsində oxudu...

Qadın yanaşı oturaraq diqqətlə Rizvana baxdı. Sonra baxışlarını onun üzündən yığaraq gülümsədi:

- Siz Syuzanın pərəstişkarısız? - yaşlı qadın soruşdu.

- Bəli, əlbəttə!

- Gözəl zövqünüz var, cavan oğlan.

Qadın Rizvanın dizi üstə qoyduğu qızılgül dəstəsinə işarə etdi...

Bir azdan tamaşaçı zalının işıqları zəiflədi və tədricən söndü. Orkestrin çaldığı qəmli melodiyanın üvertürası

salona yayıldı. Səhnənin ağır pərdələri yavaş-yavaş açıldı...

Rizvan orkestrə könülsüz qulaq asırdı. Səhnədə xor oxuyurdu. Hətta səhnədəki deko-rasiyalar belə onu darıxdırırdı. Nəhayət, gözlənilən an gəldi. Syuzan Brion səhnəyə çıxdı. İlahi gözəlliyə malik olan bu qadını tamaşaçılar sürəkli alqışlarla qarşıladı. Syuzanın gül dodaqları aralandı. İnsanı valeh edən sehirli səs elə bil Rizvanı ofsunlamışdı. Birinci pərdənin nə vaxt başa çatdığını belə hiss etmədi. Tamaşaçıların səs-küyü, alqış səsləri Rizvanı duyğu-larından ayıra bilmədi. Syuzan üç dəfə səhnəyə çıxsa da, alqışlar səngimirdi.

Rizvan dizləri üstə qoyduğu gül dəstəsinə baxdı.

- Eh, nə olursa, qoy olsun!

Rizvan gül dəstəsini götürüb səhnə arxasına keçdi. Səhnə arxasında artistlər topa-topa dayanaraq söhbət edirdilər. Rizvan sağa dönərək qrimlənmə otağına keçmək istədi. Otağa çatanda ortaboylu bir kişinin yoğun səsini eşitdi:

- Sizə deyirəm, Syuzan heç kəsi qəbul etmir. Fasilə on beş dəqiqədir. Paltarını dəyiş-məli, qrim etməlidir. Gedin buradan, yoxsa xoşagəlməz hadisə baş verə bilər.

Rizvan səsin sahibini gördü. Alçaqboylu, kök bir kişi bir yığın pərəstişkarın qabağını kəsmişdi. Onları içəri buraxmaq istəmirdi.

- Tamaşa qurtarandan sonra gəlin.

Kişinin yuvasında oynayan gözləri Rizvanı gördü. Rizvanın qucağındakı gül dəstəsinə baxdı:

- Sənə nə lazımdır, qardaşım? Mən başa saldım axı, tamaşa qurtarandan sonra gəlin.

Rizvan əlini pencəyinin iç cibinə saldı və oradan polis vəsiqəsini çıxartdı. Vəsiqəni kişiyə göstərdi:

- Mən polisdənəm, istintaq-axtarış şöbəsinin mayoru.

- Sən də keç ora! - kişi əli ilə pərəstişkarların dayandığı yeri göstərdi. - Sən onlardan nə ilə fərqlənirsən?

- Mən xidməti vəzifəmi yerinə yetirirəm.

Rizvan yalan danışdığına görə qızardı.

- Mənə elə gəlir ki, - kişi gül dəstəsini göstərdi, - bu xidməti vəzifəyə daxil deyil.

- Bu, sizdə işləmir, amma bizdə əla işləyir! Tez ol, mənim gəldiyimi Syuzana xəbər elə.

Kişi dərindən nəfəs alıb, ehtiyatla qapını döydü:

- Xanım, yanınıza istintaq idarəsindən müstəntiq gəlib.

Kişi bir neçə dəqiqə gözləsə də, içəridən səs gəlmədi. Kişi qapını itələsə də, açılmadı. Nəsə onu içəridən saxlayırdı.

- Qəribədir! - kişi təəccübləndi. - Bu qapı heç vaxt içəridən bağlanmayıb. - Kişi bu dəfə çiyni ilə qapını vurdu, içəridən nəsə cingildəyib yerə düşdü və qapı açıldı. Rizvan içəri keçdi. Gördüyü mənzərə onu yerindəcə dondurdu.

Güzgünün qabağına qoyulmuş hündür kreslonun altından döşəməyə uzanmış Syuzanın ayaqları görsənirdi. Başı sinəsinə doğru əyilmişdi. Açıq

çiyinlərindən zərif qolları döşəməyə qədər sallanırdı. Qara rəngli qalın saçlarının içərisindən nazik məftil sallanırdı.

- Öldürüblər! - Rizvanın qulaqlarında hələ də möcüzəli səsin sədası vardı. O bu səsi yox etmək üçün dərindən nəfəs alıb, gözlərini yumdu. Rizvan özünü toparladıqdan sonra Xumara zəng vurdu:

- Əməliyyat qrupunu götürüb təcili Opera teatrına gəlin, yolüstü prokuroru da götürün.

Rizvan meyitə yaxınlaşdı. Ehtiyatla qadının başını qaldırdı. Ağappaq muncuq kimi dişlərinin arasında sıxılmış dili görsənirdi. Boynunda möhkəm çəkilmiş məftilin halqası vardı. Məftilin bir ucu saçlarının arasından aşağıya doğru yellənirdi. Syuzanın ölüsü də gözəl idi.

Rizvan peşəkarlara xas baxışla ətrafı diqqətlə süzdü. Paltar dolabının yarımaçıq qapısı diqqətini çəkdi. Dolabın içərisini diqqətlə nəzərdən keçirdi, asılqandakı paltarlardan ikisi yerə düş-müşdü. Ehtiyatla qrim otağının qapı və pəncərələrinin ilgənclərini yoxladı. İlgənclər bağlı deyildi. Rizvan pəncərədən həyətə baxdı. O, çalışırdı ki, mümkün qədər heç nəyə toxun-masın.

- Burası hündür deyil, tullanmaq asan olar.

Rizvanın sözlərindən sonra kök kişi dodaqaltı mızıldandı:

- Mən indi neyləyim? Bu ki, biabırçılıqdır...

- Deməli, belə! - Rizvan kök kişiyə sarı döndü: -

Tamaşa təxirə salınır. Tamaşaçılara deyin ki, Syuzan qəflətən xəstələnib. Siz də, teatrın bütün işçiləri də, heç kəs teatrın binasını tərk etməsin. O vaxta qədər ki, biz öz işimizi yekunlaşdıraq.

***

«Polisl əməkdaşlarından ibarət axtarış əməliyyat qrupu və prokurorluğun müstəntiqləri hadisə baş verən otağa baxış keçirirdi. Rizvanın ilk baxışdan maraq dairəsinə düşən paltar dolabı, Syuzanın oturduğu kreslonun arxasında, pəncərənin yanında idi. O, kriminalistlərə göstəriş verdi ki, otağın bu hissəsinə daha diqqətlə baxsınlar.

Polislərdən bir neçəsi pəncərənin altındakı bağçanı yoxlamaq üçün həyətdə axtarış apar-dı. Onlar hər xırda detallara belə fikir verirdi. Rizvan tam əmin olmasa da, güman edirdi ki, qatil bu pəncərədən aşağıya tullana bilər.

Polislər əməkdaşları tamaşaçılardan bir neçəsini şahid ifadəsi vermək üçün saxlamışdı. Onların içə-risində Rizvana tanış olan, - Syuzana fortepiano dərsi keçmiş yaşlı qadın da var idi. Şahidləri dindirmək üçün bir mərtəbə yuxarıda yerləşən direktorun otağına apardılar. Yaşlı qadın Rizvanı otaqda görəndə təəccübünü gizlədə bilmədi:

- Siz?..

Rizvan razılıqla başını tərpədib yaşlı qadına oturmaq üçün yer təklif etdi. Qadın Rizvana baxıb gülümsədi:

- Yadınızdan çıxmayıbsa, biz tamaşaçı zalında oturanda mənə dediniz ki, Syuzanı yaxından tanıyırsız? Bu, doğrudanmı belədir?

- Əlbəttə! Mən sözümü geri götürmürəm. O mənim ən sevimli tələbəm olub. Syuzanın qızlıq familyası Moiseyeva idi. Atası yəhudi millətindən idi, bizim musiqi texnikumunda skrip-kadan dərs keçirdi. Syuzan sonralar xaricə ərə getdi və soyadı dəyişib Brion oldu.

Qadın Rizvana sarı əyildi:

- Deyə bilərsizmi, burda nə baş verir?

- Bağışlayın, əvvəlcə özünüzü təqdim edin. Bu protokol üçün çox vacibdir.

- Hə, əlbəttə? Mən Gülzar Həsənovayam. Atam Üzeyir bəyin idarəsində işləyib. Ərim bəstəçi idi. Klassik musiqiyə daha çox üstünlük verirdi. İndi təqaüdçüyəm, nəvəmi böyüdürəm.

Qadın həyəcanlanmışdı, ağzındakı süni dişlər onu səlist danışmağa imkan vermirdi. Rizvan stəkana su töküb yaşlı qadına verdi:

- Alın, bir az su için.

Rizvan ehtiyatla dedi:

- Heç bilmirəm necə deyim. Məsələ burasındadır ki, fasilə vaxtı Syuzanı öldürüblər.

- Ax!.. - Gülzar damarları çıxmış əli ilə başına vurdu. - Bu əclaf kimdir?

- Biz  də bunu öyrənmək istəyirik. Ola bilsin ki, sizin köməyinizə ehtiyacımız olsun.

- Mən kömək etməyə hazıram. Ancaq necə?

- Syuzanın tələbəlik illərindən danışın. Eşitdiyimizə görə gəncliyində çox romantik olub. Bəlkə onun yaşadığı «romanlardan» yadınızda qalanı olub?

- «Roman»mı dediz? - Hə, əlbəttə, Syuzanın həyatında həmişə sevgi «roman»ları olub. Syuzan Vasilyeva kişiləri dəyişməyi sevirdi.

- Bağışlayın! - Xumar onun sözünü kəsdi. Siz, Syuzana Vasilyeva dediniz. Düzmü eşitdim?

- Hə, bu onun qızlıq soyadı idi. Anası yəhudiyə ərə gedəndən sonra.... Soyadını dəyişdi. Birinci atası içki düşkünü idi, Syuzan onu sevmirdi.

- On il əvvəl Syuzan Vasilyeva idi, sonra özü kimi istedadlı bir isveç müğənnisinə ərə gedib, Dornon oldu.

- Syuzan monax kimi yaşamırdı. O gözəl idi, istedadlı idi, yaşıdları ona həsəd aparır-dı. Mən istərdim ki, Syuzan pianist olsun, o, başqa yol seçdi.

- O, sevgi romanları yaşadığı vaxtlar, sevdiyi adamlarla umu-kusu, dava-dalaş olurdumu?.

- Əlbəttə, mən dedim axı, Syuzan çox gözəl idi. Hər kişi istəyirdi ki, üstünlük onun olsun. Bir dəfə az qalmışdı Syuzanı musiqi texnikumundan qovsunlar. Məktəbdə dərs deyən bir arfaçı qadının əri ilə sevişirdi....

- Cənab mayor, - cavan kriminalist prokurorla içəri girdi. - Bir fakt, dəlil-sübut, heç olmasa, ipin ucunu tapa bildizmi?

- Gülzar xanım, - Rizvan ayağa qalxdı. - Mənim sizdən bir xahişim var. Sizə kağız və qələm verəcəklər.

Syuzanın ailəsini dağıtdığı o arfaçı qadın haqqında nə bilirsizsə, ətraflı yazın. Kapitan sizə köməklik edər.

- Hə, əlbəttə... Əlbəttə, mən hamısını olduğu kimi yazaram.

Xumar bir metrliyində nazik məftil parçasını Gülzarın qabağına qoydu:

- Müğənnini bu məftillə boğub öldürüblər. Bu nə məftildir? Sizcə, skripkadan qoparılmış ola bilərmi?

Gülzar gözlərini uzun müddət məftil parçasından çəkmədi. Diqqətlə baxdıqdan sonra qətiyyətlə dedi:

- Yox!.. Skripkanın tellərini xüsusi cilalanmış at tükündən hazırlayırlar. Bu isə dəmirdir. Royalın siminə uyğun gəlmir, nazikdir. Olsa... olsa, bu məftil parçası arfaya daha uyğundur.

- Təşəkkür edirəm, Gülzar xanım. Siz bizə çox kömək etdiz. İndi gəlin qəbul otağına keçək.

Xumar qadının qalxmasına kömək etdi.

- İstədiyiniz yerdə oturub bu qəmli əhvaltın tarixçəsini yazın.

Polislərdən biri Rizvana xəbər verdi ki, pəncərənin altından keçən su borusunda təzə qan izləri qalıb. Köhnə, paslanmış metal parçasıdır.

***

İki saat ərzində Syuzanın ölümündə şübhəli bilinən bütün şahidlər dindirildi. Rizvan qəsdən o qadını axıra saxlamışdı. O, drijordan xahiş etdi ki, arfaçı qadını onun yanına gön-dər-sin. Arfa çalan qadın özünü Rizvana

Məryəm Yusifqızı kimi təqdim etdi. Qadın çox həyəcanlı və nədənsə qorxmuş kimi görsənirdi.

- Məryəm xanım, yaxına gəlin, bu məftil parçasına diqqətlə baxın. Bu musiqi aləti olan arfanın teli ola bilərmi?

- Fikirləşirəm ki, ola bilər, - qadının sifəti ağardı.

- Sizin arfada bütün tellər yerindəmi?

- Siz bununla nə demək istəyirsiz?

Eynəyini burnunun üstündən yuxarı qaldıraraq titrəyən səslə dedi.

- Hələlik heç nə demək istəmirəm. Gedək mənimlə, Məryəm xanım. Şübhələrimi yoxlamaq istəyirəm...

Onlar bir mərtəbə aşağı düşdülər. Syuzan öldürülən otağın qapısını açıb içəri girdilər. Artıq müğənninin cəsədini tibbi-məhkəmə ekspertiziyasına aparmışdılar. Kriminalistlər əşya-lardan əl izlərini götürürdülər.

Rizvan paltar dolabının qapısını açaraq Məryəmə dedi:

- Xahiş edirəm, bu dolabın içərisinə girin.

Məryəm gülümsədi, dodaqlarında yaranan təbəssüm sifətinə yayıldı. Bu normal qadın təbəssümünə oxşamadığı üçün Rizvanın gözündən yayınmadı.

Məryəm çox da böyük olmayan paltar dolabına girib, ayaqlarını qarnına yığaraq oturdu. Rizvan dolabın qapısını örtdü. Dolabla pəncərənin arasındakı məsafəni ölçdükdən sonra onun qapısını açdı:

- Məryəm xanım, bayıra çıxa bilərsiniz.

- Deyə bilərsizmi bu komediyanı nəyə görə

quraşdırırsız?

- Bu komediya deyil, hörmətli Məryəm xanım. Bu istintaq-əməliyyat eksperimentidir. Şübhələrim haqlı çıxdı. 10 il əvvəl ərinizi əlinizdən alıb, ailənizi dağıtmışdılar. O zaman siz, Məryəm xanım, musiqi texnikumunda dərs keçirdiz, - Rizvan ona yaxınlaşıb köynəyinin qolunu qaldırdı. Məryəmin qolu dirsəkdən aşağı təzə tənziflə sarılmışdı. Tənzifin üstündə qan ləkələri gözlə aydın görsənirdi.

- Göründüyü kimi, bu hadisəni hələ də unutmamısan.

Rizvan qadının qolundakı qanlı sarğını göstərdi.

- Öldürməyi yaxşı bacarmısan, tullanmağı isə pis.

- Nədən danışdığınızı başa düşə bilmirəm?

- Mən başa salaram. Tamaşanın birinci hissəsinin qurtarmasına 20 dəqiqə qalmış, or-kestrin yuvasından çıxaraq qrimlənmə otağına gəlmisən. Həmin bu gördüyün dolabın içərisinə girərək Syuzanın gəlməsini gözləmisən. Syuzan kresloda oturduqdan sonra dolabdan çıxaraq arxadan ona yaxınlaşmısan. Qabaqcadan hazırladığın bu məftil parçasını onun boğazına do-ladıqdan sonra boğub öldürmüsən...

- Dayanın! Gerisini özüm danışaram...

Məryəm başını tutaraq döşəməyə çömbəldi?

- Mən, Syuzanı öldürdüyümü boynuma alıram. Bunu etmək üçün on il gözləmişdim.

Rizvan ağır yük altından çıxan adam kimi dərindən nəfəs aldı. Otaqdan çıxanda gözü qrim stolunun üstündəki gül dəstəsinə sataşdı. Ürəyində: «Səni

sahibinə verə bilmədim, bağışla, gec oldu», -fikirləşdi.

***

...Məmmədov Hacı Teymur oğlu Kamil Sədrəddinovla əvvəlcədən razılaşdırdıqdan sonra 5 avqust 1996-cı il tarixdə Eldar Rəhimov, Nizami Abdullayev, Nailə Quliyeva, A.S.Cintamirov və başqa şəxslərlə birlikdə təxminən saat 20:45 radələrində Bakı şəhəri İnşaatçılar prospekti 1226 saylı evin qarşısında Qədimzadə İlham Vaqif oğluna həyat və səhhəti üçün təhlükə yaradaraq zor tətbiq etməklə, qanunsuz gəzdirdikləri odlu silah - iki ədəd «Makarov» tipli tapançayla silahlanaraq basqın edilib. Onu öldürməklə hədələyib, əllərini «RF-5632» saylı qandal ilə bağlayıblar, başına torba keçi-rərək, oğurlayıblar. «Qaz-24» markalı minik avtomaşınına mindirib, Abşeron rayonunun Saray qəsəbəsində yerləşən özünəməxsus bağ evinin zirzəmisində yerləşən, oğurlanmış adamları saxlamaq üçün hazırlanmış xüsusi saxlama yerində gizlədib, qanunsuz olaraq onu azadlıqdan məhrum ediblər. Oğlunu azad etmək üçün İlham Qədirzadənin atası Vaqif Qədimova övladını öldürməklə hədə-qorxu gələrək, sonuncudan külli-miqdarda yəni, 200.000 ABŞ dolları miqdarında, xarici valyutada pul tələb etmişlər.

Lakin sonuncunun tələb edilən miqdarda pul verə bilmədiyini bilib, Hacı Məm-mədov və dəstənin üzvləri N.A.Abdullayev, E.Ə.Rəhimov, A.S.Cintamirov və

başqa şəxslərlə birlikdə İlham Qədimzadəyə işgəncə xarakteri daşıyan, onun sifətini izisilinməz dərəcədə eybəcərləşdirib, sol qulaq seyvanını xüsusi amansızlıqla, ağır iztirablar ver-məklə kəsib, ona ağır bədən xəsarəti yetirərək, kəsilmiş qulağıın hissəsini İlham Qə-dirzadənin atası Vaqif Qədimova göndərmişlər.

Sonuncuda oğlunun öldürülməsi ilə hədələnməsinin real olduğuna inanıb, onun azad edilməsi üçün onlara 180.000 miqdarında ABŞ dolları vermişdir. Hacı Məmmədov da həmin məbləği qəbul edib, 14 sentyabr 1996-cı il tarixdə İlham Qədimzadəni Bakı şə-hərində azad etmiş, aldığı pulları isə əvvəlcədən əldə olunmuş razılığa əsasən cinayətkar birliyin üzvləri arasında bölüşdürmüşdür...

Bakı Apellyasiya Məhkəməsinin materiallarından
28 noyabr 2008-ci il

***

Hacı Məmmədov kitab yazmağa başlamışdı. Bu kitabın hansı janra aid ediləcəyi ona bəlli olmasa da, üstündə oturduğu bombya çevriləcəyinə əmin idi. O, bu kitabı yazmaq üçün çox düşünmüş, xeyli fikirləşmişdi. Hacı əvvəlcə gündəlik yazmaq istəyirdi. Sonra bu fikrindən vaz keçdi. Gündə-likdə nə yazacaqdı, təcridxananın dörd divarından, yoxsa gecələr söhbət etdiyi siçovuldan? Hacının pişik boyda, uzun boz tükləri olan bir siçovulu vardı. Bu heç də adi həbsxana

siço-vuluna oxşamırdı. Gündüzlər harasa yoxa çıxır, gecələr qəflətən peyda olurdu. Hacı əvvəllər elə fikirləşirdi ki, siçovulu onun otağına qəsdən ötürüblər. Ürəyində «Yazıqlar olsun sizə, Hacını siçovulla qorxudurlar, sizin kimi siçovulların boğazını çox üzmüşəm», - deyə fikir-ləşirdi. Lakin günlər keçdikcə bu fikrindən vaz keçdi.

Siçovul çox mehriban idi, ev tərbiyəsi görmüş pişiyə oxşayırdı. Bir axşam Hacı siçovula dedi:

- Yaxın gəl, şəklini çəkim.

Hacı kağız-qələm götürmək üçün otağın sol tərəfinə getdi. O, geri qayıtmaq istəyəndə siçovulun səsi onu dayandırdı. Siçovul dal ayaqları üstə dayanaraq bədənini irəli uzatmışdı.

- Hacı, mən sənin dostunam.

- Hə, əlbəttə.

Ensefalitlərin sifəti kimi saralmış üzünün tərini barmaqları ilə siyirib yerə tökdü. - Sən məni tanıyırsan?

- Tanıyıram, özü də lap çoxdan. Saray qəsəbəsindəki evinin zirzəmisində yaşayırdım.

Siçovul çətinliklə nəfəs alan Hacıya diqqətlə baxdı:

- Məni tanımadın? O illər ki, yanan ürəyinin alovunu söndürürdün, mən zirzəmidə baş verən bütün hadisələrə tamaşa edirdim.

Siçovul dal ayaqları üstə yeriyərək Hacının qarşısında çömbəldi.

- Əllərini göstər mənə. - O, Hacının iri pəncəli

əllərinə baxdı. - Bəs əlcəklərin hanı? Hə, başa düşdüm, burada sənə əlcək lazım olmur. Mən sənin öl-dürdüyün adamların tör-töküntüsü ilə dolanırdım. Ucundan, qırağından mənə də çatırdı.

- Sən haqlısan! Adını bilməsəm də, fərq etməz. Biz yaman günlərin dostuyuq.

Hacı kövrəlmişdi, siçovulu tutub öpməkdən özünü güclə saxlayırdı.

- Qarşımda tir-tir əsənlər indi mənə gülürlər, - dişlərini qıcıyaraq bir-birinə sürtdü.

Siçovul tüklü alnını qabaq pəncəsilə qaşıdı.

- Yaddaşım məni aldatmırsa, siz o gənci İlham deyə çağırdız. Gözəl, yaraşıqlı oğlan idi. Sən onun qulağını kəsib zirzəmiyə atdın. Siz gedəndən sonra qulağı ləzzətlə yedim. Səhərisi gün zirzəmiyə gəlib qulağı axtardın. Tapa bilməyəndə yazığın o biri qulağını kəsib apardın.

- Günah onun atasında idi, pulu vaxtında versəydi, oğlunun qulaqları yerində qalardı. Bəlkə burada mənimlə yaşayasan?

- Bunu mənə təklif ediblər.

- Hə.., kim təklif edib?

- Sənin kimi başkəsən bir tip.

- Bəs sən... - Hacının xoşu gəlməsə də, sözün üstündən keçdi.

- Qəbul etmədim. Dedim Hacının yanına gedirəm. Onun ürəyi böyükdür. Xırda ürəkli insanlarla yaşamaq çətindir. Onlar yaramaz həşərat kimidirlər.

- Sən düz hərəkət eləmisən. Mənim zirzəmimdə yaşasan da, yadıma sala bilmirəm ki, nə vaxtsa səninlə söhbətləşəm.

- Hər tərəfdə günəş var, təkcə orada, zirzəmidə günəş başqa cürədir. Onu kimsə oğurlamışdı. Ətraf qaranlıq, zirzəmi soyuq idi. Günlərin birində günəşin kiçik bir qırığı üfüqdən zirzəmiyə endi. Onu sən gətirdin. Bu möcüzə kimi idi. Zirzəmidə yaşayan siçovullar xoşbəxtlikdən az qalmışdılar dəli olsunlar. Əgər külək olmasaydı.

- O küləkmi səni mənim yanıma gətirdi?

- Hacı sən müdrik adamsan. Ümid və qorxu insana nəyi desən, inandıra bilər. Fərq ondadır ki, qorxunu yox etmək mümkündür. Ümidi yox! Ümid qəbirdə də yaşayır. Lakin bilməlisən, onu sənin boynuna kim asıb. Sən taleyə baş əyib özünü öldürmə. Ağıl yox olanda, onu ağılsızlıq əvəz edir. Həm də bunların hamısı birlikdə bədbəxtliyə səbəb olur.

Siçovulun monoloqu Hacını çaşdırmışdı. O, qəzəbli baxışlarını siçovula zilləmişdi. Bir anlığa Hacıya elə gəldi ki, onun qarşısında kiçilir, özü də siçovula çevrilir. Siçovul böyü-dükcə, Hacı kiçilirdi...

- Vidalaşmamış sənə bir neçə sözüm var. Mənə elə gəlir ki, qadağa zonasına qoyulan hədd başa çatdı. Sən acgöz adamsan. O adam ki, başqalarına dəhşət təlqin edir, əslində onun bütün bədbəxtliklərinin kökü acgözlükdən gəlir. Acgöz adam ələbaxan olur, özünün sərvəti olsa belə. Sabahını düşünməyənlər kütbeyin olur.

Bu cür adamlarda ağıl üfunətli suya bən-zəyir. Nə qədər təmizlənsə də, üfunəti özündə saxlayır. Sən axmaqsan, bunu evinin zirzə-misində yaşayanda da bilirdim. Çünki sən özündən çox razı adamsan. Özündən razı olan axmaq elə bilir hamı ona hörmət etməlidir. Elə bilirsən ki, onlar səni burada, təcridxanada saxlamaqla hörmət edirlər. İlk fürsət düşən kimi canını alacaqlar...

- Rədd ol! - Hacı dəhşətlə bağırdı. Murdar siçovul, bircə sən qalmışdın mənə ağıl verməyə...

...Bu hadisədən sonra Hacı xəstələndi. Hər gecə siçovulu kabus kimi görürdü. Onun psixikasında dəyişiklər baş verirdi. Belə hisslər baş verəndə, bədəndə müəyyən üzvi dəyi-şikliklər əmələ gəlir. İnsanın tənəffüsünün sürəti artır, qan təzyiqi artıb-azala bilir. Nəb-zinin vurması sürətlənir. Hacı siçovulla söhbətdən sonra çox böyük gərginlik keçirirdi. Siçovul qiyafəsində onun yanına gələn məxluqun, şər qüvvələr tərəfindən göndərildiyini zənn edirdi.

Hacı gözləmədiyi gərgin şəraitlə rastlaşdıqdan sonra, özünə qayıda bilmirdi. Hacının xarici şəraitdən asılı olaraq, əhvalı kəskin surətdə dəyişmişdi. Həyəcanlanır, tez yorulur, ruh düşkünlüyü özünü göstərirdi.

Tükü-tükdən seçməyi bacaran, qəddarlıqda tayı-bərabəri olmayan Hacı, qorxaq, cə-sarətsiz və utancaq olmuşdu.

Uzunmüddətli müalicədən sonra Hacını yenidən MTN-in təcridxanasına gətirdilər. O, Qobustan Qapalı Cəzaçəkmə Müəssəsinə köçürülməsini tələb edirdi.

Hacı siçovulun sözlərindən sonra burada həyatına təhlükə hiss edirdi. Siçovulun sözləri gecə də, gündüz də qulaqlarında səslənirdi: «İlk fürsət düşən kimi, canını alacaqlar».

***

Hələ gün qurtarmamışdı, gecə isə gəlməyə tələsmirdi. Uzun dəqiqələr çox yavaş ke-çirdi...

Onlar evin damında oturmuşdular. Silyema cənubdan danışırdı, təbiətdən, musiqidən, qırmızı bazarlar səs-küy salan, köhnə-təzə səxavətli cənubdan...

Bazardan sonra, günün ikinci yarısı sarı torpaqdan və samandan tikilmiş evlərin baca-la-rından tüstü göyə qalxırdı. Hər bir kəs öz dünyasına, özünün xüsusi evinə girirdi. Bu adamlar maraqla həyət evinin qapısının döyülməsini gözləyirdilər. Burada maraqlı bir şey olmasa da, gözləyirdilər. Qonşu gələcək, yorğun günün saatlarını bir yerdə bölüşəcəkdilər..

- Avropada belə olmur, - Səba onun sözünü kəsdi.

- Avropa qaynayır, hərəkət edir, iş görür. Əsl mübarizədə olduğu kimi.

- Orada isə dəniz firuzə rəngindədir. İlin bu vədəsində isə suları göy rəngdə görsənir.

Silyema bir də demək istəyirdi ki, dənizin arxasında doğma torpaq var, doğma insanlar yaşayır o torpaqda. Dünyanın ən işıqlı göyü, ən uca, ən əzəmətli dağları da oradadır. İnsanlar bol-bol günəş altında yaşayırlar. Onlar günəşin övladlarıdır...

Silyema çiyinlərini çəkdi. O, bu danışıqları başladığına görə, peşman olmuşdu. Sonra sakitləşdi. «Günəşi insanların əlindən alsalar, dünyada nələr baş verər?» - deyə fikirləşdi.

- Doğrudanmı günəşin işığını və istisini almaq istəyirlər?

- Doğrudur! Belə bir layihə var. Dünən astronomiya müəllimimiz bunu təsdiqlədi.

- Bu çox çətindir. Hətta heç inanılası deyil.

- Qorxma, bu, tezliklə olmayacaq.

- Tezliklə nə olmayacaq?

- Dedim axı, günəş tuneli.

- Tunel... hə ağılabatandır. - O, bir an fikrə getdi.

- Nənəm deyərdi ki, keçmişdə suları tunel vasitəsilə yerə gətiriblər. Sonra da, göllər, dənizlər yaranıb. İndiki zamanda günəşi tunel vasitəsilə yerə gətirmək istəyirlər. Bu tunel necə olacaq axı?..

- Çox şəffaf olacaq, günəşin özü kimi. Bunu mən kitabdan oxumuşam. Günəşin hissələrini, xırda atomlara çevirib tunelə salmaq üçün ən xırda zərrəciklərə çevirmək lazım olacaq. - Maraqlıdır, hə, deyəsən, bir şey başa düşmədin?

- Niyə ki, bu barədə mən nənəmdən soruşmuşdum. O, çox sadə cavab verdi. Bizim əcdadlarımız günəş övladları olublar. Mən onları görmüşəm. Marala qoşulmuş xizəyə minib günəş şüasından muncuq kimi parıldayan ucsuz-bucaqsız, qarla örtülmüş Altay çöllərində gəzərdilər.

- Günəşdən yaranan insanlar! Sən onlar haqqında nəsə bilirsən? Burada həmişə duman olur. Nədənsə günəş buralara gəlmir.

- Sən yaxşı-yaxşı baxsan, dumanın içərisindəki günəşin şəfəqlərini görə bilərsən. Bunun üçün gərək istək olsun.

Səba başını qaldırdı, diqqətlə qızın gözlərinin içinə baxdı. Səba yadına saldı ki, özü də bu barədə dəfələrlə düşünüb, ancaq cəsarət edib heç kəsə deməyib.

- Gəl birlikdə baxaq?

- Yaxşı! Mən nənəmin «nağılını» danışım, sən diqqətlə dumana bax, bəlkə bir şey görə bildin

Çox-çox qədimlərdə Altay dağlarında yaşayan insanlar günəşə sitayiş edirdilər. Deyilənə görə, onlar cənubdan gələn canlı əfsanə olublar. Bu insanları günəş idarə edirdi. Min illər əvvəl onlar soyuq şimala köç ediblər. Özləri ilə təbiətlə necə davranmağın sirrlərini də gətiriblər. Günəşin təsviri olan dairəvi metal disklər, şamanların dəridən olan köhnə paltar-larına tikilmişdi. Üstündə günəşin şəkli cızılmış bu dairəvi disklər onlara keçmiş vətənlə-rindəki günəşi xatırladırdı. İndi şamanların geydiyi bu paltarları ancaq tarix muzeylərində görmək olar. Barmaqlarına taxdığı üzüyün üstündə ilmələrlə bəzədilmiş günəş onlara cənub-dan gəldiklərini xatırladırdı.

Əlbəttə, çoxları bunu nağıl, əfsanə saya bilər. Ancaq soyuq şimalda, yazın ortalarında okean sahilində dayansan, gözəgörünməz tunelin okeanın dibindən

günəşə doğru uzandığını hiss edəcəksən...

Səba gözlərini yumub Silyemanın «nağılına» qulaq asırdı. Silyema uzaq şimaldan Alyas-kadan gəlmişdi. Onlar kollecdə bir yerdə oxuyurdular. Silyema təhsilini başa vurmuşdu. Bir ay sonra şimala, öz vətəninə qayıdacaqdı.

- Hə, necədir? Tapmaq çətindirmi?

- Mən mütləq onun cavabını tapacağam.

- Bu əfsanə barədə hekayə yaz. Mən bilirəm, sənin yaradıcı istedadın var. Günəş övlad-larını da unutma...

Silyema danışdıqca Səba uzaq Şimalda, Tayqa və Tunduranın ortasında, kiçik Günəş övladlarının, dünyanın ən qədim dövrlərinin dərinliklərindən gələn səsi eşidirdi. Ona elə gəldi ki, güclü dalğa nəhəng qayaları aşaraq sahilə çatır. Sahildə dayanmış günəş övladı, sakit, gözəl, məlahətli səslə Günəşi çağırır... Dənizin dərinliklərindən uzanan tunel Günəşə doğru qalxırdı.

***

Elizabet Süsənlə eyvanda dayanıb Səbanın damdan düşməyini gözləyirdi. Səbaya məktub gəlmişdi. O məktubun kim tərəfindən yazıldığını bilmirdi. Əli heç vaxt qızlarına məktub yazmırdı. Süsən isə həmişə Əlidən gələn məktubu qızlardan gizlədirdi. Səba damdan düşüb rəfiqəsini yola saldı, sonra eyvana çıxıb salam verdi:

- Axşamınız xeyir, Elizabet xala.

Nədənsə Süsən bu gün çox şad görsənirdi. Yəqin ki, atamdan yaxşı xəbər alıb, - Səba ürəyində fikirləşdi. Süsən onu qucaqladı:

- Atan qayıdır dedi. - Həmişəki kimi Süsən ağla-yırdı.

Elizabet əlində uzun, ensiz bir zərf tutmuşdu. Səba gələndə əlini arxasında gizlətdi.

- Ana, nə baş verir? Niyə ağlayırsan? Özün dedin ki, atam gəlir...

- Yox qızım, hər şey qaydasındadır.

- Ağıllı adamlar həyatda çox şeyi dəyişdirə bilir, - Elizabet qızın əlindən tutdu.

- Biz bunu edə bilmədik, həmişəlik gecikdik. Əgər ikiqat ulduz sistemi fəzada öz orbi-tini itirərsə onu başqası götürür. Daha güclüsü, daha parlağı. Yəqin ki, bunun sirrini çoxları bilmir. Lakin onlar bunu edə bildilər.

Liviyada vətəndaş müharibəsi qurtardı. Xalq diktatoru həmişəlik tarixin küllüyünə tulladı.

- Bu gün mənə xəbər verdilər ki, atan artıq Liviyadan çıxıb. Hazırda Türkiyədədir.

- Hə, o, artıq evə gəlir, tezliklə görüşəcəyik.

Elizabet əlindəki məktubu Səbaya verdi.

- Gərək məni bağışlayasan, məktubu gec gətirdim.

- Səba, qızım sən artıq böyümüsən. Bu il kolleci qurtarırsan. Sənin ədəbiyyata olan həvəsin məni sevindirir. Elizabet də bu fikirdədir. Sənin kiçik hekayələrindən birini Elizabet «Gəncliyin səsi» jurnalına göndərmişdi. Redaksiyadan sənə cavab

yazıblar. Orada nə yazıl-masından asılı olmayaraq, biz səni filoloq kimi görmək arzusundayıq.

Səba məktubu açıb həyəcanla oxumağa başladı. «Əzizim Səba! Nəhayət ki, vaxt tapıb sizə yazıram. Ona görə yazmıram ki, özüm haqqında məlumat verəm. Mən jurnalın ədəbi işçisiyəm və sizə də redaksiyanın adından yazıram. Nə yazacağımı sən artıq bilirsən. «Günəşli sahil» adlı hekayənizi tərifləmək istəmirəm. Yazıçı olmaq üçün başqalarından fərqlənməlisən. Görmə, duyma və bacarığın yaxşıdır. Adamı heyrətə salan, düşünməyə məcbur edən cümlələrin, canlı insanın psixologiyası, iç dünyasının açılmasını təsvir edə bilirsən. Ancaq bu yazılarda ürək yoxdur. Hər gün səhər yuxudan duranda ətrafa, təbiətə, insanlara diqqət et. Bu sənin həyatının başlanğıcıdır. Günəşin batması onun axırıdır. Bu hər iki kiçik həyat arasın-dakı fərqi görmək yazıçı üçün çox vacibdir. Və həyatına şərəf gətirər. Sənin gördüyün işləri başqaları qiymətləndirir. Çalış ki, ürəyin təmiz olsun və hər şeyə düzgün qiymət versin. Əgər yazıçı olmaq istəyirsənsə, nəsə eləməlisən. Ən cəsarətli adamlar ağıllarına icazə verirlər ki, onunçün fikirlərini idarə edə bilsin. Həyat qiyməti olmayan böyük istedadı hər cavana vermir. Gəncliyin gizli gözəlliyi onun yeniyetmə vaxtında yazdığı əsərlərdə özünü göstərir.

Bu sözləri sənə yazmazdım, əgər ədəbiyyata istedadlı bir gəncin gəldiyini görməsəydim. Sən istedadlısan. İnsanların əsrlərlə fikirləşdiyi və əfsanə kimi qəbul

etdikləri sualların cavabını tapa bilmirlər. Əgər buna ciddi yanaşsan, onların tapa bilmədiklərini sən asanlıqla tapa bilərsən. Bunun üçün istedad, zəhmət və istək lazımdır.

Hörmətlə: mister Braun

Yanvar 2011-ci il

Səba oxuduqlarına inana bilmirdi. Gərginlikdən başı fırlanırdı.

- Tutun məni, yoxsa yıxılaram, - dedi.

Süsən ona sarı yeridi...

- Dayan, mən kömək edərəm. Belə şeylər yeniyetmə qızlarda olur, - Elizabet Səbanı yanında oturtdu. Səbanın gözlərində yüngül qorxu vardı. Əslində qorxudan çox onun köl-gəsinə oxşayırdı. Elizabet qızı özünə sıxmışdı. Ömründə ağlamaq nə olduğunu bilməyən qa-dının gözləri dolmuşdu.

«Əgər ömrümü başqaları üçün xərcləməsəydim, mənim də uşaqlarım olardı□» - Elizabet kədərlə fikirləşdi.

Səba bir azdan məktubu da götürüb, arzularının, xəyallarının yarandığı yerə, öz otağına çə-kildi. Elizabet getmək istəyəndə, Süsən onu saxladı:

- Bu illər ərzində mənə analıq etmisən. Sənin sayəndə özümdə güc tapıb həyatda qala bilmişəm. Gəl otur, bir fincan türk qəhvəsi içək. Sənə deyiləsi sözüm var.

- Səni doğma qızım kimi sevirəm. Qonşu olmağımız da, bu zərurətdən doğan təsadüfdən başlasa da, içimdə olan sevgi bizi yaxınlaşdırdı. Yəqin ki, Əli getməmişdən əvvəl sənə mənim barəmdə bəzi şeyləri anladıb.

Süsən yenicə dəmlədiyi türk qəhvəsini ağ fincana töküb Elizabetə uzatdı:

- Görün necə də ətirlidir. Soyuq havada içinizi qızışdırar.

Özü də qəhvədən bir qurtum içdikdən sonra dedi:

- Qüsura baxmayın, ancaq bir söz soruşmaq istəyirəm. Siz Mərkəzi Kəşfiyyat İdarəsinə necə düş-müsüz?

- Bu o qədər də uzaq tarix deyil, - Elizabet köks ötürdü. - 1966-cı ildə Londondakı hərbi məktəbin hüquq fakültəsində oxuyurdum. Məqsədim hərbi vəkil olmaq idi. Detektiv kitablar oxuyur, idmanla ciddi məşğul olurdum. Yaşıma və fərasətimə görə başqa tələ-bələr-dən fərq-lənirdim. Dünyaya baxışım və hazırcavablılığım müəllimlərimin diqqətini cəlb etmişdi. Buraxılış imtahanlarında bir neçə nəfər tanımadığım kişi oturmuşdu. Onlar tələbələrə əlavə suallar ve-rirdilər. Uzun yoxlamadan sonra üç tələbə seçdilər. Onların biri də mən idim. Həmin gün arzu-larımın, istəklərimin üzərindən qara xətt çəkildi.

Bizi Londona gətirdilər. Kursantlar arasında xaricdən gələn tələbələr də var idi. İlk dəfə Müəmmər Qəddafini orada gördüm. O, 1965-ci ildə leytenant rütbəsində Benqazi hərbi kollecini bitirib, hazırlıq səviyyəsinin artırılması üçün Böyük Britaniyaya göndərilmişdi. O,

məktəbi kapitan rütbəsi ilə bitirib Benqaziyə qayıtdı. Mən onu bir də 1969-cu ilin yazında gördüm. Hə-min vaxt mən İngiltərənin Qahirə şəhərində yerləşən səfirliyində işləyirdim. Hər bir səfir-likdə, hansı ölkənin olmasından asılı olmayaraq, diplomatların içərisində gizli kəşfiy-yatın bir-iki agenti çalışır.

Mənim vəzifəm təkcə Misirdə yox, Suriya, Liviya və başqa ərəb ölkələrində baş verənləri nəzarətdə saxlamaq və mərkəzə xəbərlər ötürməkdən ibarət idi. Mənə mərkəzdən Liviyaya keçmək əmri verilmişdi. «əl Qüds» planının həyata keçirilməsinə əlverişli şərait yaranmışdı. Qəddafinin başçılıq etdiyi zabitlərlə görüşmək və Böyük Britaniyanın yardımını onlara çatdırmalı idim.

Kral I İdris Türkiyədə müalicə olunurdu. Biz Aminlə birlikdə ingilis zabitlərini və yerli agentləri çevrilişə cəlb edirdik. Qəddafi ilə görüşüb bəzi məsələləri həll etdik. 1969-cu ilin axırlarında «Azad Vahid-Sosialist Zabitlər» təşkilatını yaratdıq. Bu, əslində, rusların təşəbbüsü olsa da, biz onları qabaqladıq. Qəddafinin başçılıq etdiyi on iki zabitdən ibarət İnqilab Komandanlıq Şurası Benqazi, Tripoli və ölkənin iri şəhərlərində hərəkətə keçdi. Bizim agentlər, ingilis və rus zabitləri onlara köməklik göstərirdi. Qəddafinin başçılıq etdiyi zabitlər və əsgərlər qısa müddət ərzində əsas hərbi və dövlət obyektləri üzərində nəzarəti ələ keçirdi.

Mən Amin əl-Rukeyi ilə orada tanış oldum. İngilis

kəşfiyyatının ən yaxşı agenti idi. Əslən Liviyadan olan atası irland qadını ilə evlənmişdi. Onlar uzun illər İrlandiyada yaşamışdılar. Aminin ingilis kəşfiyyatına necə düşdüyünü bilirəm. Ancaq çox təcrübəli, cəsur agent idi. Çon deyir ki, Əli Aminin evində qalır. Bu o deməkdir ki, Əlinin təhlükəsizliyi yüzə-yüz qorunur.

- Belə başa düşdüm ki, Qəddafini hakimiyyətə ingilislər gətirib, ingilislər də yıxmağa çalışır. Bəs Əlinin orda nə işi var? Axı o, heç kəsə agentlik etmir. Əli azad ingilis vətəndaşıdır.

- Susən, sən siyasətdən uzaq adamsan. Siyasət çamur kimi bir şeydi, ora girsən xirtdəyə kimi batarsan. Bəzi siyasətçilər özlərini ağıllı saysalar da, heç də elə deyil. «Ən qorxulu siyasətçi o adamdır ki, axmaq olduğu halda özünü ağıllı sanır». Bu müdrik sözləri haçansa böyük Höte desə də, günümüzlə necə də aktual səslənir. Hər dövrün öz siyasəti olur. O vaxt Liviyanı rusların əlindən qoparmaq üçün Qəddafi bizə lazım idi. Özün yüz il yaşamadığın üçün ağlamaq, yüz il əvvəl doğulmadığına görə ağlamağa bərabərdir, deyiblər. Axır illər Qəddafi yalın ayaqla yanan odun üstü ilə gəzirdi. Gec-tez ayaqlarını yandırmalı idi.

- Elizabet, mənim sualıma cavab vermədin. Əlini ora necə göndərdilər?

- Biz öz gələcəyimizi bilmirik. Bilmirik ki, sabah nələr edəcəyik. Seçim yox idi. Qəddafinin ordusunda yuksək rütbəli bir zabit var. Adı Süleymandır. Rus-çeçen müharibəsində səhra komandiri Basayevin dəstəsində

ruslara qarşı vuruşub. Dağıstanda, Əfqanıstanda terrorçu qruplara kömək edib. Əli Süleymanı yaxşı tanıyır. Döyüş dostları olublar. Əlinin əsas vəzifəsi Süleymanı tapmaq, onun vasitəsilə əsgərləri və zabitləri üsyançıların tərəfinə keçirmək idi. Əli öz vəzifəsini layiqincə yerinə yetirdi.

Seçimi onlar etdilər, biz yerinə yetirdik. 1969-cu ildə də belə idi, bu gün də belədir.

- Ana! Ana.... - Nigar həyacanla onları çağırırdı: - Bura gəlin, onlar Qəddafini öldürürlər. Televizorda göstərirlər. Osman əmi də hərbçilərin yanında dayanıb, amma heç nə etmir. Qəd-dafini küçə boyu sürüyürlər...

Süsən diz çökərək əllərini göyə açmışdı: «İlahi! Dualarımı qəbul etdiyin üçün sənə min-nətdaram. Əlini uşaqlarına qaytar. Ömrüm boyu dua edəcəyəm, İlahi!..»

Gündüz ağ qanadlarını yığaraq şəhəri tərk etmişdi. Pəncərəni boz pərdə kimi örtmüş duman, həyətə doğru sürünürdü. Boz-qara dumanın içərisində işıq seli axaraq eyvanı işıqlandırırdı. Elizabetə elə gəldi ki, eyvanı bürüyən işıq seli Süsənin qəlbindən axır....

## VII fəsil (yeni səhifədən ver)

Qarlı-şaxtalı bir fevral səhərində Sürmə həyətə düşdü. Əvvəlcə uzaqdan böyük, qara ləkə gördü. Sürmənin gözləri zəif gördüyündən ehtiyatla qara

ləkəyə yaxınlaşdı. Onun alnını isti tər basdı, istədi qışqırsın, səsi çıxmadı. Evin birinci mərtəbəsinin tavanından boğazı kəndirə salınmış oğlunun meyiti sallanırdı.

Sürmə küçə qapısından çıxıb qonşuları köməyə çağırdı. Lakın gec idi. Oğlu artıq ölmüşdü.

Tezliklə istintaq-əməliyyat qrupu gəlib çıxdı.

- Ölümqabağı yazılmış məktubu axtarın! - Rizvan göstəriş verdi. Doğrudan da meyitin şalvar cibində ağzı yapışdırılmış zərf var idi. Ölümqabağı yazılmış məktub belə qurtarırdı: «Hamınız məni bağışlayın. Əlvida, Nazlı!..

- Nazlı? - Kapitan ehtiyatlandı.

- Sürmə bacı, Nazlını tanıyırsız?

- Totuşun qızı idi... O, qızı çox sevirdi.

- Kapitan! - Rizvan köməkçisinə işarə elədi. - Qonşulardan soruş, nə görüblər, nə eşidiblər. Heç nəyi diqqətdən kənarda qoyma!

- İcazə verin, cənab mayor, - məhkəmə tibb eksperti ona yaxınlaşdı. Ölüm səhərə yaxın, saat səkkizlə doqquz arasında baş verib. Meyit hələ tamam qıcımayıb. İcazə verin, meydi ekspertiza etmək üçün götürək.

- Cənab kapitan, bir il əvvəl Topuş şəhər xəstəxanasında yatmışdı. Ağacdan yıxılmışdı. Bilirsənmi niyə? Özünü asmağa cəhd göstərmişdi.

Kapitan Rizvana baxıb başını yellədi:

- Məsələ aydındır, cənab mayor. Topuş psixi xəstə olub.

Cinayət işi açmağa lüzum yoxdur.

- Çox ağıllısan, kapitan! Elə ilk andaca nəticə çıxarırsan. İnsan qəribə məxluqdur, onun qəribə də quruluşu olur. O, sərvətini itirəndə çox da kədərlənmir. Ancaq həyatından ötüb keçən, cavabsız məhəbbət onu intihar etməyə məcbur edə bilər. Bu isə artıq istintaq maddəsidir. Yox-lamaq lazımdır, onu intihar etməyə nə məcbur edib.

***

Nazlı ilə söhbət çox gərgin keçirdi. Qız gözyaşları içərisində boğulurdu.

- Mən uşaq evində böyümüşəm. Toğrul ilə texniki məktəbdə təcrübə keçərkən, tanış ol-muşdum. O, mənim birinci və axırıncı kişim olub. Həddindən artıq qısqanc idi, hərdən məni döyürdü ki, başqasına baxmayım. Bir dostu var idi, adı Dönməz idi. Mənimlə yaxınlıq etmək istəyirdi. Toğrul bunu hiss edib məni möhkəm döydü. Mən çox ağladım və özümə söz verdim ki, heç kəslə dostluq etməyəcəm. Bunu Toğrulun özünə də dedim. Sonra eşitdim ki, özünü öldürməyə cəhd edib. Ağacdan yıxılanda zədə almışdı. Xəstəxanada yanında qalır, əlimdən gələni edirdim ki, tez sağalsın. Fəqət mən özüm bu cür yaşamaq istəmirdim. Qərara gəldim ki, ayrılım.

- O da həyatı ilə vidalaşmağa qərar verdi?

- Yox... Onda mən onunla yaxınlıq etmək istəmədim.

O məni döydü. Sonra kəndiri ağaca bağlayıb dedi: «Əgər məni sevməsən özümü asacağam!..» «Yazığım gəldi, yaxınlıq etməyə ona icazə verdim...»

Tezliklə şəhər psixatriya dispanserindən cavab gəldi: «Toğrul Əmrah oğlu Nəsirov qeydiy-yatda deyil.»

Belə çıxır ki, onda psixi xəstəlik olmayıb. Rizvan fikirləşdi, onda niyə boynunu kəndirə salıb? Əgər özü intihar edibsə, cinayət işi qaldırmağa yer qalmır. Polkovnikə də elə beləcə deyərəm. Cinayət işi açmağa heç bir dəlil-sübut yoxdur.

Ancaq Rizvanın qəlbinin dərinliyində hələlik onun özünə də bəlli olmayan bir həyəcan var-dı. O, Xumara zəng vurdu:

- Başa düşürsən, Toğrul kətilin üstündə dayanıb. Həlqəni boğazına salandan sonra kətil yaxına düşməli idi. Ancaq sınıq kətil meyitdən 3-4 metr aralı düşüb. Buna nə deyirsən?

- Cinayət işi açmaq lazımdır. Burada təmiz olmayan nəsə var.

Ekspertiza şübhələri daha da artırdı. Kətilin sınmış ayağında çəkmə izləri vardı. Bu qadın ayaqqabısının da izləri ola bilərdi. Belə çıxırdı ki, naməlum qadın kətili Toğrulun ayaqları altından təpiklə vuraraq kənara atıb?

«Anası ola bilməz» - Rizvan fikirləşdi. Yaşlı qadın, gözləri də zəif görür. Bir də ana yeganə oğlunu niyə öldürsün? Deməli, Nazlı! Onun da alibisi var: 2 fevralda xəstə olub, yataqxanadan bayıra çıxmayıb, həkim gözləyib. Bu onun «xəstəlik

tarixində» qeydə alınıb. Bəlkə Toğrulun dostu?.. Yox, bu da yaramır. O, qadın ayaqqabısı geyə bilməzdi

Hər ehtimala qarşı Dönməzi ifadə verməyə çağırdılar:

- Mən mühəndisəm, dörd aydır Qusarda çalışıram. Xəstəxana və şahmat məktəbi tikirik. Çoxdandır Bakıda olmamışam.

- Buna hələ baxarıq, - kapitan dodaqaltı mızıldandı. Telefon zəngi fikrini ifadə etməyə imkan vermədi:

- Yataqxananın müdiriyyəti çox narahatdır. Biz yoxlama apardıq. Elektron buraxılışı 2 fevralda Nazlının saat 12-13 arasında yataqxanada olmadığını göstərir.

Elə bil kapitanın peysərinə kimsə ağır zərbə vurdu. Bu ki, Toğrulun özünü asdığı vaxtdır. Kapitan Dönməzdən üzr istəyib, onu buraxdı.

Polis Nazlını nəzarətə götürdü. Qızın hər addımı izlənirdi. Otağında aparılan axtarış vaxtı onun yazdığı gündəlik tapıldı. Lakin bu da əsas dəlil ola bilmədi. Nazlı gündəliyində yazırdı ki, Toğrul özünü öldürməklə onu qorxudur. Gündəliyin yanında əzilib, cırılmış Toğrulla birlikdə çəkdirdiyi şəkil də vardı.

- Mən nə edəcəyimi bilmirdim. O, daim məni hədələyir. Qorxudurdu ki, mənə görə özünü öldürəcək. Mən onun məktublarını, şəkillərini verib ayrılmaq istəyirdim....

- Və qərara gəldin ki, ölməsinə kömək edəsən. - Müstəntiq Nazlını hədəfə götürdü. Qızın gözləri yaşla doldu:

- Siz məndən şübhələnirsiniz?..

İnsanın vicdanı qəribədir: Kimdəsə susur, başqa birisində ağrıyır. Suallar çoxaldıqca, Kamran özünü ölmüşün qarşısından günahkar hiss edirdi. Toğrulun haqqında «Psixi xəstə olub», - dediyinə görə, vicdan əzabı çəkirdi: «Axmaq! Onu öldürüblər». Ekspertizadan sonra buna şübhə qalmadı. Toğrulun yerində uşaqlıq borusunun spitelləri tapılmışdı. Qalırdı onun ölümqabağı kiminlə cinsi əlaqədə olmasını sübut etmək. Nazlıdan götürülən DHK Toğrulun intim yerindən götürülmüş DHK ilə üst-üstə düşürdü. Ekspertlərin verdiyi rəyə görə, cinsi əlaqə təxminən birin yarısında baş vermişdi. Əgər elektron buraxılışa inansaq onda Nazlı Toğrulun yanında onun ölümündən bir neçə dəqiqə əvvəl olub? Bəs sonra?..

Kapitan beynində sanki detektiv romanın süjetini f ı r l a d ı r d ı .
Onu bir detal narahat edirdi. Balacaboy, zərif qız Toğrulun boynuna kəndirin həlqəsini necə keçirə bilib? O, öz xoşunamı kətilin üstünə çıxmışdı? Dayan! Əgər belədirsə...

Kapitan Toğrulun ölümdən qabaq yazdığı məktuba baxdı. Yox, Nazlı bunu saxtalaşdıra bil-məzdi. Qrafoloq yoxlamışdı məktubu. Bəs zərfin ağzı niyə yapışdırılmışdı? Adətən adam intihar edəndə bu yada düşmür. Bəlkə, kimsə başqası zərfi yapışdırıb?

...Bir neçə dəqiqədən sonra kapitan kriminalistlərlə söhbət apardı. İki saat sonra isə onların gəldiyi nəticəni oxudu. Zərfin yapışdırılmasında Nazlının ağız suyu

vardı. İndi hər şey öz yerinə qoyuldu. Kapitan dərindən nəfəs aldı. Uzun illərin təcrübəsindən kapitan bilirdi ki, qatillərin çoxu istintaqa davamlı olmur. O, səhv etmirdi.

Nazlının biləyinə qandalı taxan kimi, ağladı:

- Lazım deyil! Mən hər şeyi danışaram.

***

- O, məni istəyirdi. Mən getdim, kobud şəkildə məni döşəməyə yıxıb soyundurdu. - Nazlı dodağını dişlədi. Gözyaşları üzünü islatmışdı. - «Toğrul, istəmirəm, lazım deyil» deyib yalvardım ona..

- Başqalarına olar, mənə yox? Vəhşi kimi yumruqla üzümə vurdu. Burnumdan qan axdı. Mən qışqırdım:

- Mən səni sevmirəm! Daha dözə bilmirəm. Yaxın gəlsən özümü öldürəcəm.

Toğrul ayaqlarımı qucaqlayaraq yalvarmağa başladı:

- Getmə, mən sənsiz yaşaya bilmərəm! İnanmırsan? Bax, ölümqabağı yazdığım məktub, götür...

...Nazlı arxasını ona çevirdi. Toğrul kətilin üstünə çıxaraq əsəbiliklə kəndiri həlqələdi. Sonra Nazlıya dedi:

- Dön, mənə bax! Ancaq sən saxlaya bilərsən.

Nazlı əlləri ilə başını qucaqlamışdı. Gicgahları zoqquldayırdı. Qəlbinin dərinliklərindən axıb gələn qəzəbi üzə çıxdıqca, Toğrula nifrəti də artırdı. Toğrul onun həyatını əsl cəhənnəmə çevir-mişdi. Nazlı bu anda ancaq bir şey istəyirdi, nəhayət, hər şey sona çatsın. Nazlı bütün gücü ilə kətilə bir təpik vurdu. Bir anlığa

qorxu içərisində, dəhşətlə kəndirdən asılmış qansız bədənə baxdı. Sonra zərfə yaxınlaşıb onu götürdü, dili ilə nəmləyəndən sonra yapışdırdığı məktubu Toğ-rulun cibinə qoydu.

...Müstəntiq cinayət işini yekunlaşdırıb məhkəməyə verdi. Nazlıya doqquz il iş kəsdilər. Həbsxana «məscidində» hər cümə axşamı Nazlı iki şam yandırıb Allaha dua edirdi.

Sürmə oğlunun ölümündən bir həftə sonra dünyasını dəyişdi...

***

Gecəyarısına yaxın özünə gəldi. Ətraf ay işığına bürünmüşdü. İri boz təpələr onun qarşısında uzanmışdı. Üfüqdə sarımtıl işıqlar sayrışırdı. Qaranlıq göylərdə ulduzlar soyuqdan titrəşirdi. Ətrafdan çalınmış ot və çiçək iyi gəlirdi. Qorxu bilməyən Süsən, nədənsə, bu gecə narahat idi. Nə əsrarəngiz gecə, nə də ulduzlar onu cəlb etmirdi. Süsən çalışırdı ki, reallığa alışa bilsin. Bir-birinin ardınca açılan mənzərələr, hündür göl sahilindən parılydayan qırçınlı dalğaların üfüqə doğu hərəkəti onu çaşdırmışdı. Süsən hansı məkanda olduğunu anlaya bilmirdi. Elə bil rəssam tərəfindən əlvan boyalarla çəkilmiş bu kiçik yaşıl ada, günəşin zərif tellərinə bürünmüşdü. Sərin-sərin əsən meh, onun qoyun-qoltuğuna dolduqca, elə bil alışıb-yanan bədəni sərinləyirdi. Süsən hündür sahil təpəsində yaşıl bir

ağacın altında oturaraq günəşin göldə oynaşan şəfəqlərinə tamaşa edirdi. Uzaqdan Süsən ağ qanadlı mələyə oxşayırdı. Ona elə gəlirdi ki, bura onun evidir. Ətrafdakı ağ güllər isə onun bağçasındakı güllər idi. O, gerçəklik ilə xatirə arasında çabalayırdı. Keçmişi ilə gələcəyi arasındakı divar ağrı, gözyaşları və ümidsizlik yaradırdı. Süsən yorulmuşdu, artıq fikirləşməyə belə taqəti qalmamışdı. Hər şeyi unutmaq, yenidən doğulmaq istəyirdi. Əliyə yazışdıqları məktubları bir-bir çaya atırdı. Artıq heç kəsin köməyinə ehtiyacı yox idi. Lakin keçmişin fikirlərini başından çıxara bilmirdi. Bu, ondan yüksəkdə olan güc idi.

Süsən meşə boyu, çay qırağında bulaq axtarırdı. Özünü bu bulağın aynasında görmək istə-yirdi. O, axtardığı bulağı tapdı. Bulağa əyildi ki, özünü görsün. Lakin bulaqdan ona qolları suda islanmış, uzunsaçlı bir mələk baxırdı. Yarpaqların arasından süzülüb gələn incə bir səs onun qulaqlarına doldu:

- Süsən, bu sənsən? Bu ağ saçlar kimindir? Bəyaz boynun niyə suda görünməz olub? Bu solğun barmaqlar sənə yaraşmır. Doğrudanmı, bu sənsən? Yoxsa biz başqa bir həyatdayıq? Yox, əlbəttə, yox! Bu, yuxudur, uzun-uzun yuxu. Bəlkə də heç belə deyil. Bu, reallıq da ola bilər. Ancaq yuxu kimi görsənə bilər. Yaddaşı oyatmaq asandır, lakin onu sənin xeyrinə işləməyə məc-bur etmək mümkünsüzdür.

Süsən paltarlarını soyunub suya girdi. O, arxası üstə uzanaraq gözlərini yummuşdu. Əvvəlki kimi gözəl idi.

İri ağ döşləri suyun üzündə qalmışdı. Albalı rəngli ətli dodaqları yarımaçıq idi. Elə bil ki, Süsənin ehtirasdan alışıb-yanan bədəni buz kimi soyuq suda sönürdü. Süsənin bədəni yavaş-yavaş suyun dərinliklərinə doğru gedirdi.

- Yox! Getmə Süsən, mən sənsiz yaşıya bilmərəm!

Əli elə qışqırdı ki, taxt yerindən oynadı. Qan-tər içində durub oturdu. Səsə Amin də, Mus-tafa da gəlmişdi.

- Sənə nə olub, oğlum? - Amin onun tərini sildi. - İndi yaxşısan?

- Mən Süsəni gördüm, o, göldə çimirdi...

- Gözəl yuxudur, su aydınlıqdır. Tezliklə ailənə qovuşacaqsan.

Kərim səhər süfrəsi açmışdı. Onlar yenicə süfrəyə oturmuşdular ki, Mustafa televizorun düyməsini basdı.

Aparıcı qız, - hər şey bitdi dedi. - NAT-nun hərbi təyyarələri Qəddafinin axırıncı sığınacağı olan doğma şəhərini darmadağın etdi. Müxbirimizin hadisə yerindən reportajını veririk.

Ekranda aləm bir-birinə qarışmışdı. Üsyançılar Qəddafi maşınlarına od vurub yandırırdılar. Yaralı Qəddafi yol ayrıcındakı kanalizasiya borusuna girib gizlənmək istəyirdi. Onu oradan çəkib çıxartdılar.

O, üsyançılara yalvarırdı: «Mən sizin rəhbərinizəm, Müəmmar Qəddafi. Xalq məni sevir, mən də sizi sevirəm. Öldürməyin məni, bu günahdır...»

Amin televizorun düyməsini basıb onu söndürdü.

- Sağ ol, qızım. Gülsümün verdiyi məlumat tam dəqiq imiş. Gör necə yalvarırdı.

- Bütün diktatorlar qorxaq olurlar. Bunu tarix dəfələrlə təsdiq edib. Onların qəddarlığı da qorxaqlıqlarından irəli gəlir. Qəddafi özü-özünə qəbir qazdı. Lakin mən istəməzdim ki, 46 il Liviyaya və onun xalqına rəhbərlik edən bir şəxsin cənazəsi it kimi küçələrdə sürüdülsün.

- Sən haqlısan! Ancaq sel gələndə yaxşıya, pisə baxmır. Qəddafi müdriklik görsətsəydi, belə rüsvay olmazdı.

- Biz çox şey edə bilərdik. Ancaq zamana təsir göstərə bilmərik. Zaman diktatorlara işləmir.

Bəlkə də Əinin bu sözləri Amini qane edərdi. Ancaq o, bir anlığa fikrə gedib zamana qarış-dı. Amin çalışırdı ki, bir çox şeyləri özü üçün aydınlaşdırsın.

- Uzaq planetin içindəki zamandan nə tapa bildin? - Əli zarafatla gülümsədi.

- Qəddafi o uzaq planetdə hansı möcüzələr yaradırdı.

- Biz bilirik ki, heç kimə həmişəlik ömür verilmir. Ancaq niyə?.. Bunu niyə vaxtında başa düşmürük. Qəddafi ağılsız adam deyildi. Mən onu çoxdan tanıyıram. Cavan leytenant kimi hərbi biliyini artırmaq üçün Londona oxumağa gəlmişdi. Mən də həmin məktəbdə oxuyurdum. Livi-ya-da hərbi çevriliş edəndə də, mən ona kömək etmişəm.

- Mən deyəndə nəyi nəzərdə tutursunuz?

- İlk öncə Böyük Britaniya Krallığını, sonra Avropanı.

İngilislərin ərəb ölkələrindəki səfirliklərini. Bu səfirliklərin hər birində ingilis kəşfiyyatının agentləri çalışırdı. Əsas məsələ Qəddafinin vasi-təsilə ərəb neftini ələ keçirmək idi.

- Ələ keçirə bildilərmi?

- Bu suala həm hə, həm də yox demək olar. Qəddafi biz gözlədiyimizdən ağıllı çıxdı. Ha-kimiyyəti ələ keçirdikdən dərhal sonra Liviyanı qonşu ərəb ölkələri ilə birləşdirmək həvəsinə düşdü. 17 aprel 1971-ci ildə Benqazidə, Misir, Suriya və Liviya rəhbərlərinin iştirakı ilə Ərəb Respublikaları Federasiyasının yaradılmasına dair müqavilə imzalandı. Hələ 1970-ci ildə Qəddafi Tunis prezidenti Həbib Burqibaya iki ölkəni birləşdirməyi təklif etsə də, o bundan imtina etmişdi. Qəddafi yerini bərkitdikcə, daha da irəli gedirdi. 11 iyun 1972-ci ildə o, müsəlmanları ABŞ və Böyük Britaniya ilə mübarizəyə çağırdı. Qəddafi artıq gənclik ideyalarından uzaqlaşmış, Liviyada avtoritar bir dövlət qurmuşdu.

- Hər şeyi birdən eləmək istəyənlər, demək olar ki, axırda əliboş qalırlar. Qəddafi bir əllə beş qarpız tutmaq istəyirdi. Nəticədə hər şeyini, özünü də itirdi.

- Tamamilə haqlısan! - Əli Mustafaya baxdı. Mən orta məktəbdə oxuyanda Lev Tolstoyun əsərlərini çox sevərdim. Oxuduğum kitabdan bəzi cümlələr hələ də yadımdadır. «Nəsə eləmək istəyirsənsə, onu yaxşı elə, əgər bacarmırsansa, yaxşı etmək istəmirsənsə, onda heç eləmə».

Kərim təzə dəmlənmiş çay gətirdi. Fincanlara süzüb ortalığa qoydu. Buğlanan çayın ətri dərhal ətrafa yayıldı. Aminin əhval-ruhiyyəsi dərhal yüksəldi. Çaydan bir neçə qurtum alıb dodaqlarını yaladı:

- İnsanın ən böyük səhvi, yaxşı işləri pis əməllərlə korlamaqdır. Qəddafi ilkin olaraq yaxşı başlamışdı. Ancaq ərəblər deyir ki, «ağıl olmasa, gözəllik mənasını itirir». O, ağılsız adam deyildi, amma səbirsiz idi. Səbirsiz insan isə ən xeyirxih işdə belə zərər çəkər. 1978-ci ildə Liviya rəh-bərliyinin rəsmi dəvətinə əsasən, əgər yaddaşım məni aldatmırsa, Livan şiələrinin rəhbri «Amal» hərəkatının banisi İmam Musa əl-Sədd Liviyaya gəlmişdi. O, burada müəmmalı şəkildə yoxa çıxdı. Livan məhkəməsi adamqaçırma məqsədilə əlbirolma və qanunsuz azadlıqdan mərhumetmə ittihamları ilə Qəddafinin həbsinə dair qərar çıxardı. Bu artıq onun başlanğıcının sonunu gös-tə-rirdi. O, artıq diktatora çevrilmişdi. Onun dostları arasında İrlandiya Respublika ordusunun və Bask separatçı təşkilatı ETA-nın nümayəndələri də var idi. Bir sözlə, Qəddafi artıq xalqdan uzaqlaşmışdı. Neftdən gələn pulların çoxunu hərbi texnika almağa və güclü ordu yaratmağa xərcləyirdi. Artıq onun seçilən ordusu və ən müasir hərbi texnikası vardı. O, Yaponiyada fəaliyyət göstərən «Qırmızı Ordu» terrorçularını dəstəkləməkdə davam edirdi. İran, Suriya və Rusiya onun ən yaxın müttəfiqləri idi. Bütün ölkələrdə baş verən şər işlərdə onun adı çəkilirdi.

Xalq o zaman xoşbəxt olur ki, onun işıqlı gələcəyi olsun. Atam həmişə deyərdi: «Əgər yaşamaq istəyirsənsə, nəsə eləməlisən».

- Necə deyərlər, «nə əkərsən, onu da biçərsən». - Mustafa dedi. - Nə vaxt ki, gözlənilən an gəldi, hər şeyə tüpürüb, arxana baxmadan qaçıb canını qurtar. Qəddafi bunu edəndə artıq gec idi. Hər şey bitmişdi.

- Mən Allahın quluyam, - Amin saqqalını sığalladı. Allah necə buyurubsa, elə də oldu. Mən Əlinin qayıtması üçün bəzi adamlarla danışmalıyam. Kərim sizə nahar yeməyi hazırlayır. Qayı-danda bir yerdə yeyərik...

Onlar təəccüblə Aminə baxırdılar. «Görəsən hara gedir», - Əli fikrindən keçirdi. Amin gülə-gülə dedi:

- Tapmaca axtarmayın, bir-iki saat gözləyin. Hər şeyi biləcəksiniz.

Nahar yeməyi çoxdan hazır olsa da, Amin hələ gəlməmişdi. Söz verdiyi tapmacanın cavabı da ortada yox idi. Əli dizlərini qucaqlayıb taxtın üstündə oturmuşdu. Mustafa ocağı yandırdı. Cavab axtarmağa ehtiyac qalmamışdı. Gec-tez hər şey öz yerini alacaqdı. Əlinin burada qalmasına daha ehtiyac yox idi. O, fikirləşirdi ki, Amin bu məsələni həll etmək üçün gedib.

***

Təyyarə göyə qalxanda elə bil buludlar aşağı enirdi.

Yuxarıda ucsuz-bucaqsız mavi səma, aşağıda ağappaq pambıq topalarını xatırladan pənbə buludlar. Sərnişinlərin çoxu yatsa da, Elçin başını illüminatora söykəyərək, fikrə getmişdi. Son günlərin hadisələri ona rahatlıq vermirdi.

Azər ona əlverişli vaxtın gəlməsini gözlə deyirdi. Günlər keçir, Elçin əlverişli günün haçan gələcəyini gözləyirdi. Xocalıya isə təyyarə limanının açılışına hazırlıq gedirdi. Həmin gün evə gec qayıtdı. Anası yatmamışdı. Həyəcanla oğluna baxdı, üzündəki sakitliyi görüb azad nəfəs aldı.

- Bir şey yeyəcəksən?

- Yox! Ac deyiləm. Bəs Rüfət hanı?

Rüfət onun bacısı oğlu idi. Rayondan gəlib, universitetə qəbul olunmuşdu. Bir ildən çox idi ki, onlarda qalırdı.

- Yatıb. İstəyirsən durğuzum?

- Qoy yatsın. Evdə qəhvə var?

- Var! - Nə fikirləşdisə Elçinə təəccüblə baxdı: - Axı sən qəhvə içmirsən?

- Bu gün içmək lazımdır. Çox yorğunam, yoxsa başım ağrıyacaq.

- Xəstələnmisən?

- Yox, ay ana, sağlamam, özü də buğa kimi. - Elçin anasını sakitləşdirmək üçün zarafat etdi. - İçərimdə o qədər cavabsız suallar var ki, bilmirəm hansını fikirləşim.

- Şeir? - anası ehtiyatla soruşdu. - Sən ki, Aytəndən

sonra yazmırsan.

- Yox, bu şeir deyil. Çox vacib olan sözlərdir.

Anası bir şey başa düşmədiyi üçün başını yellədi:

- Gedim qəhvə hazırlayım...

- ...Su, yoxsa qəhvə? - Stüardessa Elçini fikrindən ayırdı.

- Zəhmət olmasa, su!

- Mənə elə gəldi ki, siz kiminləsə danışırdız?...

- Sabah çağrılacaq qonaqları hesablayırdım.

- Qonaqlarımı? - qız təəccübünü gizlətmədi.

- Hə!.. Çoxlu qonaqlar olacaq. Mən onlarla görüşə gedirəm.

- Nə baş verir? Sinirlərin yerindəmi? - qız həyəcanını biruzə vermədən Elçinə sarı əyildi:

- Kəpənəklər gecələr uçmurlar.

- Biz onlara uçmağa kömək edərik.

- Təyyarə limana enəndən sonra, ikinci qapıda gözlə!

Sonra hamı eşitsin deyə bərkdən dedi:

- Təşəkkür edirəm.

Elçin yenidən başını illüminatora söykəyərək gözünü yumdu. Fikirləri dolaşıq kələf kimi çözələnirdi.

- Sən niyə getdin?

- Özün belə istədin.

- Niyə?

- Haradan bilim, mənim vəzifəm tabe olmaq, tapşırığı yerinə yetirməkdir.

- Laçında olduğu kimi? Sən qara qüvvələrə inanırsan?

- İşim belədir, gərək inanım.

- İnanmaq və gecə yatmamaq.

- Hə, sən haqlısan. Bu gecə yatmaq çoxlarına qismət olmayacaq.

- Aytən, mən səni tək buraxdım. Sənin görəcəyin işləri indi başqaları görür.

- Hər gün səhər yolun başlanğıcına bax, bu sənin həyatının başlanğıcıdır. Günəşin batması hələ son deyil. Hər iki kiçik həyat arasında çalış ki, yaxşı, ləyaqətli bir iş görəsən. Bu sənin hə-ya-tındır.

- Sən haqlısan, Aytən! Əsl məhəbbət heç vaxt tələb etmir, əksinə, verir. Heç vaxt özünü göstərmir və heç vaxt intiqam almır. Sevmək həmişə əzabdır.

- Yadındadır, biz Eksyuperin «Balaca şahzadə» kitabını oxuyardıq. Necə də gözəl yazmışdı. «Sevmək, bir-birinə baxmaq deyil, hər ikisinin bir istiqamətə baxmasıdır». Sonra, əvvəl barədə fikirləşməyə başlamaq. Bu, əvvəlin sonu olur. Sən yaşayırsan, əzizim, həyat təkcə nəfəs almaqdan ibarət deyil...

Təkərlərin yerə toxunması təyyarəni möhkəm silkələdi. Elçinin alnı illüminatorun şüşəsinə dəydi. O, özünə gəlməmiş, təyyarə axırıncı dəfə nəfəs səs salaraq dayandı.

İrəvan aeroportu suyu sovrulmuş dəyirman kimi soyuq idi. Zalda təkəmseyrək adamlar və bir də yenicə gəlmiş sərnişinlər gəzişirdi. Elçin gömrükdən keçdikdən sonra ikinci çıxış qapısına doğru addımladı.

***

Mart ayının ortaları idi. Səhərlər donmuş yağış suları ayaq altında xırçıldayırdı. Havadan təzəcə cücərmiş otların və nəm torpağın iyi gəlirdi. Yuvalarına qayıtmış sığırçınlar ağaclara qo-naraq çığırışırdılar.

Elçini ona məlum olmayan doğma bir hiss qucaqlamışdı. Uşaqlıqdan onu həmişə meşə özünə cəlb edirdi. O, raqatkası əlində bütün günü Yasamal meşəsində itib-batırdı. Bu meşə zolağı Yasa-mal təpələrindən başlayaraq «Qanlı göl»ə qədər uzanırdı. Elçin sakit bir yerdə oturub quşların necə oxumasına qulaq asır, meşə siçanlarının və kirpilərin cığırları necə keçdiyinə tamaşa edirdi. Elçinin ən çox xoşuna gələn payızın ilk ayı idi. Ağacların yarpaqları tündləşir, durnalar çığır-bağırla uçub keçirdilər. Payızın əvvəli ilin ən sakit ayı idi. Yay qurtarsa da, yağışlar başlamır, yarpaqlar tökülmürdü. Elçin kimi təbiət də bu ayı çox sevir, dincəlir və qabaqdan gələn dəyi-şikliklərə hazırlaşırdı.

İndi bunların heç birisi yox idi. Qarabağ ermənilər tərəfdən işğal olunandan sonra Elçin nə payızın ilk ayını, nə meşəni, nə də uşaqlığını xatırlamırdı. Onlar hamısı Xocalı ilə birlikdə yanıb kül olmuşdu. Lakin insan beyninin gözətçi məntəqəsi insanla onu əhatə edən xarici aləm arasında əlaqə yaradır. İndiki vaxtda Elçinə elə gəldi ki, ruhu bədənindən çıxıb və Xocalıda qətlə yetiril-miş insanların ruhları ilə görüşür, bir-birilə söhbət edirlər.

- Eduard, Xocalıya çatırıq! - Kristina onun əlindən

tutdu. Əlləri buz kimi soyuq idi. - Sənə nə olub, əzizim? Yuxu görürsən, nədir?

Elçinə elə gəldi ki, ruhu yenidən onun bədəninə qayıtdı. İnsanın təfəkkürünün yaradıcı fəaliyyəti sübut edir ki, doğrudan da adam düşünəndə, dərin və səthi fikirləşməsinin məzmunundan asılı olaraq, onun həyat ritmi dəyişmir, o, istədiklərini görə bilir. Belə adamlar heç vaxt səhvə yol vermirlər.

- Karinanı çoxdan tanıyırsan?

- Hə, əri ilə birlikdə bizə qonaq gəlmişdilər. Anjella göndərmişdi. Qəribə bir əhvalat olmuşdu. Onlar bir-birini itirmişdilər.

- Harada? Vağzaldamı? - Elçin soruşdu.

- Hə, Karina mənə zəng vurdu ki, ərimi itirmişəm.

....Vağzal ağzına qədər adamla dolu idi. Köçüb gedənlər və geri dönənlər. Adamlar xaotik hərəkətlərlə elə bil böyük bir akvariumun içində gəzirdilər. Moskva-Yerevan marşrutu ilə gələn sürət qatarı ikinci platformada dayanmışdı. Hava qaralmaq üzrə idi. İşıqları hələ yandırmamışdılar. Vağzalın növbətçi polislərindən biri onlara yaxınlaşdı.

- Haradan gəlmisiniz?

- Moskvadan! Necə bəyəm? - Karina soruşdu.

- Çoxdan buradasınız?..

- Yarım saat olar. Bu yoxlamalar nə üçündür, bir hadisəmi baş verib? Biz rəfiqəmgilə qo-naq gəlmişik. İndicə gəlib çıxarlar! - Karina onun düz gözlərinin içinə baxdı: - Görünür burada qonaq-ları sevmirlər.

Polis əməkdaşı cavab vermədi, özünü elə göstərdi ki, guya heç nə eşitmədi. O, diqqətlə Karinaya ba-xırdı. Xarici görünüşünə görə Karinaya 30 yaş vermək olardı. Rənglənmiş sarı saçları, iri şabalıdı gözləri vardı. Əgər ermənilərə məxsus sivri burnu olmasa idi, onu... Polisin sürəkli baxışları altında Karina gülümsədi. Əynindəki gödəkçəsini düzəltdi. Köynəyinin yaxalığı gödəkçənin altına keçdi. "Bu vağzal siçovulu hər yerə burnunu soxur. Belələri çox nadir halda səhv edə bilər". Polis nəfəri onların sənədlərini və vaqon biletlərini qaytardı.

- Bağışlayın, görünür bizə səhv məlumat veriblər. Yerevan gözəl şəhərdir, istədiyinizi burada tapa bilərsiz.

Karina rahatlıqla nəfəs aldı...

- Sən ona inanırsan?

- Karina Anjellanın bacısıdır. Ona inanmaq olar. Artıq iki ildir bizimlədir. Qabaqlar Xan-kəndi aeraportunda işləyirdi. Sonralar Moskvaya ərinin yanına köçdü. Xocalıda gördüyünüz işlər üçün ona minnətdaram. Karinanın qaynı Xocalı aeroportuna komendant təyin olunub. Limanın bərpasında Xocalıdan əsir düşmüş adamlardan fəhlə kimi istifadə olunub. Onların içərisində bizim dostlarımız var.

- Açılışa bir gün qalır, biz nəyə ümid edirik?

- Biz hər şeyi qoşub-düzmüşük. Mən orda gecə növbəsində işləyirəm. Karinanın köməkliyilə aeroport qülləsinə, dispetçer məntəqəsinə və Xocalıdan olan fəhlələrin köməkliyilə divarların içə-risinə uzaqdan idarə olunan bombalar qoymuşuq. Sənə ən yüngül iş düşür.

Komendant səni üzdən tanımasa da, Anjellanın qohumu olduğunu bilir. Bir də yadından çıxarma ki, sən limana mənim adaxlım kimi girəcəksən. Səni komendantla Karina tanış edəcək. Qalanını özün bilirsən.

Elçin bir gün əvvəl Kristinanın anasının dediyi sözləri xatırladı: "Nifrət,  maska kimidir, alçaqlığı gizlədir. Sənin nifrətin, indiki halda, ən azı, içində olan az da olsa yaxşını, ağılı və insanları başa düşməyi gizlədir. Mən sənə haqq qazandırıram. Ermənilərin nifrəti, nifrətdən çox xəstə düşüncənin və mənəviyyatsızlıqdan əmələ gələn psixozdan qidalanır".

- Anam düz deyir. O şeyi yadından çıxarma ki, sənə ediblər. O şeyi yaddan çıxar ki, sən etmisən.

- Kristina, mən səninlə razılaşa bilmərəm. Manuelin, Anjellanın, sənin elədiklərini kim yad-dan çıxara bilər? Qoy o adam sussun ki, nəsə verir, o adam danışsın ki, nəsə alır. Bəzən sus-mağın özü, insanın gözlərindən çox şey oxumağa imkan verir.

- Əlbəttə, sən haqlısan. Lakin çox vaxt susmur, çünki içində oturan və onu şər qüvvələrə birləşdirən ikinci birisi var. Belə adamlar heç vaxt vicdanlarından soruşmurlar, bütün bunları sən etmisən, yoxsa içində oturan o şeytan? Əlbəttə, şeytan heç vaxt körpə uşaqların başının dərisini soymur. Bunu ancaq erməni faşistləri elə bilərdi.

- Qulaq asmaq insanın ən yüksək keyfiyyətlərindən biridir, bunu mənim atam deyərdi. Lakin bu zaman ağıllı adam çox çətin vəziyyətə düşə bilər. Ona görə ki, sən

yaxşını pisdən ayırmaq üçün pis danışana da qulaq asmalı olursan.

...Gecəni çox narahat keçirdi. Alışıb yanan düşüncələrində Xocalı aeroportunun alovları göyə qədər qalxırdı. Bu alovların yanar dilləri buludların birinci qatını keçərək göy üzünü qırmızı rəngə bürüyürdü. Xocalıdan qara tüstülər çəkildikcə, Elçinin qəlbi sanki yenidən doğulurdu. İndi orada nə qisas, nə də intiqam hissi qalmışdı. Elə vaxt gəlib çatdı ki, o özü ilə mübarizə aparırdı. Qəlbində oturan iki dəhşətli hiss ona rahatlıq vermirdi. O, Xocalıda öldürülən uşaqların, insanların qisasını almışdı. Ancaq burda, Xocalı aeroportunda da yüzlərlə günahsız insanlar yanıb külə dönəcəkdi.

Kristinanın səsi onu ayıltdı:

- Yadındadır, hava limanında o qadın sənə necə baxırdı? Elə bil dişi canavar yuvasından çıxmışdı. Bax, əzizim, onların sizə sevgisi budur. Bir az səbirli olmaq gərək. İnsanın mənəviy-yatından daha çox, vicdanı lazımdır ki, o vaxtında sözünü desin. Bu xarakter insana imkan verir ki, lazım olanda danışa, olmayanda isə susa bilsin.

Bütün yolu susan, bir kəlmə belə danışmayan Karina arxa oturacaqdan Elçinin saçlarını qa-rışdırdı.

- Eduard, mən hər dəfə nəsə eləmək istəyəndə, əvvəlcə fikirləşirəm. Edəcəyim iş yaxşıdır, ya pis. Nənəm mənə deyərdi: «Qızım, sənin hər bir etmək istədiklərin başqalarında özünü güzgü kimi göstərir. Yadından çıxarma ki, yanında insan var». Nənəm düz

deyirdi, mən ona inanırdım. Ancaq Xocalı faciəsindən sonra, xüsusən də Serj Sarkisyanın “Beynəlxalq triubunadan: - “Mən fəxr edirəm ki, Xocalının alınmasında şəxsən iştirak etmişəm!” - deməsindən sonra, nənəmin sözlərinə daha inanmadım. Və çalışdım yadımdan çıxarım ki, yanımda “insan” var.

- Haqlısan, mənim igid bacım. Biz bütöv bir xalqın, erməni xalqının məhv olmasına aparan yolu bağlamalıyıq. Serj Sarkisyanın Xocalı hava limanının açılışında və Yerevandan uçan ilk reyslə ora gəlməsinə mane olmalıyıq. Atalığımın Xocalıdan sapa düzüb gətirdiyi və fəxrlə bizə göstərdiyi qulaqlar hələ də gözümün qabağındadır. Bu cür insanlar xəstədir, ona lazım olsa ermənilərin də qulaqlarını sapa düzə bilər. “Böyük Ermənistan” ideyasını erməni xalqına yedirərək bütöv bir xalqı pisixoz vəziyyətə gətirdilər. Bu da nəticəsi. Viktor Hüqo çox gözəl yazıb: “Qəddar qəlbli insanlar, heç vaxt böyük ideyalara qulluq edə bilməz». Biz hamımız Azərbaycan xalqının qarşısında günahkarıq. İnsan özünü o zaman günahkar saya bilər ki, söz-söhbət başlamadan, onu yatıra bilsin. Biz bunu bacarmadıq.

- İkiüzlülük düşməndən qorxuludur, - Elçin gülə-gülə qızları sakitləşdirməyə çalışdı. O, kətan üzərində çəkilmiş şəkilə bənzəyir, estetik zövq versə də, heç bir xeyri yoxdur. Nə qədər ki, sizin içərinizdə Sarkisyan, Koçaryan, Petrosyan, Ohanyan kimi ikiüzlülər var, onların havadarları bu iki xalqı dinc, yanaşı yaşamağa qoymayacaq. Elə götürək Zori Balayanla, Silva

Kaputikyanı. Hər ikisi erməni xalqına ayı xidməti göstərdilər. Balayan türk qadının döşünü kəsib uşağın ağzına verdikdən sonra uşağı divara mıxlayıb sinəsini şəxsən özü yararaq, türkün qanının necə axdığına baxıb zövq aldığını yazır. Buradan ortaya dəhşətli sual çıxır. Azərbaycan xalqı ona nə pislik etmişdi? Gücün çatır, get, Türkiyə ilə savaş, necə ki, canavar quzu dərisi geyib qoyun sürüsünə girir, ermənilər də soyqırım adı altında bütün dünyada yazıq erməni imici qazanmaqdan ötrü ikiüzlülük edirlər. Əzilən, ac-yalavac, dilənçi kökündə yaşayan isə erməni xalqı olur.

Kristina əyləci basdı, maşın iki dəfə sürəti azaltdı. O, Elçinə xəbərdarlıq etdi:

- Şərait dəyişildi, qabaqda hərbi yoxlama məntəqəsi var. Hər ehtimala qarşı ehtiyatlı ol-ma-lıyıq.

- Gəlin bir yerdə fikirləşək, necə və kimlə birinci olaraq danışırıq. - Elçin zarafatla güldü.

- Düzdür. Eduad bu işlə məşğul olar. Birdən yolumuzun üstə başqa birisi dayansa, necə?

- Mənə elə gəlir ki, Karina, səni qorxulu heç nə gözləmir. Öz gözəlliyinlə istədiyini tora sala bilərsən.

- Əgər mən onlarla ümumi dil tapa bilsəm, - Karina dumanlı cavab verdi. Qabaqlar başqa zaman idi. Ən təcrübəli kəşfiyyatçıdan belə yayınmaq olurdu. Tez və ya gec hər şeyin axırı çatır. Ola bilsin ki, bu əməliyyat da bizim axırımız olsun. İnsan o zaman xoşbəxt olur ki, nəyin uğrunda öldüyünü bilir.

- Mən nəyin uğrunda savaşdığımı bilirəm, ancaq hələ

ölmək istəmirəm. Yer üzündə bircə «faşist» qalsa belə, insanlığa bəladır. Eduard, niyə dillənmirsən? Bəlkə şərəfli ölümü məndən üstün tutursan?

- Elə bilisən mən heç nə görmürəm? Mənə elə gəlir ki, siz dəhşətli bir plan hazırlamısız. - Elçin Kristinanın ağır, ittihamedici baxışlarına zorla dözürdü.

- Yoxdur! Sən hansı plandan danışırsan?

- Nə fərqi var ki, bu əməliyyatdan kimin sağ çıxacağı bəlli deyil. Budur, bax, gör mən səni necə sevirəm? - Elçin onu köksünə sıxdı. - Sən... Sən də istəyirdin bunu?

- Əlbəttə, lap özünü öldürməyə də hazırdır. Mən bunu bilirdim. Xahiş edirəm özünüzü ələ alın, indi sakitlik hər şeydən irəlidir. - Karina əlindəki kağızı Elçinin ovcuna qoydu.

- Bu sənin buraxılış kartındır. Lap təzədir, gör necə sürüşür. Eduard, sən Kristinaya məktub göndərsəydin, orada nə yazardın?

- «Ölmə, əzizim». Daha heç nə?

- Hə necədir? - Karina Kristinadan soruşdu. - Həyata baxışların dəyişmədi ki? Bütün dağı-dıcı planları atırıq geriyə. Yaşasın məhəbbət!

- Daha danışmayaq, gözətçi məntəqəsinə çatmışıq. Karina, məsələ sən deyəndə deyil, mə-sələ ondadır ki, heç bir müqəddəs hiss də məni əqidəmdən döndərə bilməz.

- Mən bunu alqışlayıram. Lakin unutmaq olmaz ki, ailə cəmiyyətin kiçik formasıdır. Onun bütöv qalması

böyük cəmiyyətdən asılı olduğu kimi, evin qadınından da asılıdır. Ağıllı qadınlar bu kiçik cəmiyyəti böyük cəmiyyətdən qoruya bilir. Başıboş qadın isə ailəsini böyük cəmiyyətin içərisində əridir.

- Sevən adamlar dünyanın ən böyük bədbəxtləridir. Belə adamların gözləri dünyanı dumanlı səhra kimi görür. Ancaq özünü düşünür, gördüyü dumanlı səhradan da nəsə umur, nəsə götürmək istəyir. Onların gözləri kimi qəlbləri də dumanlı olur. Bu isə onu eqoizmə aparıb çıxarır. Onlar üçün heç bir «dağ» böyük görsənmir. Kişilər bütün məsələləri eqoizmlə deyil, kişiliklə həll etmə-lidirlər. Yoxsa elə ömürlərinin axırına kimi dumanlı səhrada bir qurtum su axtaracaqlar...

Maşın təpəni aşan kimi Xocalının xarabalıqları içərisində ucalan hava limanının nəhəng bi-nası görsəndi. Dan yeri ağarsa da, günəş ufuqdə gizlənmişdi. Ətrafdakı kölgələr günahsız öldürül-müş xocalıların ruhlarını xatırladırdı...

Sabah Xocalı soyqırımının iyirmi ili tamam olurdu.

## VIII fəsil

Onun arxasında kimsə dayanmışdı. Geriyə döndü və polkovnik Kazımovla üz-üzə dayandı. Söhrabın dodaqlarında qəribə bir təbəssüm oynadı və bir anda əriyib yox oldu. O, Rizvanın yanından keçərək kürsüdə

oturdu.

- Günahkaram, cənab polkovnik, içəri nə zaman girdiyinizdən xəbərim olmayıb. - Rizvan uşaq kimi başını aşağı endirdi.

- Hava lap möcüzəyə oxşayır. Heç Bakıya yapışmır.

- Deyilənə görə həftənin axırına kimi qar yağacaq.

- Təbiət heç kəsi sığortalamayıb. Lakin o, həmişə bizə kömək edir. Söhrab diqqətlə Rizvana baxdı. - Bizim ən böyük səhvimiz ondadır ki, edəcəyimiz işi, etmək əvəzinə, daha çox onu müzakirə edirik.

- Siz haqlısız! Maksim Qorki demişkən, «Əgər yaşamaq istəyirsənsə, nəsə eləməlisən»

- Lakin unutmaq olmaz ki, heç zaman geri qayıtmayan vaxt insanın ən qiymətli sərvətidir. Onu küləyə qurban vermək, ən azı, ağılsızlıqdır.

Rizvan polkovniki ilk baxışdan başa düşmüşdü. Hər ehtimala qarşı susur, işin sonrakı gedi-şatını gözləyirdi.

- Qorxaq insan bütün insani dəyərlərini itirmiş olur. Bu cür insanlar heç nədən utanmadan bütün alçaqlıqlarla razılaşa bilər. Muxtar deyir ki, dostuna tez-tez irad tutma, bu, dostluğunuzu zəif-lədə bilər. Lakin o doğru buyursa da, mən razılaşa bilmərəm. O dostluq ki, tezliklə başa çatır, demə-li, heç başlamamışdır.

***

Şaxtalı bir qış günü idi. Axşama yaxın qar bərkiyərək

buza dönmüşdü. Ağacların budaq-la-rından, novçalardan sallanan buz salxımları gecə fənərlərinin işığında şüşə kimi parıldayırdı. Hər-dən küləyin təsirindən budaqdan qırılaraq yerə düşən buz parçaları, qəlpələnərək ətrafa da-ğılırdı.

Ovçular üçün əlverişli gün idi. Belə havada yuvalarından yem axtarmaq üçün çıxan hey-vanlar, asanlıqla ovçuların güllələrinə tuş gəlirdi.

Sahə müvəkkili kapitan Sumbatov, köməkçisi leytenant Hüseynağa ilə polis şöbəsində otur-muşdular. Yenicə dəmlənmiş çayın ətri otağı doldurmuşdu. Ətrafda elə sakitlik var idi ki, elə bil bu şə-hərdə heç insan yaşamırdı. İtlər də, pişiklər də soyuqdan qorunmaq üçün evlərin zirzə-milərində gizlənmişdilər. Qapı səssizcə açıldı. Üç kişi bir ov iti ilə otağa girdilər.

- Salam! Sizə söz gəlməz ki, biz burada qızınsaq? - kişilərdən biri dedi.

Kapitan Sumbatov ilk anda bilmədi nə desin. O, çağrılmamış qonaqlara baxdı. «Bunlar heç ovçuya oxşamırlar», - deyə, ürəyində fikirləşdi. Lakin heç nə demədi. Kişilər odun sobasının yanında oturduqdan sonra kapitanın həyəcanı bir qədər azaldı. Uzun illərin təcrübəsi ona bu gözlənilmədən gələn qonaqların heç də təsadüfən gəlmədiklərini deyirdi.

- İndi Hüseynağa sizə isti çay verər, içərsiz, içiniz qızar. - Kapitan nə fikirləşdisə, hər ehtimala qarşı sila-hını çıxarıb cibinə qoydu.

- Afərin kapitan, tamam haqlısan. Biz ovçu deyilik,

yol-patrul xidmətindənik. Bu yoldaşı şübhələndiyimiz üçün yaxalamışıq, - saqqallı oğlanı göstərdi. - Daha doğrusu, "Muxtar" onu yaxaladı. Cibində soyuq silah, xeyli miqdarda narkotik maddə aşkarladıq. Bura ona görə gəlmişik ki, həm qızınaq, həm də bu adamın kimliyini müəyyənləşdirək. Etiraz etmirsizsə, alın baxın, bu da mənim vəsiqəm.

- Lazım deyil, mən sizi tanıyıram. Xahiş edirəm, özünüzü rahat hiss edin. Çaydan indicə qaynayıb, leytenant, qonaqlara isti çay ver.

Kapitan Sumbatov çalışırdı ki, bir az çox vaxt qazansın. Hüseynağa qonaqlara çay verdikdən sonra Sumbatovun işarəsilə yan otağa keçdi. O, Bakı şəhər DİN-nin operativ şöbəsinə zəng vurdu.

- Axtarışda olan qatili yaxalamışıq. Yox, onu yol-patrul xidmətinin əməkdaşları tutub. Hə, burdadırlar, yaxşı siz gələnə kimi çalışarıq bir şey hiss etməsin.

Kapitan Sumbatov saqqallı oğlana diqqətlə baxdı:

- Sən mənə belə baxma, onlar yalan dedilər. Mən siqaret istədim. İt üstümə cumdu. - Saqqallı oğlan ayağa durdu: - İcazənizlə mən gedim.

- Dəli olmusan? Yoxsa bizi qorxutmaq istəyirsən? Bu cür havada yola çıxmaq təhlükəlidir. Heç özün də bilmirsən sənə nə lazımdır.

Qəflətən başlayan leysan yağış onların söhbətini yarımçıq kəsdi. Yağış suyu açıq dəhlizə dolur, qapı-pəncərəni döyəcləyirdi.

- Siz mənə kin saxlamayın, - oğlan yenidən dilləndi.

- Mənim heç bir günahım yoxdur. Əgər narkotikə görə narahatsızsa, bunu yoluna qoya bilərik.

O, cibindən iki qalın zərf çıxartdı. Nə fikirləşdisə, birini qaytarıb cibinə qoydu:

- Kapitan, bunları götürün, - oğlan zərfi ona uzatdı. Burada iki min dollar var, öz aranızda bölüşün, mən də çıxıb gedim öz işimin dalınca. Sən elə bilirsən, bunlar düz danışır? Narkotiki də, bıçağı da özləri mənim cibimə qoyublar. Onlar nə isə hazırlayırlar.

Kapitan çətinliklə oğlanın ağır baxışlarına tab gətirə bildi. Və başa düşdü ki, işlər qə-liz-lə-şir. Vaxtı uzatmaq üçün oğlanı sakitləşdirdi:

- Səni heç kəs, heç nədə günahlandırmır. Pullarını geri götür, yoxsa rüşvət maddəsi ilə cinayət işi açaram.

- Lazım deyil. - Leytenant Hüseynağa söhbətə qarışdı: - Görmürsən necə əliaçıq, sakit oğlandı. Yəqin yolu azıb bunlara rast gəlib.

Bu narazı baxışlar kapitanın üz-gözündə təbəssüm kimi əks olundu. Hüseynağa bilirdi ki, bu anda kapitan Sumbatovun qəlbində ona qarşı necə razılıq var. Hüseynağa gözlərini dolandıraraq oğlana baxdı:

- Evinizə gedirsən?

- Hə, təzə ili anamla birgə qarşılamaq istəyirəm. Ancaq qorxuram gecikəm.

- Sən artıq gecikmisən! - qəflətən açılan qapıdan Rizvan çevik polis dəstəsilə içəri girdi.

- Heç kəs tərpənməsin!

Rizvan oğlana yaxınlaşıb çənəsindən tutdu, başını

yuxarı qaldırıb düz gözünün içinə baxdı:

- Sənin anana məhəbbətin naxışlı boruya baxmaq kimidir. Kiçik şeyləri, böyük şeylərə çevirir, liliputlar isə nəhənglərə. Övlad ata-ananı qoruyan qala kimidir. Əvvəlcə qalanı uçurur, sonra vicdan əzabı çəkirsən. Səndə isə bunların heç biri yoxdur. Sən dostunu qətlə yetirən əclafsan. Qollarını irəli uzat, bax, gör, leytenant sənə necə hədiyyə hazırlayıb. Qandallayın bunun qollarını.

- Mən onu öldürmək istəmirdim. Əgər arvadıma əl atmasaydı...

- Ona görə də ürəyində çat əmələ gəldi və dostunu öldürdün. Yalan danışırsan, sənin kimi-lərində şərəf nə gəzir?..

Yol-patrul xidmətinin zabitləri çaşıb qalmışdılar. Rizvanın dediklərini anlamasalar da, bəzi şeyləri başa düşdülər. Bu qarlı-şaxtalı gecədə onlar axtarışda olan canini yaxalamışdılar.

- Cənab polkovnik, günahım varsa açıq deyin. Qəbahətim nə?..

Rizvan riskə getdiyini bilirdi. Gündəlik öyrənişlər onu məcbur edirdi ki, hər şeyə ehtiyatla yanaşsın. Lakin öz gücünə və təcrübəsinə də inanırdı.

- Əgər tələbə pis oxuyursa, haradasa müəllim də günahkardır. Onu yaxşı öyrədə bilməyib. Sə-nin günahın burda oturmağındadır. - Söhrab gülümsədi. - Yaddaşım məni aldatmırsa 2007-ci ildə Kənan adlı qatilin cinayət işini aparırdıq. Yaxın dostunu və arvadını qətlə yetirmişdi. Biz onu tuta bilmədik, qaçıb aradan çıxdı.

Şamaxı polisindən məlumat alınıb. Biz burda vaxt itiririk, qatil Şamaxıda kapitan Sumbatovla çay içir.

- Cənab polkovnik, icazənizlə mən gedim.
- Özünlə çevik polis alayından bir neçə nəfər götür.

Söhrabın dodaqlarından yenidən qəribə bir təbəssüm keçdi:

- Sən hələ burdasan?
- Xeyr, mən artıq yoldayam...

***

Onlar təkbətək döyüş üzrə keçirilən məşq salonunda tanış olmuşdular. Sonra onları əsgərliyə çağırdılar. Bir neçə il onların yolları ayrıldı. Əsgərlikdən qayıtdıqdan sonra Kənan Polis Məktəbində oxudu. Yaxşı idmançı olduğuna görə onu polisə işə götürdülər. O, xüsusi təyinatlıların dəstəsinə düşdü. Qarabağda ermənilərə qarşı vuruşdu, Horadizin alınmasında xüsusilə fərqləndi. Bu döyüşdən sonra onun psixikasında anormal hallar baş verirdi. Kənan özü də hiss edirdi ki, onda nəsə baş verir, o başqa adama çevrilməyə başlamışdı.

Sultanla Kənan atəşkəsdən sonra yenidən görüşdülər. Səhhətindəki nasazlığa görə Kənanı xüsusi təyinatlı polisdən çıxarıb, adi polisə işə göndərdilər. Sultan mütəşəkkil cinayətlərlə mübarizə polisində işləyirdi. Köhnə dostluq yenidən başladı. Tezliklə hər ikisini qeyri-adi hərəkətlərinə görə polisdən uzaqlaşdırdılar.

Bu vaxta qədər Kənan birinci arvadından özü ayrılmışdı. O, arvadını axmaq qısqanclığına görə incidir,

təhqir edir və döyürdü. İkinci dəfə evlənəndən sonra maşınqayırma zavodunda işləyirdi. Fəhlə kimi işə düzəldi. Xasiyyətinin tündlüyünə və içkiyə qurşandığına görə ikinci arvadı da ondan ayrıldı. Kənan 24 yaşlı fahişə Alina ilə yaşamağa başladı. Neyləmək olar, ürəyə əmr etmək olmur.

Dostlar əvvəlki kimi görüşürdülər. Bir axşam onlar qədərindən artıq içdilər. Kənan gecəyarısı ayıldı, Alinanı yatağında görmədi. O, Alinanı qonaq otağındakı divanda Sultanla yatmış gördü. Vəhşiləşmiş Kənan bıçağa əl atdı. Və yatanların üstünə cumdu. Sultan bıçaq zərbəsindən yayınaraq evi tərk etdi.

Alina üçün təcili yardımı Kənan özü çağırdı. Xəstəxanadan hadisə haqqında polisə məlumat verdilər. Kənanı həbs etdilər. Alina sağaldıqdan sonra, şikayət etmədi. Dedi ki, ehtiyatsızlıqdan özümə xətər yetirmişəm. Kənanı azad etdilər.

Cümə axşamı Kənan işdən evə vaxtından əvvəl qayıtdı. Çox çəkmədi ki, Sultan da dostu Qulu ilə gəldi. Onlar süfrə başında oturdular. Stəkanlar cingildədi. Nə vaxtki hamısı sərxoş vəziyyətə düşdü, Qulu dedi:

- Arvadınla yatan adamla mən heç vaxt içməzdim...

Kənan əvvəlcə Qulunun nazik eyhamını başa düşmədi. Mübahisəyə isə Sultanın ev yiyəsinə olan borcu oldu. Kənan Sultanı karatenin qan döyüşünə çağırdı. Alina qapını kilidlədi və televizorun səsini çoxaltdı. Əvvəlcə qanlı döyüşə razılıq verən Sultan birdən bağırdı:

- Mən sənin arvadın Alina ilə yatmışam və yenə də

yatacam!

Kənanın əlində bir anlığa mətbəx bıçağının tiyəsi parıldadı:

- Kim yaxın gəlsə kəsəcəyəm! - Kənan onlara xəbərdarlıq etdi. Qorxudan özlərini itirmiş Qulu ilə Alina oturduqları yerdən Kənanın dostunu necə doğradığına baxırdılar. Öldürülmə insanın anatomiya dərsinə oxşayırdı.

"Bu, ciyərin!" Kənan qışqıraraq bıçağı Sultanın böyrünə sapladı.

"Bu isə, ürəyin!" - bıçağın tiyəsini onun sinəsinə vurub, buraraq çıxardı. Kənan sakitləşə bil-mirdi, bir-birinin ardınca Sultanın müxtəlif orqanlarını kəsib tökürdü. Nəhayət, qulağını və sonra da boğazını kəsdikdən sonra sakitləşdi. Bunu Kənan birinci Qarabağ müharibəsi vaxtı öy-rənmişdi. Üstündən on beş ilə keçməsinə baxmayaraq, yüzlərlə döyüşçü hələ də Qarabağ sindromundan əziyyət çəkirdi. Qorxudan cınqırlarını çıxarmayan Alina ilə Quluya tapşırdı:

- Qanı yuyub təmizləyin, meyiti də otaqdan yığışdırın!

Alina otağa yayılmış qanı təmizlədiyi vaxtda, Qulu meyiti xalçaya bükərək hamam otağına apardı. Sonra meyiti evdən çıxarmaq üçün Qulunu maşın gətirməyə yolladı. Qulu küçəyə çıx-dıq-dan sonra özünə gəldi. O, başa düşdü ki, əgər meyiti evdən çıxarmağa kömək etsə, mütləq həbsxanaya düşəcək. Bu, qətlə kömək etmək, ya öldürməyi görüb susmaq idi. Qulu həmən gecədən yoxa

çıxdı. Meyiti onlar özləri çıxararaq evin zirzəmisində gizlətdilər.

Kənan istintaq vaxtı ancaq dostunu öldürdüyünü boynuna aldı. Alina istintaqa ifadə verə bil-mədi. Həmin ölüm gecəsindən sonra yoxa çıxmışdı. Polis tərəfindən axtarışa verilsə də tapılmamışdı. Məhkəmə Kənanı ağır cinayət maddəsilə 15 il həbs cəzasına məhkum etdi.

## EPİLOQ ƏVƏZİ...

Gecə səhərə doğru can atırdı. Onun qara kölgələri yavaş-yavaş sürünərək yox olurdu.

Payızın ortaları olduğundan hava dumanlı, çiskinli idi. İnsanların içərisinə girərək onların əhvalını, psixoloji durumunu pisləşdirirdi.

Təcridxananın kiçik nəfəsliyindən içəri dolan payızın

bulanıq havası Hacı Məmmədovun kədərini birəbeş artırmışdı. O, yata bilmirdi. Bir neçə gün idi ki, gözlərini yuman kimi onu qarabasmalar hər tərəfdən bürüyürdü.

Hacının qorxduğu şey, onun başına gəlmişdi. Bütün gecəni yuxusuz keçirsə də, gözlərini yummağa qorxurdu. Qızarıb şişmiş göz qapaqları ağır-ağır qapanan kimi, onlar gəlirdilər.

- Hacı, nahaq öldürdün məni... - Adil İsmayılov əllərini Hacının boğazına keçirdi, - biz səni aparmağa gəlmişik...

- Məgər aldığın pullar sənə bəs eləmədi? Niyə öldürdün mənim oğlumu? Cavab ver, niyə?..

- Musaya arvad paltarı geyindirib məni evimin qabağında vurdurdun. Niyə? Cavab versənə! Axı biz dost idik. Hacı, bir əllərinə bax, sənin hər yerindən öldürdüyün yüzlərlə günahsız insanların qanı damcılayır: - Rövşən Əliyev Hacının boğazından yapışdı, - sənin yaşamağa haqqın yoxdur...

Hacı bayılmışdı, yüzlərlə qarmaqarışıq səslər içərisində boğulurdu. Əl-qol atır, çalışırdı ki, ayağa dursun, bu mümkün olmayanda dizlərini qucaqlayıb küncə qısıldı. Hər tərəfi mavi duman bürümuşdu. Bu mavi duman içərisindən onlarla, yüzlərlə əl Hacıya doğru uzanmışdı. “Sən qatilsən!”. “Sən qatilsən!”, sözləri Hacının qulaqlarında bomba kimi partlayırdı...

Hacının içində ona bəlli olmayan psixoloji dəyişiklər gedirdi. İnsan öz məqsədinə çatmasında maneçilik törədən real maneələrlə rastlaşdığını vaxt ağır psixoloji və-

ziyyətə düşür. Bu zaman psixi prosesslərin emosional cərəyanı insanın əhval-ruhiyyəsində gərgin dəyişiklər edərək onu bədbinləşdirir. Nəticədə zaman və məkan daxilində insanın hərəkətlərində, davranışında, düşüncəsində psixi pozğunluqlar baş verir. Həmin axşam Hacı da belə bir vəziyyətdə idi. O, ölmək istəyirdi....

Hacı Məmmədov uzun illərdi ki, MTN-nın təcridxanasında tək-tənha qaldığından, xarici aləm-lə əlaqəsi olmamağı üzündən, beynində gedən psixoloji proses anormal inkişaf edirdi. Özünü tənha, kimsəsiz sanırdı. Atılmışlar sırasında olduğundan mənfi emosiyalar onun iradəsinə qalib gəlirdi.

Bir neçə dəfə MTN-nın rəhbərliyinə verdiyi sorğuya rədd cavabı aldığından əhvalı daha da qatılaşmışdı. Hacı ömrünün qalan hissəsini təcridxanada yox, cəzaçəkmə yerində, Qobustan həbsxanasında keçirmək istəyirdi. Buna icazə vermədikləri üçün, o, yeməkdən imtina etmişdi. Daha şəkillər çəkmir, gözlərini bir nöqtəyə zilləyərək günlərlə hərəkətsiz otururdu. Hacı haçalanan kimi olmuşdu. O, dumanlanmış beynində bəzi şeyləri araşdırmağa çalışırdı.

"Mənə sifariş verənlər indi azadlıqda öz gərgin həyatlarını yaşayırlar. Mən isə burada, təcridxanada leş kimi quruyuram. Onlar mənə söz vermişdilər ki, əgər sussam, məni burdan çıxaracaqlar. Nankor köpəklər, işləri düzələn kimi Hacı yaddan çıxdı. Bircə Qobustana gedə bilsəydim... Mən hələ sağam, mən onların yox, onlar mənim əlimdədirlər".

Hacı bu cür fikirlərini özündən uzaqlaşdırmaq üçün gözlərini yumdu. Ona elə gəldi ki, bir anlığa otaq işıqlandı, sonra hər yer yenidən qaranlığa büründü. Kimsə Hacının yanında oturmuşdu. Hacı onu görməsə də, hiss edirdi...

- Hə, nə oldu, deyəsən fikrini dəyişdin axı?

- Sən kimsən? Buraya necə gəldin?

- Mən Tanrının elçisiyəm, istədiyim yerdə, istədiyim anda ola bilərəm.

- Əgər doğrudan da Tanrı elçisisənsə, bəs onda niyə ağlayırsan?

- Sənə yazığım gəlir. Axı mən də sənin kimi şər qüvvələrin ruhuyam. Canını alıb, ruhunu aparmağa gəlmişəm. Ancaq hara apardığımı bilmədiyin üçün ağlayıram.

- İstəsən mən sənə deyə bilərəm.

- Yox, Hacı! Sənin o qədər günahların var ki, heç cəhənnəm də səni qəbul etməyəcək. Yerlə-göy arasında qalıb əbədi əzab çəkəcəksən.

- Ey Tanrım, sən hər şeyə qadirsən! - Hacı əllərini qoşalayıb üzünə yaxınlaşdırdı: - Bilirəm ki, sən bağışlayansan, keç günahımdan, məni bağışla, əsl günahkarları cəzalandır. Mən buyruq qulu olmuşam, olaraq da qalıram.

- Tanrı indi istəsə də, səni bağışlaya bilməz. O, öz qərarını artıq vermişdir.

- Axı sən kimsən? Məndən nə istəyirsən?

- Gəl mənimlə, onda nə istədiyimi özün görəcəksən. Öldüdüyün günahsız insanların ruhu səni gözləyir. Tan-

rının yaratdığı bu dünyada hər şeyin sorğusu var. Mən səni aldatmıram, gedək mənimlə. Göylərin yeddinci qatında, Tanrını və onun mələklərini görəcəksən. Səni mən yox, onlar cəzalandıracaq.

- Əl çək yaxamdan, mən səninlə heç yerə gedən deyiləm! - Hacı kimisə qovurmuş kimi əllərini havada yellədi: - Aman Allah, mən məhv oluram.

Hacı affekt halında idi. Qışqırmaq istədi, səsi çıxmadı. Elə bil dili tutulmuşdu. Beynindəki uğultu qulaqlarına dolurdu. Kimsə onu çağırırdı:

- Gəl mənimlə gedək... Gəl mənimlə, Hacı...

Hacı dumanlanmış boz fikirlər içərisində çırpınırdı. Bu dumanlı boz fikirlər içərisində polkovnik Cəbrayılovun ona dediyi sözləri xatırladı: "Başqalarını tutub öldürmək üçün qurduğun tora özün düşdün. İndi bu tora ilişib qara əməllərinin qurbanı olacaqsan".

- Sən haqlısan, Mürsəl, hələ ağıllı olmaq önəmli deyil, əsas odur ki, bu ağıldan necə istifadə edirsən. Mən uduzdum Mür-səl, başqalarının quluna çevrildiyim üçün uduzdum. Ancaq siz də udmamısınız, siz vicdanınızın quluna çevrilmisiz. Vaxt gələcək sizə də tor quracaqlar. Bax, onda biz yenidən görüşəcəyik.

Hacı olan-qalan qüvvəsini toplayaraq ayağa durdu. Əli altındakı döşəkağını tapıb götürdü. Döşəkağını iki yerə parçalayaraq ondan kəndir hördü, ilgəkliyib bir ucunu nəfəsliyin dəmir barmaqlığına bağladı. Otaqda olan yeganə kətilin üstünə çıxaraq başını ilgəyə keçirdi...

Dan yeri yavaş-yavaş ağarırdı. Gecə qara qanadlarını

yığdıqca gündüz onun yerini tuturdu. Gecə nəzarətçisi yuxudan oyanmışdı. Otaqları bir-bir yoxladıqdan sonra Hacının otağına enən pillələrlə aşağıya düşürdü. İçəridə isə Hacı ayağının altındakı kətili atmağa çalışırdı. Bayırdakı yağış səngiyirdi. Günəşin ilk şəfəqləri yavaş-yavaş qızarırdı...

**2010-2012**
**Bakı**